MƏMMƏDAĞA
BAXIŞOV

# BEYNƏLXALQ MÜNASİBƏTLƏR TARİXİ

*(XVII əsrin II yarısından 1871-ci ilədək)*

*Dərs vəsaiti*

MƏMMƏDAĞA BAXIŞOV

# BEYNƏLXALQ MÜNASİBƏTLƏR TARİXİ

*(XVII əsrin II yarısından 1871-ci ilədək)*

***Dərs vəsaiti***

***Azərbaycan Respublikası Təhsil Nazirinin 28.11.2002-ci il tarixli 1089 saylı əmri ilə dərs vəsaiti kimi təsdiq edilmişdir.***

**Bakı**
**Şirvannəşr**
**2009**

*Beynəlxalq Qızıl Priz laureatı (Madrid, 2004)*
*Şirvannəşr, 111 (1247) 2009*
*Naşir Qəşəm İsabəyli*

**Redaktor**
**Fətəliyev M.B.**
tarix elmləri doktoru, professor

**Rəyçilər**
**Əlibəyli H.C.**
tarix elmləri doktoru, professor
**Qasımlı M.C.**
tarix elmləri doktoru, professor

Nəşriyyat redaktoru **İsabəyli A.**
BDU-nun dissertantı

**Baxışov M.Ə.**
**Beynəlxalq münasibətlər tarixi**
(XVII əsrin ikinci yarısından 1871-ci ilədək).
**III nəşr. Dərs vəsaiti.**
**Bakı-Şirvannəşr-2009**
**168 səh**

Dərs vəsaiti ali məktəb tələbələri üçün nəzərdə tutulmuşdur. Vəsaitdə XVII əsrin ikinci yarısından 1871-ci ilədək olan dövrdə beynəlxalq münasibətlər tarixinin əsas hadisə, proses və problemləri xronoloji ardıcıllıqla şərh olunur. Dərs vəsaitinin məzmunu fənnin proqramına uyğundur.

83.3. Az (2)
B ----------------
054

© M.Ə.Baxışov, 2009

**Ünvan: Bakı- Az 1021. Badamdar qəs. 77**
**Tel: 492-92-27, 492-93-72, (050) 316-23-40**

## GİRİŞ

XVII əsrin ikinci yarısında kapitalizmin inkişafının və mərkəzləşmiş dövlətlərin yaranmasının beynəlxalq münasibətlərə təsiri artdı. Kralların sülalə mənafeləri və yeni ərazilər ələ keçirmək cəhdləri qalırdı. Eyni zamanda müstəmləkələr və dəniz yollarına nəzarət, Avropada və ondan kənarda satış bazarları və xammal mənbələri uğrunda rəqabət kimi yeni amillər meydana çıxdı. Bu amillərin təsiri ilə XVII əsrin ikinci yarısında və XVIII əsrdə beynəlxalq aləmdə qüvvə nisbəti dəyişdi. Dövlət mənafeyini sülalə mənafeyindən üstün tutan mərkəzləşmiş dövlətlər həm də kapitalizmin, sənayenin inkişaf səviyyəsi və malik olduqları ordu və donanmanın gücü ilə bağlı dünya siyasətində aparıcı rol oynayırdılar. «İspan irsi» uğrunda müharibə, Şimal müharibəsi və «Avstriya irsi» uğrunda müharibə qüvvə nisbətinin dəyişməsində mühüm rol oynadı. Belə ki, İngiltərə, Fransa, Rusiya, Avstriya və Prussiya güclü mərkəzlərə çevrildilər. İspaniya, Portuqaliya, Hollandiya, İsveç və Polşa arxa plana keçdi.

XVIII əsrin sonunda beynəlxalq münasibətlərə Şimali Amerikadakı istiqlaliyyət müharibəsi və Böyük Fransa inqilabı əhəmiyyətli təsir göstərdi. İngiltərənin diqqətinin Şimali Amerikaya yönəlməsi və həm inqilabla, həm də xarici müdaxilə ilə bağlı Avropa diplomatiyasında Fransanın iştirakının zəifləməsi nəticəsində Avropada qüvvə nisbəti yenidən dəyişdi. İstiqlaliyyət müharibəsi ABŞ-ın müstəqilliyinin İngiltərə tərəfindən tanınması ilə başa çatdı. Fransa inqilabı ilə əlaqədar olaraq beynəlxalq münasibətlərdə «Baltik və Şərq məsələləri»nin rolu azaldı. Fransanın Avropada Avstriya və Prussiya ilə, müstəmləkələrdə isə İngiltərə ilə ziddiyyətləri kəskinləşdi. Avropa dövlətləri Fransa inqilabına qarşı koalisiya yaratmağa başladılar. 1792-ci ildən beynəlxalq münasibətlərin inkişafında uzunmüddətli müharibələr, Avropanın və dünyanın siyasi xəritəsinin əsaslı şəkildə dəyişməsi dövrü başlandı.

Vyana konqresi, Vyana sisteminin və Müqəddəs ittifaqı[n] yaradılması Napoleonun müharibələrinin və Fransada birin[ci] imperiyanın məğlubiyyətinin əsas yekunu idi. XIX əsrin birin[ci] yarısında Müqəddəs ittifaqın Avropada inqilabi hərakata, müs[təmləkələrdə isə milli-azadlıq hərakatına qarşı mübarizəsi, bö[yük dövlətlər arasında «Şərq məsələsi» ətrafında beynəlxal[q] ziddiyyətlərin kəskinləşməsi beynəlxalq münasibətlərə böyü[k] təsir göstərdi. Krım müharibəsi və XIX əsrin 50-60-cı illərind[ə] İtaliyanın və Almaniyanın birləşdirilməsi ilə bağlı Vyana siste[mi] dağıldı.

Qüvvə nisbətinin dəyişməsi «Şərq məsələsi»ndə də özü[nü] göstərirdi. «Şərq məsələsi» Avropa dövlətləri ilə Osmanl[ı] imperiyası arasında münasibətlərin inkişafı ilə əlaqədar mey[dana] çıxmışdı. Bu məsələnin bir qədər geniş şəkildə məzmunu Osmanlı imperiyasının zəifləməsindən, parçalanmağa başlama[sından], əsarət altında olan xalqların milli-azadlıq hərakatının güclənməsi, Avropa dövlətləri arasında Yaxın və Orta Şərqd[ə] müstəmləkə bazarları və Qara dəniz boğazları üzərində nəza[rətlə] əlaqədar rəqabətin kəskinləşməsi ilə bağlı beynəlxalq zid[diyyətlərin] mürəkkəb kompleksindən ibarətdir.

XVII əsrin ikinci yarısında və XVIII əsrdə Avropa öl[kələrinin] beynəlxalq münasibətlərinin coğrafiyası xeyli geniş[lən]di. Əsasən «mərkəz-Avropa» səciyyəsi daşıyan beynəlxal[q] münasibətlər yeni qitə və regionları — Amerikanı, Uzaq Şərq və Afrikanı əhatə etməyə başladı. Müstəmləkəçilik tədricən beynəlxalq münasibətlərin əsas məsələlərindən birinə çevrildi.

XIX əsrin birinci yarısında və 50-60-cı illərində böyük dövlətlərin, xüsusilə Asiyada müstəmləkə siyasəti daha da fəal[laşdı]. Müstəmləkələrin ərazisi genişləndikcə idarəetmə metod[ları] təkmilləşirdi. Hərbi əməliyyatlar, ticarət, maliyyə əsarət[i], missionerlərin fəaliyyəti və diplomatiya müstəmləkə siyasətin[də] mühüm rol oynayırdı. Müstəmləkələrdə milli-azadlıq həra[katının] müstəmləkə siyasətinə və beynəlxalq münasibətlərə tə[siri] artmışdı. XIX əsrin sonunda müstəmləkə sisteminin form[a]laşması prosesi başa çatmışdı.

Yuxarıda deyilənlər XVII-XIX əsrlərdə beynəlxalq müna[sibətlərin] məzmununu təşkil etməklə yanaşı, həm də onun m[...]



...raqlı və əhəmiyyətli olduğunu göstərir. Bu dövrdə beynəlxalq münasibətlərin inkişafının xüsusilə ali məktəblərdə ətraflı öyrənilməsi, bundan ötrü isə dərs vəsaitlərinin yazılması zəruridir. Mövcud dərs vəsaiti məhz həmin tələbata cavab olaraq hazırlanmışdır. Vəsaitdə XVII əsrin ikinci yarısından 1871-ci ilə qədərki mərhələdə beynəlxalq münasibətlərin səciyyəvi cəhətləri əks olunmuşdur. Digər tərəfdən, müstəqil Azərbaycan Respublikasının xarici siyasət fəaliyyəti üçün əhəmiyyətini və müasir dövrdə cəmiyyətin həyatına beynəlxalq münasibətlərin təsirinin artmasını nəzərə alaraq dərs vəsaitində XVII-XIX əsrlərdə beynəlxalq aləmdə baş verən hadisələrin, cərəyan edən proseslərin, yaranan problemlərin və ayrı-ayrı dövlətlərin xarici siyasət fəaliyyətinin sistemli təhlilinə xüsusi diqqət yetirilir.

# I FƏSİL

## XVII ƏSRİN İKİNCİ YARISINDA BEYNƏLXALQ MÜNASİBƏTLƏR

XVII əsrin ikinci yarısında Fransa dövləti beynəlxa problemlərin həllində fəal iştirak edirdi. Fransa həm Avstri və İspaniyanı zəiflətməyə, həm də Avropada hegemonluq məyə çalışırdı. Avropadakı vəziyyəti Fransa öz siyasəti üçün ə verişli hesab edirdi. Əvvəla, İngiltərədə öz hakimiyyətləri bərpa etmiş Stüartlar burjua müxalifətinə qarşı mübarizə Fransadan kömək istəyirdilər. Fransa hökuməti müntəzəm ş kildə II Karla və II Yakova pul verirdi və belə «maliyyə dipl matiyası»nın köməyi ilə XIV Lüdovik 1688-ci ilə qədər İngilt rəni qitədə fəal siyasətdən uzaqlaşdırmışdı. İkincisi, Otuzill müharibədən sonra daha Avstriya İspaniyanın müttəfiqi deyildi 1648-ci ildə Fransa ilə Avstriya arasında Vestfal sülh müqavilə si bağlandı, Elzas Fransaya verildi. 1659-cu ildə Fransa ilə İspa niya arasında Pireney sülh müqaviləsi imzalandı. Üçüncüsü həm Avstriyada, həm də İspaniyada ciddi daxili problemlə mövcud idi və Avstriya üçün Osmanlı imperiyası tərəfdən hücum təhlükəsi artmışdı. Avropada elə bir dövlət yox idi ki Fransa ondan ehtiyat etsin, bütün Avropa hökmdarları Fransa kralından qorxurdular.

XIV Lüdovikin hakimiyyəti dövründə baş maliyyə nəzarətçisi olmuş Kolber milli sənayeyə himayə siyasətinin ardıcıl tərəfdarlarından biri idi. Kolber həm də Fransanın xarici ölkələrlə ticarət əlaqələrinin genişlənməsinə çalışırdı. XVII əsrdə Fransanın Şimali Amerikadakı mülklərinin ərazisi daha da genişlənmişdi. 1661-ci ildə Kolber kral XIV Lüdovikə məlumat vermişdi ki, Hollandiyanın 16 min, Fransanın isə 1000-ə qədər gəmisi var və Fransa Amerikadakı mülkləri ilə əlaqə saxlamaq üçün Hollandiya gəmilərindən istifadə etməyə məcbur olur.

Kolberin siyasəti bütün vasitələrlə Hollandiyanın iqtisadi qüdrətinin zəiflədilməsinə yönəlmişdi. XIV Lüdovik sübut etməyə çalışırdı ki, Belçika qədim qallara məxsusdur. Hollandiya



öz növbəsində Fransanın iqtisadi və siyasi qüdrətinin artmasının əleyhinə idi. Ona görə XVII əsrdə Fransaya qarşı yaradılmış koalisiyaların əsas təşkilatçısı Hollandiya idi.

Fransa kralı XIV Lüdovik yeni ərazilər işğal etmək, xüsusilə İspaniyanın Niderland, Almaniya və İtaliyadakı mülklərini ələ keçirmək uğrunda müharibələr aparırdı. Fransa həm Avropada nüfuz uğrunda, həm də müstəmləkələr uğrunda mübarizədə İngiltərə, İspaniya və Hollandiyanın rəqibi idi.

1667-1668-ci illərdə olmuş Fransa-İspaniya müharibəsi Fransanın Belçikanı işğal etmək cəhdi ilə bağlı idi. Niderlandın inqilabdan sonra İspaniyada qalan hissəsi Belçika adlanırdı. Əvvəlcə, Fransa Belçikanı İspaniyadan tələb etdi. İspaniya Belçikanı Fransaya verməkdən imtina etdiyinə görə Fransa İspaniyaya müharibə elan etdi. İspaniya müharibəyə hazır deyildi. Fransa ordusu Flandriyanın bir hissəsini və Franş-Konte əyalətini işğal etdi.

Hollandiya Belçikadan sonra Fransanın ona hücum edəcəyindən qorxurdu. 1667-ci ildə Fransa Hollandiyadan, Hollandiya isə Fransadan gətirilən məhsullar üçün gömrüyü artırmışdı. Fransaya qarşı Hollandiya İngiltərə və İsveçlə ittifaq müqaviləsi bağladı. Fransa və İspaniya arasında 1668-ci il mayın 2-də imzalanmış Axen sülhünə əsasən Fransa bir sıra sərhəd qalalarını ələ keçirdi, Franş-Konteni isə qaytardı.

XIV Lüdovik İsveçi Hollandiya ilə ittifaqı pozmağa məcbur etdi, İngiltərəyə yeni kredit verdi və 1672-1678-ci illərdə Hollandiya ilə müharibə apardı. Fransa qoşunu Utrext və Overeysel əyalətlərini işğal edib Amsterdamı mühasirəyə aldı, lakin ələ keçirə bilmədi. Fransa ordusu Almaniyanın cənubunda və Siciliya ərazisində müharibə aparırdı. Hollandiya donanması birləşmiş İngiltərə-Fransa donanmasını məğlub etdi. Müharibə zamanı Brandenburq hakimi Fridrix-Vilhelm Hollandiyaya kömək edirdi. 1679-cu ildə imzalanmış Nimveqen sülh müqaviləsinə əsasən Fransa Belçika ərazisinin bir qismini, həmçinin Franş-Konte əyalətini aldı.

Avstriya özünü Osmanlı imperiyasının hücumlarından müdafiə etməklə məşğul idi və Fransa fürsətdən istifadə edib 1681-ci ildə Strasburq şəhərini ələ keçirmişdi. 1684-cü ildə im-

zalanmış Regensburq müqaviləsi ilə Avstriya və İspaniya Fran- sanın Avropadakı işğallarının nəticələrini tanıdıqlarını bildird- lər.

XVII əsrin 80-ci illərində Avropada vəziyyət Fransanı əleyhinə dəyişdi. Əvvəla, Osmanlı qoşunları 1683-cü ildə Vya- nanı tuta bilmədi və az sonra Dunayın arxasına çəkilməyə məc- bur oldu. İkincisi, İngiltərədə 1688-ci ilin «Şanlı inqilab»ında və hollandiyalı III Vilhelmin ingilis kralı seçilməsindən sonra İngiltərə və Hollandiyanın eyni mövqedən çıxış etməsi ilə ala- qədar Fransanın maliyyə yardımına ehtiyac qalmadı. Nəhayət, 1686-cı ildə papa XI İnnokentinin himayəsi ilə Avstriya, İspani- ya, İsveç, İngiltərə və bir sıra alman və italyan knyazları Avro- pada Fransanın hegemonluğunun qarşısını almaq üçün «Auqs- burq liqası»nda birləşdilər. 1688-1697-ci illərdə Fransa ilə «Auqsburq liqası» arasındakı müharibə Fransanın məğlubiyyəti ilə qurtardı. 1697-ci ildə bağlanmış Risvik müqaviləsinə əsasən, Fransa işğal etdiyi ərazilərin çox hissəsini qaytardı və III Vil- helmi İngiltərə kralı kimi tanıdı. İngiltərənin beynəlxalq möv- qeləri möhkəmləndi, Avropada və müstəmləkələrdə İngiltərə- Fransa ziddiyyətləri kəskinləşməyə başladı.

XVII əsrin ortalarında baş vermiş İngiltərə burjua inqilabı beynəlxalq münasibətlərə böyük təsir göstərdi. Avropa dövlət- ləri İngiltərə inqilabına müdaxilə etmədilər. İngiltərə kralı I Karlın Fransadan yardım almaq cəhdləri nəticəsiz oldu. Burjua- ziya və yeni zədaganlar hakimiyyətdə möhkəmləndikdən sonra İngiltərənin əsas dəniz və ticarət rəqibləri olan Hollandiya, İs- paniya və Fransaya qarşı mübarizə proqramı hazırlandı. XVII əsrin 40-50-ci illərində İngiltərədə xarici siyasətə parlament ba- xırdı. 1653-cü ildən O.Kromvel xarici siyasətin həyata keçi- rilməsinə nəzarət edirdi.

İngiltərə Avropa dövlətləri ilə iqtisadi və diplomatik əla- qələri bərpa etmək istəyirdi. 1648-ci ildə Fransa İngiltərədən yun və ipək məmulatlarının idxalını, İngiltərə parlamenti isə Fransadan şərab idxalını qadağan etmişdi. Tərəflər hətta bir-bir- lərinin ticarət gəmilərini ələ keçirirdilər.

İspaniya İngiltərə ilə Fransa arasındakı ziddiyyətlərdən is- tifadə edib İngiltərə respublikasını tanımışdı. 1650-ci ilin de-



kabrında İspaniya səfiri təntənəli şəraitdə İngiltərə parlamen- tinə öz sənədlərini təqdim etmişdi.

Fransa hökuməti İspaniyaya qarşı İngiltərə ilə ittifaq əsa- sında İngiltərə respublikasını tanımağa hazır idi. Kardinal Maza- rini (o, Fransanın birinci naziri idi) vasitəçilərin köməyi ilə O.Kromvellə əlaqə yaratmışdı. İngiltərə tələb etdi ki, Fransa kralı respublikanı tanısın və oraya öz səfirini təyin etsin. 1655-ci ildə İngiltərə-Fransa münasibətləri bərpa olundu.

İngiltərənin başlıca rəqibi Hollandiya idi. Hollandiyanın səyləri ilə ingilis tacirlərinin Rusiyada imtiyazları ləğv olun- muşdu. Rusiya bu zaman I Karlın edamını bəhanə gətirmişdi. İngiltərə çalışırdı ki, Hollandiya dənizlərdə və dəniz ticarətində onun hegemonluğunu etiraf etsin. 1651-ci ilin fevralında İngiltə- rə parlamenti Haaqaya iki nümayəndə göndərdi.

İngiltərə Hollandiya ilə müttəfiqliyə və onunla vahid döv- lətdə birləşməyə razı idi. Nümayəndələr Hollandiyaya İngiltərə ilə birləşməyi, könüllü şəkildə İngiltərəyə tabe olmağı təklif et- dilər və əks halda onunla bütün əlaqələrin kəsiləcəyini bildirdi- lər. İngiltərə hərbi gəmiləri dənizdə Hollandiya gəmilərini sax- layırdı, Hollandiya isə İngiltərə sahillərinə hərbi donanma gön- dərmişdi. İngiltərə nümayəndələri Hollandiyaya yeddi bənddən ibarət ultimatum təqdim etdilər. Bu tələbləri Hollandiya rədd etdi.

1651-ci ilin iyulunda İngiltərə nümayəndələri ölkəyə qa- yıtdı. 1651-ci ilin avqustunda İngiltərə parlamenti «Naviqasiya aktı»nı müzakirə, sonra isə qəbul etdi. Bu akta görə İngiltərəyə xaricdən məhsullar ingilis gəmilərində və ya həmin məhsulu is- tehsal edən ölkənin gəmisində gətirilməli idi. İngiltərənin xarici ölkələrlə ticarətində Hollandiyanın vasitəçiliyinə son qoyuldu.

1653-cü ilin aprelində İngiltərə donanması Hollandiya do- nanmasını məğlub etdi. 1652-1654-cü illərdəki İngiltərə-Hol- landiya müharibəsində Hollandiya məğlub oldu və «Naviqasiya aktı» ilə barışmalı oldu. 1654-cü ilin aprelində onların arasında sülh müqaviləsi bağlandı.

İngiltərə 1654-cü ildə İsveç, Danimarka və Portuqaliya ilə ticarət müqaviləsi imzaladı. İspaniya İngiltərəyə öz müstəmlə- kələri ilə ticarətə icazə vermirdi. İngiltərə Amerika sahillərinə

və Aralıq dənizinə donanma göndərdi. İngiltərə donanması Sa to Dominqo adasını tuta bilmədi. İspaniyanın səfiri London tərk etdi. İspaniyada ingilis gəmiləri və malları müsadirə edild ingilis tacirləri həbs edildi. 1665-ci ildə İngiltərə müharibəd İspaniyaya qalib gəlib Yamayka adasını ələ keçirdi.

XVII əsrin əvvəllərində Reç Pospolita və İsveçin hücum ları Rusiyanın beynəlxalq mövqelərinə böyük təsir göstərmişd XVII əsrin ikinci yarısında isə Şərqi Avropada bütün məsələlә Rusiyanın iştirakı ilə həll olunurdu, yəni, Rusiya Avropanın bö yük dövlətlərindən birinə çevrilmişdi.

XVII əsrin ikinci yarısında Rusiyanın xarici siyasəti il növbədə Reç Pospolita tərəfindən işğal edilmiş Ukrayna və Be lorusiya torpaqlarının Rusiyaya birləşdirilməsi,Baltik sahillərinə çıxmaq, Türkiyə və Krıma qarşı mübarizə kimi vəzifələrin həl linə yönəlmişdi. Bu vəzifələr bir-birilə bağlı idi və onların həl lini çətinləşdirirdi. Məsələn, Polşaya qarşı mübarizədə İsveç, Türkiyə və Krım Rusiyanın müttəfiqləri idi, lakin onlar «Litva-Polşa irsi» məsələsində Rusiyaya rəqib idi və ya İsveç Pribaltika və Litvanı, Türkiyə və Krım isə Ukraynanı tələb edirdilər. Baltik uğrunda mübarizədə Rusiya İsveçə qarşı Polşa ilə müttəfiq ola bilərdi, eyni zamanda cənubda yerləşən ölkələri bitərəfləşdirməli idi. Rusiya Türkiyəyə qarşı mübarizədə Polşa ilə müttəfiq ola bilərdi, lakin bu zaman Ukraynadan əl çəkməli idi.

XVII əsrin ikinci yarısında Polşada mövcud böhran Rusiya üçün əlverişli şərait yaratmışdı. Ukrayna və Belorusiyada Polşaya qarşı milli-azadlıq mübarizəsi onların Rusiyaya birləşdirilməsini asanlaşdırdı. Lakin Rusiya ilə Polşa arasında müharibə zəruri idi. Rusiya hökuməti 1653-cü ilin oktyabrında Ukraynanın Rusiya ilə birləşməsinə razılıq verdi. 8 yanvar 1654-cü ildə Pereyaslavl radasının qərarı ilə Ukrayna Rusiyaya birləşdirildi.

Rusiya Belorusiya və Litvanı, İsveç isə Varşava və Krakovu ələ keçirdi. Rusiya Avstriya, Danimarka və Brandenburqla İsveçə qarşı koalisiya yaratdı. İsveç Rusiyanın Baltikə çıxmasına mane olurdu. 1656-cı ildə Rusiya Polşa ilə barışıq imzaladı. 1658-ci ildə İsveç Rusiya ilə barışıq imzaladı. 1661-ci ildə Rusiya İsveçlə Kardis müqaviləsini bağlayıb Pribaltikada tutduğu yerlərdən imtina etdi.



Türkiyə təhlükəsi Rusiya və Polşanı 1667-ci ildə Andrusovo sülhünü imzalamağa məcbur etdi. Smolensk, Sever və Solsahil Ukraynası Rusiyaya verildi. Rusiyanın iştirakı olmadan Polşa Türkiyə ilə müqavilə bağlaya bilməzdi. 1676-cı ildə Rusiya İsveç sahillərinə qoşun göndərmişdi. 1676-1681-ci illərdə Rusiya-Türkiyə müharibəsi oldu. Müharibə Baxçasaray müqaviləsi ilə qurtardı. Müqaviləyə görə Türkiyə Solsahil Ukraynasının və Kiyevin Rusiyaya keçməsini tanıdı.

1678-ci ildə Türkiyə Avstriyaya qarşı müharibəyə başlamışdı. Polşa, bir sıra alman knyazları və Avstriya Türkiyəyə qarşı ittifaqda birləşdilər. 1683-cü ildə müttəfiqlər Vyana yaxınlığında Türkiyə qoşunlarını məğlub etdilər. 1686-cı ildə Avstriya, Venesiya, Brandenburq, Polşa və Rusiya Türkiyəyə qarşı ittifaq yaratdılar. Rusiya Krıma qarşı vuruşmalı idi.

1686-cı ildə Rusiya Polşa ilə «əbədi sülh» imzaladı və Kiyev də Rusiyaya verildi, 1667-ci il sülhünün şərtləri təsdiq olundu. 1687 və 1689-cu illərdə rus qoşunlarının Krıma hücumları nəticəsiz oldu. Türkiyə ilə düşmən olan Rusiya Səfəvilər dövləti ilə yaxınlaşmağa başlamışdı. Hər iki ölkə iqtisadi əməkdaşlıqda maraqlı idi. Belə ki, Səfəvilər dövlətinin ərazisindən ipək Qərbi Avropaya Rusiya vasitəsilə aparılırdı.

XVII əsrin ikinci yarısında Rusiya Çinlə iqtisadi və siyasi əlaqələr yaratmağa çalışırdı. 1689-cu ildə Rusiya ilə Çin arasında Nerçinsk müqaviləsi bağlandı. Rusiya nümayəndə heyətinə F.Qolovin başçılıq edirdi. Müqaviləyə görə Rusiya Amur çayının sol sahilindəki torpaqlardan imtina etdi. Beləliklə, fəal xarici siyasət nəticəsində XVII əsrin sonunda Rusiyanın beynəlxalq mövqeləri möhkəmlənmişdi.

# II FƏSİL

## XVIII ƏSRİN BİRİNCİ YARISINDA BEYNƏLXALQ MÜNASİBƏTLƏR

Fransa kralı XIV Lüdovikin təşəbbüsü ilə 1701-ci ildə başlanmış «İspaniya irsi» uğrunda müharibə 1714-cü ilə qədər davam etmişdi. «İspaniya irsi»nə kral taxtı, İspaniyanın Latın Amerikasındakı müstəmləkələri və Avropadakı mülkləri daxil idi. XIV Lüdovik özünü «İspaniya irsi»nin varisi hesab edirdi. «İspaniya irsi»nə sahiblik Fransanın həm Avropada, həm də dünyada hegemonluğunu təmin edə bilərdi.

XVII əsrin sonunda Fransa «İspaniya irsi»nin bölüşdürülməsinə dair İngiltərə və Hollandiya ilə danışıqlar aparmışdı. İspaniya taxtına həm də Avstriya şahzadəsi Karl iddia edirdi, çünki o, İspaniya kralı III Filippin nəvəsi idi. Fransa İngiltərə və Hollandiya ilə Avstriyaya qarşı ittifaq yaratmağa çalışırdı. XIV Lüdovikin məqsədi Fransanın əleyhinə koalisiya yaranmasının qarşısını almaq idi. Fransa İngiltərə və Hollandiyanı inandırmağa çalışırdı ki, İspaniya taxtına bir sülalənin tək sahib olması Avropada qüvvə tarazlığını poza bilər. Avstriya imperatoruna isə XIV Lüdovik bildirmişdi ki, Avropada sülhü qorumaq üçün «ispan irsi» böyük dövlətlər arasında bölünməlidir. 1698 və 1700-cü illərdə Fransa ilə İngiltərə, Hollandiya və Avstriya arasında İspaniya mülklərinin bölüşdürülməsinə dair sazişlər imzalanmışdı.Bu sazişlər İspaniya kralı II Karldan gizli imzalanmışdı.

1700-cü ildə İspaniya kralı II Karl varisi olmadığına görə taxtı XIV Lüdovikin nəvəsi Filippə vəsiyyət etmişdi. Bu yolla kral ispan mülklərinin parçalanmasının qarşısını almaq fikrində idi. Filipp Fransa və İspaniyanı vahid dövlətdə birləşdirə bilməzdi. Lakin Fransa kralı XIV Lüdovik bildirmişdi ki, daha Fransa ilə İspaniya arasında Pireney dağları yoxdur və 1701-ci ilin əvvəlində xüsusi fərmanla V Filippin həm də Fransa taxtına hüququnu təsdiq etmişdi. XIV Lüdovik nəvəsinin təcrübəsizliyini bəhanə gətirib hər iki dövləti özü idarə etməyə başlamışdı. Fransa Niderlanda qoşun göndərdi, müstəmləkələrdə ingilis və

holland tacirlərini sıxışdırmağa başladı, müstəmləkə qubernatorları onun əmrlərini yerinə yetirməli idi.

İngiltərə və Hollandiya sülhə və ticarətə üstünlük verib Fransaya qarşı müharibəyə başlamaq istəmirdilər. XIV Lüdovik onlara vəd etmişdi ki, İspaniya heç vaxt Fransa ilə birləşməyəcək, lakin vədinə əməl etmədi.

Fransa İngiltərədə Stüartların hakimiyyətini bərpa etməyə çalışırdı. 1701-ci ildə İngiltərə kralı III Vilhelmin vəfatından sonra Fransa bildirdi ki, taxta yeganə namizəd II Yakovun oğlu ola bilər. II Yakovun oğlunu öz himayəsinə götürən XIV Lüdovik həm bütün Avropanı, həm də bütün müstəmləkələri idarə etmək istəyirdi.

İngiltərə Fransanı onun daxili işlərinə qarışmaqda və «ispan irsini» tək mənimsəməkdə ittiham edirdi. Fransaya qarşı İngiltərə, Hollandiya, Avstriya, Portuqaliya, Brandenburq, Danimarka və Savoyya güclü koalisiya yaratdılar və 1701-ci ildə koalisiya ilə Fransa arasında başlanan hərbi əməliyyatlar İtaliya, İspaniya, Niderland və Almaniya ərazilərində aparılırdı.

1701-1704-cü illərdə üstünlük Fransanın tərəfində idi, sonra vəziyyət koalisiyanın xeyrinə dəyişdi. Fransa sülh danışıqlarına başlamağa cəhd göstərdi, lakin müttəfiqlərin şərtlərini qəbul etmədi.

1708-1709-cu illərdə Fransa ordusu Belçika ərazisində məğlub edildi. 1704-1710-cu illərdə Fransada daxili vəziyyət ağır idi. Fransa ikinci dəfə sülh danışıqlarına başlamağı müttəfiqlərdən xahiş etdi. Müttəfiqlər Filippin İspaniyadan geri çağırılmasını, Elzas və Flandriyanı tələb etdilər. 1710-1714-cü illərdə Fransa müharibədə mövqeyini bir qədər möhkəmlədə bildi. Rusiya ilə müharibə vəziyyətində olan İsveç Fransaya kömək etmirdi.

Fransa müharibədən az itki ilə çıxmağa çalışır və koalisiyaya daxil olan dövlətlər arasındakı ziddiyyətlərdən istifadə edirdi. Koalisiyanın üzvü olan dövlətlər də müharibəni davam etdirmək istəmirdilər. İngiltərə 1704-cü ildə Cəbəllütariq qalasını ələ keçirmişdi. 1710-cu ildə XIV Lüdovikin nəvəsi V Filipp İspaniyaya gəlib kral kimi ölkəni idarə etməyə başladı.

1711-1712-ci illərdəki hərbi əməliyyatlardan sonra tərəflərin imkanları təxminən bərabər idi. 1712-ci ilin fevralında Utrextdə sülh konqresi çağırıldı. 1713-cü ilin aprelində bir tərəfdən Fransa və İspaniya, digər tərəfdən İngiltərə, Hollandiya, Brandenburq və Savoyya arasında Utrext müqaviləsi imzalandı. V Filipp İspaniya kralı kimi qaldı, lakin V Filipp və onun varisləri həm də Fransa kralı ola bilməzdi. Belçika və İtaliyadakı İspaniya mülkləri Avstriyaya verildi.

1714-cü ildə isə Fransa ilə Avstriya arasında Raştatt müqaviləsi imzalandı. Cəbəllütariq qalası və Menorka adası İngiltərəyə verildi, İngiltərə Şimali Amerikadakı bəzi Fransa mülklərini və İspaniya müstəmləkələrinə 30 il müddətinə qul gətirmək hüququ aldı. Lakin İngiltərə məhsulları üçün İspaniya müstəmləkələrində yüksək idxal gömrüyü müəyyən edildi. Avropada hegemonluğa nail ola bilməyən Fransa İngiltərə ilə ticarət-müstəmləkə rəqabətini uduzdu. İngiltərə-Fransa ziddiyyətləri XVIII əsrdə beynəlxalq həyatın başlıca ziddiyyəti oldu.

XV Lüdovikin dövründə (1715-1774) Fransanın xarici siyasəti uğurlu olmadı. Bir sıra müharibələrdə Fransanın iştirakı məcbur deyildi. Belə ki, Fransa bu müharibələr nəticəsində Kanadanı, Luizananı və Hindistanı itirmişdi.

XVIII əsrin əvvəlində Rusiya Fransa ilə yaxınlaşmağa çalışırdı. Lakin Fransa müttəfiq kimi Türkiyə, Polşa və İsveçdən ayrılmaq istəmirdi, ona görə Rusiya Fransanın rəqibi olan Avstriya ilə yaxınlaşdı. Fransa 1733-1735-ci illərdə «Polşa irsi» uğrunda müharibədə iştirak etdi. Bu dövrdə Polşanın daxili çətinlikləri ilə əlaqədar Rusiya, Fransa və Avstriya Polşaya öz təsirlərini artırmağa çalışırdılar. Polşa kralı II Avqustdan sonra Rusiya və Avstriya kral taxtına onun oğlu III Avqustun namizədliyini müdafiə etdilər. Fransa isə S.Leşinskini təklif etdi. XV Lüdovik S.Leşinskinin qızı ilə evlənmişdi. Fransanın Polşadakı səfiri Monti S.Leşinskinin Polşa kralı olmasından ötrü üç milyon livr pul xərcləmişdi.

Fransanın İsveç və Türkiyədən Rusiyaya qarşı istifadə etmək cəhdləri nəticəsiz oldu. Rusiyanın və Avstriyanın diqqətini yayındırmaq üçün Tiand adlı bir şəxs özünü Leşinski kimi qələmə verərək Brestdə gəmiyə minib Baltikə getmişdi. S.Leşinski

isə bu zaman gizli şəkildə Varşavaya daxil olmuşdu. Lakin Fransa onu müdafiə edə bilmədi. S.Leşinski Prussiyaya qayıtdı. Dansiqə göndərilmiş 1500 nəfərlik Fransa qoşunu Rusiya qoşunu tərəfindən məğlub edildi və bir qismi əsir düşdü.

Fransanın Avstriya və İtaliya ərazisində hərbi əməliyyatları uğursuz oldu, Sardiniya ilə əlaqələri zəiflədi. XV Lüdovik səfir Bernardoniki Peterburqa göndərdi ki, Rusiya hökumətindən S.Leşinskini Polşa kralı kimi tanımağı xahiş etsin. Lakin onu Peterburqda qəbul etmədilər və 1735-ci ilin oktyabrında Fransa III Avqustu Polşa kralı kimi tanıdı.

Fransa kralı XV Lüdovik Avstriyaya qarşı mübarizə aparır və protestant knyazları müdafiə edirdi. Fransa «Avstriya irsi» uğrunda müharibədə Prussiyanın tərəfində iştirak etmişdi. Yeddiillik müharibə ərəfəsində isə Fransa Avstriyanın müttəfiqi oldu. Bu zaman Fransa Prussiyanın güclənməsini və Avstriyanın zəifləməsini, İngilterəyə qarşı mübarizə üçün imkan yarandığını nəzərə almışdı. Fransa Yeddiillik müharibədə Avstriyaya kömək edirdi ki, o, Sileziyam Prussiyadan geri alsın. Lakin Fransa öz məqsədlərinə nail olmadı.

XV Lüdovik 1743-cü ildə xarici siyasət məsələləri ilə məşğul olmaq üçün xüsusi gizli komitə yaradıb şahzadə Kontini başçı təyin etmişdi. Səfirlərdən başqa onun xarici ölkələrdə gizli agentləri də fəaliyyət göstərirdi.

XVIII əsrdə İngiltərə hakim dairələrinin maliyyə imkanları genişlənmişdi. Onlar İngiltərənin mənafeyini müdafiə edən müttəfiqləri pulla ələ almağı bacarırdılar. Avropada isə belə dövlətlər çox idi. Bu dövlətlərin əksəriyyəti Almaniya ərazisində yerləşirdi. Otuzillik müharibədən sonra daha da parçalanmış Almaniya ərazisində 300-dən çox dövlət mövcud idi. Kiçik alman dövlətlərinin ordularından başqa dövlətlər öz məqsədlərini həyata keçirmək üçün istifadə edirdilər. Alman dövlətləri «rekrut ticarəti» nəticəsində XVIII əsrin birinci yarısında Fransadan 137 milyon livr, İngiltərədən isə 46,5 milyon funt sterlinq pul almışdı.

Alman dövlətləri içərisində Prussiya və Avstriya daha güclü idi. Prussiya XVIII əsrin birinci yarısında Avstriyanın rəqibinə çevrilmişdi. Prussiya kralı II Fridrix (1740-1786) xarici

siyasətə xüsusi diqqət yetirirdi. II Fridrix «Müqəddəs Roma» imperatoru olmaq istəyirdi, lakin Avstriya onun əleyhinə idi.

İmperator VI Karlın qızı M.Tereziya bir sıra Avropa dövlətlərinin köməyi ilə taxta çıxmışdı və varislik hüququnu müdafiə edirdi. II Fridrix M.Tereziyanı Avstriya kraliçası kimi tanımağın əvəzində ondan Sileziyanı tələb edirdi. M.Tereziya bu tələbi rədd etdi.

II Fridrix Avstriya ilə müharibəyə başladı. Bu müharibə «Avstriya irsi» uğrunda müharibə adını aldı (1740-1748). Fransa, Prussiya və Bavariya «Avstriya irsi»nin bölünməsi haqqında saziş imzalamışdılar. 1742-ci ildə II Fridrix M.Tereziya ilə saziş bağlayıb Aşağı Sileziyanı almışdı. Müttəfiqlərə sadiqliyini göstərmək üçün II Fridrix bildirdi ki, o, iki həftə Neyse şəhərini mühasirədə saxlayıb sonra ələ keçirəcək. Sonra isə II Fridrix İngiltərənin köməyi ilə bütün Sileziyanı ələ keçirmişdi.

1748-ci ilin oktyabrında bağlanmış Axen sülhü ilə Sileziya Prussiyaya verildi. M.Tereziya məğlubiyyətdən qəzəblənmiş və İngiltərə səfirinə bildirmişdi ki, qisas almaq üçün əlindən gələni əsirgəməyəcək.

XVIII əsrdə İngiltərə planlı şəkildə xarici ölkələrlə ticarəti və müstəmləkələrini genişləndirirdi. Coğrafi mövqeyi onu Avropadan müdafiə edirdi. XVIII əsrdə onun əsas rəqibi Fransa idi. İngiltərə Avropada «muzdla dost tutmaq» taktikasından istifadə edirdi, özü isə müstəmləkələr işğal etməklə məşğul idi. Britaniya imperiyası məhz XVIII əsrdə yarandı.

İngiltərə XVI əsrdə İspaniyam, XVII əsrdə Hollandiyanı məğlub etmişdi. Amerikada və Hindistanda müstəmləkələri olan Fransa dənizdə İngiltərəni üstünlükdən məhrum etməyə çalışırdı. Fransa xarici gəmilərdən alınan gömrüyü artırmış və güclü hərbi donanma yaratmışdı. İngiltərə əvvəlcə Fransa ilə müharibə etmək istəmirdi, lakin sonra Fransanın nailiyyətləri onu qəzəbləndirdi. İngiltərə Yeddiillik müharibədə Avstriya və Rusiya tərəfində olan Fransanın müstəmləkə və dəniz qüdrətini sarsıtmaq istəyir, Prussiyanı müdafiə edir və ona kredit verirdi. İngilis donanması Fransa limanlarını bombalayırdı.

Hindistanı XVII əsrdə Böyük Moğollar idarə edirdi. XVIII əsrin əvvəlində Moğol imperiyasının parçalanması Hindistanın

Avropa dövlətləri tərəfindən işğalını asanlaşdırdı. Əvvəlcə Hindistanda Fransanın mövqeyi güclü idi, lakin Fransa hökuməti Hindistandakı vətəndaşlarını zəif müdafiə edirdi. İngiltərə hökuməti isə Ost-Hind şirkətinə kömək edirdi. İngiltərə Hindistanın Bombey, Mədrəs və Kəlküttə şəhərlərini ələ keçirmişdi. Yerli knyazların, racə və sultanların hakimiyyəti qalmışdı. Vergi toplamaqla icarə hüququ əsasında Ost-Hind şirkəti məşğul olurdu.

## III FƏSİL
## XVIII ƏSRİN İKİNCİ YARISINDA BEYNƏLXALQ MÜNASİBƏTLƏR

### § 1. XVIII əsrin ikinci yarısında Avropada beynəlxalq vəziyyət

XVIII əsrin ikinci yarısında imkanlarını və ərazisini genişləndirən Prussiya bütün Almaniyanı öz təsiri altına almağa çalışırdı. Almaniyada hegemonluq üstündə Prussiya ilə Avstriya arasında rəqabət kəskinləşmişdi. Bu dövrdə İngiltərə ilə Fransa arasında ziddiyyətlərin kəskinləşməsi isə müstəmləkələrlə bağlı idi. İngiltərə Fransanın Hindistan və Şimali Amerikadakı işğallarından narahat idi. İngiltərə hərbi gəmiləri dənizdə Fransanın ticarət gəmilərini saxlayırdı. 1755-ci ildə bir ay ərzində ingilislər 8 min nəfər heyəti ilə birlikdə 300 Fransa gəmisini saxlamışdılar. Fransanın etirazlarına isə İngiltərə məhəl qoymurdu.

1754-1755-ci illərdə Kanadada hərbi toqquşmadan sonra İngiltərə və Fransa Avropada özlərinə müttəfiq axtarmağa başladılar. 1756-cı ilin yanvarında Prussiya və İngiltərə Almaniyada sülhü qorumaq və Almaniyanın ərazi bütövlüyünə qəsd edən dövlətə qarşı birlikdə mübarizə aparmaq haqqında müqavilə bağladılar.

1756-cı ilin mayında Versalda Avstriya ilə Fransa arasında qarşılıqlı yardım müqaviləsi imzalandı, onlar aralarındakı çoxillik ziddiyyətləri kənara qoyub müttəfiq oldular. Prussiyanın güclənməsi ilə bağlı Baltik sahilində Rusiyanın mənafeləri üçün təhlükə yaranmışdı. 1756-cı ilin martında Rusiya Avstriya ilə müqavilə imzaladı. Müqaviləyə görə Rusiya Avstriyaya kömək üçün 80 min nəfərlik qoşun göndərməli idi. 1757-ci ilin fevralında Rusiya ilə Avstriya arasında imzalanmış yeni müqaviləyə görə Avstriya hər il Rusiyaya 1 milyon florin kredit verməli idi. 1757-ci ilin mayında imzalanmış yeni Fransa-Avstriya müqaviləsinə görə Fransa Avstriyaya kömək üçün 105 min nəfərlik qoşun göndərməli və hər il Avstriyaya 12 milyon florin kredit verməli idi. 1761-ci ildə Avstriya-Fransa-Rusiya koalisiyasına İsveç, Saksoniya və Polşa da qoşulmuşdu.

1756-1763-cü illərdə olmuş Yeddiillik müharibənin hərbi əməliyyatları Avropada, Şimali Amerikada və Asiyada aparılırdı. Müharibənin əvvəlində Prussiya üstün idi, on döyüşdən yeddisində qalib gəlmişdi. Lakin 1757-1759-cu illərdə Rusiya ordusu bir neçə döyüşdə Prussiya qoşunlarını məğlub etdi və 1760-cı ildə Berlinə daxil oldu. 1762-ci ildə Rusiya Prussiya ilə müqavilə bağlayıb qoşunlarını Prussiya ərazisindən çıxartdı.

İngiltərə 1759-cu ildə Kanadanı, 1761-ci ildə isə Hindistanda Pondişeri əyalətini ələ keçirdi. Fransa donanması məğlub edildi. 1762-ci ildə Rusiyada hakimiyyətə gələn II Yekaterina Prussiya ilə müqavilədən imtina etdi. 1763-cü ildə Avstriya və Saksoniya Prussiya ilə Qubertsburq müqaviləsini bağladılar. M.Tereziya Avstriyanın hökmdarı kimi tanındı, Sileziya Prussiyaya qaldı.

Rusiya Yeddiillik müharibədə iştirak edib həm beynəlxalq nüfuzunu artırdı, həm də Avropada Prussiyanın hegemonluğunun qarşısını aldı. Fransa Kanada və Hindistandan qoşunlarını çıxartdı. 1763-cü ilin fevralında Fransa və İspaniya ilə İngiltərə arasında imzalanmış Paris sülhünə əsasən Kanada və Hindistan İngiltərəyə qaldı, İspaniya isə Floridanı İngiltərəyə verdi. Fransa Luizananı İspaniyaya verdi. Beləliklə, İngiltərənin beynəlxalq mövqeləri daha da möhkəmləndi.

Fransa inqilabı ərəfəsində Avropa diplomatiyasının diqqəti Şərqi Avropada cərəyan edən hadisələrə yönəlmişdi. Bu dövrdə Rusiya eyni vaxtda Türkiyə və İsveçlə müharibə aparırdı. İngiltərə və Prussiya Türkiyə və İsveçə hərtərəfli yardım göstərirdilər. Lakin Fransa inqilabı ilə əlaqədar Avropa diplomatiyası uzun müddət öz diqqətini Qərbi Avropada mərkəzləşdirməli oldu.

İnqilab başlanana qədər Fransada xarici işlər naziri kral tərəfindən təyin edilir və onun qarşısında məsuliyyət daşıyırdı. Səfirlər də kral tərəfindən təyin edilirdi. Bastiliyanın alınmasından sonra Milli məclis «xalq hakimiyyəti» prinsipinə əsaslanıb Xarici işlər nazirliyinin fəaliyyətinə müdaxilə edir və onu özünə tabe etməyə çalışırdı. Milli məclis beynəlxalq məsələlərlə bağlı Xarici işlər nazirliyinin məlumatları əsasında dekretlər qəbul edirdi.

1790-cı ilin mayında Milli məclislə kral arasında xarici si-

yasət məsələləri ilə əlaqədar münaqişə yarandı. Bu dövrdə Şimali Amerikanın Sakit okean sahillərində İspaniya ilə İngiltərə arasında müharibə təhlükəsi yaranmışdı. İspaniyanın xahişinə cavab olaraq Fransa kralı XVI Lüdovik donanmanı İngiltərə donanması ilə döyüşə göndərmək istəmişdi. Bu məsələ Milli məclisdə geniş müzakirə olundu. Burjuaziya Fransa məhsullarını öz müstəmləkələrinə buraxmayan İspaniyaya kömək göstərilməsinin əleyhinə idi.

Məclis üzvlərinin bir qismi belə düşünürdü ki, kral XVI Lüdovik İngiltərə ilə müharibə adı altında silahlı qüvvələri artırıb inqilaba qarşı mübarizəni gücləndirmək və Milli məclisi qovmaq istəyir. Ona görə Məclis üzvlərinin bir hissəsi kralın müharibə elan etmək və sülh bağlamaq hüququndan məhrum olunmasını təklif etdi. Milli məclis qərara aldı ki, diplomatik danışıqlara nəzarət və müqavilələri təsdiq etsin.

Deputatların əksəriyyəti kral tərəfindən maliyyələşdirilən qraf Mirabonun tərəfində idi. Mirabonun təşəbbüsü ilə 24 may 1790-cı ildə Məclis qərar qəbul etdi ki, yalnız kralın təklifi əsasında Milli məclis müharibə elan edə və sülh bağlaya bilər. Müzakirə zamanı deputatlar gizli diplomatiyanı və gizli ittifaqları tənqid etdilər və bildirdilər ki, Fransaya yalnız ədalətli xalqlarla milli müqavilələr lazımdır.

Məclis diplomatik işlərə nəzarət etmək üçün daimi komitə yaratdı və qraf Mirabo onun sədri oldu. Məclis İngiltərəyə qarşı İspaniya ilə 1761-ci ildə bağlanmış ittifaq müqaviləsini qüvvədə saxladı, lakin müqavilədən hücum xarakteri daşıyan maddələr çıxarıldı. «Ümumi sülh» və «ədalət» prinsipləri Fransa xarici siyasətinin əsası oldu. 1791-ci ilin dekabrında qəbul edilmiş xüsusi dekretdə deyilirdi ki, «Fransa xalqı işğalçılıq müharibələrindən əbədi imtina edir və heç vaxt öz qüvvəsindən hər hansı bir xalqın azadlığına qarşı istifadə etməyəcək».

1789-cu ildə Milli məclis inqilab etmiş Belçikanın müstəqilliyini müdafiə etmədi. Fransa burjuaziyası belə hesab etdi ki, Avropa monarxiyaları ilə münasibətləri kəskinləşdirmək ölkənin milli mənafeyinə uyğun deyil. Digər tərəfdən, Fransada bəzi feodal mükəlləfiyyətlərinin ləğv olunması Avropa dövlətlərinin narazılığına səbəb olmuşdu.

Avstriya, Rusiya və Prussiya öz imtiyazlarını itirmiş Fransa zədaganlarını müqavimət göstərməyə çağırırdılar ki, Fransaya qarşı müharibə üçün bəhanə yaransın. Kilsə torpaqlarının müsadirəsi Fransa ilə Roma papası arasında münaqişəyə səbəb oldu. Fransa Xarici işlər nazirliyinin Roma papası ilə danışıqları heç bir nəticə vermədi. 14 sentyabr 1791-ci ildə Milli məclis Roma papasına məxsus olan Avinyon şəhərinin Fransaya birləşdirilməsi haqqında dekret qəbul etdi.

Kral sarayı xarici ölkələrlə gizli danışıqlar aparır və onları Fransa inqilabına qarşı mübarizəyə çağırırdı. Ona görə 1791-ci ilin martında yeddi ölkədə Fransanın səfiri dəyişdirildi və səfirlər üçün xüsusi and tətbiq edildi. 1791-ci ilin iyununda kralın qaçmağa göstərdiyi uğursuz cəhdlə bağlı köhnə diplomatik personal daha da nüfuzdan düşdü. Xarici işlər naziri bu işdə iştirakda ittiham olundu. Parisə qaytarılan kral hakimiyyətdən müvəqqəti kənar edilmişdi. Ona görə bir sıra dövlətlər Fransa səfirləri ilə əlaqəni kəsmişdi. İnqilabın inkişafından qorxan Milli məclis kralın hakimiyyətini bərpa etdi. 1791-ci il konstitusiyasına əsasən kralın xarici ölkələrlə əlaqələr yaratmaq və müqavilələr bağlamaq hüququ saxlanıldı, lakin bu müqavilələr qanunverici orqanda təsdiq olunmalı idi.

XVIII əsrin sonunda Avropa siyasətində Rusiya və İngiltərə daha əhəmiyyətli rol oynayırdı. İngiltərə Fransanı özünə əsas rəqib sayırdı və Rusiya ilə ittifaq yaratmağa çalışırdı. Burada İngiltərənin məqsədi ondan ibarət idi ki, Fransa Rusiyanın müttəfiqi olmasın və Rusiyanı Türkiyəyə qarşı müharibədən çəkindirsin. Rusiyaya isə məhz Türkiyəyə qarşı müttəfiq lazım idi. Ona görə Rusiya İngiltərənin ittifaq təklifini qəbul etmədi.

1786-cı ildə İngiltərə Prussiya ilə Rusiyaya və Fransaya qarşı ittifaq müqaviləsi bağladı. 1786-cı ildə İngiltərə özü üçün əlverişli şərtlərlə Fransa ilə ticarət sazişi imzaladı. Lakin İngiltərə hər yerdə Fransanın nüfuzunu zəiflətməyə çalışırdı. Məsələn, Fransa ilə ittifaq yaratmış Hollandiya hökumətinin devrilməsini məhz Prussiyanın əli ilə İngiltərə təşkil etmişdi. İngiltərə ehtiyat edirdi ki, Fransa Hollandiyaya məxsus olan Seylonu və Kap koloniyasını ələ keçirər, çünki özü bu yerlərə göz dikmişdi. İngiltərə İsveç və Türkiyədən Rusiyaya qarşı istifadə et-

mək istəyirdi. Təsadüfi deyil ki, 1787-ci ildə Türkiyə, 1788-ci ildə isə İsveç Rusiyaya qarşı müharibəyə məhz İngiltərənin məsləhəti ilə başlamışdı.

İnqilabın ilk dövründə İngiltərə Fransanın daxili işlərinə müdaxilədən çəkinirdi. Lakin Belçikanın Fransa tərəfindən işğal təhlükəsi yarananda İngiltərə hər vasitə ilə Avstriyanı və Prussiyanı Fransaya qarşı müharibəyə sövq etməyə başladı. 1792-1793-cü illərdə İngiltərə Fransaya qarşı koalisiyanın əsas təşkilatçısı oldu.

Rusiya isə XIX əsrin 80-ci illərində bir tərəfdən İngiltərə ilə Fransa, digər tərəfdən isə Avstriya ilə Prussiya arasındakı ziddiyyətlərdən istifadə edib Avropa siyasətinə təsirini artırmağa çalışırdı. Rusiya Qara dəniz sahillərini ələ keçirmək, Polşada möhkəmlənmək və özünü İsveçin hücumundan qorumaq üçün Avstriya və Fransa ilə yaxınlaşmaq istəyirdi. Rusiya İngiltərə, Prussiya və Hollandiyaya qarşı Avstriya, Fransa və İspaniyanın iştirakı ilə dörd dövlətin ittifaqını yaratmaq istəyirdi. Lakin Fransa monarxiyasının zəifliyi, İspaniyanın Şərqi Avropa işlərinə qarışmaq istəməməsi və Fransada başlanan inqilab bu ittifaqın yaranmasına imkan vermədi.

Rusiya hökuməti inqilaba nifrət edirdi və Fransaya qarşı müharibəyə başlamağa hazır idi. Eyni zamanda Rusiya çalışırdı ki, bu müharibə digər Avropa dövlətlərinin qüvvəsi ilə aparılsın. Bu zaman Rusiyanın məqsədi ondan ibarət idi ki, digər Avropa dövlətləri Fransaya qarşı müharibə aparsın, Rusiya isə Avropanın başqa yerlərində fəaliyyət sərbəstliyi əldə etsin.

Avropa ölkələri Rusiyanın niyyətlərini bilirdilər və ona görə Fransa ilə müharibəyə başlamağa tələsmirdilər. Avstriya dövləti bu dövrdə inqilab nəticəsində özünü müstəqil elan etmiş Belçikanı öz nüfuz dairəsinə qaytarmaqla məşğul idi. Bu işdə İngiltərə və Hollandiya Avstriyaya kömək edə bilərdi, çünki inqilabın qələbəsi nəticəsində Belçikada Fransanın mövqeyinin güclənməsi İngiltərə və Hollandiyamn mənafelərinə zidd idi.

Prussiya isə Avstriyanın çətinliklərindən onu zəiflətmək üçün istifadə etməyə çalışırdı. Prussiya Rusiyanın Türkiyə ilə müharibə etməsindən istifadə edib Polşada yeni ərazilər ələ keçirməyə çalışırdı. Prussiya Rusiyanın Türkiyə və İsveçlə müha-

ribələrinin qurtarmasında vasitəçilik etmək və Krımın Türkiyə-yə, Karel bərzəxinin isə İsveçə keçməsini istəyirdi. Bu məqsəd-ləri həyata keçirmək üçün Prussiya 1790-cı ildə əvvəlcə İsveç, sonra isə Türkiyə ilə dostluq, ittifaq və qarşılıqlı yardım müqa-vilələri bağlamışdı.

Mənafelərin əksliyi nəticəsində 1790-cı ilin yayında Prus-siya ilə Avstriya arasında müharibə vəziyyəti yaranmışdı və hər iki dövlət İngiltərənin köməyinə ümid edirdi. Lakin İngiltərə nə Prussiyaya müharibə üçün vəsait vermək, nə də Avstriyanın müharibədə məğlubiyyətini istəmirdi. İngiltərə qitə dövlətləri-nin Avropada hegemonluq cəhdlərinin qarşısını alıb özü Avropa siyasətində baş hakim olmaq istəyirdi. Fransa hökuməti əsasən daxili problemlərin həlli ilə məşğul idi, Rusiya isə şimalda və cənubda müharibə aparırdı. İngiltərə Polşanın hesabına Baltik dənizinin sahilində Prussiyanın möhkəmlənməsini istəmirdi.

1790-cı ilin yayında Sileziyada Prussiya kralının təşəbbüsü ilə beynəlxalq konfrans keçirildi. Burada İngiltərə Avstriyadan tə-ləb etdi ki, Türkiyə ilə sülh müqaviləsi bağlasın və işğal etdiyi tor-paqları geri qaytarsın. Həm İngiltərə, həm də Hollandiya bildirdi ki, Avstriyaya qarşı müharibədə Prussiyaya kömək etməyəcək. İn-giltərə və Hollandiya tələb etdi ki, Avstriya və Prussiya barışsın və birlikdə Belçika inqilabına qarşı mübarizə aparsınlar. Avstriya həm də Türkiyə ilə müharibəni dayandırmalı idi. Avstriya imperatoru II Leopold bu tələblərlə razılaşdı. Müttəfiqsiz Avstriyaya qarşı mü-haribədə qalib gələ bilməyəcəyini başa düşən Prussiya öz hərbi planlarından imtina etməli oldu. 27 iyul 1790-cı ildə imzalanmış Reyhenbax sazişlərinə əsasən Avstriya Türkiyə ilə müharibəni da-yandırıb Rusiyaya kömək etməyəcəyini bildirdi. Prussiya isə Avst-riyaya qarşı müharibədən imtina etdi. İngiltərə və Prussiya Belçika üzərində hakimiyyəti bərpa etməkdə Avstriyaya kömək etməli idi. Əslində İngiltərə Avstriyanı və Prussiyanı Fransa inqilabına qarşı mübarizə üçün barışdırmışdı. 1790-cı ilin dekabrında Avstriya qo-şunu Brüsselə daxil oldu və Belçika inqilabını yatırdı.

Rusiyanın Qara dəniz sahillərində möhkəmlənməsini istə-məyən İngiltərə və Prussiya Rusiyaya öz vasitəçiliyini təklif et-di. Lakin Rusiya hökuməti onların tələblərini qəbul etmədi. İngiltərə və Prussiya Rusiyanı müharibə ilə hədələməyə başla-

dılar. Lakin İngiltərənin tacirləri və fabrik sahibləri Rusiya ilə iqtisadi əlaqələrdə maraqlı idi, öz hökumətlərinə təzyiq göstərdilər ki, Rusiya ilə müharibə etməsin.

İnqilaba nifrət etməsinə baxmayaraq II Yekaterina 1791-ci ildə İngiltərəyə qarşı Fransa ilə yaxınlaşmağı mümkün hesab etmişdi. Onun göstərişi ilə Parisdəki Rusiya səfiri Simolin qraf Miraboya iri məbləğdə rüşvət təklif etməli idi ki, Milli məclis Fransa donanmasını silahlandırsın və İngiltərə Rusiya ilə müharibəyə başlayarsa, bu donanmanı İngiltərəyə qarşı göndərsin. 1791-ci ilin yayında Şərq böhranı İngiltərənin diplomatik məğlubiyyəti və Rusiyanın qələbəsi ilə qurtardı.

1790-cı il Reyhenbax sazişləri ilə İngiltərə Fransaya qarşı koalisiyanın bünövrəsini qoydu. Lakin 1791-ci ilin iyuluna qədər koalisiyanın yaradılması yolunda heç bir ciddi tədbir görülmədi. Almaniyanın Koblents şəhərinə toplanmış Fransa mühacirləri Avropa ölkələrindən kömək istəyirdilər. Kraliça M. Antuanetta Avstriya imperatorundan kömək istəyirdi. Fransa kralı XVI Lüdovikin Avropa ölkələrinə Milli məclislə həmrəy olması haqqında göndərdiyi məlumat isə həqiqətə uyğun deyildi. Avstriya imperatoru II Leopold kral ailəsi Fransanı tərk edəndən sonra monarxiyanın bərpasına kömək göstərəcəyini vəd etmişdi. 1791-ci ilin iyununda kral və kraliça rus pasportları ilə Parisdən qaçmışdılar. Lakin aksiya uğursuz oldu. Kral Varenndə tutuldu və Parisə qaytarıldı. Fransada monarxiyanın nüfuzu daha da zəiflədi. Fransada respublika qurulması uğrunda mübarizə gücləndi. Bu hadisə 1791-92-ci illərdə Fransaya qarşı koalisiyanın yaranmasını sürətləndirdi. Bu koalisiya Avstriya və Prussiyanın iştirakı ilə yaradıldı.

Avstriya Rusiyaya və Prussiyaya etibar etmirdi və Fransa ilə müharibədən qorxurdu. Ona görə əvvəlcə problemlərin diplomatik yolla müzakirəsinə üstünlük verirdi və Fransaya qarşı ittifaq yaratmaq üçün Avropa dövlətlərinin konqresini çağırmağı təklif etdi. Fransa kraliçası bu təklifi müdafiə və konqresin tez çağırılmasını tələb etdi.

1791-ci ilin iyulunda Avstriya və Prussiya Fransa inqilabına qarşı birgə fəaliyyət haqqında razılığa gəldilər və Avstriya imperatoru II Leopold digər Avropa hökumətlərinə konqres ke-

çirmək təklifi ilə müraciət etdi. Prussiya kralına göndərdiyi məktubda II Leopold yazmışdı ki, əvvəlcə Fransaya inqilabı dayandırmağı təklif etmək, təklif qəbul olunmazsa beynəlxalq konqres keçirmək və Fransaya qarşı silahlı müdaxiləyə başlamaq lazımdır. Lakin 1791-ci ildə II Leopoldun planlarını həyata keçirtmək mümkün olmadı.

İngiltərə və Rusiya Avstriyanın təklifinə cavab vermədi. 1791-ci ilin mayında Polşada baş verən çevrilişlə əlaqədar Rusiya Fransaya qoşun göndərmək istəmirdi və II Yekaterina digər Avropa dövlətlərinin Fransaya qarşı koalisiya yaratmasına çalışırdı. II Yekaterina İsveç kralı III Qustava təklif etdi ki, Fransaya qarşı səlib yürüşünə başçılıq etsin. İsveçin nüfuzunu artırmaq və Fransadan yeni kreditlər almaq istəyən III Qustav Rusiyanın təklifini qəbul etdi.

1791-ci ilin oktyabrında İsveç Rusiya ilə ittifaq bağladı və Rusiya ona donanma və quru qoşunları ilə kömək edəcəyini bildirdi. Fransa kraliçası ilə gizli yazışan III Qustav müalicə adı ilə Axen şəhərinə gedib Fransaya qarşı yürüş təşkil etməklə məşğul oldu. II Yekaterina Avstriya və Prusiyanın diqqətini Polşadan yayındırmaq üçün onları Fransaya qarşı müdaxiləyə başlamağa tələsdirdi. Lakin İsveç kralı Axendən qayıdandan az sonra bir zadagan tərəfindən öldürüldü.

1791-ci ilin avqustunda Saksoniyadakı Pilnits qəsrində Avstriya və Prussiya krallarının görüşü oldu və 27 avqustda onlar «Pilnitsk bəyannaməsi»ni imzaladılar. Sənəddə deyilirdi ki, Prussiya və Avstriya Fransada XVI Lüdovikin hakimiyyətini bərpa etmək üçün birgə fəaliyyətə hazırdır. Lakin Prussiya və Rusiyaya etimad bəsləməyən Avstriya hələ Fransaya qarşı mübarizəyə başlamaq fikrində deyildi. II Leopold bilirdi ki, Rusiya və Prussiya Polşanı ikinci dəfə bölmək istəyirlər və o, Fransaya görə bu bölgüdən kənarda qalmaq istəmirdi. 7 fevral 1792-ci ildə Avstriya Prussiya ilə ittifaq müqaviləsi bağladı. Onların hər biri Fransaya qarşı 20 min əsgər göndərməli idi. Prussiya kralı Elzası, Avstriya isə Belçika torpaqlarının hamısını ələ keçirtmək niyyətində idi.

1791-ci ilin sentyabrında Fransa kralı XVI Lüdovik konstitusiyanı imzaladı və yenə Avropa dövlətlərinə Milli məclislə

həmrəy olduğunu bildirirdi. Lakin kraliça Antuanetta Avropa krallarına yazdığı gizli məktublarda XVI Lüdovikin öz fəaliyyətində azad olmadığını qeyd edirdi.

1791-ci ilin oktyabrında Fransada Qanunverici məclis fəaliyyətə başladı. Müharibə təhlükəsi artırdı. Kralın diplomatik əlaqələr vasitəsilə əksinqilabi müdaxilə təşkil etməsinin qarşısını almaq üçün Qanunverici məclis kralı xarici işlər nazirini dəyişməyə məcbur etdi. Qanunverici məclisin ehtiyat etməsi təsadüfi deyildi. Krala yaxın olan bir sıra aristokratlar gizli komitə yaradıb əksinqilabi çevriliş hazırlamaqda ona kömək edirdilər. Kral gizli şəkildə öz məqsədləri üçün xarici işlər nazirliyinin fondlarından çoxlu vəsait götürürdü.

1791-ci ilin payızında Qanunverici məclis xarici işlər nazirliyinin fəaliyyətinə nəzarət etmək və xarici dövlətlərlə aparılan mühüm yazışmalarla tanış olmaq üçün 12 nəfərdən ibarət Diplomatik komitə yaratdı. Hər ay komitənin tərkibinin 1/3-i təzələnməli idi. Komitəyə jirondistlərin rəhbərləri də daxil edilmişdi.

Fransaya qarşı müharibə təhlükəsinin qarşısının alınması xarici siyasətin əsas məsələsi idi. Kral tərəfdarları xarici dövlətlərin Fransaya qarşı müharibəyə başlamasını istəyirdilər. Qanunverici məclisdə əsas rol oynayan felyanlar hakimiyyəti itirməmək üçün müharibənin əleyhinə çıxırdı. Lafayet başda olmaqla felyanların bir hissəsi Reyndəki mühacirlərə və Avstriyaya qarşı məhdud müharibəyə tərəfdar idi. Jirondistlər isə fəal xarici siyasət tərəfdarı olub Avropa dövlətlərinə qarşı müharibəyə başlamağı təbliğ edirdilər. Onlar belə hesab edirdilər ki, müharibə xalqın diqqətini daxili problemlərdən yayındıracaq və burjuaziyanın hakimiyyətini möhkəmləndirəcəkdir. M.Robespyerin və J.Maratın başçılıq etdiyi yakobinçilər isə müharibənin əleyhinə çıxış edir, inqilabın davam etməsinə çalışırdılar. Onlar Fransaya qarşı müdaxilə zamanı xalqı partizan müharibəsinə çağırmağı təklif edirdilər.

Felyanlar və jirondistlər Fransa diplomatiyasının başlıca vəzifəsini ölkəyə qarşı koalisiyanın yaranmasının qarşısını almaqda, Avstriya ilə Prussiyanı bir-birindən ayırmaqda görürdülər. Qanunverici məclis Avstriyanı Fransanın əsas düşməni he-

sab edirdi. Felyanlar və jirondistlər Prussiya ilə yaxınlaşmaq və onu bitərəfləşdirmək istəyirdilər. Onlar həmçinin Avstriya-Fransa müharibəsi zamanı İngiltərənin də bitərəfliyini arzulayırdılar. Lakin XVI Lüdovik və kraliça bu diplomatik cəhdləri pozdular. Avropa dövlətləri Qanunverici məclisin təkliflərinə münasibət bildirmədi, çünki Fransada mütləqiyyətin bərpasına çalışırdılar. 1792-ci ilin martında kral jirondistlərə yaxın olan general Dyumuryeni xarici işlər naziri təyin etdi.

Avstriyanı başlıca rəqib sayan Dyumurye onu məğlub etdikdən sonra Fransanın ondan asılı olan dövlətlər tərəfindən əhatələnməsini istəyirdi. Bu dövrdə Diplomatik komitəyə jirondist Brisso başçılıq edirdi. Dyumurye xarici işlər nazirliyindən bütün kral tərəfdarlarını qovmuşdu. Jirondistlərin diplomatiyaya dair hazırladıqları təlimatlarda deyilirdi ki, inqilabın diplomatiyası «Hüquq bəyannaməsi»ndəki prinsiplərə və müharibədən imtinaya əsaslanmalı, sadə, aydın və hər cür hiylədən kənar olmalıdır.

1792-ci ilin martında II Leopold öldükdən sonra Fransa ilə müharibənin qızğın tərəfdarı olan Frants Avstriyanın imperatoru oldu. Avstriya Prussiya ilə ittifaqı pozmaq və fransız mühacirlərinə kömək etməmək haqqında Fransa xarici işlər nazirliyinin tələbini rədd etdi. 20 aprel 1792-ci ildə Qanunverici məclis kralın təklifi ilə Avstriyaya müharibə elan etdi. Lakin müharibəyə hazır olmayan Fransa ordusunun Belçikaya yürüşü uğursuz oldu. Kraliçanın xahişi ilə Prussiya şahzadəsi hersoq Braunşveyqski manifest çap etdirdi ki, əgər kralın hakimiyyəti bərpa olunmasa Parisi dağıdacaq. Bu məlumat Fransada vəziyyəti kəskinləşdirdi.

Əksinqilabi koalisiyaya qarşı müharibənin gedişi inqilabın inkişafına böyük təsir göstərdi. Müharibədəki uğursuzluqlar və kralın xəyanəti monarxiyanın devrilməsinə təkan verdi. 10 avqust 1792-ci il üsyanı monarxiyanın ləğvi və Milli konventin çağırılması ilə nəticələndi.

Milli konvent ümumi seçki hüququ əsasında çağırıldı və Fransanı respublika elan etdi. Kral tərəfindən təyin edilən əvvəlki Nazirlər kabinetinin yerinə Konvent qarşısında məsuliyyət daşıyan İcraiyyə şurası təşkil olundu. Bu şurada xarici işlər naziri jirondist Lebren oldu. İcraiyyə şurasında ədliyyə naziri olan J.Danton xarici siyasət məsələlərinə əhəmiyyətli nüfuz edirdi.

Prussiya ordusunun Lonqvini və Verdeni tutmasından sonra yaranmış böhranlı vəziyyət tədricən yaxşılaşdı və 1792-ci ilin 20 sentyabrında Valmi döyüşündə Fransa ordusunun qələbəsindən sonra müharibənin gedişində dönüş yarandı. 1792-ci ilin sonuna qədər Fransa respublikasının ordusu ölkə ərazisini müdaxiləçilərdən təmizlədi, Savoyyanı, Nitsanı və Reynin sol sahilini işğal etdi.

Fransa ordusu tərəfindən tutulmuş ərazilərdə feodal qaydaları ləğv olunurdu. Fransa xalqı bu müharibəni ədalətli müdafiə müharibəsi sayırdı. Fransa burjuaziyası çalışırdı ki, digər xalqların qabaqcıl xadimləri onu müdafiə etsin. Jirondistlər təbliğat edirdilər ki, ordu Fransadan kənarda müharibəni Avropa xalqlarını azad etmək üçün aparır. 1792-ci ilin noyabrında konvent öz monarxlarını devirmək istəyən bütün xalqlara kömək haqqında dekret qəbul etmişdi.

1792-ci ilin dekabrında Konvent Fransa qoşunları tərəfindən tutulmuş ərazilərdə inqilabi hakimiyyət orqanlarının yaradılması və müharibənin xərclərini ödəmək üçün inqilab düşmənlərinin əmlaklarının müsadirəsi haqqında dekretlər qəbul etdi. Bu dekretlər «komalara sülh, saraylara müharibə» şüarı ilə həyata keçirilirdi. 1792-1793-cü illərdə Savoyya, Nitsa, Reynin sol sahili və Belçikanın bir hissəsi kommunalar üzrə xalq səsverməsi yolu ilə təntənəli şəkildə Fransaya birləşdirildi.

Fransa burjuaziyası Reyn çayını, Alp və Pireney dağlarını Fransanın «təbii sərhədləri» sayırdı. Lakin Fransanın nailiyyətləri möhkəm deyildi. Jirondistlər həm öz qüvvələrinə, həm də digər ölkələrdə inqilabın qısa müddətdə qələbəsinə ümid bəsləyirdilər. Jirondistlər Fransa daxilində ordunu yenidən qurmaq, silahlı qüvvələri və şəhərləri ərzaqla təchiz etmək, kənddə feodal mükəlləfiyyətlərini tam ləğv etmək üçün qətiyyətli tədbirlər həyata keçirmək istəmirdilər. Əksinə, geniş müharibə təbliğatı xalq kütlələrinin diqqətini daxili məsələlərdən yayındırmaq vasitəsi idi. Halbuki məhz daxili problemlərin həlli vasitəsilə Fransanın nailiyyətlərini möhkəmləndirmək və qüvvə nisbətini onun xeyrinə dəyişmək olardı.

Jirondistlər Fransaya qarşı yaradılmış koalisiyanı dağıtmaq üçün diplomatiyadan istifadə edir, müxtəlif aksiyalarla koalisiya

üzvləri arasında ziddiyyət yaratmağa çalışırdılar. Lebren və Danton əsasən Dyumuryenin siyasi və diplomatik planlarını həyata keçirirdilər. Onlar Avstriya ordusuna əsas zərbəni Belçikada vurmaq, sonra Belçikanı ya Fransaya birləşdirmək, ya da ondan asılı respublika vəziyyətinə salmaq istəyirdilər. Hollandiya da Fransaya tabe edilməli idi.

Jirondistlər Şimal dənizindən İtaliyaya qədər Fransa sərhəddindəki bütün respublikaların ondan asılı olmasını istəyirdilər. Onlar Prussiya ilə yaxınlaşmaq, onun bitərəf qalmasının əvəzində kompensasiya kimi Prussiyaya Avstriya torpaqlarının bir hissəsini vermək və koalisiyanın digər üzvlərini bitərəfləşdirmək niyyətində idi.

Lebren İsveç və Türkiyə ilə ittifaq bağlamaq, bu dövlətləri Rusiya ilə müharibəyə sövq edib II Yekaterinanın diqqətini Fransadan yayındırmaq istəyirdi. Bundan başqa, jirondistlər İngiltərə ilə sazişin mümkünlüyünə və bundan ötrü İngiltərədə parlament müxalifətinin qələbəsinə ümid bəsləyirdilər. Lebren İngiltərəyə təklif etmək istəyirdi ki, 1786-cı il ticarət müqaviləsi bərpa edilsin, İngiltərə Fransaya kredit versin və əvəzində Tabaqonu ona vəd edirdi. Fransa çalışırdı ki, İngiltərə İspaniya ilə müharibə etsin və bu iki dövlətin diqqəti Fransadan yayınsın.Ona görə Fransa İngiltərə ilə birlikdə Amerikadakı İspaniya müstəmləkələrinə hücum etmək üçün plan hazırlamışdılar. Jirondistlər və Danton başa düşmək istəmirdilər ki, Fransa ilə İngiltərə arasında barışmaz ziddiyyətlər mövcuddur. Fransa inqilabının nailiyyətləri İngiltərə üçün böyük təhlükə mənbəyi idi. Çünki Fransa, Belçika və Hollandiyada inqilabların qələbəsi Fransada ticarətin və sənayenin inkişafına, Fransanın Avropada hegemonluq etməsinə şərait yaradırdı.

Monarxiyanın devrilməsindən sonra dövlətlərin əksəriyyəti Fransa ilə diplomatik münasibətləri kəsmişdi. Yalnız İsveçrə, ABŞ, Danimarka və İsveç Fransaya münasibətdə düşmən mövqedə deyildi. 1792-ci ilin sentyabrında Taleyran ikinci dəfə Londona getmişdi. Lakin İngiltərə nazirləri onu qəbul etmədilər. Dyumurye Prussiya ilə danışıqlara başlamış, kralın köməkçisi əsirlərin dəyişdirilməsi ilə əlaqədar Parisə gəlmişdi. Avstriya ilə Prussiya arasında cüzi narazılıq yaranan kimi biri o birini

hədələyirdi ki, Fransa ilə münasibətlərini yaxşılaşdıracaq. Lakin 1792-ci ildə Fransanın Prussiya ilə münasibətlərinin yaxşılaşması mümkün deyildi. Çünki Prussiya kralı Fransada monarxiyanın bərpasını tələb edirdi və Fransadan Elzası almaq fikrində idi.

1793-cü ilin əvvəlində kral XVI Lüdovikin edamından sonra jirondistlərin Fransaya qarşı yaranmış koalisiyanı diplomatik yolla parçalamaq cəhdləri uğursuz oldu. Avropa dövlətlərinin əksəriyyəti Fransaya qarşı birləşmişdi və onunla saziş mümkün deyildi. Fransa inqilabınm nailiyyətləri İngiltərəni narahat edirdi. İngiltərə başa düşdü ki, Fransanın zəifləyəcəyinə, Avstriya və Prussiyanın qüvvələri ilə məğlub ediləcəyinə ümid bəsləmək olmaz. Ona görə İngiltərə Fransa əleyhinə koalisiyaya başçılıq etmək qərarına gəldi. Fransa ordusunun Belçikanı tutması və Hollandiyanı hədələməsi İngiltərə qarşısında inqilabın bütün Avropa ölkələrinə yayılması və Fransanın qüdrətinin artması kimi bir təhlükə yaratmışdı.

XVI Lüdovikin edamından sonra Fransanın səfiri Londondan qovulmuşdu. Jirondistlər və Danton Belçikadakı qələbədən ruhlanaraq İngiltərə ilə əlaqələri kəsmişdilər. Onlar İngiltərədən əvvəllər Fransaya etmiş olduğu pisliklərə görə qisas almaq üçün özlərini kifayət qədər güclü hesab edir və İngiltərədə parlament müxalifətinin qələbəsinə ümid bəsləyirdilər. Fransa qoşunlarına Hollandiyaya hücum etmək əmri verilmişdi.

1793-cü ilin fevralın 1-də Konvent İngiltərəyə müharibə elan etmişdi. İngiltərə Avropada müttəfiqlər axtarmağa başladı. İngiltərə birgə fəaliyyət haqqında Rusiya, Prussiya, Sardiniya və Neopolla müqavilələr bağlayıb onların hər birinə böyük məbləğdə kredit vəd etmişdi. İngiltərənin pulu və donanması Fransa inqilabının əsas düşməni idi. 1793-cü ilin martında İngiltərə, Avstriya, Prussiya, Rusiya, İspaniya, Hollandiya bəzi alman knyazlıqları, Sardiniya və Neopol Fransa əleyhinə koalisiyaya daxil idi.

Prussiya Elzas və Lotoringiyanı ələ keçirtmək və Fransaya qarşı müharibədə iştirakının əvəzi kimi Rusiyanı Polşanın yenidən bölüşdürülməsinə razı salmaq istəyirdi. Avstriya Fransadan Flandriyanı, Artuanı, Pikardiyanı, Almaniyadan Bavariyanı al-

maq və ya Bavariyanı Belçika ilə dəyişmək arzusunda idi. İspniya və Sardiniyanın da belə planları mövcud idi. İngiltərə isə Fransanın La-Manş sahilindəki strateji əhəmiyyətli Dünkerk limanını tutmaq fikrində idi. Bu planlar koalisiya üzvləri arasında ciddi ixtilaflara səbəb oldu. Avstriyanın Bavariyanı tutmasına razı olmayan Prussiya onunla qəti razılığa gələ bilmədi.

1793-cü ilin aprelində Antverpendə konfrans oldu. Konfransda Rusiya diplomatları da iştirak etmişdilər və Fransanın istənilən formada bölgüsünə razı olduqlarını bildirmişdilər ki, Avropa dövlətlərinin diqqətini Polşadan yayındırsınlar. Prussiya Fransaya qarşı müharibədə iştirakının haqqı kimi Polşanın ikinci dəfə bölüşdürülməsini tələb edirdi. II Yekaterina Polşanın ikinci bölgüsünə razılaşmalı oldu. Çünki 1792-ci ildə Valmi döyüşündəki məğlubiyyətdən sonra Prussiya bildirmişdi ki, əgər Polşada ona yeni torpaqlar verilməsə Fransaya qarşı müharibəni davam etdirməyəcək. Avstriya isə Fransa ilə müharibədə maraqlı idi, çünki Belçikanı geri almadan onu Bavariya ilə dəyişmək olmazdı.

1793-cü ilin yanvarında Rusiya və Prussiya Polşanın ikinci bölgüsü haqqında müqavilə bağladılar. Prussiya kralı söz verdi ki, Belçikanı qaytarmaqda Avstriyaya kömək edəcək. İkinci bölgüyə əsasən Ukrayna və Litva torpaqlarının bir hissəsi Rusiyaya, Dantsiq, Torn və Lozanna isə Prussiyaya verildi. Polşa seymi bu bölgünü təsdiq etdi.

1793-cü ilin yazında məlum oldu ki, koalisiya xeyli güclənib və Fransanın qələbələri möhkəm deyil. Avstriya ordusu 1793-cü ilin martında Fransa ordusunu məğlub edib Belçika ərazisinə daxil oldu. Prussiya ordusu isə Reynin sol sahilini ələ keçirdi. Xarici ordular yenə Fransa ərazisinə daxil oldular və Parisi tutub monarxiyanı bərpa etməyə hazırlaşırdılar.

Fransada əksinqilabı qiyamların sayı artdı. 1793-cü ilin yazında respublikanın vəziyyəti böhranlı idi. 6 aprel 1793-cü ildə Konvent İctimai Nicat Komitəsi yaradıb icra hakimiyyətini ona həvalə etdi. Komitədə xarici siyasət məsələləri ilə J.Danton və Barer məşğul olurdu. Hərbi məğlubiyyət Fransada yeni silahlı üsyan üçün şərait yaratdı.

İnqilabi diktaturanın qarşısını almaq üçün jirondistlər ölkədən kənarda inqilabi müharibə təbliğatından əl çəkib koalisi-

ya ilə təslim olmaq haqqında danışıqlar aparmaq istəyirdilər. Yakobinçilər isə sülh sözünü eşitmək belə istəmirdilər. Onlar düşmən üzərində qələbə üçün yeni inqilabi tədbirlər və ordunun yenidənqurulmasını tələb edirdilər. Ölkədə inqilabi diktatura qurulmasını istəməyən J.Danton yakobinçilərlə jirondistləri barışdırmağa çalışır və güzəşt əsasında sülh danışıqlarına səy göstərirdi.

1793-cü ilin yazında Konventdə «bataqlığın» bir hissəsi xarici siyasət məsələlərində jirondistlərdən ayrılıb J.Dantonun tərəfinə keçdilər. 1793-cü ilin aprelində Konvent Fransanın xarici ölkələrin daxili işlərinə qarışmaması haqqında dekret qəbul etdi. M.Robespyer isə düşmənlə danışıqlar təklif edənlər üçün ölüm cəzası tələb etdi. Onun tələbinə J.Danton belə bir düzəliş etdi ki, Fransa xalqının suverenliyini tanımaqdan imtina edən düşmənlərlə danışıqlar aparmaq istəyənlər ölüm cəzasına layiq görülsün və Konvent bu təklifi bəyəndi.

Diplomatik komitə danışıqlar aparmaq və digər diplomatik tədbirlər üçün 6 milyon livr pul ayırdı. J.Danton koalisiyasını dağıtmaq üçün xaricə agentlər göndərdi. J.Danton və Lebren bitərəf ölkələri Fransanın tərəfinə çəkməyə çalışsalar da, yalnız İsveç onunla danışıqlara razı olmuşdu. İsveçlə ittifaq müqaviləsinin lahiyəsi də hazırlanmışdı. Lakin Fransa ordusu cəbhədə məğlub olduğuna görə İsveç Fransa ilə ittifaq müqaviləsi imzalamadı.

Parisdə 31 mart - 2 iyun 1793-cü ildə olmuş xalq üsyanı nəticəsində ölkədə jirondistlərin hakimiyyəti devrildi və yakobin diktaturası qurulmağa başladı. J.Danton 1793-cü ilin iyulun 10-na qədər İctimai Nicat Komitəsinin tərkibində qaldı və koalisiyanı parçalamaq üçün diplomatik səylərini davam etdirdi.

31 may - 2 iyun 1793-cü il üsyanı Fransada orta və xırda burjuaziyaya arxalanan Yakobin diktaturasının qurulması ilə nəticələndi. Yakobinlərin diplomatiyası inqilabın nailiyyətlərinin qorunmasına və koalisiya üzərində tam qələbənin təmin olunmasına yönəlmişdi. J.Danton tərəfindən namizədliyi irəli sürülmüş Deforq xarici işlər naziri təyin olundu.

1793-cü ilin avqustunda özünü ingilis hökumətinin agenti kimi qələmə verən Matyus adlı bir nəfər Fransanın xarici işlər nazirliyinə İngiltərənin sülh şərtlərini təqdim etdi. Layihəyə

əsasən Fransa ordusu inqilab dövründə ələ keçirdiyi əraziləri tərk etməli, Tobaqonu İngiltərəyə verib kral ailəsini ölkədən köçürtməli idi. Deforq İctimai Nicat Komitəsinə bu barədə məlumat verdi. Komitə Matyusun həbs olunmasını əmr etdi. 1793-cü ilin dekabrında J.Danton başqa bir ingilis agentindən İngiltərə hökumətinin sülh damşıqlarına başlamaq qərarı haqqında məlumat aldı.

İngiltərə J.Dantonun hakimiyyətə gəlməsinə ümid edirdi. Komitənin agentlərinə Hollandiyada, İspaniya və Avstriyada sülh danışıqları haqqında təkliflər verilmişdi. 1793-cü ilin sonunda dantonçular «bataqlıq» burjuaziyası ilə tam yaxınlaşdılar. İnqilabın inkişafından qorxan və sülhə çalışan burjuaziya dantonçuları müdafiə edirdi və bu adamların bir qismi koalisiyanın xeyrinə təxribatla məşğul olurdu. Bəzi dantonçular inqilabi diktaturaya qarşı mübarizə əvəzində İngiltərədən pul alırdılar.

İngiltərə, Avstriya və Prussiya Fransaya inqilabi diktaturaya qarşı təxribat işləri ilə məşğul olmaq üçün çoxlu agent göndərmişdilər. İngiltərənin agentləri Fransa şəhərlərində əksinqilabi qiyamları maliyyələşdirirdi. Belə əməllərə cavab olaraq konvent bütün şübhəli xariciləri həbs etmək haqqında göstəriş vermişdi. İngiltərə və Avstriyanın hətta İctimai Nicat komitəsində agentləri var idi. Onları çaşdırmaq üçün M.Robespyer iki əməliyyat planı hazırlamağı tapşırmışdı: biri tamamilə gizli, digəri isə dəftərxana xidmətçiləri üçün; ikinci plan xarici agentləri çaşdırmaq üçün idi. Radikal yakobinçilər hər cür diplomatiyanı rədd edir, terrora və koalisiyaya qarşı barışmaz mübarizə aparırdılar. Radikal yakobinçilər inqilabın bütün Avropa ölkələrinə yayılmasına çalışırdılar. Eber və Şomett Fransanın həm də bitərəf ölkələrlə diplomatik və ticarət əlaqələrinin əleyhinə çıxış edirdilər.

1793-cü il konstitusiyası yakobinçilərin inqilabı diplomatiyasının prinsiplərini müəyyən etdi. Konstitusiyaya əsasən fransızlar bütün azad xalqların təbii müttəfiqləri hesab olunurdu. Fransa xalqı digər xalqların idarəetmə formalarına qarışmır və öz işlərinə kiminsə qarışmasına imkan vermirdi. Fransa azadlıq uğrunda mübarizə aparan şəxslərə öz ərazisində sığınacaq verməli, onun ərazisini işğal edən düşmənlərlə sülh bağlamamalı

idi. 1794-cü ildə Fransa ordusu ölkə ərazisini xarici müdaxiləçilərdən azad etmiş və yenə Belçika ərazisinə daxil olmuşdu.

Fransa burjuaziyası yeni ərazilər ələ keçirməyə, müstəmləkələrin istismarını gücləndirməyə çalışır və İngiltərə ilə ticarət-sənaye rəqabəti aparırdı. Fransa Polşanın üçüncü bölgüsündən sonra Avstriya ilə Prussiya arasında ziddiyyətlərin kəskinləşməsindən istifadə edirdi. 1795-ci ilin aprelin 5-də Fransa ilə Prussiya arasında Bazel sülhü imzalandı. Müqaviləyə görə Prussiya Reyn çayının sol sahilinin Fransaya birləşdirilməsi ilə razılaşdı. 1795-ci ilin iyulunda Fransa ilə İspaniya arasında sülh müqaviləsi imzalandı. Hollandiya Fransadan asılı olan respublikaya çevrildi. 1795-ci ilin oktyabrında Belçika Fransaya birləşdirildi.

1796-cı ilin aprelində Fransa ordusu general N.Bonopartın başçılığı ilə İtaliyaya hücum etdi. Fransa qoşunu əvvəlcə Pyemont ordusunu, mayın 10-da isə Avstriya ordusunu məğlub etdi və mayın 15-də Milana daxil oldu. 1796-cı ilin noyabrmda Arkol, 1997-ci ilin yanvarında isə Rivoli döyüşündə Avstriya ordusunu məğlub edəndən sonra Fransa qoşunu Venetsiya ərazisindən keçərək Avstriya ərazisinə daxil oldu.17 oktyabr 1797-ci ildə Kampo-Formio yaxınlığında Avstriya Fransa ilə sülh müqaviləsi imzaladı. Avstriya Belçikanın və Reyn çayının sol sahilinin Fransaya birləşdirilməsini tanıdı. Venetsiya, İstriya, Dalmatsiya Avstriyaya, İonik adaları isə Fransaya verildi. İtaliya və İsveçrə Fransanın hakimiyyəti altına düşdü. Kampo-Formio sülhü ilə Fransaya qarşı 1792-1793-cü illərdə yaranmış birinci koalisiya dağıldı. Yalnız İngiltərə dənizdə müharibəni davam etdirirdi. Direktoriya Britaniya adalarına desant çıxartmaq planını qəbul etmədi.

Direktoriya Misirə hərbi yürüş təşkil etdi. Misir Osmanlı imperiyasına məxsus idi. Misir Hindistana gedən yolun üzərində mühüm məntəqə idi, Misiri işğal etməklə Fransa həm də İngiltərəyə zərbə vurmaq istəyirdi. 1798-ci ilin mayında 38 min əsgər və zabit general N.Bonopart başda olmaqla Tulondan yola düşdü. Qahirədə Misir süvarilərini məğlub edən Napoleon Misirin böyük bir hissəsini özünə tabe edib Suriyaya qoşun göndərdi. Lakin Napoleon Suriyada ordusunun üçdə bir hissəsini itirib

Misirə qayıtdı. Abukir limanında ingilis admiralı Nelsonun eskadrası Fransa donanmasını məğlub etdi.

Fransanın Avropada və Yaxın Şərqə işğalçılıq siyasəti 1798-ci ildə ona qarşı ikinci koalisiyanın yaranmasına səbəb oldu. İkinci koalisiyaya İngiltərə, Rusiya, Avstriya, İsveç, Türkiyə və Neopolitan krallığı daxil idi.Əsas hadisələr İtaliya ərazisində cərəyan edirdi. A.Suvorovun komandanlığı ilə Rusiya və Avstriya qoşunları 1799-cu ilin iyun və avqust aylarında Şimali İtaliya ərazisində Fransa qoşunlarını məğlub etdilər. Rusiya eskadrası isə İonik adalarından Fransa əsgərlərini qovdu. Fransa ordusu Reyn sahilindəki döyüşlərdə də məğlubiyyətə uğradı. Lakin 1799-cu ilin payızında I Pavel rus qoşunlarını İtaliyadan geri çağırdı və Fransanın hərbi vəziyyəti yaxşılaşdı. Hərbi əməliyyatlar Fransanın daxili siyasi vəziyyətinə böyük təsir göstərdi. Direktoriya rejiminin vəziyyəti daha da çətinləşdi.

XVIII əsrin əvvəlində Rusiyanın xarici siyasəti qarşısında dayanan əsas vəzifə Baltik və Qara dəniz sahillərinə çıxmaq idi. Bu dövrdə Qara dənizdə Türkiyənin mövqeləri möhkəm idi. I Pyotr Avstriya, Venetsiya və Rеç Pospolita ilə birlikdə Türkiyəyə qarşı mübarizəni davam etdirirdi. I Pyotr Krımı qurudan ələ keçirtmək fikrindən əl çəkdi və əvvəlcə Azov dənizində möhkəmlənmək qərarına gəldi.Birinci yürüş nəticə vermədi,1696-cı ildəki ikinci yürüş zamanı ruslar Azov qalasını ələ keçirdilər.

Rusiyanın müttəfiqləri Türkiyə ilə sülh bağlanmasını təklif edirdilər. 1697-ci ildə Rusiya Avstriya və Venetsiya ilə üç illik müqavilə imzalamışdı. Tərəflər gizli sülh imzalamamalı və hərbi əməliyyatlarını əlaqələndirməli idi. 1697-ci ildə I Pyotrun daxil olduğu «böyük səfirlik» Türkiyəyə qarşı ittifaqı genişləndirmək və möhkəmləndirmək məqsədilə Qərbi Avropada olmuşdu. Lakin beynəlxalq vəziyyətlə əlaqədar bu vəzifənin həyata keçirilməsi mümkün deyildi. Qərbi Avropa dövlətlərinin diqqəti İspaniya hadisələrinə yönəlmişdi, ona görə Türkiyəyə qarşı yeni müttəfiq tapmaq çətin idi.

Avstriya Türkiyə ilə sülh müqaviləsi imzalamışdı. Rusiya 1698-1699-cu illərdə Karlovitsı konqresində iştirak etmişdi. Konqresdə Avstriya, İngiltrə və Hollandiyanın səfirləri Türkiyə ilə müharibəni davam etdirməyin əleyhinə çıxış etdilər. İngiltə-

rə və Hollandiya çalışırdı ki, Avstriyanı «ispan məsələsi»nə cəlb etsinlər. Onlar Kerçin Rusiyaya birləşdirilməsi tələbini müdafiə etmədilər. Konqresdə Avstriya, Venetsiya və Polşa Türkiyə ilə sülh müqaviləsi bağladılar, Rusiya isə iki illik barışıq imzaladı.

Rusiya başa düşdü ki, belə şəraitdə Qara dənizə çıxmaq çətin olacaq. Ona görə I Pyotr Baltik sahilindəki rus torpaqlarını İsveçdən geri almaq qərarına gəldi. Avropada beynlxalq vəziyyət bu planın həyata keçirilməsi üçün əlverişli idi. Qərbi Avropanın güclü dövlətləri olan Fransa, İngiltərə, Avstriya, Hollandiya «ispan irsi» uğrunda müharibəyə hazırlaşırdılar və Baltik sahilindəki mübarizəyə qarışmaq imkanları məhdud idi.

İsveçdən narazı olan Polşa, Danimarka, Prussiya və Saksoniya Rusiyanı müdafiə edirdilər. 1698-1699-cu ildə İsveçə qarşı koalisiya haqqında Rusiya həmin dövlətlərlə müqavilələr imzaladı. 1699-cu ildə Danimarka və Polşa ilə bağlanmış müqavilələri Rusiya tarixində ilk dəfə dövlət başçısı imzalamışdı. Belə ki, əvvəllər müqavilələri səfirlər imzalayırdı və sənədə dövlətin möhürü vurulurdu.

I Pyotr Türkiyə ilə danışıqları davam etdirdi. 1700-cü ildə İstanbulda Türkiyə ilə Rusiya arasında müqavilə bağlandı. Müqaviləyə görə Azov qalası Rusiyaya verildi və Rusiya daha Krım xanlarına xərac verməməli idi. Müqavilə bağlanandan bir gün sonra Rusiya 1700-cü ilin avqustun 19-da İsveçə müharibə elan etdi.

1700-cü ilin avqustun 18-də Danimarka İsveçlə müqavilə bağlayıb koalisiyadan çıxmışdı. Narva məğlubiyyəti ilə əlaqədar Rusiyanın vəziyyəti çətinləşdi. Sonra İsveç kralı XII Karl Polşada II Avqustun qoşunlarını təqib etməklə məşğul oldu. Rusiya ordusu Fin körfəzində bəzi yerləri İsveçin əlindən aldı və 1703-cü ilin mayında orada Peterburqun əsası qoyuldu. Məğlub olan II Avqust Varşavanı tərk etdi və S.Leşinski Polşa kralı oldu. Polşa Rusiya ilə ittifaq müqaviləsindən imtina etdi.

1706-cı ilin sonunda Rusiya çalışdı ki, İngiltərə və Hollandiya İsveçlə sülh bağlamağa vasitəçilik etsin və əvəzində «ispan irsi» uğrunda müharibədə onların tərəfində çıxış etməyi vəd etdi. İngiltərə və Hollandiya bu dövrdə hələ Rusiyanın qüvvəsinə

inanmırdılar və həm də XII Karlın narazı qalmaması üçün vasitəçilik etmək istəmirdilər. I Pyotr İsveçin vəziyyətini çətinləşdirmək üçün bir sıra diplomatik tədbirlər həyata keçirdi. Məsələn, I Pyotr Polşada müxalifətə kömək edirdi, Azovda hərbidəniz qüvvələrini nümayiş etdirərək Türkiyədən Şimal müharibəsinə qarışmamaq vədini almışdı.

Türkiyə sultanı Krım xanına İsveçə və Ukrayna getmanı Mazepaya kömək göstərməyi qadağan etmişdi. Təsadüfi deyil ki, 1709-cu ilin iyununda Poltava döyüşündə XII Karla Polşa, Krım və Türkiyə kömək etmədi. Poltava döyüşündəki qələbədən sonra Rusiyanın mövqeləri möhkəmləndi. II Avqust Polşa kralı, Danimarka yenə Rusiyanın müttəfiqi oldu. 1714-1715-ci illərdə Prussiya və Hannover İsveç əleyhinə koalisiyaya qoşuldular.

Bir sıra dövlətlər Avropada qüvvə tarazlığının pozulmasını istəmirdilər. İngiltərə və Hollandiya Rusiyanın Pribaltikada həddən artıq güclənməsini istəmirdi. Fransa Türkiyəni Rusiyaya qarşı müharibəyə sövq edirdi.1710-cu ilin oktyabrında Türkiyə Azovun qaytarılması tələbi ilə Rusiyaya müharibə elan etdi. I Pyotr Türkiyə sultanının vassalı olan Moldova və Valaxiya ilə müqavilə bağladı. Lakin ruslar məğlub olub Azovu qaytardılar.

Rusiyanın Danimarkadan İsveçə desant çıxartmaq planı İngiltərəni narahat edirdi. İngiltərə I Pyotrun nəzərinə çatdırdı ki, o İsveçin darmadağın edilməsinə imkan verməyəcək. I Pyotr Fransa ilə əlaqə yaratmaq üçün Parisə (1717) getmişdi. Nəticədə Rusiya, Fransa və Prussiya arasında Amsterdam sazişi imzalandı. Onlar bir-birlərinin mülklərinə təminat verirdilər. Fransa daha İsveçə maliyyə yardımı etməməli idi. Fransa Rusiya ilə İsveçi barışdırmaq üçün vasitəçilik etməli idi.

1718-ci ildə Rusiya ilə İsveç arasında Aland adalarında danışıqlar başlandı, lakin XII Karlın ölümündən sonra yenə müharibə davam etdi. İngiltərənin səyləri ilə Danimarka, Prussiya və Hannover İsveçlə sülh imzaladılar. 1718-ci ilin yanvarında Avstriya, Saksoniya və Hannover Rusiyaya qarşı müqavilə bağladılar. İngiltərə 1719, 1720 və 1721-ci ildə Baltikə donanma göndərib rus donanmasına hücum etməyi tapşırmışdı. Rusiya çalışırdı ki, ingilis tacirlərini maraqlandırsın, İspaniya ilə İngil-

tərəyə qarşı ittifaq yaratsın. Rusiya həm də Stüartlar sülaləsi ilə danışıqlar aparırdı.

1721-ci ilin mayında Rusiya və İsveç arasında Niştadt sülhü imzalandı. Rusiya Baltikə çıxış əldə etdi, Kareliyanın bir hissəsini aldı. Qələbə Rusiyanın beynəlxalq nüfuzunu artırdı.

Şimal müharibəsinin qurtarmasından sonra Rusiya cənubda fəal siyasət həyata keçirməyə başladı. Rusiya hesab edirdi ki, Türkiyənin Xəzərin qərb sahilində möhkəmlənməsi Rusiyanın cənub sərhədləri və şərq ölkələri ilə ticarəti üçün təhlükə yaradır. I Pyotr çalışırdı ki, İran Avropa ilə ticarətini Volqa çayı vasitəsilə aparsın. I Pyotrun Xəzər yürüşü 1722-1723-cü illərdə olmuşdur. 1723-cü ildə Rusiya ilə Səfəvilər dövləti arasında Peterburq müqaviləsi imzalanmış, Xəzərboyu əyalətlər Rusiyaya verilmişdi. 1724-cü ildə Rusiya ilə Türkiyə arasında bağlanmış İstanbul sülhünə əsasən Türkiyə Dərbənddən Rəştədək Xəzərsahili ərazilərin Rusiyaya keçməsi ilə razılaşdı.

Rusiya 1733-1735-ci illərdə «Polşa irsi» uğrunda müharibədə iştirak etdi. Fransa Türkiyəni Rusiya ilə müharibəyə sövq edirdi. Türkiyə XVIII əsrin 30-cu illərində İranla müharibə edirdi. 1735-1739-cu illərdə Rusiya ilə Türkiyə arasında müharibə oldu. Bu müharibədə Avstriya Rusiyaya kömək edirdi. 1739-cu ilin sentyabrında bağlanmış Belqrad müqaviləsi ilə Azov Rusiyaya qaytarıldı.

1741-1743-cü illərdə Rusiya yenə İsveçlə müharibə etdi. İsveç əvvəlki müharibədə məğlubiyyətin əvəzini çıxmaq istəyirdi. «Avstriya irsi» uğrunda müharibəyə başlayan Prussiya və Fransa çalışırdı ki, Rusiya İsveçlə müharibə etsin və onlara mane olmasın. Rusiya qalib gəlib Finlandiyanın bir hissəsini işğal etdi və İsveç Niştdat sülhünün şərtlərini təsdiq etdi.

Rusiya Yeddiillik müharibədə iştirak etmiş, 1768-ci ildə isə Türkiyəyə qarşı yeni müharibəyə başlamışdı. Prussiya Rusiyanı Polşanın bölgüsündə iştiraka tələsdirirdi. 1772-ci ildə Rusiya, Prussiya və Avstriya Polşanın bölüşdürülməsi haqqında müqavilə bağladılar, Belorusiyanın şərqi və Pribaltikanın bir hissəsi Rusiyaya verildi.

1774-cü ilin iyulun 10-da Rusiya Türkiyə ilə Kiçik Qaynarca sülhünü imzaladı. Müqaviləyə görə Krım və Kuban tatar-

larının Türkiyədən asılılığı ləğv olundu. Krımda bəzi yerlər Rusiyaya verildi. Rusiya gəmiləri Qara dəniz boğazlarından sərbəst keçə bilərdi. Türkiyə Rusiyaya 4,5 milyon manat təzminat verməli idi. Valaxiya və Moldaviya Rusiyanın himayəsinə verildi.

1783-cü ildə imzalanmış Georgiyevsk müqaviləsi ilə Şərqi Gürcüstan Rusiyanın himayəsinə keçdi. 1793-cü ildə Polşa ikinci dəfə Rusiya ilə Prussiya arasında bölüşdürüldü. 1795-ci ıldə Rusiya, Prussiya və Avstriya tərəfindən Polşanın üçüncü bölgüsü həyata keçirildi. Qərbi Belorusiya və Litva Rusiyaya verildi və Polşanın dövlət müstəqilliyi ləğv edildi.

Fransa inqilabına qarşı mübarizə Rusiyanın xarici siyasətində mühüm yer tuturdu. Rusiya Fransa kralını müdafiə edirdi, onun 1791-ci ilin yayında Parisdən qaçmasına kömək etmişdi. Kralın edamı ilə bağlı Rusiya 1793-cü ilin yanvarında Fransa ilə əlaqələri kəsdi. Rusiya 1793-cü ıldə Prussiya və İngiltərə ilə Fransaya qarşı birgə əməliyyatlar haqqında müqavilə imzaladı, Avstriya da bu müqaviləyə qoşuldu.

1795-ci ildə Prussiya Fransa ilə barışdığına görə Rusiya hökuməti Fransaya qoşun göndərmədi. 1796-cı ildə Rusiya A.Suvorovun başçılığı altında Avstriyaya kömək üçün 60 minlik qoşun göndərmək istəyirdi, lakin I Pavel bunu etmədi.

I Pavel Fransaya qarşı mübarizəni davam etdirirdi. Rusiya 1798-ci ildə Fransaya qarşı yaradılmış ikinci koalisiyaya daxil olmuşdu. Bu koalisiyaya İngiltərə, Avstriya, Türkiyə də daxil idi. 1799-cu ildə A.Suvorovun başçılığı ilə rus qoşunu İtaliyaya göndərildi. 1799-cu ilin aprelində rus qoşunları Milan və Turini fransızlardan azad etdi.

Avstriya İtaliyada Rusiyanın təsirinin güclənməsini istəmirdi və rus qoşunlarının İsveçrəyə göndərilməsinə nail oldu. 1799-cu ilin avqustunda Rusiya qoşunları Alp dağlarını keçib İsveçrəyə gəldi. Lakin İngiltərə və Avstriya ilə ziddiyyətlərlə əlaqədar 1800-cü ilin yanvarında I Pavel rus qoşunlarına geriyə qayıtmaq əmri verdi. Fransa Rusiyanı İngiltərəyə qarşı öz tərəfinə çəkdi. Lakin 1801-ci ilin martında hakimiyyətə gələn I Aleksandr Fransa ilə əməkdaşlığı davam etdirmədi.

## § 2. ABŞ-ın yaranmasının beynəlxalq münasibətlərə təsiri

XVIII əsrin 70-ci illərində Şimali Amerikanın Atlantik okeanı sahilindəki müstəmləkələr İngiltərəyə qarşı müharibəyə başladılar. Çünki başqa yolla metropoliyanın hakimiyyətinə son qoyub, müstəqil dövlət yaratmaq mümkün deyildi. İngiltərə Şimali Amerikadakı müstəmləkələrdə sənaye və ticarətin inkişafını ləngidirdi, həm də məhsuldar torpaqlar İngiltərə kralına məxsus idi. Səkkiz il (1775-1783) davam edən müharibə nəticəsində müstəmləkələr metropoliyanın zülmündən azad oldu. 4 iyul 1776-cı ildə Qitə konqresinin qəbul etdiyi «İstiqlaliyyət bəyannaməsi»ndə ABŞ-ın yaradılması elan olundu. Əvvəlcə ABŞ-da xarici siyasətə Qitə konqresinin plenumu baxırdı. 1774-cü ilin sentyabrında Filadelfiyada fəaliyyətə başlayan birinci konqres xarici ölkələrdən kömək istəməyə cəsarət etmədi. 1775-ci ilin noyabrında konqres xarici işlərə baxan gizli müxbir komitəsi yaratmışdı. Bu komitə 1777-ci ilin aprelində xarici işlər üzrə komitəyə çevrildi. 1781-ci ildə konqresin xarici işlər departamenti yaradıldı. 1789-cu ildən konstitusiyaya əsasən xarici siyasətlə məşğul olan idarə Dövlət departamenti adlanır. Bu idarəyə dövlət katibi rəhbərlik edir.

1776-cı ilin yanvarında konqres gizli komitəyə 40 min dollarlıq məhsul satıb bir o qədər də almağa icazə vermişdi. Tapşırıqda deyilirdi ki, guya bu məhsullar hindular üçün alınır, əslində isə Amerika ordusu üçün silah və hərbi sursat alınırdı.

1763-cü ildən Fransa kralının Şimali Amerikada gizli agentləri fəaliyyət göstərirdi. Onlar Fransa kralına müstəmləkələrdəki vəziyyət haqqında məlumat göndərirdilər. 1775-ci ilin sonunda Filadelfiyaya iki Fransa taciri gəlmişdi. Amerikalılar onlarla gizli yolla Fransadan silah almaq haqqında müqavilə bağlamışdılar.

1776-cı ilin martında gizli müxbir komitəsi konqresin üzvü S.Dini öz gizli agenti kimi Fransaya göndərmişdi. O, Fransanın ABŞ-a hərbi yardımını təmin etməli idi. S.Din özü ilə gətirdiyi məktubu B.Dubur adlı bir alimə verməli və onun vasitəsi ilə Fransanın xarici işlər naziri Ş.Verjen ilə əlaqə yaratmalı idi.

S.Din nazirlə görüşüb Fransadan kömək istəməli, sonra Hollandiyaya getməli idi.

Fransanın burjuaziyası, liberal zədaganları və qraf Ş.Verjen amerikalılara rəğbətlə yanaşırdı. Ş.Verjen «məqsədə çatmaq üçün bütün vasitələr yaxşıdır» ideyasının tərəfdarı idi. Ş.Verjen deyirdi ki, «tərəf-müqabilə sübut etmək lazımdır ki, yalnız onun qayğısına qalırsan, öz mənafelərini düşünmürsən. Qarşı tərəf buna nə qədər inansa öz məqsədinə çatmaq bir o qədər asandır». Ş.Verjen ABŞ-ı Fransanın köhnə düşməni olan İngiltərənin təbii rəqibi hesab edirdi və Yeddiillik müharibədə Fransanın məğlubiyyətinin əvəzini çıxmaq tərəfdarı idi. Fransa ABŞ-ın tərəfində müharibəyə qoşulmaqla İngiltərəni zəiflədib Kanadanı geri almaq, Vest-Hindi qaytarmaq, dəniz ticarətini genişləndirib Fransanın Avropada nüfuzunu möhkəmləndirmək niyyətində idi. Fransa 1775-ci ildən ABŞ-a gizli kömək edirdi, amma hər iki tərəfin zəifləməsinə çalışdığına görə müharibəyə birbaşa müdaxilə etməyə tələsmirdi. Fransa hökuməti amerikalılarla əlaqə saxlamağı yazıçı Bomarşeyə tapşırmışdı. Kralın qadağan etməsinə baxmayaraq gənc zabit Lafayet öz vəsaiti ilə gəmi düzəltdirib ABŞ-a getmişdi. Bomarşe bütün məsələlər haqqında S.Dinə məlumat vermişdi, yalnız Fransa hökumətinin gizli agenti olduğunu deməmişdi və bu zaman düz hərəkət etmişdi. Çünki S.Din ona deyilənləri konqresin Fransada gizli agenti olan E.Bankrofta çatdırırdı, E.Bankroft isə həm də İngiltərə hökumətinin gizli agenti idi.

İngiltərə ilə düşmən olan İspaniya ABŞ-a kömək edirdi. İngiltərə Fransaya etirazını bildirdi və ABŞ-a hərbi yardım daşıyan gəmiləri ələ keçirməyə çalışırdı.

Müstəqil dövlətin yaradılması elan edildikdən sonra ABŞ hökuməti Fransaya rəsmi nümayəndə göndərmək imkanı əldə etdi. ABŞ-ın Fransada ilk səfiri uzun müddət İngiltərədə müstəmləkələri təmsil etmiş və Avropada yaxşı tanınan V.Franklin oldu. V.Franklin Fransa hökuməti və Parisdəki diplomatik korpusla yaxşı münasibətlər yaratdı. V.Franklinin əsas vəzifəsi Fransanı İngiltərəyə qarşı ABŞ-ın tərəfində müharibəyə cəlb etmək idi.

23 dekabr 1776-cı ildə Parisdəki ABŞ nümayəndəliyinin Fransa xarici işlər nazirinə göndərdiyi sənəd ABŞ-ın ilk diplomatik notası hesab olunur. ABŞ Fransaya həm ticarət, həm də ittifaq müqaviləsi bağlamağı təklif etmişdi. 1776-cı ildə Fransa ABŞ-a üç milyon livr pul verdi. Fransa həm də müstəmləkələrin əhalisini qanuni monarxa qarşı qiyamçı hesab edirdi. Bomarşe Fransa kralı XVI Lüdovikə göndərdiyi məktubda yazmışdı ki, ABŞ-a hərbi yardım onun qüvvəsini İngiltərənin qüvvəsi ilə bərabərləşdirmək üçün lazımdır.

ABŞ-ın vəziyyəti çətin idi. 1777-ci ilin avqustunda Fransa hökumətinə təqdim olunmuş memorandumda deyilirdi ki, Fransa daha səmərəli kömək göstərməsə ABŞ İngiltərə ilə sülh bağlayacaq. Fransa cavab verməyə tələsmədi. Konqres İngiltərə ilə danışıqlara başladı, lakin hərbi üstünlüyə malik olan İngiltərə danışıqları davam etdirmədi.

İngiltərə ordusu Filadelfiyanı işğal etdi və konqres Yorktauna köçdü. İngiltərə üsyanı tamamilə yatırmaq məqsədilə mərkəzi ştatlara general Burqoynun başçılığı ilə böyük ordu göndərdi. Lakin İngiltərə ordusu 1777-ci ilin oktyabrında Saratoqada mühasirəyə düşüb təslim oldu. 1777-ci ilin dekabrında müharibədə ABŞ-ın xeyrinə dönüş yarandı və sülh danışıqları bərpa olundu. Bu isə Fransaya sərf etmirdi.

1777-ci ilin dekabrında Ş.Verjen V.Franklinə bildirdi ki, Fransa hökuməti ABŞ-la ittifaq haqqında danışıqlara başlamaq istəyir. Fransanın əsas məqsədi müharibənin uzanması idi. ABŞ Fransanın məlumatına inanıb İngiltərə ilə danışıqları kəsdi. Sonra Ş.Verjen bildirdi ki, ABŞ-Fransa ittifaqına İspaniya da qoşulmalıdır. Lakin Fransa İspaniyanın ABŞ-la ittifaq məsələsinə münasibətini öyrənməmişdi.

6 fevral 1778-ci ildə Fransa hökuməti eşitdi ki, ABŞ İngiltərə ilə danışıqlara başlayıb, həmin gün V.Franklin Ş.Verjenlə ittifaq və ticarət müqaviləsi bağladı. İttifaq müqaviləsinə əsasən Fransa ABŞ-ın tərəfində İngiltərəyə qarşı müharibədə iştirak etməli idi. Müqavilə ilə Fransa ABŞ-ın müstəqilliyini tanıyan ilk ölkə oldu və onun suverenliyinə təminat verdi. ABŞ isə öz növbəsində Fransanın Şimali Amerikadakı mülklərinin toxunulmazlığına təminat verdi. İngiltərənin səfiri Parisi tərk etdi.

Fransa ABŞ-a çoxlu pul və silah verdi, Şimali Amerika sahillərinə 26 xətt gəmisindən ibarət eskadra göndərdi.

1778-ci ildə S.Dinin əvəzinə ABŞ-dan Parisə C.Adams göndərildi. C.Adams konqresin rəhbərlərindən biri idi və təklif etmişdi ki, ABŞ-ın əlaqə saxlamaq istədiyi bütün ölkələrə həmin ölkənin hökumətindən icazə istəmədən səfir göndərilsin.

İspaniya 1779-cu ildə İngiltərəyə qarşı müharibəyə qoşuldu, eyni zamanda müstəmləkələrin üsyanına və onların İngiltərədən ayrılmasına tərəfdar deyildi. Çünki Şimali Amerikadakı hadisələr Latın Amerikasına böyük təsir göstərmişdi. İspaniya ABŞ-ın səfirini geri qaytarmış və həmin səfir Berlinə göndərilmişdi. Berlində Prussiya kralı II Fridrix onu qəbul etməmişdi. Hollandiya yalnız 1782-ci ildə ABŞ-ın səfirini tanımışdı. Avstriyada ABŞ səfirini hökumət qəbul etməmişdi. 1781-ci ilin avqustunda Rusiyaya səfir təyin olunmuş F.Deyna öz köməkçisi ilə birlikdə Peterburqa gəlmişdi.

1778-ci ildə İngiltərənin Peterburqdakı səfiri Rusiya hökumətinə təklif etmişdi ki, ittifaq yaratsınlar və Rusiya Fransaya, ABŞ-a və Türkiyəyə müharibə elan etsin. Lakin II Yekaterina İngiltərə ilə ittifaqdan imtina etdi. 1779-cu ilin noyabrında İngiltərə yenə Rusiyadan kömək istədi, lakin üç aydan sonra rədd cavabı aldı.

ABŞ-ın səfiri Rusiyadan ABŞ-ı tanımağı xahiş edirdi, lakin Rusiya bildirdi ki, ABŞ-ı yalnız İngiltərə ilə sülh müqaviləsindən sonra tanıya bilər. Rusiya ABŞ-a görə İngiltərə ilə münasibətləri pisləşdirmək, həm də İngiltərənin Yaxın Şərqdə ona mane olmasını istəmirdi. II Yekaterina yaranmış şəraitdən istifadə edib İngiltərənin dənizlərdə ağalığını məhdudlaşdırmağa çalışırdı.

1780-ci ilin fevralında İngiltərə, Fransa və İspaniyaya Rusiyanın «Dəniz ticarətinin prinsipləri haqqında Bəyannamə»si göndərildi. Bəyannamədə deyilirdi ki, bitərəf gəmilər müharibə edən ölkələrin limanlarına sərbəst daxil ola bilər, bitərəf gəmilərdə asılı ölkələrin məhsullarını daşımaq olar və həmin gəmiləri Rusiya donanması müşayiət etməlidir. «Silahlı bitərəfliyin» elan olunması İngiltərənin öz düşmənlərini mühasirəyə almaq cəhdlərini pozdu. Rusiyanın təşəbbüsü ilə yaranmış Silahlı də-

niz bitərəfliyi liqasına Rusiya, Hollandiya, Danimarka, İsveç, Prussiya, Avstriya və Portuqaliya daxil idi. 1780-ci ildə Hollandiya İngiltərəyə qarşı müharibəyə qoşuldu. Rusiya dolayısı ilə ABŞ-ı müdafiə etdi. ABŞ silahlı bitərəflik prinsipini müdafiə etmişdi.

V.Franklin ABŞ konqresindən istefaya göndərilməsini xahiş etdi. Lakin konqres ona İngiltərə ilə sülh danışıqları aparmağı tapşırdı. 1781-ci ildə Rusiya və Avstriya müharibə edən dövlətlərə öz vasitəçiliyini təklif etdi. Tərəflər bu təklifi qəbul etdilər. Lakin İngiltərə həm Fransa, həm də ABŞ-la birbaşa danışıqlar aparırdı. 1781-ci ildə İngiltərə qoşunu Yorktaunda məğlubiyyətə uğradı və general Kornvallis təslim oldu. 1781-ci ildə İngiltərədə hakimiyyətə gələn Viqilər partiyası ABŞ-la sülh tərəfdarı idi.

1781-ci ildə ABŞ konqresi danışıqlar aparmaq üçün beş nəfərlik nümayəndə heyəti təşkil etdi. Fransa və İspaniya Şimali Amerikanın qərbində ərazi ələ keçirtmək istəyirdilər, ona görə də ABŞ İngiltərə ilə danışıqları Fransadan gizli aparırdı. 1783-cü ilin sentyabrın 3-də ABŞ-la İngiltərə arasında Parisdə sülh müqaviləsi imzalandı. İngiltərə ABŞ-ın müstəqilliyini tanıdı.

İngiltərə İspaniya və Fransa ilə bağladığı müqavilədə də ABŞ-ın müstəqilliyini tanıdığını bildirdi. Sonra ABŞ Kanadanı, Yeni Şotlandiyanı və Floridanı İngiltərənin əlindən almaq uğrunda mübarizəyə başladı. 1792-ci ildə E.Jene Fransanın ABŞ-da səfiri təyin olundu. O, ABŞ-a 1793-cü ilin aprelində gəlmişdi. 1794-cü ildə ABŞ bitərəflik haqqında bəyannamə nəşr etdirdi və Fransa ilə 1778-ci ildə bağlanmış müqavilə qüvvədən düşdü.

İngiltərəyə qarşı mübarizə ABŞ-ın xarici siyasətində mühüm yer tuturdu. ABŞ iqtisadi cəhətdən İngiltərədən asılı idi. 1790-cı ildə ABŞ-ın xaricdən gətirdiyi 15 milyon manatlıq məhsulun 13 milyonu İngiltərənin payına düşürdü, ABŞ-ın xaricə 20 milyon manat həcmində ixracının 9 milyonu İngiltərənin payına düşürdü. ABŞ-ı idarə edən federalistlər İngiltərə ilə əməkdaşlıq tərəfdarı idi. İngiltərə isə Şimali Amerikadakı müstəmləkələrinin itirilməsi ilə barışa bilmirdi.

İngiltərə ABŞ ərazisindən öz qoşunlarını çıxartmamışdı. 1793-cü ildə İngiltərə Fransaya qarşı müharibəyə başlayandan

sonra dənizdə ABŞ gəmilərini də saxlayırdı. 1794-cü ildə ABŞ-la İngiltərə arasında yeni müqavilə imzalanmışdı. Müqaviləyə görə ABŞ gəmiləri Şimali Amerikadakı İngiltərə mülklərinə gələ bilməzdi. İngiltərə gəmiləri isə ABŞ-ın bütün limanlarına daxil ola bilərdi. Bu müqavilənin mətni Vaşinqtona üç aydan sonra gətirilmişdi və ABŞ nümayəndələri müqavilənin mətnini tonqalda yandırmışdılar.

ABŞ prezidenti C.Vaşinqton 1796-cı ilin sentyabrında konqresə müraciətində yazmışdı: «Biz xarici dövlətlərlə ticarəti genişləndirib, onlarla bacardıqca az siyasi əlaqəyə girməliyik. Avropanın öz maraqları mövcuddur və onların bizə heç bir dəxli yoxdur. Ona görə ABŞ Avropadakı münaqişələrə qarışmamalı və Avropa dövlətləri qarşısında öz üzərinə heç bir öhdəlik götürməməlidir».

## § 3. XVII-XVIII əsrlərdə müstəmləkə siyasəti

İspaniya və Portuqaliya müstəmləkə işğallarına XV əsrin sonu — XVI əsrin əvvəlində başlamışdılar. Müstəmləkələrdən gətirilən vəsait İspaniyada krala və zadaganlara çatırdı, sonra isə bir hissəsi kilsəyə verilir, Avropadakı siyasətə xərclənir və xəzinə kimi yığılırdı.

XVI əsrin ortalarında Braziliyanın işğalını başa çatdıran Portuqaliya yerli hinduları sıxışdırır və oraya Afrikadan çoxlu zənci gətirirdi. Portuqaliyanın müstəmləkə siyasətində ticarət kapitalı əsas rol oynayırdı. Latın Amerikasının qalan ölkələri İspaniyanın müstəmləkəsinə çevrilmişdi. İspan müstəmləkəçiliyi ilkin kapital yığımına kömək etmirdi. Müstəmləkələrdən İspaniyaya gətirilən qiymətli metallar sənaye mallarının əvəzində İngiltərə və Hollandiyaya axırdı.

Hollandiyanın müstəmləkə siyasəti əsasən ilkin kapital yığımının tələbi ilə müəyyən olunurdu. XVII əsrdə Hollandiya ədviyyat ticarətinə nəzarət edən «Şərqi-Hind» və «Qərbi Hind» şirkətlərinin köməyi ilə, ordusunun, maliyyə vəsaitinin və donanmasının hesabına böyük ticarət-müstəmləkə dövlətinə çevrilmişdi.

XVII əsrin birinci yarısında hollandlar Cənub-Şərqi Asiyada, Hindistanda və Afrikanın qərb sahilində bir neçə dayaq məntəqəsi, o cümlədən 1652-ci ildə Afrikanın cənubunda Kap koloniyasını yaratdılar. Hollandiya Zond və Molukka adalarını İspaniya və Portuqaliyadan almış, 1658-ci ildə Seylon adasını ələ keçirmişdi, Yava adasını isə XVIII əsrdə tutmuşdu. Hollandiya Şimali Amerikada 1622-ci ildə Yeni Amsterdam koloniyasını yaratmış, 1667-ci ildə Surinamı işğal etmişdi.

XVI əsrdə dəniz yollarında ağalıq üstündə İspaniya və Portuqaliya ilə mübarizəyə başlayan İngiltərənin müstəmləkə siyasətində burjua inqilabından sonra yeni mərhələ başlamışdı. İngiltərə 1665-ci ildə Yamaykanı işğal etmişdi. 1636-cı ildə Vest-Hindi idarə etmək üçün İngiltərədə xüsusi orqan yaradılmışdı. İngiltərə hökuməti XVII əsrin ikinci yarısından başlayaraq müstəmləkə işğallarında fəal iştirak edirdi. İngiltərə öz müstəmləkələrinə Afrikadan çoxlu zənci gətirirdi. İngiltərə ilə Hollandiya arasında dəniz ticarəti və müstəmləkələrdə üstünlük uğrunda mübarizə gücləndi və XVII əsrin ikinci yarısında onların arasında üç «ticarət müharibəsi» oldu.

1652-1654-cü illərdə olmuş birinci müharibənin səbəbi İngiltərə parlamentinin 1651-ci ildə qəbul etdiyi «Gəmiçilik aktı» olmuşdu. Həmin akt Hollandiyanı xarici ölkələrin İngiltərə ilə ticarətində vasitəçilik hüququndan məhrum edirdi. Bu müharibədə Hollandiya məğlub olmuşdu.

1664-1667-ci illərdə olmuş ikinci İngiltərə-Hollandiya müharibəsi nəticəsində İngiltərə Yeni Amsterdamı Hollandiyadan alıb yerində Nyuyork koloniyasını yaratmışdı.1672-1674-cü illərdəki üçüncü müharibədə isə Fransa da İngiltərənin tərəfində iştirak etmişdi. XVIII əsrin əvvəllərindən beynəlxalq aləmdə Hollandiyanın ticarət-müstəmləkə üstünlüyünü itirməsi ilə əlaqədar müstəmləkə siyasətində İngiltərə — Fransa rəqabəti ön plana çıxmışdı.

İngiltərə Hindistanı əsasən Ost-Hind şirkətinin köməyi ilə işğal etmişdi. Benqal hakimi fransızlarla ittifaq yaratmışdı. 1756-cı ildə Benqal hakiminin qoşunu Kəlküttədə ingilis istehkamlarına hücum etmiş və sonra 146 nəfər ingilis əsgərini kiçik və qaranlıq bir otaqda səhərə qədər saxlamaqla çoxunu öldür-

müşdülər. İngiltərə bu hadisədən Hindistanda işğalları genişləndirmək üçün istifadə etdi. Qubernator Klayv Benqal qoşununu Kəlküttədən qovdu və Benqal ordusunun başçısı Mircəfərlə gizli danışıqlar apardı. Mircəfər hakimiyyətə ingilislərin köməyi ilə gəlmək istəyirdi və Klayva çoxlu pul vəd etmişdi. 1757-ci ilin iyunun 23-də Plessi döyüşündə Mircəfərin qoşunu ingilislərə qarşı vuruşmaqdan imtina etdi. Döyüş meydanından qaçan Benqal nəvabı Siracuddövlə öz əsgərləri tərəfindən öldürüldü. Hakimiyyətə gələn Mircəfər Ost-Hind şirkətinə çoxlu pul və torpaq verdi. Sonra Ost-Hind şirkəti hakimiyyəti Mircəfəri kürəkəninə verdi. Mircəfər üsyan etdi, məğlub olub Dehliyə qaçdı, ikinci dəfə Hindistana qayıdan Klayv Dehli imperatorunu inandırdı ki, böyük məbləğdə illik gəlir əvəzində Benqaliya üzərində hakimiyyətini Ost-Hind şirkətinə versin. Mircəfərin oğlu Benqala olan hüquqlarından imtina etdi və XVIII əsrin 60-cı illərinin sonunda 30 milyon əhalisi olan Benqaliya Ost-Hind şirkətinin nəzarətinə keçdi.

1775-ci ildə Aud knyazı özünü Ost-Hind şirkətinin vassalı elan etdi və Benares əyalətini ona verdi. İngilislər bilirdilər ki, hind knyazları qızıl-gümüş, qiymətli daş-qaş yığmağa meyllidirlər və hər vasitə ilə onların sərvətlərini ələ keçirməyə çalışırdılar. Qubernator Qastinqs Aud knyazının arvadını bir müddət sarayda ac saxlamaqla onun bütün sərvətini əlindən almışdı. İngiltərə burjuaziyası Hindistanın yalnız Ost-Hind şirkəti tərəfindən istismarından narazı idi. 1784-cü ildə qəbul edilmiş qanunla İngiltərə hökuməti Ost-Hind şirkəti üzərində nəzarətini gücləndirmişdi.

İngiltərənin Hindistanda müstəmləkə siyasətinə müqavimət göstərən əsas dövlət Maysor knyazlığı idi. Müstəqilliyini qorumaq üçün Maysor knyazlığı güclü ordu və Fransa ilə geniş əlaqələr yaratmışdı. 1767-1784-cü illərdə Maysorla Ost-Hind şirkəti arasında hərbi toqquşma kompromisə əsaslanan sülhlə qurtarmışdı, hər iki tərəf «günəş və ay mövcud olana qədər» həmin müqaviləyə əməl edəcəklərini bildirmişdi. Maysor hakimi Tipu-Sultan İngiltərəyə qarşı mübarizədə Fransa və Osmanlı imperiyasının köməyinə ümid bəsləyirdi. Lakin Rusiya ilə müharibəyə hazırlaşan Osmanlı imperiyası ona kömək vəd et-

mədi. İqtisadi və siyasi böhran keçirən Fransa Maysor knyazlığına kömək etmək iqtidarında deyildi. Heydərabad hakimi və maratx knyazları isə şirkət ilə müqavilə bağlamışdılar. Şirkət onlara Maysordan torpaq və sərvət vəd etmişdi. 1790-1792-ci illərdəki müharibədə Maysor knyazlığı məğlub oldu, ərazisinin bir hissəsini itirdi və qaliblərə xeyli təzminat verdi. 1795-96-cı illərdə ingilislər yeni müharibə törədib Maysorun paytaxtını ələ keçirdilər.

Çin güclü feodal imperiyası idi. XVIII əsrin ikinci yarısından Tsin sülaləsi ölkəni xarici aləmdən təcrid etməyə çalışırdı. 1757-ci ildə imperatorun göstərişi ilə Quançjoudan başqa Çinin bütün limanları xarici ticarət üçün bağlanmışdı. Təcrid siyasətindən məqsəd Çinə qarşı xarici təcavüzü çətinləşdirmək idi. Çin hakimləri istəmirdilər ki, xaricilər xalqın hökumətə qarşı narazılığından öz məqsədləri üçün istifadə etsinlər, pul xaricə axsın və ölkədə feodal qaydaları dağılsın. Çinin xaricdən iqtisadi asılılığı zəif idi. Çünki lazım olan məhsulların əksəriyyətini Çin özü istehsal edirdi. Çində xarici əlaqələrə imperator və ali hərbi şura baxırdı.

1793-cü ildə İngiltərənin nümayəndəsi Makartney Pekinə gəlmişdi ki, ticarət üçün digər limanların açılmasına nail olsun. İmperator onu qəbul etdi, lakin danışıqlar nəticəsiz oldu. 1816-cı ildə Pekinə gələn İngiltərə səfiri Amxersti Çin imperatoru qəbul etmədi.

Özünütəcrid siyasəti nəticəsində Çin hökuməti başqa dövlətlərin gücü, yeri və həyatı haqqında təsəvvürə malik deyildi. Qərb dövlətlərinə səfir göndərməyən Çin beynəlxalq vəziyyəti yaxşı bilmirdi. Təcrid siyasəti Çini hərbi cəhətdən zəiflədirdi.

XVI əsrdə Fransa Kanadanı işğal edib «Yeni Fransa» adlandırmışdı. 1608-ci ildə fransızlar tərəfindən Kvebekin, 1642-ci ildə Monrealın əsası qoyulmuşdu. 1682-ci ildə Fransa Luiziananı ələ keçirmiş, 1718-ci ildə Yeni Orleanın əsasını qoymuşdu. Afrikanın şərqinə və Hindistana fransızlar ilk dəfə XVII əsrin 30-cu illərində gəlmişdilər. 1714-cü ildən sonra Fransa Amerikaya qul gətirmək hüququnu itirmiş, Yeddiillik müharibə nəticəsində isə Şimali Amerika və Hindistanda bir sıra əraziləri İngiltərəyə vermişdi.



# IV FƏSİL

## XIX ƏSRİN BİRİNCİ YARISINDA BEYNƏLXALQ MÜNASİBƏTLƏRİN İNKİŞAFI

### § 1. Napoleonun müharibələri dövründə beynəlxalq münasibətlər

Konsulluq və Birinci imperiya dövründə Fransa Avropa dövlətlərinə qarşı fasiləsiz müharibələr aparmışdı. Fransanın əsas məqsədi yeni ərazilər işğal etmək, sonra isə həm Avropada, həm də bütün dünyada aparıcı rol oynamaq idi. Napoleon həm də Avropa ölkələrində feodal-mütləqiyyət qaydalarının ləğvinə çalışırdı. Avropanın İngiltərə, Rusiya, Avstriya və Prussiya kimi dövlətləri Fransanın məqsədlərinin həyata keçməsinə mane olmaq üçün ona qarşı bir neçə koalisiya yaratmışdılar.

Fransaya qarşı birləşmiş dövlətlərin həm də öz məqsədləri var idi, bu isə onların arasında çoxsaylı ziddiyyətlər yaradırdı. Məsələn, Rusiya və Avstriya Balkanlarda nüfuz uğrunda, Avstriya və Prussiya isə alman torpaqlarında hegemonluq uğrunda mübarizə aparırdılar. Napoleon Avropa dövlətləri arasında ziddiyyətlərdən bacarıqla istifadə edirdi. İngiltərə ilə Fransa arasında iqtisadi və siyasi rəqabət isə XIX əsrin əvvəllərində beynəlxalq münasibətlərin aparıcı xəttini təşkil edirdi.

1800-cü ildə Fransaya qarşı yaranmış ikinci koalisiya dağıldı. Rusiya müharibədən çıxdı, Avstriya öz ordusunu İtaliyadan çıxarmalı oldu.

N.Bonopart Fransanın yeni sərhədlərini tanımaq şərti ilə İngiltərə, Avstriya və Rusiyaya hərbi əməliyyatları dayandırmağı təklif etdi. Təbii ki, Napoleon bu zaman müttəfiqlər arasındakı ziddiyyətləri də nəzərə alırdı. Lakin Avropa dövlətləri Napoleonun təklifini qəbul etmədilər.

Müharibəni davam etdirən Fransa ordusu 1800-cü ilin iyunun 14-də İtaliyanın şimalında Marenqo döyüşündə Avstriya qoşununu məğlub etdi. 1801-ci ilin fevralın 9-da Fransa ilə Avstriya arasında Lünevil sülhü bağlandı. Müqaviləyə əsasən

Avstriya Belçikanın, Reynin sol sahilinin və Venetsiya əyalətinin bir hissəsinin Fransa tərəfindən işğalını tanıdı. Neopolitan kralı Florensiyada Fransa ilə sülh müqaviləsi imzaladı.

Napoleon Rusiyanı sülh danışıqlarına həvəsləndirmək üçün 1799-cu ilin əməliyyatları zamanı əsir götürülmüş rus əsgərlərini qaytarmaq haqqında göstəriş vermişdi. 1800-cü ilin sentyabrında Malta adasındakı fransız qarnizonu ingilislərə təslim oldu. Rusiya yaxşı bilirdi ki, İngiltərə onu Aralıq dənizində sıxışdırmağa çalışır. Maltanın tutulmasından sonra Rusiya İngiltərə ilə əlaqələri kəsib ona qarşı Danimarka, İsveç və Prussiyanın iştirakı ilə yeni silahlı bitərəflik liqası yaratmağa başladı. Eyni zamanda Parisdə Rusiya ilə Fransa arasında diplomatik əlaqələrin bərpası haqqında danışıqlar başlandı. 1801-ci ilin martında Rusiyada hakimiyyət dəyişikliyi və Kopenhagen buxtasında Danimarkanın hərbi donanmasının ingilis eskadrası tərəfindən məğlub edilməsi bu danışıqları sürətləndirdi.

1801-ci ilin oktyabrında Fransa ilə Rusiya arasında sülh müqaviləsi və onun gizli əlavəsi imzalandı. Bu sənədlərdə deyilirdi ki, Rusiya Fransa ilə Sardiniya krallığı və bir sıra alman dövlətləri arasındakı danışıqlarda vasitəçilik edəcək. Fransa İonik adalarının Rusiya tərəfindən işğalını tanıdı. Fransa müqaviləyə görə Neopolitan krallığına hücum etməməli və Rusiya ilə birlikdə «dəniz azadlığı»nı təmin etməli idi.

Müttəfiqlərini itirən İngiltərə tənəffüs əldə etmək üçün Fransa ilə danışıqlara başlayıb 1802-ci ilin martın 27-də onunla Amyen sülh müqaviləsini bağladı. İngiltərə 1792-ci ildən sonrakı dövrdə Fransanın işğallarının nəticələrini tanıdı və bəzi müstəmləkələri ona qaytardı. İngiltərə öz qoşunlarını Maltadan çıxartmağa və Misri Türkiyəyə qaytarmağa razı oldu. Fransa əvəzində öz qoşunlarını Neopoldan, Romadan və Elba adasından çıxarmalı idi. Fransa və İngiltərə Avropada mövcud vəziyyəti saxlamağa çalışmalı, Fransa isə Misirə qarşı iddialarından əl çəkməli idi.

İngiltərə və Fransa məcburiyyət qarşısında bağladıqları Amyen müqaviləsinə əməl etmək fikrində deyildilər. İngiltərə çalışırdı ki, Fransa ilə «azad ticarət» prinsipi əsasında yeni ticarət müqaviləsi bağlasın. Fransa onun təklifini qəbul etmədi.



Fransa İngiltərəni və onun müstəmləkələrini işğal etmək planı hazırlamışdı. 1802-ci ilin payızında Parma, Pyemont və İsveçrə Fransaya birləşdirilmişdi. Napoleonun bütün tələblərinə baxmayaraq İngiltərə öz qoşununu Maltadan çıxartmadı. Fransa Yaxın Şərqə yeni müdaxiləyə hazırlaşırdı. 1803-cü ilin mayında İngiltərə ilə Fransa arasmda hərbi əməliyyatlar bərpa olundu. Fransa qoşunu Hannoverə daxil oldu. Rusiyanın İngiltərə ilə Fransanı barışdırmaq cəhdləri nəticəsiz oldu. Napoleon İngiltərə ərazisinə desant çıxarmağa hazırlaşırdı.

Rusiya başa düşürdü ki, təkcə diplomatik vasitələrlə Fransanın Aralıq dənizi hövzəsinə və Mərkəzi Avropaya müdaxiləsinin qarşısını almaq mümkün olmayacaq, Avropa dövlətlərinin iştirakı ilə müdafiə ittifaqlarının yaradılması zəruridir. 1804-cü ıldə Rusiya ilə Fransa arasında diplomatik münasibətlərin kəsilməsi Napoleon Fransasına qarşı Avropa dövlətlərinin üçüncü koalisiyasının yaradılmasını sürətləndirdi. Rusiya və İngiltərə 1805-ci ilin aprelin 11-də Peterburqda ttifaq müqaviləsi bağladılar.

Napoleon 1805-ci ilin martında özünü İtaliya kralı elan etmişdi. 1805-ci ilin iyun ayında Genuya və Lukka Fransaya birləşdirilmişdi. Napoleonun İtaliyadakı işğalları Avstriyanın mənafelərinə zidd idi və Avstriya 1805-ci ilin avqustunda İngiltərə-Rusiya ittifaqına qoşuldu. Rusiyanın müttəfiqləri olduğuna görə İsveç, Danimarka və Siciliya da üçüncü koalisiyada iştirak edirdilər.

1805-ci ilin sentyabrın 23-də Türkiyə Rusiya ilə ittifaq müqaviləsi bağlayıb koalisiyaya qoşuldu. Qara dəniz boğazlarını Rusiya və Türkiyə birlikdə qorumalı idi. Rusiyanın hərbi gəmiləri boğazlardan sərbəst keçirdi, qeyri-Qara dəniz dövlətlərinin hərbi gəmiləri isə keçə bilməzdi.

1805-ci ilin oktyabrın 21-də admiral Nelsonun başçılığı ilə ingilis donanması Trafalqar döyüşündə birləşmiş Fransa-İspaniya donanmasını məğlub etdi. Avstriya tərəfindən hücum təhlükəsini nəzərə alan Napoleon Britaniya adalarına hücumdan imtina edib əsas qüvvələrini Avstriya ordusuna qarşı yönəltdi. 1805-ci ilin oktyabrın 20-də Fransa ordusu Ulm döyüşündə Avstriya qoşununu məğlub etdi və Napoleon noyabrda Vyanaya daxil oldu. 1805-ci ilin dekabrın 2-də Fransa ordusu Austerlits

döyüşündə birləşmiş Avstriya və Rusiya qoşunlarını məğlub etdi. Bu qələbə nəticəsində İngiltərə qitədə öz müttəfiqlərini itirdi. Austerlits qələbəsi Prussiyanın mövqeyinə təsir göstərdi. 1805-ci ilin noyabrın 3-də bağlanmış müqaviləyə görə Prussiya Rusiya ilə birlikdə Fransaya qarşı çıxış etməli idi. Lakin Austerlits döyüşündən sonra Prussiya hökuməti qələbə münasibəti ilə Napoleonu təbrik etdi. Napoleonun tələbinə uyğun olaraq 15 dekabr 1805-ci ildə Prussiya ilə Fransa arasında ittifaq müqaviləsi imzalandı və Napoleon Hannoveri Prussiyaya verdi. 26 dekabr 1805-ci ildə Fransa ilə Avstriya arasında imzalanmış Presburq sülhünə əsasən Avstriya Fransanın Qərbi Avropada bütün işğallarını tanıdı, Fransaya Venetsiyanı, İstriyanı və Dalmatsiyanı, həmçinin 40 milyon təzminat, Tirolu isə Fransanın Almaniyadakı müttəfiqlərinə verdi. Avstriyanın Almaniya torpaqlarında hökmranlığına son qoyuldu.

1806-cı ilin avqustun 6-da Avstriyanın dövlət başçısı F.İosif alman imperatoru titulundan imtina etdi və Müqəddəs Roma imperiyası öz mövcudluğunu dayandırdı. 12 iyul 1806-cı ildə Fransanın himayəsi altında 16 alman dövlətindən ibarət Reyn ittifaqı yaradıldı. Bağlanmış ittifaq müqaviləsinə əsasən Reyn ittifaqının üzvü olan dövlətlər Fransa ordusuna əsgər göndərməli idi. Reyn ittifaqının protektoru Fransa imperatoru idi.

Napoleonun arzuları təkcə Avropada ağalıqla məhdudlaşmırdı. Fransa Yaxın və Orta Şərqdə, Adriatik dənizində və Balkanlarda möhkəmlənmək istəyirdi. Türkiyə sultanı III Səlim 1805-ci ildə Napoleonu Fransa hökmdarı kimi tanıdı və bildirdi ki, Fransa Türkiyənin köhnə və sadiq müttəfiqidir. 1806-cı ilin avqustunda İstanbula gələn Fransa nümayəndəsi general Sebastyan Türkiyə ilə Rusiyanın arasında münaqişə yaratmağa çalışırdı.

Fransa çalışırdı ki, Rusiya üçün Bosfor boğazı bağlansın və Dunay knyazlıqlarında Türkiyənin ağalığı bərpa olunsun. Türkiyə sultanı Moldaviya və Valaxiya hakimlərini dəyişmişdi. Ona görə cavab olaraq 1806-cı ilin sonunda Rusiya qoşunları Dunay knyazlıqlarını işğal etdi. 1806-cı ilin dekabrında Türkiyə Rusiyaya müharibə elan etdi. 1807-ci ilin əvvəlində Türkiyə İngiltərə ilə əlaqələri kəsdi. 1807-ci ilin yazında Napoleon İrana nümayəndə heyəti göndərmişdi.



Fransanın siyasəti Prussiyanı Rusiya və İngiltərə ilə yaxınlaşmağa məcbur edirdi. Fransa əleyhinə yaradılan koalisiyalara qoşulmaq istəməyən Prussiya Avstriyanın müharibə aparmasından istifadə edib Almaniyanın şimalında öz mövqeyini möhkəmləndirməyə çalışırdı. Lakin 1806-cı ildə Fransa ordusu Prussiya sərhədində dayanmışdı və Prussiya koalisiyaya qoşulmasa Fransaya qarşı tək müharibə aparmalı idi.

1806-cı ilin yayında Rusiya və Prussiya bəyannamə mübadiləsi yolu ilə hərbi ittifaq yaratdılar. İttifaqa İsveç də qoşuldu, bu dördüncü koalisiya idi. İngiltərə Prussiyaya kredit vəd etdi. 1806-cı ilin oktyabrın 1-də Prussiya kralı III Fridrix Napoleondan tələb etdi ki, 10 gün ərzində qoşunlarını Reynin arxasına keçirsin. Buna cavab olaraq Napoleon əvvəl Türingiyaya, sonra Prussiyaya hücum etdi. 1806-cı ilin 14 oktyabrında Prussiya qoşunu İen və Auerştedt döyüşlərində məğlub oldu, 27 oktyabrda isə Napoleon Berlinə daxil oldu.

Prussiyanın darmadağın edilməsindən sonra Fransa İngiltərənin qüdrətini zəiflətmək üçün yeni addım atdı. 1806-cı ilin noyabrın 21-də Napoleon İngiltərənin qitədən mühasirəsi haqqında dekret imzaladı. Dekretə əsasən Fransadan asılı ölkələrin İngiltərə və onun müstəmləkələri ilə bütün əlaqələri qadağan edildi, poçt rabitəsi də qadağan idi, hətta bitərəf ölkələrin gəmiləri də İngiltərə limanlarına daxil ola bilməzdi. Avropa ölkələrində olan bütün İngiltərə vətəndaşları həbs olunmalı, İngiltərə məhsulları müsadirə olunmalı idi. Bu dekretə əməl etməməyə görə edama qədər müxtəlif cəzalar nəzərdə tutulmuşdu. Napoleon birbaşa hücum və Hindistana yürüş yolu ilə İngiltərəyə ağır zərbə vura bilmədiyinə görə Avropa bazarlarını İngiltərə məhsulları üçün bağlamaq yolu ilə onun müqavimətini qırmaq, iqtisadi cəhətdən zəiflədib tabe olmağa məcbur etmək istəyirdi.

Fransa diplomatiyası çalışırdı ki, asılı ölkələr qitədən mühasirə haqqında dekretin tələblərinə əməl etsinlər. Lakin Napoleonun İngiltərəni iqtisadi cəhətdən zəiflətmək niyyəti baş tutmadı. Çünki İngiltərənin iqtisadi imkanları geniş idi, onun çoxsaylı müstəmləkələri, Amerika ilə yaxşı qurulmuş əlaqələri

var idi və gizli yolla Avropa ölkələrinə öz məhsullarını satmağa da davam edirdi.

Avropa ölkələrinin iqtisadiyyatına qitədən mühasirə ağır təsir göstərdi. Fransada istehsal edilən məhsullar İngiltərə malları qədər ucuz və keyfiyyətli deyildi. Mühasirə nəticəsində böhran keçirən Avropa ölkələri Fransa məhsullarını da almırdılar. Qitədən mühasirə Fransada sənayenin inkişafına kömək etdi. Lakin Fransanın İngiltərədən gətirilən xammala ehtiyacı böyük didi. Mühasirə nəticəsində Fransanın Marsel, Nant və Tulon kimi liman şəhərlərinin fəaliyyəti pozulmuşdu. Ona görə 1810-cu ildə qitədən mühasirənin xarakterində dəyişiklik edildi. Lisenziya əsasında İngiltərə ilə məhdud ticarətə icazə verildi, lakin lisenziyanın haqqı baha idi.

Dördüncü koalisiyanın üzvü olan Rusiya Fransaya qarşı müharibəni davam etdirirdi. 1807-ci ildə Prussiya ərazisində olmuş Preysiş-Eylay və Fridland döyüşlərində Rusiya qoşunu məğlubiyyətə uğradı. Rusiya imperatoru I Aleksandr sülh xahişi ilə Napoleonun yanına nümayəndə göndərdi. 1807-ci ilin iyunun 25-də I Aleksandrın Tilzitdə Napoleonla görüşü oldu. Tilzitdə Fransa ilə Rusiya arasında iki mühüm sənəd imzalandı: sülh müqaviləsi və İngiltərəyə qarşı yönəlmiş ittifaq müqaviləsi. Polşa torpaqlarında Fransadan asılı olan Varşava hersoqluğu yaradıldı. Rusiya Napoleonun Qərbi Avropadakı işğallarını tanıdı və İngiltərənin qitədən mühasirəsinə qoşuldu. Rusiya öz qoşunlarını Dunay knyazlıqlarından çıxarmalı idi.

1807-ci ilin iyulun 9-da Tilzitdə Fransa ilə Prussiya arasında sülh müqaviləsi bağlandı. Prussiyanın ərazisi və əhalisi iki dəfə azaldı. Prussiya İngiltərənin qitədən mühasirəsinə qoşulmalı və Fransaya böyük məbləğdə təzminat verməli idi.

1807-ci ilin sonunda İngiltərə ilə əlaqələri kəsmək və qitədən mühasirəyə qoşulmaq istəməyən Portuqaliyaya Fransa qoşunu göndərilmişdi. Portuqaliyada başlayan üsyanın və ingilis əsgərlərinin köməyi ilə Fransa ordusunun hücumu dəf olundu. 1808-ci ilin yazında İspaniya Fransa ordusu tərəfindən işğal edilmiş və Napoleonun qardaşı Jozef Bonapart İspaniya kralı təyin edilmişdi. İspaniyada işğalçılara qarşı üsyan başlandı.

1808-ci ilin sentyabrında Erfurtda I Aleksandrla Napoleonun görüşü oldu. Napoleon Rusiyanın Moldaviya, Valaxiya və Finlandiyaya olan iddialarını tanıdı. I Aleksandr Avstriya məsələsində güzəşt etmədi, çünki Fransanın çətinliklərini və Napoleonun Rusiyaya hücum etmək niyyətini bilirdi. Rusiya imperatoru Avstriya kralının nümayəndəsini qəbul etmiş və ona bildirmişdi ki, bir dövlət başqa dövlətin daxili işlərinə qarışmamalıdır, Avstriyanın ən yaxın dostu Rusiyadır və Rusiya Avstriyanı xarici hücumlardan müdafiə edəcək.

Fransanın çətinlikləri haqqında I Aleksandra Taleyran məlumat vermişdi. Tilzit görüşündən sonra Napoleon Taleyranı xarici işlər naziri vəzifəsindən çıxartmışdı. Taleyran isə Erfurtda Rusiya çarı ilə gizli əlaqə yaratmışdı. Taleyran əmin idi ki, Fransa ilə Rusiya arasında toqquşma zəruridir və Erfurtda I Aleksandra məsləhət görmüşdü ki, Fransa ilə birlikdə Avstriyaya qarşı müharibədə iştirak haqqında müqavilə bağlamasın. 1808-ci ilin oktyabrında Erfurtda Rusiya ilə Fransa arasında idtifaq haqqında saziş bağlanmışdı.

Avstriyanın hərbi hazırlıqları ilə bağlı Napoleon Fransaya qayıtdı. İngiltərənin yaratdığı beşinci koalisiyaya qoşulan Avstriya 1809-cu ilin aprelində Yuxarı Dunayda hərbi əməliyyatlara başladı. İyulun əvvəlində Baqram döyüşündə məğlubiyyətə uğrayan Avstriya ilə Fransa arasında sülh danışıqları başlandı. 1809-cu ilin oktyabrında Avstriya ilə Fransa arasında sülh müqaviləsi imzalandı. Qalitsiya Varşava hersoqluğuna birləşdirildi, İlliriya vilayəti Fransaya verildi. Avstriya ordusunu ixtisar etməli, böyük məbləğdə təzminat ödəməli və İngiltərənin qitədən mühasirəsinə qoşulmalı idi. 1810-cu ildə Napoleon Avstriya imperatorunun qızı ilə evlənmişdi. 1809-1811-ci illərdə Papa vilayəti Fransanın tərkibində olmuşdu.

Napoleon güclü ordu yaratmışdı və ondan Fransanın mənafeyi üçün bacarıqla istifadə edirdi. Napoleon hərbi işi və diplomatiyanı yaxşı bilirdi. O, Avropa dövlətləri arasındakı ziddiyyətlərdən bacarıqla istifadə edirdi. Napoleon Rusiyanın əlində olan Polşa torpaqlarını almaq istəyirdi, ona görə Polşa zadəganlarına Reç Pospolitanın bərpasını vəd etmişdi. Napoleon Balkan yarımadasını işğal etmək, Türkiyənin Rusiyaya qarşı

müharibəyə başlamasına nail olmaq istəyirdi. Fransa Dunay knyazlıqlarının Rusiyaya keçməsini istəmirdi.

Qitədən mühasirə Rusiyanın iqtisadiyyatına ağır təsir etmişdi və Rusiya 1810-cu ildən mühasirənin şərtlərinə əməl etmirdi. Rusiya 1810-cu ilin dekabrından Fransa məhsulları üçün idxal gömrüyünü artırmışdı. Napoleon Avropada Rusiya kimi güclü dövlətin mövcudluğu ilə barışmaq istəmirdi.

1810-cu ildən Fransa Rusiyaya qarşı müharibəyə hazırlaşmağa başladı. Rusiyadan sonra Napoleon İngiltərəni məğlub etmək və dünya ağalığı planını həyata keçirtmək niyyətində idi. Rusiya Fransanın ona qarşı müharibəyə hazırlaşdığını bilirdi, digər tərəfdən, Avropada öz mövqelərinin zəifləməsini istəmirdi.

1812-ci ilin fevralında Fransa Prussiya ilə gizli saziş imzalamışdı. Prussiya Rusiyaya qarşı 20 minlik qoşun göndərməli idi. 1812-ci ilin martında Avstriya Fransa ilə saziş bağlayıb Ukraynaya 30 min nəfər qoşun göndərməyi vəd etdi. Rusiya üzərində qələbədən sonra Pribaltika Prussiyaya, Volın isə Avstriyaya verilməli idi. Avstriya və Prussiya könüllü şəkildə Rusiyaya qarşı müharibə etmək fikrində deyildi.

Fransa İsveçi və Türkiyəni Rusiyaya qarşı müharibəyə qoşmaq istəyirdi, lakin buna nail olmadı. İsveç 1812-ci ilin fevralında Rusiya ilə gizli saziş imzalamışdı. 1812-ci ilin iyulun 18-də Rusiya ilə İngiltərə arasında müqavilə bağlanmışdı. 1812-ci ilin mayında Rusiya Türkiyə ilə Buxarest sülhü imzaladı. Napoleon Rusiyaya hücum üçün 600 minlik qoşun hazırlamışdı. Rusiyanın sərhəd boyu dağınıq vəziyyətdə yerləşən ordusu isə 220 min əsgər və zabitdən ibarət idi.

1812-ci ilin iyunun 24-də Fransa Rusiyaya hücum etdi. Napoleon rus qoşunlarını sərhəddə mühasirəyə alıb məhv edə bilmədi, Smolensk döyüşündən sonra Rusiya ilə ilk dəfə danışıqlara cəhd etdi. Lakin Rusiya bu təklifə Borodino döyüşü və partizan hərakatı ilə cavab verdi.

Napoleonun planınm əksinə olaraq Rusiya qoşunu böyük döyüşə girməyib ölkənin içərilərinə geri çəkildi. 7 sentyabr 1812-ci ildə Borodino çölündə baş vermiş döyüşdə Fransa ordusu 60 min nəfər, Rusiya ordusu isə 40 min əsgər itirdi. Döyüşdən sonra rus ordusu geri çəkilməkdə davam etdi. Borodino dö-

yüşü «Böyük Fransa ordusu»nun məğlubedilməzliyi haqqında əfsanəyə son qoydu. 1812-ci ilin sentyabrın 14-də Fransa ordusu Moskvaya daxil oldu, lakin Napoleon Moskvada özünü mühasirəyə alınmış vəziyyətdə hiss edirdi. Napoleon Moskvada olarkən üç dəfə I Aleksandra Rusiya üçün əlverişli şərtlərlə danışıqlara başlamağı təklif etdi, lakin I Aleksandr bu təklifləri qəbul etmədi. Fransa ordusu bir neçə döyüşdə məğlubiyyətə uğrayıb Rusiya ərazisini tərk etdi.

Geriyə çəkilən Fransa qoşunları müttəfiq orduları tərəfindən təqib edilirdi. Fransaya qarşı yaradılan altıncı koalisiyaya Rusiya, İngiltərə, Prussiya, İsveç və Avstriya daxil idi. Napoleon Leyptsiqdə 1813-cü ilin oktyabrında baş vermiş döyüşdə məğlub olub Reynin arxasına və Parisə qaçdı.

Müharibənin son məqsədlərinə müttəfiqlərin münasibəti müxtəlif idi. Rusiya və Prussiya Fransada Bonopartları hakimiyyətdən salmaq istəyirdilər. İngiltərə Fransada Burbonların hakimiyyətə qayıtmasını təklif edirdi. İngiltərə və Avstriya Parisi tutmağa tələsmirdilər, Rusiyanın nüfuzunun artması onları narahat edirdi. Napoleon Fransanın inqilabdan əvvəlki sərhədlərə qayıtması şərti ilə müttəfiqlərin danışıqlara başlamaq təklifini qəbul etmədi.

1814-cü ilin martın 1-də İngiltərə, Avstriya, Rusiya və Prussiya Şomon müqaviləsini imzaladılar. Bu dövlətlər tam qələbəyə qədər Fransa ilə gizli müqavilə bağlamamalı idi. onlardan üçü Fransaya qarşı 150 min qoşun göndərməli, İngiltərə isə hər il 5 milyon funt sterlinq pul verməli idi. Fransa əvvəlki sərhədlərinə qaytarılmalı idi.

1814-cü ilin martında müttəfiq qoşunları Parisə daxil oldu. 1814-cü ilin aprelin 6-da Napoleon oğlunun xeyrinə taxtdan əl çəkdi, onu Elba adasına göndərdilər. XVI Lüdovikin qardaşı qraf Dartua Parisə gəldi və 23 apreldə müttəfiqlərlə Fransa arasında barışıq haqqında saziş imzalandı. Qraf Dartua XVIII Lüdovik adı ilə Fransanın kralı oldu.

30 may 1814-cü ildə Parisdə sülh müqaviləsi imzalandı. Fransa 1792-ci il sərhədlərinə qaytarılmalı idi. Vyanada beynəlxalq konqres çağırılması qərara alındı. Fransa nümayəndəsi konqresdə iştirak etməli idi.

1814-cü ilin mayında XVIII Lüdovik «Konstitusiya xartiyasını» elan etdi. Xartiyaya görə kralın hakimiyyəti iki palatalı parlament tərəfindən məhdudlaşdırıldı. Yuxarı palatanın üzvləri kral tərəfindən təyin olunurdu, aşağı palata isə yüksək əmlak senzi əsasında seçilirdi. Bu isə iri torpaq sahiblərinin, zədaganların və burjuaziyanın hakimiyyətini təmin edirdi. Lakin feodallar və ruhanilər torpaqlarının qaytarılmasını və hüquqlarının bərpasını tələb edirdilər.

Feodal qaydalarının bərpası təhlükəsi, 20 mindən çox zabitin və məmurun ordudan və dövlət idarələrindən qovulması əhalinin Burbonlardan narazılığını artırdı. Napoleon yaranmış şəraitdən istifadə etdi. Napoleon Vyana konqresində danışıqların ləng getməsini və müttəfiqlər arasında ziddiyyətlərin olmasını bilirdi. 1815-ci ilin martın 1-də Napoleon min qvardiyaçı ilə ölkənin cənubuna çıxdı və Parisə doğru irəliləməyə başladı. Yol boyu hərbi hissələr Napoleonun tərəfinə keçir, əhali onu yaxşı qarşılayırdı. Martın 20-də Napoleon Parisə daxil oldu və imperiya bərpa edildi. Lakin daha Napoleon İngiltərənin, Rusiyanın, Prussiyanın və Avstriyanın birgə qüvvələrinə qalib gəlmək iqtidarında deyildi.

Fransaya qarşı yeddinci koalisiya formalaşdı. 18 iyun 1815-ci ildə Vaterloo döyüşündə Napoleonun ordusu məğlub edildi. Napoleon İngiltərənin əsiri kimi Müqəddəs Yelena adasına göndərildi.

## § 2. Vyana konqresi, onun Yekun aktı

Napoleonun müharibələri Fransada birinci imperiyanın məğlubiyyəti ilə başa çatdı. Qalib dövlətlər geniş Napoleon imperiyasının bölüşdürülməsi və Avropada beynəlxalq münasibətlərin yenidənqurulması ilə məşğul olmağa başladılar. Onların iştirakı ilə yaranmış yeni beynəlxalq sistem «Vyana sistemi» adlanır. Bu sistemi yaradanlar üç mühüm vəzifəni həll etməyə çalışırdılar: 1. Fransanı müharibədən əvvəlki sərhədlərinə qaytarmaq, Fransa taxtında Burbonlar sülaləsinin hakimiyyətini bərpa

etmək, Fransada yeni inqilabların və bonopartçı rejimlərin hakimiyyətə gəlməsinin qarşısını alan təminat sistemi yaratmaq; 2. Avropadakı əraziləri və müstəmləkələri İngiltərə, Rusiya, Avstriya və Prussiya arasında bölərkən qüvvə balansının saxlanmasına çalışmaq; 3.Fransanı və Avropanı həm yeni sosial və milli münaqişələrdən, həm də inqilablardan qorumaq üçün hərbi, siyasi və diplomatik tədbirlər həyata keçirtmək.

Vyana sisteminin əsasını 1814-cü ilin mayından 1818-ci ilin noyabrına qədər imzalanmış Fransa ilə birinci Paris sülhü (1814), Vyana konqresinin Yekun aktı (iyun 1815), ikinci Paris sülhü (1815), Müqəddəs ittifaqın yaranması haqqında saziş və Axen konqresinin qərarları (sentyabr-noyabr 1818) təşkil edir.

Vyana konqresində Türkiyə istisna olmaqla qalan Avropa ölkələrindən 216 nümayəndə iştirak etmişdi. Konqresin işində Rusiya imperatoru I Aleksandr, Avstriyanın kansleri Metternix və İngiltərənin baş naziri aparıcı rol oynayırdı.

Qalib dövlətlər ilk növbədə Vyana sistemində mühüm yer tutan bərpa problemləri ilə məşğul oldular. Əsas məsələ Fransada və Avropada müharibəyə qədərki iqtisadi və siyasi qaydaların bərpasının prinsipləri idi. Avstriya və Prussiya təklif edirdilər ki, Fransada inqilaba qədərki qaydalar tam həcmdə bərpa olunmalı, Fransa maksimum zəiflədilməli və ərazisinin bir hissəsi ondan alınmalıdır. İngiltərə və Rusiya isə təklif edirdilər ki, yeni sosial-iqtisadi və siyasi şərait nəzərə alınmalı, böyük dövlət kimi Fransanın müstəqilliyi saxlanmalıdır. Bu dövrdə Rusiya ilə İngiltərə arasında ziddiyyətlərin kəskinləşməsinə baxmayaraq 30 may 1814-cü ildə Fransa ilə Rusiya, İngiltərə, Avstriya və Prussiya arasında imzalanmış birinci Paris sülhünün əsasını İngiltərə və Rusiyanın təklifləri təşkil edirdi. Müqavilədə deyilirdi ki, Fransanın kəndliləri və burjuaziyası inqilab dövründə əldə etdikləri əmlakı və mülkiyyəti saxlayırlar. 1814-cü il Xartiyası zadaganlarla burjuaziya arasında kompromisin nəticəsi idi. Fransada köhnə və yeni zadaganların hüquqları bərabərləşdirildi.

Napoleonun «100 gün»ü birinci Paris sülhünün bir sıra şərtlərinin dəyişməsinə səbəb oldu. İkinci Paris sülhünə əsasən Fransa 700 milyon livr təzminat verməli idi, təzminatı ödəyənə qədər isə ölkənin şimal-şərq ərazisi müttəfiqlər tərəfindən işğal

olunmalı idi. 1815-1818-ci illərdə Fransa hökumətinin fəaliyyətinə dörd dövlətin Parisdəki səfirlərinin daimi konfransı nəzarət etməli idi. Lakin 20 noyabr 1815-ci ildə imzalanmış ikinci Paris sülhü birinci bərpanın əsas sosial-siyasi prinsiplərini dəyişmədi.

Vyana sisteminin tərkib hissələrindən birini Avropada ərazi dəyişiklikləri təşkil edirdi. Ərazi dəyişiklikləri Vyana konqresinin 1815-ci ilin iyunun 9-da qəbul etdiyi Yekun aktında öz əksini tapdı. Yekun akt 121 maddədən ibarət idi.

Prussiya Vyana konqresində Elzas və Lotaringiyanı Fransadan almağa çalışdı. Yekun aktı Fransanın sərhədləri haqqında birinci Paris müqaviləsini təsdiq etmişdi. İşğal etdiyi ərazilər Fransadan alındı. Fransa 1792-ci ilin yanvarında olan sərhədlərində qaldı. İkinci Paris sülhü ilə Fransa 1790-cı il sərhədlərinə qaytarılmışdı.

Vyana konqresi Almaniya və İtaliyanın dağınıq vəziyyətini saxladı. Yekun aktı Müqəddəs Roma imperiyasının ləğvini təsdiq etdi. Almaniyada 34 dövlətdən və 4 azad şəhərdən ibarət Alman ittifaqı yaradıldı. İttifaqa Avstriya rəhbərlik edirdi. Saksoniyanın ərazisi məhdudlaşdırıldı, Bavariya, Baden və Vürtemberqin ərazisi genişləndirildi Alman ittifaqının yaranmasını həm də Almaniyanın birləşdirilməsi yolunda addım hesab etmək olar, çünki 1815-ci ilə qədər Almaniya daha çox dövlətə parçalanmışdı.

Venetsiya və Lombardiya Avstriyaya verildi. İtaliya dövlətlərində əvvəlki monarxların hakimiyyəti bərpa edildi. Norveç İsveçlə birləşdirildi. Norveç İsveçə həm də 1809-cu ildə müharibədə məğlub olub Rusiyaya verdiyi Finlandiyanın əvəzində verilmişdi. Yekun aktı Finlandiyanın Rusiyaya keçməsini təsdiq etmişdi. Həm Finlandiya, həm də Norveç muxtariyyət hüququna malik idi. Belçika Hollandiya ilə Niderland krallığında birləşdirildi. Avstriya Belçikaya olan iddialarından əl çəkmişdi. İsveçrənin müstəqilliyi bərpa olundu və o özünü əbədi bitərəf elan etmişdi.

Vyana konqresində Polşa və Saksoniya ilə bağlı məsələlər daha dərin ixtilaflara səbəb oldu. I Aleksandr ləğv olunmuş Varşava hersoqluğunun ərazisinin Rusiyaya verilməsini tələb

edirdi. Prussiyanı öz tərəfinə çəkmək üçün I Aleksandr Prussiyanın Saksoniyaya olan iddiasını müdafiə edirdi.

Rusiyanın beynəlxalq nüfuzunun artması İngiltərə və Avstriyanı ciddi narahat edirdi. Fransa «Polşa-Saksoniya məsələsi»ndə İngiltərə və Avstriyanın tərəfində idi. Konqresdə Fransanı Taleyran təmsil edirdi. «Polşa-Saksoniya məsələsi» ilə əlaqədar 1814-cü ilin sonunda müttəfiqlər arasında müharibə təhlükəsi yaranmışdı. Avstriya imperatoru bildirdi ki, əgər Saksoniya Prussiyaya verilsə, Avstriya Prussiyaya müharibə elan edəcək.

İxtilaflar 1815-ci ilin yanvarın 3-də İngiltərə, Avstriya və Fransa arasında gizli «hərbi ittifaq»ın imzalanmasına səbəb oldu. Bu ittifaq Rusiya və Prussiyaya qarşı yönəlmişdi. Bu ittifaqın üzvləri Avropada yeni böyük müharibəyə başlamaq istəmirdilər, həm də uzunmüddətli müharibələr nəticəsində onların hərbi-iqtisadi imkanları tükənmişdi. Rusiya imperatoru I Aleksandr mövqeyini dəyişib «Polşa-Saksoniya məsələsi»ndə güzəştə razı oldu.

Elba adasında olan Napoleon müttəfiqlər arasında ixtilaflar haqqında yaxşı məlumata malik idi. Napoleon adanı tərk edib 1815-ci ilin martın 1-də Fransanın cənub sahilinə çıxdı. Parisə gələndən sonra Napoleon İngiltərə, Avstriya və Fransa arasında imzalanmış müqavilənin əslini I Aleksandra göndərdi. Napoleonun məqsədi müttəfiqlər arasında ixtilafları dərinləşdirmək idi. 1815-ci ilin fevralın 15-də Saksoniya məsələsinə dair saziş imzalandı. Sazişə əsasən, Saksoniyanın bir hissəsi və Polşanın Poznan şəhəri Prussiyaya verildi.

1815-ci ilin mayın 3-də Polşa torpaqlarının yenidən bölgüsü keçirildi. Varşava hersoqluğunun çox hissəsi Rusiyaya verildi. Krakov azad şəhər elan edildi. Şərqi Qalitsiya Avstriyaya verildi. Rusiyaya verilmiş Polşa torpaqları Polşa krallığı adlandırıldı və ona geniş muxtariyyət hüququ verildi. Bessarabiya Rusiyaya verildi. Ərazi bölgüsündən daha çox Rusiya, Prussiya və Avstriya qazandı, ona görə həmin dövlətlər Krım müharibəsinə qədər Vyana sistemini müdafiə edirdilər.

Yekun aktına əsasən İngiltərəyə Avropadan ərazi verilmədi, lakin konqresdən sonra Avropa siyasətinə onun təsiri artmış-

dı. İngiltərə həm Hannoverdən, həm də Niderland krallığından istifadə edirdi. İngiltərənin təkidi ilə Yekun aktına müstəmləkə məsələləri daxil edilmədi. Kap əyaləti, Malta, İonik adaları, Tabaqo adası və Seyşel adaları İngiltərəyə qaldı.

Vyana konqresində İngiltərə qul ticarətini ləğv etmək təklifi ilə çıxış etdi. İngiltərə hələ 1807-ci ildə öz müstəmləkələrində qul ticarətini qadağan etmişdi və digər dövlətlərin (İspaniya, Portuqaliya, ABŞ) qul ticarəti hesabına varlanmasını istəmirdi. Konqres qul ticarətini ittiham edən Bəyannamə qəbul etdi, hər bir dövlət qul ticarətinin ləğv olunma müddətini özü müəyyən etməli idi.

1815-ci ilin martında konqresdə diplomatik nümayəndələrin böyüklüyü və rütbələr haqqında konvensiya qəbul edildi. Diplomatik protokol real qüvvə yerləşməsinə uyğunlaşdırıldı. Diplomatlar səfirlərə, elçilərə və işlər vəkillərinə bölündü ki, bu bölgü indiyə qədər qalır.

Napoleonun Parisə qayıdıb yenidən 100 gün ərzində ölkəni idarə etməsi müttəfiqləri qorxutdu. 1815-ci ilin sentyabrında Rusiya, Prussiya və Avstriya dövlət başçıları Parisdə «Monarxların və xalqların Müqəddəs ittifaqı»nın yaradılması haqqında saziş imzaladılar. Sənəddəki dini-mistik ideyalar Fransa inqilabının, 1789-cu ildə qəbul edilmiş «İnsanın və vətəndaşın hüquq Bəyannaməsi»nin ideyalarına qarşı qoyulurdu. Akt 1815-ci il status-kvosunu toxunulmaz elan edirdi: mövcud vəziyyətin pozulmasına cəhd edildiyi hallarda monarxlar bir-birinə qarşılıqlı yardım göstərməli idi. 1815-1817-ci illərdə Vatikan, İngiltərə və Türkiyədən başqa bütün Avropa ölkələri Müqəddəs ittifaqa qoşulmuşdu. İngiltərə Dördlər ittifaqının üzvü kimi Müqəddəs ittifaqın işində iştirak edirdi. Müqəddəs ittifaqın tarixi üç mərhələyə ayrılır: 1. 1815-1822-ci illər (bu ittifaqın qüdrətli dövrü idi). 2. 1823-1830-cu illər (bu dövrdə İngiltərə ilə Müqəddəs ittifaq arasında ziddiyyətlər kəskinləşdi). 3. 1830-cu ildən sonrakı dövrdə isə ittifaq dağılmağa başladı.

Vyana konqresində Reyn və Visla çaylarında gəmiçilik rejimi haqqında sazişlər imzalanmışdı. Təzminatın çox hissəsini ödədiyinə görə 1818-ci ildə Müqəddəs ittifaqın Axen konqresi işğal qoşunlarının vaxtından əvvəl Fransadan çıxarılması haq-

qında qərar qəbul etdi. Fransanın böyük dövlət statusu bərpa olundu, onun Dördlər ittifaqının müşavirələrində iştirak etməsi ilə Avropanı pentarxiya (beş dövlət) idarə etməyə başladı.

XIX əsrin 20-40-cı illərində Müqəddəs ittifaq əsasən Avropa ölkələrində inqilabı və milli-azadlıq hərakatlarının yatırılması ilə məşğul olmuşdu. «Vyana sistemi» Avropada sərhədlərin toxunulmazlığına dair müqavilə öhdəlikləri sistemi kimi bir qədər çox mövcud olmuş və Krım müharibəsindən sonra dağılmışdı. Ümumiyyətlə, isə Vyana sistemi XIX əsrin 50-60-cı illərinə qədər beynəlxalq aləmdə sabitliyin əsası idi.

## § 3. XIX əsrin 20-40-cı illərində Avropada beynəlxalq münasibətlər

Vyana sistemi böyük dövlətlər arasında bütün ziddiyyətləri həll etməmişdi. XIX əsrin birinci yarısında böyük dövlətlər Rusiya, İngiltərə, Avstriya, Fransa və Prussiya idi. Bu dövlətlər arasındakı ziddiyyətlər Müqəddəs ittifaqın öz vəzifələrini yerinə yetirməsinə mane olur və onu zəiflədirdi. Avstriya və Prussiya həm inqilabdan, həm də Rusiyadan qorxurdu. Prussiya həmçinin Fransa ilə Rusiya arasında ittifaqın əleyhinə idi. Rusiya öz müttəfiqlərinə inanmırdı. Rusiya 1814-1815-ci illərdə Avstriyanın ona qarşı blok yaratmağa çalışmasını unutmamışdı. Müqəddəs Yelena adasında olan Napoleon demişdi ki, əlverişli fürsət düşən kimi Rusiya Avropanı işğal edəcək və Avropa dövlətləri bu fikirlə razı idi.

1819-cu ildə bir sıra Qərbi Avropa ölkələrində feodal-mütləqiyyət qaydalarına qarşı mübarizə gücləndi. Müqəddəs ittifaq bu inqilablara qarşı ardıcıl mübarizə aparırdı. 1820-ci ildə İspaniyada, Portuqaliyada və Neopolitan krallığında inqilablar baş vermişdi. 1820-ci ilin oktyabrında Troppauda Müqəddəs İttifaqın konqresi keçirildi. Konqresdə Müqəddəs ittifaq inqilablara münasibətdə siyasətini müəyyən etməli idi.

Konqres 1821-ci ildə Laybaxda öz işini davam etdirdi. Bu konqreslərdə Neopolitan krallığındakı inqilab geniş müzakirə olundu. Metternix təklif etdi ki, Neopolitan inqilabını yatırmaq

üçün Avstriya qoşunlarından istifadə edilsin. İngiltərə və Fransa bu təklifə qarşı çıxdılar, çünki, Apennin yarımadasının çox hissəsinin Avstriya tərəfindən işğalı nəticəsində «Avropa tarazlığı»nın pozulmasından qorxurdular. Məsələnin həlli Rusiyanın mövqeyindən asılı idi. Rusiya Müqəddəs ittifaqın fəaliyyətində konsensus tərəfdarı idi.

İngiltərə və Fransa ilə yanaşı Rusiya Avstriyanın Neopolitana qoşun göndərməsi ilə razılaşdı. Lakin I Aleksandr Metternixdən belə bir yazılı təminat aldı ki, Avstriya qoşunları inqilabı yatıran kimi dərhal İtaliyanın cənubunu tərk edəcəklər. Bu konqreslərdə Müqəddəs ittifaqın üzvləri əslində «qarışmaq doktrinası»nı təsdiq etdilər. 1821-ci ilin mayın 12-də Rusiya, Avstriya və Prussiya Müqəddəs ittifaqın bütün dünyada inqilabi hərakatlara qarşı açıq mübarizəsi haqqında bəyannamə qəbul etmişdilər.

Laybax konqresində Avstriya Rusiyanın təsiri ilə yunan üsyanını pislədi, lakin onun mövqeyi Rusiyanı təmin etmirdi. Türkiyə hərbi donanması Qara dənizdə yunan gəmilərini saxlayırdı ki, bu da Rusiyanın mənafeyinə zidd idi. Rusiyanın etirazına baxmayaraq Türkiyə Dunay knyazlıqlarına qoşun göndərdi və Rusiya ilə diplomatik münasibətləri kəsdi. Avstriya çalışırdı ki, Rusiya Türkiyəyə müharibə elan etməsin. Avropa ölkələrinin başçıları I Aleksandrı inandırmaq istəyirdilər ki, Türkiyə ilə müharibə Avropada inqilabi hərakata təkan verəcək. İngiltərə Rusiya ilə Türkiyə arasında müharibənin əleyhinə idi. Böyük dövlətlərin mövqeyi Rusiyanı Türkiyəyə qarşı müharibədən çəkindirdi.

1822-ci ilin oktyabrında Müqəddəs ittifaqın Veronada növbəti konqresi keçirildi. Konqresdə İspaniyadakı inqilaba qarşı silahlı müdaxilənin təşkili məsələsi müzakirə olundu. Rusiya, Avstriya, Prussiya və Fransa vahid mövqedən çıxış edirdilər. İngiltərənin isə mövqeyi başqa idi. Bu dövrdə Yaxın Şərqdə İngiltərə-Rusiya ziddiyyətləri kəskinləşmişdi. Avstriya və İngiltərə razılaşdılar ki, Rusiya konqresdə yunan məsələsinə qarışmağı təklif etsə, bu təklifə ciddi müqavimət göstərsinlər.

Pireney yarımadasında və Latın Amerikasında ənənəvi Fransa-İngiltərə rəqabəti bərpa olunmuşdu. İngiltərə və Fransa

Latın Amerikasında siyasi və iqtisadi üsullarla İspaniya və Portuqaliyanı əvəz etməyə çalışırdılar. Rusiya, Avstriya və Prussiya təklif edirdi ki, İspaniya və Portuqaliyadakı inqilablar Fransa qoşunları tərəfindən yatırılsın. Lakin Fransanın təsirini zəifləotməyə və Pireney yarımadasında mövqelərini saxlamağa çalışan İngiltərə onun İspaniyaya qoşun göndərməsinin əleyhinə idi. Eyni zamanda, İngiltərə İspaniya inqilabına qarşı hərbi müdaxilədə iştirak etmək istəmirdi. 1822-ci ilin noyabrında Rusiya, Avstriya, Prussiya və Fransa ispan inqilabının Fransa qoşunları tərəfindən yatırılması haqqında qərar qəbul etdilər. 1823-cü ilin fevralında Fransa qoşunları Pireney dağlarını keçdilər, mayda Madridi tutdular və İspaniya inqilabı yatırıldı. İspaniyada kral VII Ferdinandın hakimiyyəti bərpa olundu.

İngiltərə həm Avropada inqilabı hərakatdan, həm də Latın Amerikasında azadlıq hərəkatından öz mənafeyi üçün istifadə etməyə çalışırdı. İngiltərə Müqəddəs ittifaqın Latın Amerikasına müdaxiləsinin əleyhinə idi, Fransa isə İngiltərənin köməyi olmadan Latın Amerikasındakı hadisələrə müdaxilə etmək istəmirdi. Avstriyanın kansleri Metternix İngiltərə kralı IV Georqla danışıqlar aparırdı. İngiltərə kralının xarici işlər naziri Kanninqə münasibəti yaxşı deyildi.

İngiltərə kralı IV Georq Avstriyanın kansleri Metternixi Londona dəvət etdi. Kanninq Parisdəki İngiltərə səfirinə məktub göndərdi ki, hər vasitə ilə Metternixin Londona gəlməsinə mane olsun. İngiltərə səfirinin xahişi ilə Metternix Londona getmədi.

1824-cü ildə Avstriya Cənubi Amerikadakı vəziyyəti müzakirə etmək üçün konqres çağırmağı təklif etdi. İngiltərə bu konqresdə iştirak etmək istədiyini və Argentina ilə ticarət müqaviləsi bağlamaq fikrində olduğunu bildirdi. İngiltərə Latın Amerikası ölkələri ilə əlaqələrin genişlənməsində maraqlı idi ki, onların bazarı ABŞ-ın nəzarətinə keçməsin.

1825-ci ildə İngiltərə Argentinanın, Kolumbiya və Meksikanın müstəqilliyini tanıdı. Rusiya İngiltərənin hərəkətinə münasibət bildirmədi, Avstriya və Prussiya isə etiraz etdilər. Kanninq Prussiyanın səfirinə bildirdi ki, İngiltərə heç bir təzyiqi qəbul etmir. İngiltərə daha Müqəddəs ittifaqın üzvlərini müda-

fiə etmirdi. İngiltərənin iqtisadi qüdrəti artmışdı və xarici iş-
naziri C.Kanninq ənənəvi «sərbəst fəaliyyət» siyasətinə qay-
mağa üstünlük vermişdi. Avropa yenidən müxtəlif ittifaq və
koalisiyalara bölünməyə başladı. İngiltərə daha çox Rusiyadan
ehtiyat edirdi, çünki Rusiya birlikdə Avstriya və Prussiyadan üs-
tün idi.

1830-cu ildə olmuş Fransa və Belçika inqilabları Avropa-
da beynəlxalq münasibətlərə və diplomatiyaya böyük təsir
göstərdi. Bu hadisələr 1815-1850-ci illərdə beynəlxalq həyatın
əsas ziddiyyəti olan İngiltərə-Rusiya ziddiyyətlərinin daha da
kəskinləşməsinə səbəb oldu.

Rusiya Fransadakı hadisələri diqqətlə izləyirdi. 1830-cu
ilin avqustun 17-də Rusiya Fransa ilə diplomatik münasibətlər
kəsdiyini bildirdi. Ona görə Fransanın Rusiyadakı səfirinin çar I
Nikolayla görüşü oldu. I Nikolay bildirdi ki, L.Filippi Fransanın
qanuni hökmdarı hesab etmir.

Fransanın səfiri Rusiya imperatoruna izah etdi ki, Rusiya-
nın Fransaya qarşı koalisiya yaratması çətin olacaq. I Nikolay
bildirdi ki, Fransa inqilabına münasibət məsələsi böyük dövlət-
lərlə müzakirə ediləcək. Rusiya çarı bilirdi ki, İngiltərə Fransa-
nın yeni hökumətini tanıyacaq. Ona görə I Nikolay Fransa səfi-
rinə bildirdi ki, İngiltərəyə inanmaq olmaz, Fransanın dostu yal-
nız Rusiyadır, İngiltərə isə Fransanın Əlcazairi işğal etməsinə
mane olacaq. Rusiya çarı bildirdi ki, Avstriyaya da inanmaq
düzgün deyil, Avstriya hesab edir ki, Fransa ona İtaliyada mane
ola bilər.

Fransa səfiri ilə görüşdən sonra Rusiya imperatoru Fransa
ilə diplomatik münasibətləri kəsmədiyini bildirdi. Rusiya Fran-
sada Burbonlar sülaləsinin hakimiyyətini bərpa etmək üçün Mü-
qəddəs ittifaqın Fransaya qarşı hərbi müdaxiləsinin planını
hazırlamış, müdaxilə haqqında danışmaq üçün Vyanaya və Ber-
linə nümayəndələr göndərmişdi, lakin danışıqlar nəticəsiz oldu.
I Nikolay L.Filippi Fransa hökmdarı kimi tanıdı.

İngiltərə Avropa və dünya hadisələrinə münasibətdə
Fransa ilə eyni mövqedən çıxış edirdi. Rusiya Fransa və Belçika
inqilablarına qarşı koalisiya təşkil edə bilmədi. Çünki Avstriya
və Prussiya alman dövlətlərinə təsir uğrunda mübarizə aparır,



İngiltərə və Fransadan yardım almaq üçün yeni əksinqilabi səlib
yürüşünə qoşulmaq istəmirdilər. Digər tərəfdən, 1830-1831-ci
illərdə Polşada baş vermiş azadlıq üsyanı Rusiyadan onu yatır-
maq üçün xeyli qüvvə tələb edirdi.

1830-cu ilin noyabrında Polşa krallığında milli-azadlıq üs-
yanı başladı. Üsyanın birinci mərhələsi 1831-ci ilin yanvarın
25-nə qədər davam etmişdi. Varşava seymi qərar qəbul etdi ki,
daha I Nikolay Polşa kralı deyil. Bu dövrdə Avropa dövlətlərini
ən çox Polşa krallığının muxtariyyətinin taleyi maraqlandırırdı.
1831-ci ilin yanvarın 25-dən sonra Avropa dövlətləri bildirdilər
ki, inqilab yolu ilə yaranmış yeni Polşa hökuməti ilə Rusiya im-
periyası arasında müharibə gedir və onlar bu müharibəyə diplo-
matik və ya hərbi yolla müdaxilə etmək istəmirlər.

Üsyana başçılıq edən Polşa zadaganları ölkənin müstəqil-
liyi ilə yanaşı, həm də onun 1772-ci il sərhədlərinin bərpasını,
yəni Ukrayna, Belorusiya və Litva ərazilərinin Polşaya qaytarıl-
masını tələb edirdilər. Bu tələbləri Polşanın nümayəndə heyəti
Rusiya imperatoru I Nikolayla danışıqlar zamanı irəli sürmüşdü.
Polşanın mövqeyi Rusiya hökumətinin Qərbi Avropa diplomat-
ları ilə danışıqlarda mövqeyini möhkəmləndirdi. Rusiya çarı bil-
dirdi ki, Polşa üsyançıları Rusiya quberniyalarını işğal etmək
istəyir. Avstriya və Prussiya Polşa üsyanına qarşı mübarizədə
Rusiyanı müdafiə edirdilər.

1831-ci ilin yanvarın sonunda Polşa hökuməti Londona
nümayəndə heyəti göndərdi. İngiltərəni bu dövrdə Rusiyadan
daha çox Fransa maraqlanırdı. İngiltərə istəmirdi ki, Belçika
Fransanın himayəsinə keçsin və ya Hollandiyaya qaytarılsın. İn-
giltərənin xarici işlər naziri Palmerston bildirdi ki, İngiltərə Pol-
şa məsələsinə qarışmır. Polşa nümayəndələri Fransanın köməyinə
ümid edirdilər. Fransa isə Polşa üsyançılarına kömək et-
mək fikrində deyildi. Çünki, Fransa hökuməti çalışırdı ki, Ru-
siya Belçikanın Fransa ilə birləşdirilməsinə razılıq versin.

İngiltərə və Fransa Polşa üsyançılarına heç bir kömək gös-
tərmədikləri halda, diplomatik cəhətdən dərhal Belçika və Pol-
şa məsələlərini bir-biri ilə əlaqələndirdilər. Onlar Polşa üsya-
nını yatırmaqda Rusiyaya mane olmayacaqlarını bildirdilər. Ru-
siya isə əvəzində səfirlərin London konfransına öz nümayəndə-

sini göndərməli idi.

1831-ci ilin yayında Fransa hökuməti İngiltərəyə təklif etdi ki, birlikdə Polşa üsyançılarına qarşı Rusiya hökumətinin cəza tədbirlərinə mane olsunlar. Lakin aparılan danışıqlar heç bir nəticə vermədi. 1831-ci ilin sentyabrın əvvəlində Polşa üsyanı Rusiya ordusu tərəfindən yatırıldı.

Belçika inqilabı Müqəddəs İttifaq üçün sınaq oldu. 1830-cu ilin avqustunda Belçika müstəqilliyini elan etmişdi. 1830-cu ilin sentyabr-noyabr aylarında Rusiya hökuməti Avstriya və Prussiyanı Belçika inqilabını birlikdə yatırmağa çağırdı. Lakin Avstriya və Prussiya Belçika inqilabına qarşı hərbi müdaxilədə iştirak etmək fikrində deyildi. Həm İngiltərə, həm də Fransa Belçikanın Hollandiyadan ayrılmasında və mühüm ticarət yollarının kəsişdiyi yerdə müstəqil Belçika dövlətinin yaradılmasında maraqlı idi. Ona görə İngiltərə və Fransa «Belçika məsələsi»nin beş böyük dövlətin səfirlərinin London konfransında müzakirə olunmasını təklif etdilər.

İngiltərə çalışırdı ki, Fransa Belçikanı işğal etməsin. İngiltərə bilirdi ki, Rusiya Belçikanın Fransaya birləşdirilməsinin əleyhinədir. Fransanın İngiltərədəki səfiri Taleyran səfirlərin konfransında tələb etdi ki, Belçika ilə Fransanın sərhədindəki istehkamlar ləğv edilsin. 1831-ci ildə böyük dövlətlər Londonda Belçika dövlətinin müstəqilliyinin tanınması və onun əbədi bitərəfliyi haqqında protokol imzaladılar. Bu Avropa dövlətlərinin Vyana konqresinin Yekun aktı ilə müəyyən edilmiş sərhədlərində ilk dəyişiklik idi.

1848-1849-cu illərdə Avropa ölkələrində baş vermiş inqilablar beynəlxalq münasibətlərə böyük təsir göstərdi və Vyana sisteminin prinsipləri üçün yeni sınaq oldu. 1848-ci ilin fevralında Fransada İyul monarxiyası inqilab nəticəsində devrildi və ölkədə ikinci respublikanın yaradılması elan olundu. Fransa respublikasına münasibət Avropa diplomatiyasının qarşısında dayanan əsas vəzifələrdən birinə çevrildi. Almaniyada və İtaliyada başlanmış inqilabların əsas vəzifələrindən biri siyasi pərakəndəliyin vahid dövlətlə əvəz olunması idi. Macarıstan inqilab yolu ilə müstəqilliyini bərpa etməyə cəhd göstərdi. Polşa müstəqilliyini bərpa etməyə çalışırdı.



İnqilabların və milli azadlıq hərəkatlarının yatırılması ilə həm də diplomatiya məşğul olurdu. Avstriya, Prussiya və Rusiyanın Avropa inqilablarına münasibəti mənfi idi. İngiltərə Avstriya monarxiyasının parçalanmasının əleyhinə idi. İngiltərə Avropada mövcud vəziyyətin dəyişməsinə bütün imkanlarından istifadə edərək mane olurdu. Avropadakı inqilablar İngiltərənin müstəmləkə işğallarını davam etdirməsinə şərait yaradırdı. İnqilablar dövründə Avropanın böyük dövlətləri arasındakı ziddiyyətlər daha da kəskinləşmişdi.

1848-ci ilin fevralına qədər Fransada mötədil respublikaçılar hökumətin inqilabi hərəkatlara qarşı İngiltərə, Avstriya və Rusiya ilə əməkdaşlığının əleyhinə çıxış edirdilər. Onlar deyirdilər ki, Vyana sistemi Avropada Fransanın mövqelərinin möhkəmlənməsinə və sərhədlərinin genişlənməsinə mane olur. Fransa burjuaziyası Polşada, Almaniyada və İtaliyada azadlıq hərəkatlarına kömək tərəfdarı idi.

Avropa dövlətləri ehtiyat edirdilər ki, İyul monarxiyasının süqutundan sonra Fransa Vyana sisteminə qarşı fəal mübarizəyə başlayacaq və başqa ölkələrdəki inqilabi hərəkatlara silahlı yardım göstərəcək. Lakin Fransada qurulmuş müvəqqəti hökumət xarici ölkələrdə inqilabi hərəkatlara yardım göstərmək fikrində deyildi, çünki yenə də Fransaya qarşı Avropa dövlətlərinin koalisiyalarının yaranmasını istəmirdi.

Fransa hökuməti başqa ölkələrin daxili işlərinə qarışmayacağını bildirdi və İngiltərə ilə ittifaq müqaviləsi bağlamağa hazır idi. Fransa Belçikanın bitərəfliyinə hörmətlə yanaşacağını bəyan etdi. Fransa hökuməti Avstriyaya qarşı müharibəyə başlayan Sardiniyaya kömək göstərmədi. Xarici müdaxilə təhlükəsini nəzərə alaraq Fransa ordusu sərhədlərdə döyüşə hazır vəziyyətdə idi. Fransa Almaniyada monarxiyanın və siyasi dağınıqlığın qalmasına tərəfdar idi.

1848-1849-cu illərdə Avropanın bir neçə ölkəsində inqilab baş verdi və bu Avropa dövlətlərinin diqqətini Fransadan yayındırdı. Avropa dövlətləri arasındakı ziddiyyətlər onların Fransaya qarşı müdaxiləsinə və Fransa ilə diplomatik münasibətləri kəsməsinə mane oldu. İngiltərə Fransa respublikasını tanımışdı. İrlandiyada inqilabi hərəkatın yüksəlişindən narahat ol-

an İngiltərə Fransanın daxili işlərinə qarışmaq fikrində deyildi.

Rusiya Fransada respublika qurulmasına təhlükə mənbəyi kimi baxırdı, lakin onun Fransaya qarşı müharibə etmək imkanı məhdud idi. Rusiya öz səfirini Parisdən geri çağırmışdı. Rusiya hökuməti bildirdi ki, Fransanın daxili işlərinə qarışmayacaq, lakin Fransa öz sərhədlərini genişləndirmək istəsə Rusiya Avstriya və Prussiyaya yardım göstərəcək. Rusiya Prussiyanın Almaniyada hegemonluğunun əleyhinə və Fransa ilə əməkdaşlığa hazır idi.

XIX əsrin 40-cı illərində Rusiyanın Prussiya ilə əlaqələri zəiflədi. Çünki, Rusiya Prussiya kralı IV Vilhelmin manevr və kompromis siyasətindən narazı idi, Prussiyada monarxiyanın zəifləməsini istəmirdi. Rusiya Almaniyanın inqilabın köməyi ilə və Prussiyanın hegemonluğu altında birləşməsini istəmirdi. Rusiyanın səfiri çar I Nikolayın göstərişinə baxmayaraq Parisi tərk etməmişdi, çünki Fransa ilə əlaqələri kəsməyin əleyhinə idi. Fransanın xarici işlər naziri Rusiya səfirinə bildirdi ki, onun hökuməti Rusiya ilə ittifaqda maraqlıdır.

Rusiyanı Polşada yeni üsyan təhlükəsi narahat edirdi. Almaniya ilə müharibə başlasa Rusiya dərhal Visla çayına qədər Şərqi Prussiyanı işğal etməli idi və Fransa ilə əməkdaşlığa ümid bəsləyirdi. Fransa hökumətinin pula ehtiyacı böyük idi və Fransa Almaniyanın Prussiyanın hegemonluğu altında birləşməsini istəmirdi.

Fransa respublikasının xarici siyasətinin əsas istiqamətini İngiltərə ilə əməkdaşlıq təşkil edirdi. Təbii ki, bu zaman Fransa İngiltərənin iqtisadi qüdrətini, onun dünyada ticarət-sənaye və müstəmləkə sahəsində inhisarını nəzərə alırdı. Fransanın Rusiya və İngiltərə ilə əməkdaşlıq siyasəti Avropa dövlətlərinə sərfəli idi.

İngiltərə və Fransa hökumətləri Polşada inqilabi hərakata yardım göstərmədi. Prussiya burjuaziyası isə Polşada inqilabi hərakatın inkişafında maraqlı və Prussiyadan asılı olan Polşa krallığının yaradılmasına tərəfdar idi. Lakin Prussiya nümayəndələrinin Rusiyaya qarşı ittifaq yaratmaq təklifini Fransa hökuməti qəbul etmədi. Eyni zamanda Prussiya kralı Fransa ilə ittifaq və Rusiya ilə münaqişə tərəfdarı deyildi. Əksinə, Prussiya

kralı Poznandakı inqilabi hərakatı yatırmaq üçün Rusiyadan kömək istəmişdi. Poznandakı üsyan Prussiya qoşunları tərəfindən yatırıldı və bu Prussiya ilə Rusiya arasında münasibətlərin yaxşılaşmasına təkan verdi.

Avropa dövlətlərinin heç biri Almaniyanın inqilab yolu ilə birləşməsini istəmirdi. Avropa dövlətləri eyni zamanda Prussiyanın hegemonluğu altında Almaniyanın birləşməsinə də müqavimət göstərirdilər. Avstriya ilə Prussiya arasında rəqabət və Almaniyanın dağınıq vəziyyətdə qalması Avropa siyasətində İngiltərə, Fransa və Rusiyanın üstünlüyünü təmin edirdi.

Rusiya istəmirdi ki, Prussiya kralı milli-azadlıq hərakatına güzəşt etsin. I Nikolay belə hesab edirdi ki, Avstriya Qərbi Avropada feodalizmə və mütləqiyyətə daha sadiqdir. Rusiya onu da nəzərə alırdı ki, Avstriya Alman ittifaqını saxlamağa çalışır. Rusiya hökuməti Avropada baş verən hadisələrin ölkənin siyasi həyatına təsir göstərməsinin əleyhinə idi.

Rusiya istəmirdi ki, Almaniya birləşsin və onun qərb sərhədlərində güclü dövlət yaradılsın. Rusiya Almaniyanın birləşən kimi yenə müharibəyə başlayacağından qorxurdu. Almaniya burjuaziyası Rusiyanın qərb quberniyalarında gömrüyün artırılmasından narazı idi. 1848-ci ilin mart ayında Berlində olmuş üsyan zamanı I Nikolayın kömək təklifini Prussiya kralı qəbul etmədi, çünki xarici müdaxilənin Almaniyada inqilabi hərakatı daha da qüvvətləndirməsindən ehtiyat edirdi.

İnqilab zamanı «Şlezviq-Holştiniya» məsələsi də diqqət mərkəzində idi. Şlezviq və Holştiniya hersoqluqları Danimarka krallığının tərkibində idi. Holştiniya həm də Alman ittifaqının üzvü idi. 1848-ci ildə Şlezviq və Holştiniyada Danimarkadan ayrılmaq uğrunda milli hərakat başladı. Prussiya hökuməti Şlezviq və Holştiniyanı qaytarmaq üçün Danimarkaya qarşı müharibəyə hazırlaşırdı. Bu yolla Prussiya hökuməti həm də xalqın diqqətini ölkə daxilində inqilabdan yayındırmaq istəyirdi. Şlezviq və Holştiniyanın birləşdirilməsi Prussiyanın Şimal dənizinə çıxmasını və Baltik dənizi sahilində möhkəmlənməsini təmin edərdi.

1848-ci ilin aprelində Prussiya ordusu Şlezviq və Holştiniyaya daxil oldu və Danimarka qoşununu məğlub etdi. Danimar-

ka kralı Rusiya, İngiltərə və İsveçdən kömək istədi. Rusiya bildirdi ki, müharibə davam etsə Prussiyaya qoşun göndərəcək. İngiltərə Danimarkaya kömək üçün donanma göndərəcəyini bildirdi. Fransa hökuməti Prussiyaya etiraz notası göndərdi. Prussiya Avropa dövlətlərinin etirazını nəzərə aldı və avqustun 26-da Danimarka ilə barışıq imzaladı. Prussiya həm məğlubiyyətdən, həm də yeni inqilabdan ehtiyat etdi.

1848-1849-cu illərdə İtaliyanın birləşdirilməsi və Sardiniya-Avstriya müharibəsi böyük dövlətlərin diqqət mərkəzində idi. İnqilabi və milli hərakatdan istifadə edən Sardiniya Avstriyaya qarşı müharibəyə başladı. Sardiniyanın əsas məqsədi Lombardiya və Venetsiyanı qaytarmaq idi. Avstriya İngiltərənin təklifi ilə Lombardiyadan əl çəkməyə hazır idi. Lakin buna ehtiyac olmadı, çünki Avstriya ordusu Sardiniya qoşununu məğlub etdi. Rusiya isə Avstriyanı müdafiə edirdi və Sardiniya ilə diplomatik münasibətləri kəsmişdi.

Sardiniya kralı Fransa və İngiltərədən kömək istədi. Lakin Fransa İtaliyanın birləşdirilməsinin, İngiltərə isə İtaliyada Fransanın təsirinin artmasının əleyhinə idi. Qərb dövlətlərinin müqavimətinə rast gəlməyən Avstriya ordusu Milana daxil oldu. Avqustun 9-da Avstriya ilə Sardiniya arasında imzalanmış sazişə əsasən Lombardiya və Venetsiya Avstriyada qaldı. Fransa hökuməti İtaliya ilə bağlı məsələləri müzakirə etmək üçün konfrans çağırmağı təklif etdi, lakin böyük dövlətlərin heç biri bu təkliflə razılaşmadı.

1849-cu ildə Prussiya Şimali və Mərkəzi Almaniya dövlətləri ilə uniya bağlayıb yeni Alman ittifaqı yaratmağa cəhd göstərdi. 1849-cu ilin martında Prussiya ordusu Danimarkada hərbi əməliyyatları davam etdirdi, lakin Rusiya, İngiltərə və Fransanın təzyiqi ilə müharibəni dayandırıb qoşunlarını Danimarkadan çıxarmalı oldu.

1849-cu ildə Avstriya ilə Sardiniya arasında yeni müharibə oldu. Avstriya yenə Sardiniya qoşununu məğlub etdi, Fransa və İngiltərə Avstriyaya təzyiq edirdi ki, Pyemonta qoşun göndərməsin. Avstriya Sardiniya ilə köhnə sərhədlərin sax-lanmasını nəzərdə tutan sülh müqaviləsi imzaladı.

Fransa İtaliyada Avstriya mülklərinin genişlənməsinin



əleyhinə idi. Ona görə Fransa hökuməti 1849-cu ilin yazında Roma papasının hakimiyyətini bərpa etmək üçün İtaliyaya qoşun göndərdi. Avstriya hökuməti Macarıstanda inqilabi yatırmaqla məşğul idi və İtaliyada Fransaya mane ola bilmədi. İngiltərə İtaliyada Fransanın mövqeyinin möhkəmlənməsindən narazı idi. Rusiya isə Roma respublikasının Fransa tərəfindən ləğv edilməsini razılıqla qarşıladı.

1848-ci ildə Macarıstana Avstriya monarxiyası tərkibində muxtariyyət verilmişdi. 1849-cu ilin yazında inqilab nəticəsində qurulmuş yeni hökumət Macarıstanın müstəqilliyini elan etdi. Macarıstan çalışırdı ki, Avropa dövlətləri onu müdafiə etsin. Lakin İngiltərə və Fransa hökumətləri Macarıstanın nümayəndələrini qəbul etmədilər. Onlar Avstriyanın ərazi bütövlüyünün saxlanmasına tərəfdar idi, çünki Avstriyanı Balkanlarda Rusiyanın əsas rəqibi hesab edirdilər. Eyni zamanda İngiltərə və Fransa Rusiyanı Macarıstana qoşun göndərməyə təhrik edirdilər.

1849-cu ilin yazında Macarıstan ordusu tərəfindən Avstriya qoşunlarının məğlub edilməsi Avropa dövlətlərinin ciddi narahatlığına səbəb oldu. Rusiya qorxurdu ki, Avstriya monarxiyasının dağılması alman torpaqlarında Prussiyanın mövqeyinin möhkəmlənməsinə və Polşada yeni üsyana səbəb olar. Avstriya hökuməti Rusiyanın Macarıstana qoşun göndərməsinə razı deyildi. Ona görə yalnız Avstriya hökuməti xahiş edəndən sonra Rusiya Macarıstana qoşun göndərdi. Rusiya və Avstriya qoşunları tərəfindən Macarıstanda inqilab yatırıldı.

İnqilabların yatırılmasından sonra Avstriya hökuməti Prussiyadan Alman ittifaqının bərpasını tələb etdi. Hər iki dövlət silahlanıb müharibəyə hazırlaşırdı. Prussiya ilə ittifaq yaratmış alman dövlətləri öz müstəqilliklərini itirmək istəmirdilər. 1850-ci ilin oktyabrında Rusiya imperatoru I Nikolay Prussiya kralını və Avstriya imperatorunu Varşavaya dəvət etdi. I Nikolay Avstriya ilə Prussiya arasında müharibənin əleyhinə idi. Prussiya kralı Varşavaya gəlmədi, öz yerinə nazir Brandenburqu göndərdi. Avstriyanın baş naziri Şvartsenberq Alman ittifaqında Prussiyanın mövqeyinin möhkəmlənməsinə razı deyildi. Yeni inqilabdan və məğlubiyyətdən qorxan Prussiya kralı Avstriya ilə müharibənin əleyhinə idi.

Avstriya-Prussiya münaqişəsini tənzimləmək üçün 1850-ci ilin noyabrında Olomoutsda konfrans keçirildi. Konfransda Prussiyanın və Avstriyanın baş nazirləri, Rusiyanın Vyanadakı səfiri iştirak edirdi. Konfransda imzalanmış sazişə əsasən Prussiya Danimarka ilə müharibəni dayandırdı və Alman ittifaqının bərpasına razılıq verdi. Bu nəticə həm Avstriyanın barışmaz mövqeyi, həm də İngiltərə və Fransanın təsiri ilə bağlı idi. İngiltərə Prussiyaya məsləhət gördü ki, Danimarkanın ərazi bütövlüyünə təminat versin. İngiltərə Prussiyaya qarşı Avstriyanı müdafiə edirdi.

Fransa Almaniyanın birləşdirilməsinin və Prussiyanın Danimarka ilə müharibəsinin əleyhinə idi. Amma Fransa Avstriya ilə Prussiya arasında müharibəyə tərəfdar idi ki, Reynin sol sahilinə qoşun göndərsin. 1850-ci və 1852-ci illərdə böyük dövlətlər Prussiya və İsveçlə Danimarkanın ərazi bütövlüyünün saxlanması haqqında müqavilə imzaladılar. Alman ittifaqı 1851-ci ildə bərpa olundu.

İnqilablar məğlubiyyətlə başa çatdığına görə 1848-1849-cu illərdə Almaniya və İtaliya birləşdirilmədi. Avstriya-Macarıstan monarxiyası mövcudluğunu saxladı. İnqilablardan sonra dövlətlərin sərhədləri dəyişilmədi, amma dövlətlərarası münasibətlərdə dəyişikliklər baş verdi.

1848-1849-cu illərdə baş vermiş inqilablardan sonra Avropada Rusiyanın nüfuzu artdı. Rusiya bundan Yaxın Şərqdə mövqelərini möhkəmləndirmək üçün istifadə edirdi. Avstriya «Şərq məsələsi»ndə Rusiyanı müdafiə etmək fikrində deyildi. Asiyada müstəmləkə işğallarını davam etdirən İngiltərə Fransa ilə birlikdə Rusiyanın Türkiyədə mövqeyini zəiflətməyə və Yaxın Şərqdə hegemonluğa çalışırdı. Fransada İkinci imperiyanın qurulmasını Rusiya alqışladı, eyni zamanda Fransanın yenidən Avropada hegemonluğa çalışmasından narahat idi. Ona görə Rusiya hökuməti əvvəlcə Fransada İkinci imperiya hökuməti ilə əlaqə yaratmaq istəmirdi.

Beləliklə, XIX əsrin 20-40-cı illərindəki inqilablarla əlaqədar Vyana sistemi zəiflədi və onun böhranı dərinləşdi. XIX əsrin 50-ci illərində «Şərq məsələsi» ilə əlaqədar ziddiyyətlərin kəskinləşməsi isə Vyana sisteminin dağılmasını sürətləndirdi.

## § 4. XIX əsrin 20-40-cı illərində «Şərq məsələsi» ətrafında beynəlxalq ziddiyyətlər

XIX əsrin 20-ci illərində «Şərq məsələsi»nin beynəlxalq münasibətlərə təsiri artmışdı. 1821-ci ilin martında Yunanıstanda başlanan üsyan «Şərq məsələsi»nə diqqətin artmasında böyük rol oynamışdı. Əvvəlcə, böyük dövlətlər Balkan hadisələrinə qarışmaq istəmirdilər. Onlar yunanların üsyanına qanuni hökmdara (türk sultanına) qarşı qiyam kimi baxır və yunanlara yardım göstərməkdən imtina etmişdilər.

Rusiya Osmanlı imperiyasının xristian əhalisi içərisində nüfuzunu saxlamaq üçün yunanlara kömək etmək istəyirdi. Rusiya XVIII əsrin birinci yarısından başlayaraq «Şərq məsələsi» ətrafında hərbi-diplomatik mübarizədə «xristianlara kömək» amilindən istifadə etmişdi. Rusiya imperatoru I Aleksandr «yunan məsələsi»ni beynəlxalq konfransların müzakirəsinə çıxartdı. 1822-ci ilin martında Vyanada başlanan danışıqlar və Müqəddəs ittifaqın Verona konqresində «yunan məsələsi»nin müzakirəsi heç bir nəticə vermədi.

Yunan üsyanının genişlənməsi bu məsələyə beynəlxalq münasibətin dəyişməsinə səbəb oldu. 1823-cü ilin martında C.Kanninq yunanları vuruşan tərəf adlandırdı, çünki İngiltərə Yunanıstana təsirini artırmaqda maraqlı idi. İngiltərənin siyasəti Avstriyanın narazılığına səbəb oldu. İngiltərə Türkiyəyə münasibətdə Avstriya ilə Rusiya arasındakı ziddiyyətlərdən istifadə edirdi. Rusiya həm İngiltərə, həm də Fransa ilə yaxınlaşmağa çalışırdı. İngiltərə Rusiya ilə yaxınlaşmağın əleyhinə deyildi.

İngiltərənin mövqeyi Rusiya diplomatiyasının fəallaşmasına səbəb oldu. Rusiya istəmirdi ki, «yunan məsələsi»nin həllində təşəbbüs İngiltərəyə keçsin. Rusiya çalışırdı ki, böyük dövlətlər türk-yunan münaqişəsinə kollektiv müdaxilə etsinlər. Lakin İngiltərə və Avstriya Rusiyanın təklifi ilə razılaşmadı. İngiltərə çalışırdı ki, Rusiya Türkiyəyə qarşı müharibəyə başlasın. Rusiya yunanların məğlubiyyətinin qarşısını almaq üçün Türkiyə ilə sərhədə qoşun yığmağa başladı.

Rusiyanın birtərəfli qaydada yunan-türk müharibəsinə qarışmasını və onun Yaxın Şərqdə təsirinin artmasını istəməyən

İngiltərə 1826-cı ilin aprelin 4-də Rusiya ilə «yunan məsələsi»nə dair Peterburqda saziş imzaladı. Sazişə əsasən Yunanıstan hər il Osmanlı imperiyasına xərac vermək şərti ilə muxtariyyət alırdı. İngiltərə yunan-türk müharibəsini dayandırmaq üçün vasitəçilik etməli idi. Türkiyə bu təklifi qəbul etməsə İngiltərə və Rusiya Yunanıstana kömək etməli idi. Bu saziş İngiltərə üzərində Rusiyanın diplomatik qələbəsi idi, çünki sazişə görə İngiltərə mütləq Türkiyəyə qarşı müharibədə iştirak etməli idi.

1826-cı il İngiltərə-Rusiya sazişindən Avstriya ciddi narahat oldu. Avstriya həm «yunan məsələsi»nin kəskinləşməsindən, həm də Rusiyanın İngiltərə ilə yaxınlaşmasından narahat idi. İngiltərənin Rusiya ilə yaxınlaşmasına mane olmaq üçün Türkiyə bütün əvvəlki müqavilələrə əməl edəcəyini bildirdi. İngiltərə Rusiya ilə saziş bağlasa da onun yunanlara kömək etməsinə mane olurdu. İngiltərə 1826-cı ildə İranın Rusiyaya qarşı müharibəyə başlamasına nail oldu.

Türkiyə sultanı Misir paşası Məhəmməd Əlinin hərbi yardımı ilə yunan üsyanını qısa müddətdə yatırmaq fikrində idi. 1826-cı ilin aprel-iyul aylarında Misir qoşunu yunanları bir neçə dəfə məğlub etdi. Avropa dövlətləri yunanların məğlubiyyətindən narahat oldu.

Peterburq protokoluna əsasən Rusiya və İngiltərə Türkiyə ilə müharibədən sonra Osmanlı imperiyasına qarşı ərazi iddiası ilə çıxış etməməli idi. Fransa «yunan məsələsi»nin həllində iştirak etmək istəyirdi. Kanninq Fransanın Londondakı səfirinə bildirdi ki, İngiltərə «yunan məsələsi»nin tənzimlənməsində Fransanın iştirakına razıdır, amma Rusiya üçüncü iştirakçını istəmir. Ona görə Fransanın Peterburqdakı səfiri I Nikolaya müraciət etdi. Rusiya imperatoru bildirdi ki, o Fransanın «yunan məsələsi»nin tənzimlənməsində iştirakına tərəfdardır, amma İngiltərə mane olur. Rusiya «yunan məsələsi»nin həllində Fransanın iştirakının əleyhinə idi, lakin İngiltərə Rusiya ilə razılaşdı və İngiltərə, Rusiya və Fransa birlikdə Türkiyəyə qarşı mübarizəyə başladılar.

1827-ci ilin iyulunda Londonda İngiltərə, Rusiya və Fransa arasında «yunan məsələsi»nə dair əsasən Peterburq protokolunu təkrar edən müqavilə imzalandı. 1827-ci ilin oktyabrın 20-



də birgə İngiltərə, Fransa və Rusiya eskadrası Navarin döyüşündə Türkiyə-Misir donanmasını məğlub etdi və bu hadisə yunanların mövqeyini möhkəmləndirdi.

Türkiyə hökuməti yunanlara muxtariyyət verməyə və böyük dövlətlərin yunan məsələsində vasitəçiliyinə razı oldu. Türkiyə sultanı hesab edirdi ki, böyük dövlətlər arasındakı ziddiyyətlər onların birgə fəaliyyətini çətinləşdirəcək. Navarin döyüşündən sonra İngiltərə və Fransa Türkiyəyə qarşı müharibəni davam etdirmək istəmirdilər. Rusiya isə yunanlara köməyi davam etdirmək niyyətində idi.

Türkiyə hökuməti yunanlara muxtariyyət vermək və Rusiya ilə əvvəllər bağlanmış (Qara dəniz boğazlarında ticarət azadlığı və Dunay knyazlıqlarına Rusiyanın himayədarlıq etməsi barədə) müqavilələrə əməl etmək fikrində deyildi.

XIX əsrin 20-ci illərinin sonunda Rusiya diplomatiyasının Qara dəniz boğazlarına nəzarət uğrunda mübarizəsi gücləndi. Rusiya hesab edirdi ki, İngiltərə ona mane olmayacaq. Türkiyəyə qarşı müharibə vasitəsilə Rusiya Yunanıstanın azadlıq əldə etməsinə kömək etmək fikrində idi. Rusiya müharibə vasitəsilə öz gəmilərinin Qara dəniz boğazlarından sərbəst keçməsini təmin etmək və həm Balkanlarda, həm də Zaqafqaziyada mövqelərini möhkəmləndirmək fikrində idi.

Rusiya-Türkiyə müharibəsi 1828-ci ilin mayın 7-də başlandı. Hərbi əməliyyatlar Zaqafqaziyada və Balkanlarda aparılırdı. Balkanlarda Türkiyə ordusu Rusiya qoşunlarına güclü müqavimət göstərirdi. Avstriya bir tərəfdən buna sevinir, digər tərəfdən, çalışırdı ki, İngiltərə, Fransa və Prussiya Avstriya ilə ittifaqda dərhal rus-türk müharibəsinin dayandırılmasını tələb etsinlər.

İngiltərə, Fransa və Prussiya rus-türk müharibəsinə qarışmaq fikrində deyildi. Avstriyanın Rusiyaya qarşı dörd dövlətin ittifaqını yaratmaq cəhdləri baş tutmadı. Rusiya Avstriyaya qarşı diplomatik mübarizə aparırdı. Rusiya ordusu Balkanları keçib Ədirnəni tutmuşdu. Türkiyə sultanı II Mahmud sülh danışıqlarına başlamağı təklif etdi və tərəflər arasında danışıqlar başlandı.

1829-cu ilin sentyabrın 14-də Rusiya ilə Türkiyə arasında Ədirnə sülhü imzalandı. Müqavilə Serbiyanın, Valaxiya və

Moldoviyanın muxtariyyət hüququnu təsdiq etdi və Dunay knyazlıqlarının muxtariyyətini genişləndirdi. Zaqafqaziyada Rusiyanın mövqeləri möhkəmləndi. Ədirnə sülhü Yunanıstanın müstəqilliyini hüquqi cəhətdən rəsmiləşdirməyə şərait yaratdı. 1830-cu ilin fevralın 3-də Londonda səfirlərin konfransında Yunanıstan krallığının yaradılması haqqında protokol imzalandı.

Yunanıstanın müstəqilliyinin bərpası və Ədirnə sülhü Osmanlı imperiyasının zəifləməsini göstərdi. Misir paşası Məhəmməd Əli yaranmış şəraitdən istifadə edib İstanbula hücum etmək qərarına gəldi. Onun məqsədi Türkiyə sultanının taxtını ələ keçirmək və Misrin müstəqilliyinə nail olmaq idi. 1832-ci ildə Misir qoşunu Suriyanı ələ keçirdi, 1833-cü ildə Konya yaxınlığındakı döyüşdə Türkiyə ordusunu məğlub etdi və İstanbul üçün təhlükə yarandı. Osmanlı imperatoru II Mahmud İngiltərə, Fransa və Rusiyadan hərbi yardım istədi.

Fransa hökuməti Türkiyəyə kömək göstərmədi. İngiltərə Türkiyə sultanına bildirdi ki, Avstriya ona kömək edəcək, çünki İngiltərə Türkiyənin Rusiyadan kömək istəməsinin əleyhinə idi. Lakin Avstriya Türkiyəyə yardım göstərmədi. Rusiya hələ Konya döyüşündən əvvəl Misirə qarşı mübarizədə Türkiyəyə hərbi yardım təklif etmişdi. Rusiya bildirmişdi ki, sultan istəsə, o Məhəmməd Əlidən öz qoşunlarını Misirə qaytarmağı tələb edə bilər və bu tələbə əməl etməsə Rusiya Misirə qarşı müharibəyə başlayacaq.

Misir paşası öz qoşunlarını geri çəkmək istəmirdi. Türkiyə sultanı Rusiyanın təklifinə cavab verməyə tələsmirdi. Misir ordusu Türkiyənin şimalına hücumu davam etdirirdi. İngiltərə Türkiyəyə hərbi yardım göstərmək fikrində deyildi, Fransa isə Misiri müdafiə edirdi.

1833-cü ilin fevralında Türkiyə sultanı II Mahmud Rusiyadan kömək istədi. Rusiya dərhal Bosfor boğazına hərbi donanma göndərdi. İngiltərə və Fransa Türkiyə sultanını inandırmağa çalışırdılar ki, Rusiya donanmasını geri qaytarsın, əks təqdirdə onların səfirləri İstanbulu tərk edəcək və Misirə yardım göstərəcəklər. Türkiyə sultanı II Mahmud Fransadan hərbi yardım xahiş etdi. Lakin Qərb dövlətləri Türkiyəyə kömək etmədilər. Misir tərəfdarları Smirnada üsyan edən zaman Türkiyə yenə



Rusiyadan kömək istədi və Rusiya hərbi gəmilərində Bosfor sahilinə 14 min nəfər qoşun gətirildi. Bundan narahat olan İngiltərə və Fransa Misir sahillərinə hərbi donanma göndərdilər və Türkiyə sultanı ilə Misir paşası arasında vasitəçilik etdilər. 1833-cü il mayında Türkiyə ilə Misir arasında barışıq imzalandı və Misir ordusunun hücumu dayandırıldı.

Türkiyə sultanına Misir ordusunun yeni hücumlarına qarşı təminat lazım idi. Bu köməyi Türkiyə Rusiyadan almaq fikrində idi. Müqavilə bağlanmasını sürətləndirmək üçün Rusiya bildirdi ki, iyulda Rusiya donanması Sevastopola qayıdacaq.

8 iyul 1833-cü ildə Rusiya ilə Türkiyə arasında Ünkər-İskələ müqaviləsi imzalandı. Müqaviləyə görə Misir ordusunun Türkiyəyə yeni hücumu zamanı Rusiya Türkiyəyə hərbi yardım göstərməli idi. Türkiyə Rusiyanın həm hərbi, həm də ticarət gəmilərini Qara dənizdən boğazlardan buraxmalı idi. Rusiya tələb edəndə Türkiyə isə Dardanel boğazını Qərb dövlətlərinin hərbi gəmiləri üçün bağlamalı idi. Bu müqavilə İngiltərə-Rusiya münasibətlərinin zəifləməsinə səbəb oldu.

Rusiyanın siyasəti Şərqdə İngiltərənin müstəmləkəçilik planları üçün təhlükə yaradırdı. Ona görə Rusiyaya qarşı mübarizə İngiltərənin xarici siyasəti qarşısında dayanan əsas vəzifələrdən biri idi. 1832-ci ildə İngiltərənin Rusiyaya göndərdiyi yeni səfiri Nikolay qəbul etmədi. Ünkər İskələ müqaviləsinə İngiltərə diplomatiyası öz məğlubiyyəti kimi baxırdı. İngiltərə görürdü ki, Rusiya Şərqdə öz məqsədlərinə çatmaq üçün Avstriyadan istifadə edibdir.

Avstriya XIX əsrin 30-40-cı illərində Almaniyada və İtaliyada inqilabi hərəkatın artması ilə əlaqədar Rusiya və Prussiyadan Müqəddəs ittifaqı möhkəmləndirməyi xahiş edirdi. Rusiya imperatoru Avstriya, Prussiya və Rusiyanın iştirakı ilə konfrans keçirilməsinə razılıq verdi. Rusiya bu konfransda həm inqilabi hərakata qarşı mübarizə tədbirlərini müzakirə etmək, həm də «Şərq məsələsi»ndə Avstriyanın mövqeyini öyrənmək fikrində idi.

1833-cü ilin sentyabrında Müxenqretsdə Rusiya, Avstriya və Prussiya dövlət başçılarının konfransı keçirildi. Konfransda Rusiya ilə Avstriya arasında imzalanmış sazişə əsasən tərəflər

Yaxın Şərqdə mövcud vəziyyəti qoruyub saxlamalı və Misir qarşı Türkiyəni müdafiə etməli idi.

İngiltərə və Fransa Ünkər İskələ müqaviləsinin ləğvi və Qara dəniz boğazlarının rejimi haqqında yeni beynəlxalq saziş imzalanmasına çalışırdılar. Yeni saziş uğrunda mübarizəni təşəbbüskarı uzun müddət İngiltərənin xarici işlər naziri işləmiş lord Palmerston idi. Onun təşəbbüsü ilə Şərq ölkələrinə İngiltərədən çoxlu sənaye malları göndərilmişdi.

Rusiya tacirləri Türkiyə bazarlarında İngiltərə tacirlərinin rəqabətinə davam gətirmirdilər və Türkiyədə Rusiyanın mövqeləri zəiflədi. Palmerstonun yeni «iqtisadi diplomatiyası» nəticəsində 1838-ci ildə İngiltərə ilə Türkiyə arasında yeni ticarət müqaviləsi imzalandı. Türkiyə şəhərlərinə İngiltərədən göndərilən sənaye məhsullarının həcminin artması Rusiya və Fransa tacirlərinin narazılığına səbəb oldu.

Misir paşası şərqdə İngiltərə-Fransa ixtilafından və yaranmış əlverişli şəraitdən istifadə edib Misirin müstəqilliyinin bərpasına, Suriyanı və Krit adasını öz əlində saxlamağa çalışırdı. Misir paşası bildirdi ki, 1838-ci il İngiltərə-Türkiyə müqaviləsinin şərtləri Misir ərazisinə aid deyildir. Misirin siyasəti 1839-cu ildə onunla Türkiyə arasında yeni müharibəyə səbəb oldu və Türkiyə qoşunu yenə məğlubiyyətə uğradı.

Palmerstonun təklifi ilə Türkiyə bu dəfə köməyi yalnız Rusiyadan deyil, bütün böyük dövlətlərdən istədi. İngiltərənin Türkiyəyə təsiri getdikcə artırdı. Palmerston dəniz azadlığına kollektiv beynəlxalq təminat ideyası ilə çıxış etdi. Rusiya bu ideyanı bəyəndi.

İngiltərə Ünkər-İskələ müqaviləsinin ləğvinə çalışırdı və Fransanın Misiri müdafiə etməsindən razı deyildi. Digər tərəfdən, Rusiya yeni Türkiyə-Misir müharibəsindən istifadə edib İstanbulu tuta bilərdi. Ona görə İngiltərə Avstriyaya bildirdi ki, Fransanın Misirdə möhkəmlənmək cəhdlərinə qarşı mübarizə aparacaq.

Rusiya yaranmış şəraitdən istifadə edib «Şərq məsələsi» haqqında İngiltərə ilə məsləhətləşmələr aparmaq qərarına gəldi, məqsədi həm də İngiltərə ilə saziş bağlayıb onun Fransa ilə əməkdaşlığına mane olmaq idi. Bu məqsədə çatmaq üçün Rusi-

ya hətta Ünkər-İskələ müqaviləsindən imtina etməyə hazır idi.

Rusiya, Avstriya və Prussiya ilə İngiltərə arasında danışıqlar başlandı, 1840-cı ilin iyulun 15-də Londonda onlar Osmanlı imperiyasının ərazi bütövlüyünə kollektiv təminat haqqında saziş imzaladılar. Bu saziş Misirə qarşı Türkiyənin mənafeyinə uyğun idi. Fransa bu sazişə etirazını bildirdi. London sazişindən razı qalan Rusiya imperatoru hesab edirdi ki, daha İngiltərə ilə Fransa arasında normal münasibətlər bərpa olunmayacaq və əlverişli fürsət düşən kimi İngiltərə ilə qarşılaşmaq haqqında düşünürdü. Rusiya imperatoru bildirdi ki, əgər Fransa İngiltərəyə müharibə elan etsə Rusiya İngiltərəni müdafiə edəcək.

Fransa mətbuatında İngiltərə əleyhinə geniş təbliğat aparılırdı. İngiltərə isə Rusiyanın belə mövqeyindən Ünkər-İskələ müqaviləsinin müddətinin artırılmasına mane olmaq üçün istifadə etdi. Ünkər İskələ müqaviləsi 1833-cü ildə səkkiz il müddətinə imzalanmışdı. 1841-ci ilin iyulunda Rusiya, İngiltərə, Fransa, Avstriya və Prussiya ilə Türkiyə arasında Qara dəniz boğazlarının rejimi haqqında müqavilə imzalandı. Müqaviləyə görə Türkiyənin iştirak etmədiyi müharibə zamanı Qara dəniz boğazları bütün dövlətlərin hərbi gəmiləri üçün bağlanmalı idi; müharibə zamanı isə Türkiyə hökuməti istədiyi ölkənin hərbi gəmilərini boğazlardan buraxa bilərdi. Fransa daha Misiri müdafiə etmirdi.

Qara dəniz boğazlarının rejimi haqqında Rusiya-Türkiyə sazişinin qüvvədən düşməsi Rusiyanın diplomatik məğlubiyyəti idi. 1841-ci ildən etibarən Qara dəniz boğazlarının rejimi çoxtərəfli aktlar vasitəsilə tənzimlənməyə başladı. 1841-ci ildə lord Eberdin İngiltərənin xarici işlər naziri təyin edildi. O hesab edirdi ki, mühüm məsələlərdə Rusiya ilə razılaşmaq olar. Ona görə Rusiya imperatoru fikirləşdi ki, İngiltərə Türkiyə məsələsində onunla hesablaşacaq.

1844-cü ilin mayında I Nikolay İngiltərəyə səfərə gəldi. Londonda onu çox yaxşı qarşıladılar. Ona görə «Şərq məsələsi»ndən ətraflı danışan Rusiya imperatoru bildirdi ki, Türkiyənin parçalanması zəruridir. İngiltərə Türkiyənin parçalanmasından sonra birinci növbədə Misiri ələ keçirmək fikrində idi. 1845-ci ilin dekabrında Rusiya imperatoru I Nikolay Vyanada

Metternixə bildirdi ki, əgər Türkiyə parçalansa Rusiya İstanbulu heç kimə verməyəcək. I Nikolay həmin dövrdə Avstriyanı və Prussiyanı zəif sayırdı.

1848-1849-cu illərdəki inqilabi hadisələr Yaxın Şərqdə beynəlxalq vəziyyətə böyük təsir göstərdi. 1848-ci ildə Moldaviyada üsyan başlandı. Rusiya Türkiyə sultanının razılığı ilə Moldaviyaya qoşun göndərdi. Valaxiyadakı inqilabi hərakat isə Türkiyə qoşunları tərəfindən yatırıldı. 1848-ci ilin avqustunda Valaxiyaya Rusiya qoşunları gəldi və Buxarestdə Türkiyə qoşunu ilə birləşdi.

1848-ci ilin sentyabrında Rusiya imperatoru I Nikolay Türkiyə sultanına ittifaq müqaviləsi bağlamağı təklif etdi. Avstriya hökuməti Rusiya qoşunlarının Dunay knyazlıqlarının ərazisinə daxil olmasına etiraz etmədi. Lakin Rusiyanın hərəkəti Qərb dövlətlərinin narazılığına səbəb oldu.Çünki İngiltərə özü Dunay knyazlıqlarına göz dikmişdi, ona görə Rusiyadan tələb etdi ki, qoşunlarını oradan çıxarsın. Rusiya bildirdi ki, o Dunay knyazlıqlarında asayişi bərpa edir, digər tərəfdən, İrlandiyada xalq hərakatını yatırmaq üçün İngiltərənin oraya 50 minlik qoşun göndərməsinə işarə etməklə öz hərəkətinə bəraət qazandırdı.

Rusiya Dunay knyazlıqları ilə bağlı məsələləri yalnız Türkiyə sultanı ilə həll etməyə çalışırdı. 1849-cu ilin aprelində Rusiya ilə Türkiyə arasında saziş imzalandı. Sazişə əsasən Dunay knyazlıqlarının hakimlərinin mülkədarlar tərəfindən seçilməsi qaydası ləğv olundu, hakimləri indidən belə Rusiya çarının razılığı ilə Türkiyə sultanı təyin etməli idi. Dunay knyazlıqlarına Rusiyanın təsirinin artması Yaxın Şərqdə onunla Qərb dövlətləri arasında ziddiyyətlərin kəskinləşməsinə səbəb oldu.

## § 5. XIX əsrin birinci yarısında ABŞ-ın xarici siyasəti

XIX əsrin əvvəllərində xarici siyasət sahəsində ABŞ-ın ilk tədbirlərindən biri Luizirananın Fransadan alınması olmuşdu. Luiziana ABŞ-a birləşdirilsəydi, onun ərazisi iki dəfə artardı. Fransanın Şimali Amerikaya hücum etmək imkanı məhdud idi. 1800-cü ilin payızında İspaniya ilə imzalanmış gizli sazişə

əsasən Luiziana və Yeni Orlean Fransaya qaytarılmışdı. Ona görə ABŞ öz xarici siyasətində dəyişiklik etdi və Fransa əleyhinə çıxış etməyə başladı.

1802-ci ildə T.Cefferson ABŞ-ın Parisdəki səfiri R.Livinqstona yazmışdı ki, «Yeni Orleanın sahibi Amerika xalqının təbii və əbədi düşmənidir, əgər Yeni Orlean Fransada qalarsa ABŞ İngiltərə ilə dostluq və müttəfiqlik etməli olacaq». Dövlət katibi C.Medison konqresə məruzəsində yazırdı ki, Yeni Orlean və Florida ya satın almaq yolu ilə, ya da işğal yolu ilə ABŞ-ın tərkib hissəsi olmalıdır. ABŞ bildirmişdi ki, İngiltərənin tərəfində Fransaya qarşı müharibədə iştirak edə bilər.

1803-cü ildə Avropada yeni hərbi əməliyyatlara başlaması ilə əlaqədar Napoleon Luizianani 15 milyon dollara ABŞ-a satdı. ABŞ bildirdi ki, Luizianının tərkib hissəsi kimi Florida da ona verilməlidir. İspaniya ABŞ-ın ərazi iddialarına ciddi etiraz etdi.

1803-cü ildən sonra İngiltərə və Fransa bir-birlərinin başqa ölkələrlə ticarətinə mane olmağa çalışırdı. İngiltərə hərbi gəmiləri okeanda donanmadan qaçmış matrosları tapmaq bəhanəsilə ABŞ gəmilərini saxlayırdı. İngiltərənin hərəkəti ABŞ-ın milli suverenliyinə toxunur və həm də dəniz donanmasının mövcudluğu üçün təhlükə yaradırdı.

ABŞ donanmasında İngiltərənin doqquz min nəfər keçmiş matrosu xidmət edirdi. 1807-ci ilin 22 iyununda İngiltərənin «Leopard» adlı gəmisi ABŞ-ın «Çesapik» gəmisinə atəş açdı, 3 nəfər öldu, 18 nəfər yaralandı, 4 nəfər isə əsir götürüldü. 22 dekabr 1807-ci ildə prezidentin imzaladığı qanunla ABŞ-ın İngiltərə ilə ticarəti qadağan edildi.

İngiltərə və Fransa ilə münasibətləri kəskinləşən ABŞ Rusiya ilə yaxınlaşmağa başladı. 1807-ci ilin sentyabrında ABŞ-nın Londondakı səfiri C.Monro Rusiyanın səfiri ilə görüş zamanı bildirdi ki, ABŞ prezidenti arzu edir ki, I Aleksandr ABŞ-da öz diplomatik nümayəndəliyini təşkil etsin. Rusiya ABŞ səfirinin təklifi ilə razılaşdı. İlk ABŞ səfiri C.Adams Rusiyaya 1809-cu ilin payızında gəldi. Rusiya səfiri F.Palen isə ABŞ-a 1810-cu ilin aprelində gəlmişdi.

İngiltərə ilə ticarətin kəsilməsi və Fransanın qitədən mühasirə siyasəti ABŞ-ın Rusiya ilə ticarət əlaqələrinin genişlənməsinə kömək etdi. 1810-cu ildə Rusiya limanlarına 200-dən çox ABŞ gəmisi gəlmişdi. 1811-ci ildə Kronştadt limanına 138, Arxangelsk limanına 65, Riqaya 30 ABŞ gəmisi gəlmişdi. 1811-ci ildə ABŞ-dan məhsul ixracının 10%-i Rusiyanın payına düşürdü.

1809-cu ildə qəbul edilmiş qanuna əsasən ABŞ İngiltərə və Fransadan başqa bütün ölkələrlə ticarət edə bilərdi. Qanuna görə İngiltərə və Fransa ABŞ-ın donanmasına qarşı məhdudiyyətləri ləğv edənə qədər onlarla ticarət qadağan idi. İngiltərənin səfiri F.Cekson ABŞ-dan geri çağırılmışdı. ABŞ ilə İngiltərə arasında düşmənçiliyi qızışdırmaq üçün 1810-cu ilin yayında Napoleon şifahi şəkildə ABŞ-la ticarətə dair dekretləri ləğv etdiyini bildirmişdi. Lakin bundan sonra fransızlar tərəfindən ABŞ gəmilərinin saxlanması halları artmışdı.

1812-ci il iyunun 1-də ABŞ prezidenti C.Medison konqresə məktubunda Böyük Britaniya ilə müharibənin zəruriliyini əsaslandırdı. 1803-1812-ci illərdə İngiltərə donanması dənizdə ABŞ-ın 900-dən çox ticarət gəmisini saxlamışdı. ABŞ fürsətdən istifadə edib Kanadanı və Floridanı ələ keçirmək istəyirdi.

İngiltərənin beynəlxalq təcrid vəziyyətinə düşməsi ilə əlaqədar ABŞ 1812-ci ildə İngiltərəyə qarşı müharibəni zəruri hesab etdi. Müharibə 1812-ci ilin iyununda başladı. ABŞ qoşunlarının general Xellin başçılığı altında olan hissəsi Kanadanı tuta bilmədi və 1812-ci il avqustun 16-da Detroytda təslim oldu. ABŞ qoşunu canlı qüvvə və artilleriya cəhətdən İngiltərə ordusundan iki dəfə üstün idi. 1814-cü ilin avqustunda İngiltərə ordusu Vaşinqtonu tutub konqresin binasını yandırmışdı. 1814-cü il avqustun 8-də başlanan sülh danışıqları 1814-cü il dekabrın 24-də müqavilə imzalanması ilə başa çatdı. Müqaviləyə əsasən, hər iki tərəf tutduqları torpaqlardan imtina etməli, əsirləri qaytarmalı, hindulara qarşı hərbi əməliyyatları dayandırmalı və qul ticarətinə qarşı tədbirlər görməli idi.

1810-cu ildə ABŞ Qərbi Floridanı işğal etmiş və konqresin qərarı ilə bu ərazi Luiziana ştatına birləşdirilmişdi. 1817-ci ilin dekabrında ABŞ silahlı qüvvələri Ameliya adasını tutdular,

1818-ci ildə isə general E.Ceksonun ordusu hinduları təqib etmək adı ilə Şərqi Floridaya daxil oldu, guya həmin hindular plantasiyadan qaçan qullara sığınacaq vermişdilər. 1819-cu il fevralın 22-də Vaşinqtonda bağlanmış müqaviləyə əsasən İspaniya Floridanı ABŞ ərazisi kimi tanıdı.

ABŞ-ın ərazisi həm də hindu torpaqları hesabına genişlənirdi. «Lazımsız və təhlükəli» əhali hesab olunan hinduları kütləvi şəkildə qırırdılar. Hərbi nazir C.Kelxun 1823-cü ildə konqresə göndərdiyi məktubda hinduları Missisipi çayının arxasına köçürməyi təklif etmişdi. İndiana 1816-cı ildə, Missisipi 1817-ci ildə, İllinoys 1818-ci ildə, Alabama 1819-cu ildə ittifaqa ştat kimi qəbul edildi. 1825-ci ildə Missisipidən şərqdə 125 min nəfər hindu yaşayırdı, 1844-cü ildə isə orada cəmi 30 min nəfər hindu qalmışdı.

1823-cü il dekabrın 2-də prezident C.Monronun konqresə göndərdiyi məktubda «Monro doktrinası» öz əksini tapmışdı. Bu sənədin meydana çıxmasında İngiltərənin xarici işlər naziri C.Kanninqin ABŞ-a «İspan-amerika məsələsi»ndə birgə fəaliyyətə dair təklifi, Müqəddəs ittifaqın 1823-cü ilin avqustunda ABŞ-a müdaxilə edəcəyi haqqında məlumatlar və Avropada yaranmış beynəlxalq vəziyyət mühüm rol oynamışdı.

Doktrinanın əsas prinsiplərindən biri dünyanın Avropa və Amerika sistemlərinə bölünməsindən ibarət idi. Sənəddə deyilirdi ki, «Biz Avropa dövlətlərinin öz siyasi sistemlərini bizim yarımkürənin hər hansı bir hissəsinə yaymaq cəhdinə öz rahatlığımız üçün təhlükə kimi baxacağıq». Doktrinada deyilirdi ki, ABŞ Avropanın daxili işlərinə qarışmayacaq, keçmiş müstəmləkələrin İspaniyaya qarşı mübarizəsinə münasibətdə bitərəf qalacaqdır.

«Monro doktrinası»nın məqsədləri dövlət katibi C.Adamsın Rusiya səfiri baron F.Teylə göndərdiyi gizli sənəddə öz əksini tapmışdı. Burada deyilirdi ki, «ABŞ Avropanın bitərəfliyini nəzərə alaraq Cənubi Amerikanın istiqlaliyyətini tanımaq qərarına gəlmişdir, qanuni yolla Avropa ölkələri bu bitərəflikdən geri çəkilə bilməz. Müqəddəs ittifaq inqilablara qarşı ancaq Avropa qitəsində mübarizə apara bilər, yəni onun səlahiyyətləri Qərb yarımkürəsinə yayıla bilməz. Avropa bitərəf qaldıqca

ABŞ da yeni dövlətlərlə onların metropoliyaları arasındakı mübarizədə bitərəf qalacaqdır».

Sənədin yekun hissəsində deyilirdi ki, ABŞ İspaniyada başqa hər hansı bir Avropa ölkəsinin Amerikada öz keçmiş müstəmləkəsi üzərində ağalığını bərpa etmək üçün silahlı müdaxiləsinə heç vaxt biganə qalmayacaqdır. 1824-cü ilin yazında konqres idxal malları üçün gömrüyü artıran qanun qəbul etdi.

«Monro doktrinası» ABŞ-ın Qərb yarımkürəsində mövqelərinin möhkəmlənməsinə yönəlmişdi. ABŞ «Monro doktrinası»ndan Latın Amerikası ölkələrinə qarşı, İngiltərəyə və Avropanın başqa ölkələrinə qarşı Qərb yarımkürəsində nüfuz uğrunda mübarizədə istifadə etmək niyyətində idi. İngiltərə əvvəlcə «Monro doktrinası»nın Rusiyaya qarşı yönəldiyini bildirdi, məqsədi Rusiya ilə ABŞ arasında narazılıq yaratmaq idi.

Alyaska, Aleyt adaları, Şimali Amerikanın qərb sahilində bəzi ərazilər Rusiyaya məxsus idi. Bu ərazilər 1799-cu ildə yaradılmış Rusiya-Amerika şirkəti tərəfindən idarə olunurdu. ABŞ-ın ərazi iddialarının genişlənməsi ilə əlaqədar Rusiyanın Şimali Amerikadakı ərazilərini idarə etməsi çətinləşdi. 1821-ci ildə Rusiyanın Şimali Amerikadakı mülklərinin sərhədi 51-ci paralelə çatırdı. ABŞ dövlət katibi isə sərhədin 55-ci paralelə çəkilməsini tələb edirdi. Rusiyanın xarici işlər naziri sərhədin $54^0 40'$ şimal en dairəsindən keçməsinə razılaşdı, çünki bu halda Prins Uelski adası Rusiyada qalırdı.

ABŞ-ın Peterburqdakı səfiri Q.Middlton həm də Amerikanın şimal-qərb sahillərində ticarət və balıqçılıq azadlığı tələb edirdi. Rusiya bu məsələdə ABŞ-a güzəşt etdi və 1824-cü il aprelin 5-də Rusiya ilə ABŞ arasında saziş imzalandı. Sazişə əsasən Rusiyanın Amerikadakı mülklərinin sərhədi dəqiqləşdirildi, ABŞ tacirləri Rusiya mülklərində ticarət edə bilərdi. Rusiya-Amerika şirkəti bu sazişdən narazı qaldı və bildirdi ki, sazişin şirkət üçün ağır nəticələri olacaq.

1832-ci il dekabrın 6-da ABŞ Rusiya ilə ticarət müqaviləsi bağladı. 30-cu illərdə Rusiyadan məhsul ixracının 4 %-i ABŞ-ın, ABŞ-dan məhsul ixracının 10%-i Rusiyanın payına düşürdü. Rusiyanın mülkləri ABŞ tacirləri ilə rəqabətə davam gətirmirdi. Sibirdən və Uzaq Şərqdən Rusiyanın Amerikadakı mülklərinə

gctmək istəyənlərin sayı azalmışdı. 1842-ci ildə Rusiya hökumətinin razılığı ilə Rusiya-Amerika şirkəti Kaliforniyadakı mülklərini bir ABŞ vətəndaşına satmışdı.

ABŞ-ın Şimali Amerikadakı işğal planlarında Yeni İspaniyanın şimal-şərq hissəsi, ilk növbədə Texas xüsusi yer tuturdu. 1819-cu ildə İspaniya ilə bağladığı müqaviləyə əsasən ABŞ Texası Yeni İspaniyanın tərkib hissəsi kimi tanımalı olmuşdu. Texasın zəngin təbii sərvətləri, tütün və pambıq əkmək üçün məhsuldar torpaqları.Cənub-qərb ştatlarının diqqətini cəlb edirdi. Digər tərəfdən, ittifaqda siyasi üstünlüyünü saxlamaq üçün cənub ştatlarının plantatorlarına Missisipidən Qərbdə yeni, quldar ştatlar yaratmaq lazım idi.

1820-ci ilin noyabrında Konnektikut ştatının sakini olan sahibkar M.Ostin San-Antonioya gəlib qubernator Martinesdən məskən yaratmaq üçün torpaq istəmişdi. 1821-ci ilin yanvarında katolik dininə itaət etmək və ispan monarxiyasına sədaqət andı içmək şərti ilə 300 ailəyə Texasda məskunlaşmağa icazə verilmişdi. Meksika öz müstəqilliyini elan etdikdən sonra M.Ostinin oğlu Stiven daha 200 ailənin Texasa keçməsinə icazə istəmişdi. Meksikada torpağın bir akrı 12,5 sentə idi və bu ucuzluq nəticəsində M.Ostinin ardınca Texasa köçənlərin sayı artdı.

28 mart 1822-ci ildə konqres Latın Amerikası dövlətlərinin müstəqilliyini tanımaq haqqında qərar qəbul etdi. Lakin diplomatik nümayəndə təyin etmək əvəzinə Meksikaya qeyri-rəsmi qaydada Cənubi Karolina ştatından olan konqresmen C.Poynsett göndərildi. Meksikanın dövlət rəhbərləri ilə görüşdə C.Poynsett bildirdi ki, köhnə sərhədlər ABŞ-ı təmin etmir, ona görə Texas, Yeni Meksika, Yuxarı Kaliforniya və Aşağı Kaliforniyanın bir hissəsi ABŞ-a keçməlidir.

ABŞ sahibkarlarının təzyiqi ilə Meksika imperatoru Aqustin 1823-cü il yanvarın 4-də məskunlaşma haqqında qanun imzaladı. Qanun xaricilərə torpaq verilməsini və onların hüquqlarının qorunmasını nəzərdə tuturdu. Amerikalıların təzyiqi ilə Meksikanın Müəssisələr məclisi 1824-cü il avqustun 18-də xarici vətəndaşların əmlakının toxunulmazlığını təmin edən qanun qəbul etdi. Ümumiyyətlə, 1835-ci ilə qədər Meksikanın hakimiyyət orqanları ilə ABŞ şirkətləri və ayrı-ayrı vətəndaşları

arasında 41 saziş imzalanmışdı. 1824-cü ildən 1835-ci ilə qədər beş min ABŞ vətəndaşına Texasda 26 min 280 akr torpaq verilmişdi.

Texasın plantatorları Meksika hakim dairələrinin köləliyə qarşı tədbirlərindən narazı idi. 1823-cü ildə Meksikada qəbul edilmiş qanun qulların alınıb-satılmasını qadağan edir və qulların 14 yaşına çatmış uşaqlarının azad edilməsini nəzərdə tuturdu. 1824-1825-ci illərdə hökumət Meksikaya qul gətirilməsini qadağan etdi.

ABŞ hökumətinin işğalçılıq planları Meksika üçün sirr deyildi. 1825-ci ildə ABŞ-ın Meksikadakı səfiri C.Poynsett Kolorado çayına qədər Texas ərazisini ABŞ-a satmağı Meksika hökumətindən tələb etdi. Lakin bu cəhd uğursuz oldu. 1828-ci ildə ABŞ-ın Meksika ilə bağladığı müqavilə 1819-cu il müqaviləsinin müddəalarını təsdiq etdi. 1829-cu ildə C.Poynsett Meksikadan geri çağırıldı.

1830-cu ilin aprelin 6-da Meksika konqresi qonşu dövlətlərdən Meksikanın sərhəd ştatlarına mühacirəti qadağan etdi. 1832-ci ilin oktyabrında Texas kolonistlərinin 58 nümayəndəsi San-Felipe şəhərində yığıncaq keçirib 1830-cu il qanununun ləğvini və Texasın müstəqil ştata çevrilməsini tələb etdilər. Bu tələblərin yerinə yetirilməsinii təmin etmək üçün 1833-cü ilin aprelində Mexikoya gələn S.Ostin ABŞ mühacirlərinin Texasa köçməsinə icazə aldı. Lakin Meksika hökuməti Texasa ştat statusu verməkdən imtina etdi.

1835-ci ildə gömrüklərin toplanmasını təmin etmək üçün Meksika hökuməti Texasa əlavə qoşun hissələri göndərdi. Texas kolonistləri silahlı qiyam qaldırıb 9 dekabr 1835-ci ildə San-Antonio şəhərini tutdular və müstəqil Texas respublikasının yaradılmasını elan etdilər. Meksika qoşunları Texası tərk etməli oldu. Lakin 1836-cı il fevralın 23-də Meksika ordusu həmin şəhəri geri aldı və şəhərdəki qiyamçıları məhv etdi.

1836-cı ilin fevralında Vaşinqtonda «Texas xalqının nümayəndələri»nin konventi keçirildi və burada Texasın Meksikadan ayrılıb müstəqil respublikaya çevrilməsi haqqında qərar qəbul edildi. D.Bernet adlı bir şəxs «Texas respublikası»nın prezidenti seçildi. 1836-cı ilin aprelin 21-də Meksika qoşunları məğlubiyyətə uğradı və hökumətin başçısı Santa-Anna əsir düşdü. Santa-Anna 1836-cı il mayın 14-də «Texas respublikası»nın prezidenti D.Bernetlə saziş bağladı. Sazişdə hərbi əməliyyatların dayandırılması, hökumət qoşunlarının Texasdan çıxarılması, Texasla Meksika arasında sərhədin Rio-Qrande çayı boyunca keçməsi nəzərdə tutulurdu. Lakin mayın 20-də Meksika konqresi bu sazişi təsdiq etmədi.

1836-cı ilin yayında general Geynsin başçılığı ilə ABŞ qoşunu Texasa girib Nakoqdoqesi tutdu. Vaşinqtondakı Meksika səfiri təcavüzə qəti etiraz etdi, lakin ABŞ dövlət departamentindən cavab almayan səfir Vaşinqtonu tərk etdi. 1836-cı il sentyabrın 5-də Texasda keçirilən plebisitdə əhalinin əksəriyyəti Texasın ABŞ-a birləşdirilməsinə səs verdi. Lakin prezident Cekson «Texas respublikası»nı tanımağa tələsmirdi. Bu zaman ABŞ prezidenti quldar Texas ştatına ölkənin Şimal-Şərqinin nüfuzlu dairələrinin münasibətini və bu məsələdə İngiltərənin mövqeyini nəzərə alırdı. Lakin Texas «lobbi»sinin təzyiqi ilə Cekson 3 mart 1837-ci ildə konqresin Texasın müstəqilliyini tanımaq haqqında qətnaməsini imzaladı və Texas hökumətinin yanında ABŞ-ın müvəqqəti işlər vəkilini təyin etdi.

1839-cu ildə Birləşmiş Ştatların bankı Texasa 400 min dollar miqdarında kredit verdi. 1837-1839-cu illərdə ABŞ-dan Texasa məhsul ixracı 1.7 milyon dollar həcmində olmuşdu. 1838-40-cı illərdə ABŞ-ın səkkiz hərbi gəmisi Meksikanın sahil kəndlərini bombalamışdı. 1839-1840-cı illərdə İngiltərə, Fransa, Hollandiya və Belçika Texasın müstəqilliyini tanıdılar. Meksika hökuməti isə hətta kompensasiya kimi beş milyon dollar təklif edilməsinə baxmayaraq «Texas respublikasını» tanımaqdan imtina edirdi.

1843-cü ildə İngiltərənin Meksika ilə Texas arasında münaqişəni həll etmək və Texası özünə tabe etmək istəməsi haqqında yayılan xəbərlər ABŞ-da Texasa olan iddiaları gücləndirdi. 12 aprel 1844-cü ildə ABŞ-ın dövlət katibi Kelxun və «Texas respublikası»nın müvəkkilləri Vaşinqtonda Texasın ABŞ-a birləşdirilməsi haqqında müqavilə imzaladılar. Mayın 30-da Meksika hökuməti sazişə etiraz etdi. ABŞ senatı isə müqaviləni təsdiq etmədi.

1844-cü ilin prezident seçkiləri zamanı ABŞ-ın siyasi həyatında Texasın işğalı problemi mərkəzi yer tutdu. 27 aprel 1844-cü ildə prezidentliyə namizədlər Kley və Van-Byuren mətbuatda eyni vaxtda bildirdilər ki, prinsipcə Texasın birləşdirilməsinə etiraz etməsələr də, Meksikanın razılığı olmadan belə bir addımı mümkün hesab etmirlər. Lakin demokratlar partiyasından prezidentliyə namizəd Van-Byuren deyil, Tennessi ştatının qubernatoru C.Polk irəli sürüldü.

XIX əsrin 40-cı illərində Oreqon rayonunda ABŞ-İngiltərə rəqabəti kəskinləşdi. Rusiyanın 1824-cü ildə ABŞ-la, 1825-ci ildə isə İngiltərə ilə bağladığı müqavilələrə əsasən Rusiyanın Sakit okean sahilindəki mülklərinin sərhədi $54^{0}40'$ şimal en dairəsi boyu müəyyən edilmişdi. Nəticədə, bu xətlə 42-ci paralel arasındakı ərazi mübahisəli qalmışdı ki, həmin əraziyə ABŞ və İngiltərə iddiaçı idi. ABŞ konqresmenlərinin əksəriyyəti bu ərazinin ABŞ-a birləşdirilməsini tələb edirdi. İngiltərə bu dövrdə Çində müharibə aparırdı. 1841-ci ildə Oreqona ABŞ-dan bes mindən çox adam gəlmiş və orada yerli özünüidarə orqanlarını yaratmışdılar. Lakin Texas problemi ABŞ-a Oreqonla ciddi məşğul olmaq imkanı vermirdi.

1845-ci ilin fevralında konqresin qəbul etdiyi qətnamədə Texasa ştat hüququnda ABŞ-a daxil olmaq təklif edilirdi və prezidentliyinin sonuncu günü Tayler bu qətnaməni imzalamışdı. Onun varisi C.Polk 1845-ci ilin martın 5-də bildirdi ki, Texasın ilhaqına əvvəllər ABŞ-a məxsus olmuş ərazinin dinc yolla ələ keçirilməsi kimi baxır. 1845-ci ilin martın 5-də Meksika ABŞ-la diplomatik münasibətləri kəsdi. ABŞ əvvəlcə Texas ərazisinə general Z.Teylorun başçılığı ilə 4 minlik ordu göndərdi. 4 iyul 1845-ci ildə Texas konqresi ərazinin ABŞ-a birləşməsi barədə qərar qəbul etdi. 29 dekabr 1845-ci ildə isə ABŞ prezidenti Texasın ştat hüququnda ABŞ-a daxil edilməsi haqqında konqresin qəbul etdiyi qanunu imzaladı. Texasın ilhaqından sonra ABŞ ciddi şəkildə Oreqon və Yuxarı Kaliforniya məsələləri ilə məşğul olmağa başladı. Qeyd etmək lazımdır ki, Yuxarı Kaliforniya Meksikanın əyalətlərindən biri idi. E.Consonun prezidentliyi dövründə ABŞ hökumətinin San-Fransisko limanı da daxil olmaqla Kaliforniyanın bir hissəsini satın almaq cəhdi nəticəsiz



oldu. 1845-ci ilin mayında ABŞ prezidenti göstəriş vermişdi ki, Meksika ilə müharibə başlayarsa silahlı qüvvələr dərhal Kaliforniya limanlarını işğal etsinlər. ABŞ Meksikanın əyalətlərindən biri olan Yeni Meksikanı işğal etmək niyyətində idi.

ABŞ prezidenti bildirdi ki, böyük dövlət kimi Qərb yarımkürəsinin taleyini ABŞ həll etməlidir. Bu dövrdə işğalçılıq planlarını ideoloji cəhətdən əsaslandırmaq üçün ABŞ-da «Taleyin hökmü» doktrinası irəli sürülmüşdü. Bu doktrinanın müəllifi olan C.Salliven 27 dekabr 1845-ci ildə Nyuyorkda çıxan «Morninq Nyus» qəzetində çap olunmuş «Həqiqi hüquq» adlı məqaləsində yazmışdı: «Bizim iddialarımız belə bir hüquqa əsaslanır ki, taleyin hökmü ilə biz öz hakimiyyətimizi bütün qitəyə yaymalıyıq. Üzərimizə qoyulmuş xüsusi missiyanı — bütün qitədə azadlıq və federal özünüidarə yaratmaq vəzifəsini bu yolla həyata keçirtmək olar».

Meksikaya qarşı müharibənin başlanması ilə əlaqədar ABŞ Oreqondan ötrü İngiltərə ilə münasibətlərin kəskinləşməsini istəmirdi. İngiltərə öz növbəsində məsələnin dinc yolla həllinə tərəfdar idi. Ona görə ABŞ İngiltərənin xarici işlər naziri Eberdinin təklifini qəbul etdi və 15 iyun 1846-cı ildə Vaşinqtonda imzalanmış müqaviləyə əsasən ABŞ və İngiltərənin Oreqondakı mülklərinin sərhədi 49-cu paralel boyu müəyyən edildi.

1845-ci il noyabrın 10-da ABŞ-ın Meksikadakı səfiri Slaydell Meksika hökumətinə Yuxarı Kaliforniyadan ötrü 20 milyon dollar təklif etdi. Lakin Meksika prezidenti Errera ABŞ səfirini qəbul etmədi. 1846-cı ilin yanvarında Meksikada hökumət dəyişdi və ABŞ səfiri köhnə təkliflə yenə müraciət etdi və bildirdi ki, təklif rədd olunsa müharibə başlanacaq və sülhün pozulmasının bütün məsuliyyət Meksika tərəfinin üzərinə düşəcək. Meksika prezidenti general Paredes Slaydelin notasını rədd etdi.

1846-cı ilin martın sonunda ABŞ ordusu Meksika ərazisinə daxil olub Rio-Qrande çayına çatdı və Matamoros şəhərini mühasirəyə aldı. 12 aprel 1846-cı ildə həmin şəhərin qarnizon rəisi general Ampudiya tələb etdi ki, ABŞ generalı Teylor öz ordusu ilə 24 saat müddətində Meksika ərazisini tərk etsin. 20 aprel 1846-cı ildə Meksika ordusunun baş komandanı general

Arista bildirdi ki, hərbi əməliyyatları başlanmış hesab edir. 23 apreldə isə Meksika prezidenti Paredes amerikalıları qovmaq haqqında Meksika ordusuna əmr verdi. 8 may 1846-cı ildə Meksika ordusu Palo-Alto rayonunda məğlub olub geri çəkildi və mayın 19-da ABŞ ordusu Matamoros şəhərini tutdu. 1846-cı ilin mayında ABŞ konqresi ölkəni Meksika ilə müharibə vəziyyətində elan etdi. Konqresin qətnaməsi orduya 50 min könüllü çağrılmasını və müharibənin ehtiyacları üçün 10 milyon dollar ayrılmasını nəzərdə tuturdu.

1846-cı ilin iyununda Meksika konqresi ABŞ-a müharibə elan etdi. 1846-cı ilin iyununda Sakramento çayının hövzəsində yaşayan ABŞ mühacirləri kapitan Frimontun başçılığı ilə qiyam qaldırdılar. Onlar Sonoma şəhərini tutub «Kaliforniya respublikası»nın yaradılmasını elan etdilər. İyulun əvvəlində isə ABŞ dəniz piyadaları Kaliforniyada Montere və San-Fransisko şəhərlərini ələ keçirdilər. 1846-cı ilin iyulun 7-də konsul Larkin və admiral Slout Kaliforniyanın ABŞ-a birləşdirilməsini elan etdilər. İyulun sonunda isə polkovnik Kirninin başçılıq etdiyi Qərb ordusu Yeni Meksikaya daxil oldu və 18 avqustda onun paytaxtı Santa-Fe şəhərini işğal etdi. ABŞ-ın silahlı qüvvələri 1847-ci ilin əvvəlində Los-Ancelesi tutub Kaliforniyanın işğalını başa çatdırdılar. Sentyabr-noyabr aylarında ABŞ qoşunları Nuevo-Leon və Koaula ştatlarının paytaxtlarını və Meksika körfəzindəki Tampiko limanını ələ keçirdilər.

1847-ci ilin martında 12 min nəfərlik ABŞ qoşunu general U.Skottun başçılığı ilə üç həftəlik mühasirədən sonra Verakrus şəhərini ələ keçirdi, sentyabrın 14-də isə Mexikoya daxil oldu. Bu hadisədən sonra Meksika hökuməti sülh danışıqlarına başlamağa razılığını bildirdi.

Meksikaya qarşı müharibə ABŞ-da daxili siyasi vəziyyətə böyük təsir göstərdi. Viqilər partiyasının rəhbərləri müharibənin dayandırılmasını və qoşunların Meksikadan çıxarılmasını tələb edirdilər. 1848-ci il yanvarın 3-də nümayəndələr palatası belə bir qətnamə qəbul etdi ki, müharibə konqresin razılığı olmadan başladığına görə konstitusiya pozulmuşdur və Meksikaya qarşı müharibəni başlamaq lazım deyildi. Konqresin qətnaməsində ABŞ qoşunlarının işğal olunmuş ərazilərdən çıxarılması və dərhal ilhaqsız sülh bağlanması tələb olunurdu.



Abolisionizm hərakatının F.Duqlas, V.Parrison kimi görkəmli rəhbərləri müharibənin əleyhinə idi. Amerika Sülhü müdafiə cəmiyyəti də xristian pasifizmi mövqeyindən müharibə əleyhinə fəal təbliğat aparırdı. 1847-ci ilin fevralında bu cəmiyyət Meksika müharibəsi haqqında xristian prinsipləri əsasında yazılacaq ən yaxşı oçerk üçün mükafat təsis etmişdi. Bu mükafata layiq görülən keşiş Livermor öz əsərində sübut etməyə çalışmışdı ki, müharibə və Texasın işğalı köləliyi yaymaq məqsədilə təşkil edilmiş sui-qəsdin nəticəsi olmuşdur.

1848-ci il fevralın 2-də Meksika yaxınlığındakı Qvadalupe-Gidalqo adlı yerdə ABŞ-la Meksika arasında sülh müqaviləsi imzalandı. Müqaviləyə əsasən Meksika ərazisinin 55%-i (Texas, Yeni Meksika, Yuxarı Kaliforniya, Tamaulipas, Koaula və Sonoranın şimal hissəsi) ABŞ-a verildi. Rio-Qrande çayı iki dövlət arasında sərhəd oldu. ABŞ kompensasiya kimi 15 milyon dollar ödəməli və Meksikadan daha ona borclu olduğu 3250 min dolları istəməməli idi. Müqavilə 30 may 1848-ci ildə qüvvəyə mindi.

ABŞ iqtisadi, texniki və hərbi cəhətdən Meksikadan üstün idi. ABŞ-ın müharibəyə 100 milyon dollar xərci çıxmışdı, canlı qüvvə itkisi 12.800 nəfər olmuşdu. Müharibədə qələbə nəticəsində ABŞ zəngin təbii sərvətləri olan geniş məhsuldar torpaqlar əldə etdi.

Cənub quldarlarının mənafeyinə uyğun olaraq ABŞ hökuməti 1848-ci ilin iyununda Kubadan ötrü İspaniyaya 100 milyon dollar təklif etdi. Lakin İspaniya bu təklifi rədd etdi. Ona görə plantatorlar cənub ştatlarının ərazisindən Kubaya qarşı silahlı müdaxilə təşkil etməyə başladılar. Belə yürüşlərin birində ispan qoşunları ekspedisiyanın 50 iştirakçısını güllələdilər və başçılarını edam etdilər.

1852-ci ildə İngiltərə və Fransa İspaniyanın təkidi ilə ABŞ-a təklif etdilər ki, bu dövlətlərdən heç birinin Kubanı işğal etməyə cəhd etməyəcəyi haqqında saziş bağlasınlar. ABŞ-ın dövlət katibi E.Everet bildirdi ki, ABŞ Kubanı işğal etmək niyyətində deyil, lakin saziş imzalamaqdan imtina etdi. İspaniyanın xarici işlər naziri Pidal bildirmişdi ki, «o Kuba adasının okeanın

dibinə batmasına razı olar, satılmasına yox». 1854-cü ildə ABŞ hökumətinin Kubanı 130 milyon dollar müqabilində İspaniyadan satın almaq cəhdi baş tutmadı. ABŞ hökuməti bildirdi ki, əgər İspaniya adanı ona satmasa müharibə yolu ilə işğal edəcək.

ABŞ ölkənin qərbinə və Asiya qitəsinə qısa dəniz yolu axtarırdı və bu məqsədlə Mərkəzi Amerikada okeanlararası kanal qazılmasına xüsusi maraq göstərirdi. 1846-cı il dekabrın 12-də Boqotada Yeni Qranada ilə imzalanmış müqaviləyə əsasən ABŞ Panama bərzəxindən sərbəst və gömrüksüz tranzit hüququ almışdı. 1849-cu ildə yaradılmış «Panama dəmiryolu» şirkəti iki okean arasında dəmiryolu çəkmək konsessiyası aldı. Bu dəmiryolu 28 yanvar 1855-ci ildə istifadəyə verildi. 30 dekabr 1853-cü ildə ABŞ 10 milyon dollara Aşağı Kaliforniyanı Meksikadan aldı.

1849-cu ildə ABŞ Havay krallığı ilə dostluq, ticarət və dənizçilik haqqında müqavilə imzaladı. 1854-cü ildə ABŞ-ın Havay adalarını işğal etmək cəhdi ölkənin şimalı ilə cənubu arasında mübarizənin kəskinləşməsi, İngiltərənin və Fransanın müqaviməti nəticəsində baş tutmadı. Güc tətbiq etmək hədəsi ilə ABŞ 31 mart 1854-cü ildə Yaponiyanı onunla sülh və dostluq haqqında müqavilə imzalamağa məcbur etdi. Müqaviləyə əsasən ABŞ gəmiləri Yaponiyanın Xakadote və Simoda limanlarına gəlmək və gömrüksüz ticarət hüququ qazandı.

1844-cü ildə Çinlə bağlanmış müqaviləyə əsasən ABŞ vətəndaşlarına Çində toxunulmazlıq hüququ verildi. 18 may 1858-ci ildə Çinlə ABŞ arasında bağlanmış sülh, dostluq və ticarət haqqında müqaviləyə əsasən Çinlə ticarətdə ABŞ üçün ən əlverişli rejim yaradıldı. XIX əsrin 40-50-ci illərində ABŞ-ın Mərkəzi Amerika, Vest-Hind və Sakit okean hövzəsi ölkələrinə münasibətdə siyasəti əsrin ikinci yarısında bu regionlara daha geniş müdaxilə üçün zəmin yaratdı.

## § 6. İstiqlaliyyət uğrunda müharibə, Latın Amerikasında müstəqil dövlətlərin yaranması

XVIII əsrin sonu — XIX əsrin əvvəllərində Latın Amerikasında milli-azadlıq hərakatının yüksəlişi üçün əlverişli şərait yaranmışdı. Böyük Fransa inqilabı Latın Amerikasında inqilabi proseslərin inkişafına təkan verdi. T.Lüverturun başçılığı ilə 1791-1803-cü illərdə Haiti adasında qulların üsyanı baş verdi. Haiti adasının qərbi Fransanın, şərqi isə İspaniyanın müstəmləkəsi idi. Haiti adasında üsyanın qələbəsi nəticəsində köləlik ləğv edildi, müstəqillik elan olundu və 1804-cü ildə Haiti dövləti yaradıldı. Haitidə inqilabın qələbəsi müstəmləkə sisteminə ciddi zərbə oldu, Mərkəzi və Cənubi Amerikada azadlıq hərəkatına təkan verdi.

İspaniyanın müstəmləkə sisteminin XVIII əsrin sonuncu rübündə başlamış böhranı XIX əsrin əvvəllərində daha da kəskinləşdi və istiqlaliyyət uğrunda müharibə ilə nəticələndi. Böyük Fransa inqilabı və Napoleonun müharibələri müstəmləkələrin metropoliya ilə ticarət əlaqələrinin zəifləməsinə və müstəmləkə iqtisadiyyatının böhranının dərinləşməsinə səbəb oldu. İngiltərə ilə apardığı müharibələr İspaniyanın müstəmləkə ticarətinə ağır zərbə vurmuşdu.

1805-ci ildə İngiltərə donanması Trafalqar döyüşündə birləşmiş İspaniya-Fransa donanmasını məğlub etdikdən sonra İspaniyanın müstəmləkələrlə əlaqəsi zəiflədi. Belə ki, Meksikanın Verakrus limanına 1802-ci ildə 148, 1803-cü ildə 27, 1806-cı ildə isə 8 ispan gəmisi gəlmişdi. İspaniya daha öz müstəmləkələri üzərində iqtisadi və siyasi nəzarətini saxlamağa qadir deyildi. Qul ticarətinin ixtisarı nəticəsində müstəmləkələrin plantasiya təsərrüfatında işçi qüvvəsinə ehtiyac artmış, məhsül istehsalı azalmışdı. İqtisadi böhran müstəmləkələrdə ziddiyyətləri kəskinləşdirdi. Kreol plantatorlar və mədənlərin sahibləri öz məhsullarını açıq şəkildə xarici ölkələrə satmaq və sənaye məhsulları almaq imkanı olmadığına görə Latın Amerikası ölkələrinin İngiltərə ilə gizli ticarətinin həcmi artmışdı.

XVIII əsrin son onilliklərində kreollar içərində müxalifət əhval-ruhiyyəsi artmışdı. Kreol hərakatının ən nüfuzlu sosial

qüvvəsi mülkədarlar və ziyalılar idi. Burjuaziya hələ zəif idi. Ticarət burjuaziyası artmışdı, o metropoliya ilə müstəmləkələr arasındakı ticarətdə vasitəçilikdən və gizli ticarətdən varlanmışdı.

ABŞ-dakı istiqlaliyyət müharibəsi və Böyük Fransa inqilabı kreol inqilabçıların dünyagörüşünün formalaşmasına böyük təsir göstərmişdi. Müstəmləkələrdə Fransa maarifçilərinin, xüsusilə J.Russonun əsərləri geniş yayılmışdı. Gənc kreollar içərisində bərabərlik və xalq suverenliyi ideyaları geniş əks-səda tapmışdı.

İspaniyaya qarşı təbliğatda kreol inqilabçılar Fransa inqilabının sənədlərindən istifadə edirdilər. 1794-cü ildə Yeni Qranadada azadlıq hərəkatının görkəmli xadimlərindən biri olan A.Narinyo «İnsanın və vətəndaşın hüquq bəyannaməsi»ni ispan dilinə tərcümə və nəşr etdirmişdi. Bütün müstəmləkələrdə məqsədi ispan əsarətinə son qoymaq olan gizli kreol təşkilatları yaranırdı. Lakin kreol inqilabçıların əksəriyyəti kütləvi xalq hərəkatından qorxduqlarına görə daha çox xarici köməyə ümid bəsləyirdilər.

Venesuelada azadlıq hərakatına başçılıq edən F.Mirandanı fəaliyyəti kreolların inqilabi əhval-ruhiyyəsini dolğun əks etdirirdi. Varlı kreol ailəsindən olan F.Miranda 30 yaşında polkovnik rütbəsi almışdı. XVIII əsrin 80-cı illərində F.Miranda əvvəl ABŞ-a, sonra İngiltərəyə mühacirət etmişdi. O Latın Amerikasına Avropa ölkələrindən və ABŞ-dan silah və könüllülər göndərilməsinə çalışırdı.

F.Miranda 1786-cı ildə Rusiyada olarkən II Yekaterina ona kömək vəd etmişdi. F.Miranda Fransada Avropa dövlətlərinin koalisiyasına qarşı mübarizədə iştirak etmişdi və istiqlaliyyət uğrunda mübarizədə Fransa respublikasının yardımına ümid bəsləyirdi. F.Miranda 1797-1805-ci illərdə İngiltərədə olmuş, Venesuelaya hərbi ekspedisiya təşkil etmək üçün vəsait və silah toplamışdı.

1805-ci ildə F.Miranda İngiltərə gəmiləri ilə Venesuela sahillərinə yaxınlaşmış və Koro qalasını ələ keçirmişdi. Lakin yerli əhali ingilis gəmisi ilə gəldiyinə görə onu müdafiə etmədi və F.Miranda Avropaya qayıtdı. 1805-ci ildə ingilislər La

Plataya qoşun çıxarıb Buenos-Ayresi ələ keçirmiş və kralın mülkü elan etmişdilər. Yerli əhali üsyan qaldırdı və 1807-ci ildə ingilislər öz qoşunlarını Argentina ərazisindən çıxartdılar.

Fransa ordusunun İspaniyaya hücumu Latın Amerikasında müstəmləkələrin azadlıq uğrunda mübarizəsinə təkan verdi. Napoleon öz qardaşı J.Bonopartı İspaniyaya kral təyin etmişdi. Latın Amerikasındakı kreol inqilabçılar J.Bonopartı tanımadıqlarını və devrilmiş ispan kralı IV Karlın oğlu VII Ferdinandın tərəfdarı olduqlarını bildirdilər. İnqilabçı kreollar fikirləşirdilər ki, yeni şəraitdə İspaniyadan asılılıq formal xarakter daşıyacaqdır.

Mötədil kreollar İspaniya monarxiyası çərçivəsində müstəmləkələrin muxtariyyət hüququ ilə kifayətlənməyə hazır idi. Lakin İspaniyada hakimiyyətə gəlmiş Sevilya Mərkəzi xuntası kreollara İspaniya vətəndaşları ilə bərabər hüquq verdi və müstəmləkələri İspaniya dövlətinin tərkib hissəsi elan etdi, bu isə kreolların təəssüfünə səbəb oldu. İspaniyanın korteslərində 15 milyon əhalisi olan müstəmləkələrə cəmi 9 deputat yeri verilmişdi, metropoliyanın 12 milyon əhalisini isə 36 deputat təmsil edirdi.

1810-cu ildə Latın Amerikasında İspaniyanın müstəmləkə zülmünə qarşı istiqlaliyyət müharibəsi başlandı və müvəqqəti inqilabi hökumətlər yaradıldı. Cənubi Amerikadakı ispan müstəmləkələrinin istiqlaliyyət uğrunda 1810-1826-cı illəri əhatə edir.

Müxtəlif rayonlarda istiqlaliyyət uğrunda müharibənin özünəməxsüs xüsusiyyətləri mövcud idi. Bu cəhətdən üç əsas rayon müəyyən olunmuşdu:

1.Meksika və Mərkəzi Amerika rayonunda azadlıq mübarizəsinin mərkəzi Meksika idi. Burada hərakatın xalq xarakteri özünü daha parlaq göstərmiş, xalq kütlələri, hindu kəndlilər mübarizədə fəal iştirak etmişdilər.

2.Cənubi Amerikanın şimal hissəsində əsas mübarizə mərkəzləri Venesuela və Yeni Qranada idi. Ekvadorun və Perunun azad edilməsinə buradan başlanılmışdı.

3.La-Plata rayonu (Argentina, Uruqvay və Paraqvay ərazisi). Burada müstəqillik tərəfdarları arasındakı ziddiyyətlər mübarizəyə böyük təsir göstərmişdi.

Latın Amerikasında istiqlaliyyət uğrunda müharibə iki dövrə bölünür: 1)1810-1818-ci illər. 2)1819-1826-cı illər. Birinci mərhələdə əsas mübarizə mərkəzlərindən biri Venesuela idi. 1811-ci ilin iyulun 5-də Karakasda çağırılmış Milli konqres ölkənin müstəqilliyini elan etmiş və ilin sonunda qəbul edilmiş konstitusiyada Venesuela respublika elan olunmuşdu. Ölkənin siyasi həyatında F.Mirandanın başçılıq etdiyi «Vətənpərvərlər cəmiyyəti» böyük rol oynayırdı. Gənc zabit S.Bolivar həmin cəmiyyətin fəal üzvlərindən biri idi.

Varlı kreol ailəsində dünyaya gəlmiş S.Bolivar gənc yaşlarında valideynlərini itirmiş və təhsil almaq üçün Avropaya getmiş, Fransa inqilabının təsiri ilə ardıcıl respublikaçı olmuşdu. S.Bolivar vətənə qayıdıb azadlıq hərakatına qoşulmuşdu. S.Bolivar mahir natiq və istedadlı sərkərdə idi. 1812-ci ildə ispan qoşunlarının hücumu nəticəsində birinci Venesuela respublikası süqut etdi.

1813-1814-cü illərdə mövcud olmuş ikinci Venesuela respublikasını S.Bolivar yaratmışdı. Lakin zəhmətkeşlər tərəfindən müdafiə edilmədiyinə görə ispanlar bu respublikanı ləğv etmişdilər. Ona görə kreol rəhbərlər öz proqramlarına xalq kütlələrinin xeyrinə köləliyin ləğvi və kəndlilərə torpaq verilməsi kimi sosial tələblər daxil etmək qərarına gəldilər.

1816-cı ildə S.Bolivar öz silahlı dəstəsi ilə Venesuelaya daxil olub ispan qoşunlarını məğlub etdi. 1819-cu ildə S.Bolivar Yeni Qranadaya hücum etdi, Boqotaya daxil oldu və bütün ölkə ərazisini azad etdi. 1821-ci ilin əvvəlində Venesuela azad edildi və respublika bərpa olundu.

La-Platanın Mendosa əyalətində general San-Martinin başçılığı altında yaradılmış azadlıq ordusu 1818-ci ildə Çilinin azad olunmasında iştirak etmişdi. 1821-1822-ci illərdə Peru ərazisində S.Bolivarın və S.Martinin orduları birləşmişdi. 1821-ci ildə S.Martinin ordusu Lima şəhərini azad etdi və Perunun müstəqilliyi elan olundu. Lakin Peru ərazisinin bir hissəsinə ispanlar nəzarət edirdi.

Meksikada azadlıq hərakatında kəndlilər geniş iştirak edirdilər. Burada kəndli üsyanına keşiş M.İdalqo rəhbərlik edirdi. Xalq kütləlləri həm ispan müstəmləkə zülmünə, həm də kreol mülkədarlara qarşı mübarizə aparırdılar. Bir çox rayonlarda kreollar ispanları müdafiə edirdilər. Üsyançılar bir sıra yaşayış məntəqələrini ələ keçirib Meksikaya yaxınlaşdılar, lakin paytaxtı tuta bilmədilər. M.İdalqo həbs və edam ediləndən sonra hərakata X.Morelos başçılıq etmişdi.

1813-cü ildə Meksikanın müstəqilliyi elan edilmiş, 1814-cü ildə onun konstitusiyası qəbul olunmuşdu. 1815-ci ildə İspaniya qoşunu üsyançıları məğlub etdi və X.Morelos edam edildi. Meksikada müstəmləkə rejimi bərpa edildi. 1820-ci ildə Meksikada azadlıq mübarizəsi yenidən gücləndi. 1824-cü ildə Meksika müstəqil federativ respublika elan edildi.

1824-cü ilin dekabrın 9-da Peru ərazisində baş vermiş Ayakuço döyüşündə ispan qoşunları qəti məğlubiyyətə uğradı və Peru tam müstəqil oldu. 1826-cı ildə Yuxarı Peru azad edildi və S.Bolivarın şərəfinə Boliviya adlandırıldı. İstiqlaliyyət müharibəsi nəticəsində Mərkəzi və Cənubi Amerikanın böyük bir hissəsində İspaniya müstəmləkə əsarətinə son qoyuldu. İspaniyanın nəzarətində yalnız Kuba və Puerto-Riko qaldı.

Latın Amerikasında baş verən hadisələr Avropa dövlətlərinin diqqət mərkəzində idi. İspaniya cənubi Amerikadakı müstəmləkələrindən əl çəkmək istəmirdi. 1819-cu ildə İspaniya kralı müstəmləkələrin əhalisinin xaricilərlə birbaşa ticarətini qadağan edən fərman vermişdi, qiyamçıların ordusundan əsir düşən bütün xaricilər güllələnməli idi. Latın Amerikasının şərq sahilləri İspan donanması tərəfindən mühasirəyə alınmışdı, ispanlar başqa ölkələrin ticarət gəmilərini saxlayırdılar. 1820-ci ildə İspaniya Latın Amerikasına yeni qoşun hissələri göndərməyə hazırlaşırdı, lakin ölkədə başlanan inqilab buna mane oldu. Eyni zamanda inqilabi hadisələr İspaniyanın müstəmləkə siyasətinə təsir göstərmədi. Belə ki, İspaniyanın yeni hökuməti müstəmləkələrin müstəqilliyini tanımaqdan imtina edərək onları köhnə hərbi-siyasi metodlarla idarə etməyə çalışırdı.

İspaniya hökuməti 1822-ci ilin mayında Müqəddəs ittifaqa müraciət etmişdi ki, Latın Amerikasında qiyamı yatırmaq üçün

Avropa dövlətlərinin qoşunları göndərilsin. İspaniyanın xahişi Müqəddəs ittifaqın Verona konqresində müzakirə edildi, lakin ümumi razılıq əldə olunmadı, çünki, İngiltərə bu təşəbbüsün əleyhinə çıxdı. Bu dövrdə İngiltərənin Latın Amerikası ölkələri ilə iqtisadi əlaqələri genişlənmişdi, məqsədi orada öz mövqeyini möhkəmləndirmək idi. Fransa Latın Amerikası ölkələrinə təsirini artırmağa çalışırdı. İngiltərə 1820-ci ildə Argentinanın Fransa tərəfindən işğalına mane olmuşdu. Fransa 1822-ci ildə faktiki olaraq Latın Amerikasında yeni yaranmış dövlətlərin müstəqilliyini tanımışdı, həmin ölkələrin gəmiləri Fransa limanlarına gələ bilərdi.

XIX əsrin 20-ci illərində ABŞ-ın Latın Amerikasında fəallığı artmışdı. Bu dövrdə ABŞ-ın həm iqtisadi imkanları artmışdı, həm də o regiona daha yaxın idi. 1822-ci ilin martında ABŞ bildirdi ki, Latın Amerikasında yaranmış yeni dövlətləri hüquqi cəhətdən tanıyır və beş ölkədə səfirliyini açdı. «Monro doktrinası» həm də Müqəddəs ittifaqın Latın Amerikasına hərbi müdaxiləsinin qarşısını almaq üçün irəli sürülmüşdü. ABŞ Latın Amerikası ölkələrini özündən asılı vəziyyətə salmaq fikrində idi.

İstiqlaliyyət uğrunda mübarizə Kubaya təsir etmişdi. Mübarizədə kreollarla yanaşı zəncilər və qullar iştirak edirdi. Lakin üsyan qaldırmaq cəhdləri nəticəsiz oldu. Hərəkata başçılıq edən kreollar köləliyi ləğv etmək və sosial dəyişikliklər həyata keçirtmək istəmirdilər. 1812-ci ildə Kubada zəncilərin üsyanı yatırılmışdı. XIX əsrin 20-ci illərində vətənpərvərlərin Kubanı azad etmək cəhdləri nəticəsiz oldu. 1825-1826-cı illərdə isə ABŞ Kubanı İspaniyadan almağa cəhd göstərmişdi.

İstiqlaliyyət müharibəsi nəticəsində Latın Amerikasında aşağıdakı müstəqil respublikalar yaradılmışdı: Mərkəzi Amerika Birləşmiş Ştatları, Böyük Kolumbiya, Boliviya, Argentina, Paraqvay, Peru və Çili. İstiqlaliyyət uğrunda müharibə Latın Amerikası ölkələrində kapitalizmin inkişafına kömək etdi, lakin aqrar məsələ həll olunmadı. İspanlara və onların tərəfdarlarına məxsus olan malikanələr müsadirə edilmiş və müharibə dövründə formalaşmış yeni torpaq aristokratiyasının əlinə keçmişdi.

Kreol əyanların da malikanələri qalmışdı. Latın Amerikası ölkələrində burjuaziya zəif idi, ona görə bu ölkələrdə islahatlar XIX əsrin ikinci yarısmda həyata keçirilmişdi.

Müstəmləkə əsarəti dövründə Braziliyada çoxsaylı hindu və zənci üsyanları baş vermişdi. Lakin onlar mübarizəni bir-birindən təcrid olunmuş vəziyyətdə aparırdılar. XVII əsrdə Braziliyada kreollar müstəmləkə əsarətinə qarşı mübarizəyə başlamışdılar. XVIII əsrdə Braziliyada qaldırılan üsyanlarda vergilərin azaldılması, ticarət və sənaye ilə məşğul olmaq üçün qoyulmuş məhdudiyyətlərin ləğvi tələb olunurdu. 1789-cu ildə Minas Jerais əyalətində başlanan üsyanın iştirakçıları Braziliyanın İspaniyadan ayrılıb müstəqil dövlət olmasını tələb edirdilər. Üsyan hökumət qoşunu tərəfindən yatırılmışdı.

1808-ci ildə Fransa ordusunun Portuqaliyaya hücumu zamanı kral Braziliyaya qaçdı və 1808-1820-ci illərdə Rio de-Janeyro Portuqaliya monarxiyasının mərkəzi oldu. 1810-1820-ci illərdə Braziliyanın bir sıra şəhər və əyalətləri öz müstəqilliyini elan etmişdi. 1820-ci ildə Portuqaliyada baş vermiş inqilabın təsiri ilə 1822-ci ildə şahzadə Pedro Braziliyanı müstəqil imperiya, özünü isə onun imperatoru elan etdi. Köləlik qaldığına görə Braziliyada kapitalist münasibətləri ləng inkişaf edirdi. Ölkənin tərəqqisinə monarxiya quruluşu mane olurdu. Ona görə Braziliyada mübarizə davam etmişdi. Ölkədə köləlik 1888-ci ildə ləğv edilmiş, 1889-cu ildə Braziliya respublika elan olunmuşdu.

## § 7. XIX əsrin birinci yarısında müstəmləkə siyasəti

XIX əsrin birinci yarısında Avropa dövlətlərinin müstəmləkə siyasətində ciddi dəyişikliklər edilmişdi. XVII-XVIII əsrlərdə Avropa dövlətləri müstəmləkələri öz aralarında bölür və qarət edirdilər. XIX əsrdə isə Avropa dövlətləri «nüfuz dairələrinə bölmək», himayəyə götürmək və iqtisadi müdaxilə kimi üsullardan geniş istifadə, Şərq ölkələri ilə qeyri-bərabərhüquqlu müqavilələr bağlayıb öz vətəndaşları üçün toxunulmazlıq, aşağı gömrüklə ticarət kimi hüquqlar təmin edirdilər.

Müstəmləkələrin idarə edilməsi qaydaları dəyişmişdi. XVII-XVIII əsrlərdə müstəmləkələrin ələ keçirilməsi və idarə olunmasında daha çox ticarət kapitalından və ticarət şirkətlərinin köməyindən istifadə olunurdu. Məsələn, iki əsrdən artıq müddətdə İngiltərənin Ost-Hind şirkəti Hindistan, Çin və Yaponiya ilə ticarəti təşkil etmişdi, bu şirkət böyük hərbi və ticarət donanmasına malik idi.

Ost-Hind şirkəti İngiltərənin sənaye burjuaziyasının Şərq ölkələri ilə əlaqələrinə mane olurdu. Sənaye burjuaziyasının tələbi ilə 1813-cü ildə İngiltərə parlamenti Ost-Hind şirkətinin Hindistanla ticarət inhisarını ləğv etdi. 1833-cü ildə Ost-Hind şirkətinin Çin və Yaponiya ilə ticarət inhisarı ləğv edildi. Müstəmləkələri İngiltərə hökuməti idarə etməyə başladı. 1854-cü ildə İngiltərədə müstəmləkə nazirliyi yaradıldı.

Müstəmləkə siyasətinin məqsədlərində dəyişiklik edilmişdi. Əvvəl müstəmləkəçilər qızıl və gümüş axtarır, ekzotik tropik bitkilər daşıyır, qul ticarəti ilə məşğul olurdular. XIX əsrdə müstəmləkəçiləri daha çox sənaye üçün xammal maraqlandırırdı. Müstəmləkələr həm də satış bazarı və işçi qüvvəsi mənbəyi idi. Eyni zamanda metropoliyalar müstəmləkələrin ərazisində dəmir və şosse yolları çəkir, sənaye müəssisələri tikirdilər.

Amerikada köhnə müstəmləkə sisteminin böhranı daha tez başlanmışdı. XVIII əsrin 80-cı illərinin əvvəlində İngiltərə ABŞ-ın müstəqilliyini tanımalı oldu. XIX əsrin 20-ci illərində Latın Amerikası xalqlarının milli-azadlıq hərakatı yekun mərhələsinə daxil oldu, İspaniya və Portuqaliyanın Latın Amerikasında olan müstəmləkələrinin əksəriyyəti müstəqillik qazandı.

XIX əsrin 20-ci illərindən başlayaraq Latın Amerikasında öz mövqelərini möhkəmləndirmək üçün ABŞ, İngiltərə və Fransa arasında mübarizə genişləndi. Latın Amerikasına ABŞ-ın müdaxiləsinin genişlənməsi Avropa dövlətlərinin narahatlığına səbəb oldu. ABŞ isə Amerikanın şimalına və cənubuna iddialarını əsaslandırmaq üçün «Monro doktrinası» ilə çıxış etdi.

Vyana konqresindən sonra Avropa dövlətlərinin yeni müstəmləkələr ələ keçirtmək uğrunda mübarizəsi genişləndi. XIX əsrin ortalarında İngiltərə Hindistanın işğalını başa çatdırdı.



İngiltərə müstəmləkə imperiyasını genişləndirir, Yaxın, Orta və Uzaq Şərqə, Amerikaya aparan dəniz yollarının üzərində dayaq məntəqələri yaradır və həmin məntəqələr vasitəsilə, güclü hərbi donanmanın köməyilə mühüm dəniz yollarına nəzarət edirdi.

İngiltərə 1819-cu ildə Sinqapuru işğal etdi. Fransanın 1830-cu ildə Əlcəzairi işğal etmək üçün başladığı müharibə on yeddi il davam etdi və Əlcəzairin Fransanın müstəmləkəsinə çevrilməsi ilə başa çatdı. Fransa həm də Afrikanın mərkəzində müstəmləkələr ələ keçirməyə çalışırdı. Hollandiya İndoneziyada movqeyini möhkəmləndirmişdi. İspaniya və Portuqaliya bəzi müstəmləkələrini saxlamışdı. Ən böyük müstəmləkə dövləti İngiltərə idi. XIX əsrin ortalarında İngiltərənin müstəmləkələrinin əhalisi 120 milyon nəfər, ərazisi isə 11 milyon kv.km idi.

XIX əsrin 20-50-ci illərində Orta Şərqdə (İran, Əfqanıstan, Orta Asiya) İngiltərə-Rusiya ziddiyyətləri kəskinləşmişdi. XIX əsrin ortalarında müstəmləkəçilik obyektinə çevrilən rayonlardan biri Uzaq Şərq idi. Tiryək müharibələri nəticəsində Çinin böyük dövlətlər arasında nüfuz dairələrinə bölünməsi prosesi başlandı. Avropa ölkələri və ABŞ özünütəcrid siyasəti həyata keçirən Yaponiya ilə əlaqələr yaratmağa çalışırdılar və onların XIX əsrin 50-ci illərində Yaponiya ilə bağladıqları qeyri-bərabər hüquqlu müqavilələr nəticəsində Yaponiyanın özünütəcrid siyasətinə son qoyuldu.

1803-1805-ci illərdə İngiltərə maratx knyazları ilə müharibə zamanı knyazlar arasındakı ixtilaflardan istifadə etdi və 1803-cü ildə Dehlini ələ keçirdi.

1816-cı ildə İngiltərə Nepal üzərində protektoratını elan etdi, 1817-1818-ci illərdə maratx knyazlarını məğlub etdi, 1824-1826-cı illərdə İngiltərə Birma ilə müharibə edib onun ərazisinin bir hissəsini ələ keçirdi. 1843-cü ildə İngiltərə Sindi işğal etdi.

Pəncabda siqhlər müstəqil və güclü dövlət yaratmışdı. Pəncab hakimi R.Sinqx ingilislərlə Əfqanıstana qarşı saziş imzalamışdı. Siqhlərin 60 minlik ordusu ingilislərə müqavimət göstərə bilmədi. 1845-46-cı illərdəki müharibədə ingilislər əvvəl Pəncabı vassal dövlətə çevirdilər, 1848-ci ildə Pəncabda üsyanı yatırıb onun ərazisini işğal etdilər. Beləliklə, XIX əsrin

ortalarında 190 milyon əhalisi olan Hindistan tamamilə ingilislər tərəfindən işğal olundu. Ost-Hind şirkətinin ticarət inhisarı ləğv edildikdən sonra bütün ingilis kapitalistləri Hindistanla ticarətdə iştirak etməyə başladı. Sonra, İngiltərə İrana, Əfqanıstana, Hind-Çinə və Uzaq Şərq ölkələrinə münasibətdə fəal siyasət həyata keçirməyə başladı. Bu siyasətini İngiltərə Hindistanı və onunla qonşu ölkələri Fransa və Rusiyanın hücumundan müdafiə etməyin zəruriliyi ilə əsaslandırırdı.

XVIII əsrin sonunda İrana göndərilən İngiltərə və Fransa agentlərinin sayı artmışdı. İran bazarı İngiltərə və Fransa burjuaziyasını cəlb edirdi, həm də İran əlverişli strateji mövqedə yerləşirdi. İran öz siyasətində İngiltərə və Fransanın köməyinə arxalanmağa çalışırdı.

1796-cı ildə Fransanın agentləri İran vəziri Hacı İbrahimə deyirdilər ki, İran Gürcüstanı işğal etməli və rusları Qafqazdan qovmalıdır.

1797-ci ildə İran səfirliyi İstanbulda Türkiyə ilə Rusiyaya qarşı birgə fəaliyyət haqqında danışıqlar aparırdı, lakin həmin dövrdə Türkiyənin Fransaya qarşı mübarizədə Rusiya ilə ittifaqa ehtiyacı var idi. Şah hökuməti İranla həmsərhəd olan Əfqanıstan torpaqlarını ələ keçirmək istəyirdi. Ost-Hind şirkəti İranın Əfqanıstana qarşı ərazi iddialarından öz məqsədləri üçün istifadə edirdi. Şirkətin nümayəndəsi 1798-ci ildə İran şahını Əfqanıstana qarşı müharibəyə sövq etdi, lakin İran ordusunun Kabula yürüşü uğursuz oldu.

1800-cü ildə Ost-Hind şirkətinin nümayəndəsi kapitan Malholm Tehrana gəlmiş və 1801-ci ilin yanvarında İran şahı ilə siyasi və ticarət müqavilələri imzalamışdı. Müqaviləyə görə əfqanlar Hindistana hücum edəndə İran İngiltərəyə kömək etməli və öz ərazisindən heç bir Avropa dövlətinin qoşununu buraxmamalı idi. Əvəzində Ost-hind şirkəti İrana pul və silah göndərməli idi. İngiltərə tacirləri sərbəst surətdə İrana mahud, metal məmulatı gətirmək və İran limanlarında məskənlər yaratmaq hüququ qazandı.

İran İngiltərə ilə yaxınlıqdan öz işğalçılıq planlarını həyata keçirtmək üçün istifadə edirdi. 1804-cü ildə İran Zaqafqaziyaya hücum edib Rusiya ilə müharibəyə başladı. İran Hindis-

tana nümayəndə göndərib Ost-hind şirkətindən silah istədi, lakin şirkət öz vədlərini yerinə yetirməyə tələsmirdi.

Rusiya İngiltərə ilə diplomatik münasibətləri bərpa etmiş və 1805-ci ildə onların arasında Fransaya qarşı ittifaq müqaviləsi bağlanmışdı. Rusiya həm də Azərbaycan xanlıqlarını işğal etmək siyasətini davam etdirirdi.

Yeni koalisiyaya qarşı mübarizədə Fransa Türkiyə və İrandan istifadə etməyə çalışırdı. Ona görə Fransa Rusiya-Türkiyə ittifaqını pozmağa cəhd edirdi. 1805-ci ildə zabit Jober İrana göndərilmişdi. Fransanın nümayəndəsi əvvəlcə İstanbulda Osmanlı sultanı III Səlimə Napoleonun məktubunu təqdim etmişdi. Məktubda Türkiyə İranla birlikdə Rusiyaya qarşı müharibəyə çağrılırdı. Sonra xəbər yayılmışdı ki, Jober Fransaya qayıdır, o isə tacir kimi və başqa adla İrana getmişdi. Joberin yolda öldürüləcəyindən qorxan Napoleon Tehrana Romye adlı başqa bir agent də göndərmişdi.

İngilislər Fransa nümayəndələrini izləyirdilər. Tehrana gələndən iki həftə sonra Romye ölmüş, günah ingilislərin üstündə qalmışdı. İrana gələrkən Jober yolda tutulub Bəyaziddə zirzəmiyə salınmış, Austerlitsdə Napoleonun qələbəsindən sonra azad edilmiş və 1806-cı ilin iyununda Tehrana gəlmişdi. İran şahı Fətəli əvvəlcə ondan soruşmuşdu ki, sizi kralınızı öldürməyə nə vadar edib? Sonra şifahi vəd etmişdi ki, Fransa ilə ittifaq bağlayıb onun qoşununu Hindistana buraxar, lakin müqavilə imzalamaqdan imtina etmişdi.

Napoleonun Prussiya üzərində qələbəsindən və Rusiya ilə Türkiyə arasında müharibə başlanandan sonra İran şahı Napoleonun yanına nümayəndə göndərdi. 1807-ci ilin mayın 4-də Şərqi Prussiyadakı Finkenşteyn qəsrində İranla Fransa arasında ittifaq müqaviləsi bağlandı. Fransa Rusiyanı məcbur etməli idi ki, Gürcüstandan qoşunlarını çıxartsın, İran isə Fransa ordusunu Hindistan sərhədinə buraxmalı və özü də Əfqanıstandan Ost-Hind şirkətinin mülklərinə hücum etməli idi.

İstanbuldakı Fransa səfiri Türkiyə ilə İran arasında ittifaq yaratmağa çalışırdı, amma, 1807-ci ilin iyununda Rusiya qoşunlarının Arpaçay döyüşündə türkləri məğlub etməsi həmin ittifaqın bağlanmasına imkan vermədi. İran qoşunlarına təlim keç-

mək və İranla ticarət müqaviləsi bağlamaq üçün Napoleon general Qardanı 70 zabitlə Tehrana göndərdi, lakin Qardan İrana çatmamış Rusiya ilə Fransa arasında Tilzit sülhünün imzalanması vəziyyətin dəyişməsinə səbəb oldu.

1807-ci ilin dekabrında Qardanın missiyası Tehrana gəldi, orduda təlim keçmək və silah istehsalı sahəsində İrana kömək etməyə başladı. Qardan İran hökuməti ilə qeyri-bərabərhüquqlu ticarət müqaviləsi imzaladı. Müqaviləyə görə Fransa tacirləri üç ilə kömrükdən azad edildi, sonra isə məhsulun dəyərinin 3 %-i həcmində gömrük verməli idi. Fars körfəzindəki adalardan biri Fransaya verilməli, əvəzində Gürcüstan İrana qaytarılmalı idi. Tilzit sülhünə baxmayaraq Qardan İranı Rusiyaya qarşı müharibəyə təhrik edirdi.

1808-ci ildə Napoleon Rusiya imperatoru I Aleksandra təklif etdi ki, Türkiyəni öz aralarında bölüşdürüb Hindistana birlikdə yürüş etsinlər. Napoleon bu yolla Rusiya və İngiltərənin qüvvələrini Avropadakı işlərdən yayındırmaq və maneəsiz Pirincy yarımadasını işğal etmək istəyirdi. I Aleksandr Napoleonun planının müvəffəqiyyətinə inanmırdı. I Aleksandr həmçinin Fransanın İranla Rusiya arasında vasitəçilik etmək və Gürcüstan, Dağıstan və Azərbaycan xanlıqlarını İrana vermək təkliflərindən narazı idi. Ona görə Erfurtda Napoleon həmin təkliflərdə israr etmədi və İran şahı başa düşdü ki, Fransanın köməyi ilə Gürcüstanı tutmaq planı real deyildir, imzalanmış müqavilə kağız üzərində qaldı.

Fransanın nümayəndəsi general Qardan 1809-cu ildə İranı tərk etdi. Az sonra Tehrana İngiltərə hökumətinin nümayəndəsi Cons gəldi və şaha qiymətli hədiyyələr gətirdi. O şahı məcbur edirdi ki, Fransa nümayəndələrini ölkədən çıxartsın.

1810-cu ildə Ost-hind şirkəti yenə Malholmu hərbi təlimatçılarla, silahla və bahalı hədiyyələrlə İrana göndərdi. Şah hökuməti İngiltərənin Hindistandan İrana hücum etməsindən qorxurdu və İngiltərəyə güzəştə getdi. Cons şaha və Abbas Mirzəyə Rusiya ilə müharibəni necə aparmağa dair məsləhətlər verir, onların sülh bağlamasını istəmir və Gürcüstan hakimlərini Rusiyaya qarşı üsyana sövq edirdi. 1812-ci ilə qədər İngiltərə Hindistandan İrana 50 top və 12 min silah gətirmişdi.



1812-ci ilin martın 14-də İngiltərənin yeni nümayəndəsi Ouzlinin vasitəsilə İngiltərə ilə İran arasında ittifaq müqaviləsi imzalandı. Müqaviləyə görə İngiltəıə ildə İrana 200 min tümən pul verməli, İranın digər dövlətlə müharibəsi zamanı vasitəçilik etməli, İran ordusuna təlim keçməli, İran isə başqa Avropa dövlətlərinin qoşunlarını öz ərazisindən buraxmamalı idi.

Türkiyə ilə 1812-ci ilin mayında imzaladığı Buxarest müqaviləsi və 1812-ci ilin iyulunda İngiltərə ilə bağladığı ittifaq müqaviləsi Rusiyanın beynəlxalq mövqeyini əhəmiyyətli şəkildə möhkəmləndirdi. Lakin İran şahı Rusiya ilə sülh müqaviləsi bağlamaq istəmir, İngiltərənin yardımına və Napoleonla müharibədə Rusiyanın məğlubiyyətinə ümid edirdi. İngiltərə İranın Rusiyaya güzəşt etməsinə razı deyildi.

1813-cü ilin oktyabrında Aslanduz döyüşündə İran qoşunlarının məğlubiyyəti nəticəsində vəziyyət dəyişdi. İngiltərə qorxdu ki, ruslar İran ordusunu tamamilə darmadağın edər. İngiltərə İran hökumətini tələsdirməyə başladı ki, sülh müqaviləsini tez bağlasın, Ouzli Tehrandakı Rusiya nümayəndəsindən xahiş edirdi ki, yüngül tələblər irəli sürsün. İngiltərə Rusiya ilə İran arasında sülh müqaviləsinin təminatçısı olmaq istəyirdi.

1813-cü ilin oktyabrında İranla Rusiya arasında Gülüstan sülhü imzalandı. İran Gürcüstana, Dağıstana və Azərbaycan xanlıqlarına olan iddialarından əl çəkdi. Rusiya İranda ticarət imtiyazları aldı və Xəzərdə yalnız o hərbi donanma saxlaya bilərdi. Ona görə İranda vəziyyət və İran ətrafındakı ziddiyyətlər daha da kəskinləşdi.

1814-cü ildə İngiltərə hökuməti İranla Rusiya və Əfqanıstana qarşı yeni müqavilə imzaladı. İngiltərə İran ordusuna təlim keçmək üçün zabitlər göndərməli, pul, geyim və top verməli idi. İngiltərə vəd etdi ki, Gülüstan sülhünün şərtlərinə yenidən baxmaqda İrana kömək edəcək, İranın daxili işlərinə və İran-Əfqanıstan münaqişəsinə qarışmayacaq.

İran Zaqafqaziyaya olan iddialarından əl çəkməmişdi və Rusiyaya qarşı yeni müharibəyə hazırlaşırdı İngiltərə İranı yeni müharibəyə təhrik edirdi, çünki Rusiya onun Orta Şərqdə rəqibi idi. Müharibə 1826-cı ilin yayında İran qoşununun Zaqafqaziya-

ya hücumu ilə başladı, lakin Abbas Mirzənin ordusu tam məğlubiyyətə uğradı və 1827-ci ildə ruslar İrəvan xanlığını tutdular.

İngiltərə Rusiyaya öz vasitəçiliyini təklif etdi. Lakin Rusiya onun təklifini rədd etdi. İngiltərə İran şahına təzyiq göstərirdi ki, güzəşt etməsin. Rus ordusu böyük əhəmiyyəti olan Təbriz şəhərini ələ keçirmişdi. Lakın Rusiya 1828-ci ildə Türkiyə ilə müharibəyə başladığına görə İranla müharibəni davam etdirmək istəmirdi.

Danışıqlar Türkmənçayda aparılırdı və 1828-ci il fevralın 10-da orada Rusiya ilə İran arasında sülh müqaviləsi imzalandı. Müqaviləyə görə Naxçıvan və İrəvan Rusiyaya verildi, İran Rusiyaya 20 milyon manat təzminat verməli idi. İran təzminatın yarısını hələ müqavilə bağlanana qədər ödədi. Rusiya tacirləri İranda 5%-li gömrüklə ticarət edə bilərdi, İran Xəzərdə hərbi donanma saxlaya bilməzdi. Rusiya Abbas Mirzəni İran taxtının varisi kimi tanımağ vəd etdi.

İngiltərə çalışırdı ki, İran Rusiyaya qarşı müharibəni davam etdirsin, Rusiya ilə əlaqə saxlamasın və İran zəifləsin. Ona görə İngiltərə İrana heç bir kömək etmirdi. Müqavilə imzalandıqdan sonra yazıçı Qriboyedov Rusiyamn İranda səfiri təyin olundu. İran Rusiyanın Türkiyə ilə müharibə aparmasından istifadə edib təzminatın ödənilməsini ləngidir və əsirlərin qaytarılmasına mane olurdu. 1829-cu ilin fevralın 11-də Tehranda əhali Rusiya səfirliyinə hücum etmiş və səfiri öldürmüşdülər. Bu aksiyanı həyata keçirənlərin məqsədi Rusiya ilə İran arasında yeni müharibənin başlanmasına nail olmaq idı. Lakin Rusiya İranla yeni müharibə etmək fikrində deyildi. İran şahı oğlu Xosrov Mirzəni böyük hədiyyələrlə Peterburqa göndərib üzr istəmişdi. İranda nüfuz uğrunda Rusiya ilə İngiltərə arasında mübarizə davam edirdi.

İrana qarşı müharibədə Rusiyanın qələbəsi və Türkmənçay müqaviləsi nəticəsində İngiltərənin İranda mövqeləri zəiflədi, lakin İngiltərə bu vəziyyətlə barışmaq fikrində deyildi. 1841-ci ildə İngiltərə ilə İran arasında, 1845-ci ildə isə Fransa ilə İran arasında imzalanmış müqavilələrə əsasən həmin ölkələrin tacirlərinin İranda hüquqları genişləndi, yəni, «kapitulyasiya» rejiminin qaydaları onlara şamil edildi. İngiltərə sənaye

cəhətdən üstün idi, Rusiya və Fransa İranda onunla iqtisadi rəqabət apara bilmirdi. Beləliklə, ilk dəfə İngiltərə tərəfindən İranda tətbiq edilmiş «bərabər imkanlar» siyasəti bu ölkədə digər dövlətlərin təsirinin zəifləməsinə səbəb oldu.

İran Heratı ələ keçirmək cəhdlərini davam etdirirdi. Herat xanlığı Hindistandan Xəzər sahilinə və Orta Asiyaya gedən yolların üzərində əlverişli strateji mövqeyə malik idi. Heratın tutulmasına İran həm Zaqafqaziyanın əvəzi kimi baxırdı, həm də Əfqanıstanın birləşməsinə mane olmağa çalışırdı. Rusiya İranın Herata olan iddialarını müdafiə edirdi. İran şahı Məhəmməd xan Rusiyanın məsləhətlərini nəzərə alırdı.

Əfqanıstanın əmiri Dost Məhəmməd də Heratı ələ keçirməyə çalışırdı. Lakin Dost Məhəmməd Heratdan əvvəl siqhlərin tutduğu Peşəvəri geri qaytarmaq fikrində idi. Dost Məhəmməd Peşəvərə görə İngiltərəyə əməkdaşlıq təklif etdi, lakin 1836-cı ildə Kabuldakı danışıqlar nəticəsində əmin oldu ki, İngiltərə ona heç bir kömək etməyəcək. Çünki İngiltərə Əfqanıstanın birləşməsini və qüvvətlənməsini istəmirdi.

İngiltərə Heratı və Kabulu öz protektoratına çevirmək istəyirdi. Dost Məhəmməd Orenburqa nümayəndə göndərib Rusiyadan İngiltərəyə və siqhlərə qarşı kömək istədi. Rusiya Əfqanıstan əmirinə tövsiyyə etdi ki, İranın yardımından istifadə etsin və onun Herat üzərinə hücumuna mane olmasın.

1838-ci ildə İran qoşunu Heratı mühasirəyə aldı. Şahın müşavirlərindən biri Rusiyanın agenti Simoniç idi. Heratın müdafiəsinə isə ingilis zabiti Pottinger başçılıq edirdi. İngiltərə nümayəndəliyi Tehranı tərk etmişdi. İranın cənubunda İngiltərənin qoşunları Bəndər-Buşirə hücum etdilər və İran körfəzindəki Xərk adasını tutdular. İran qoşunu Heratın mühasirəsinə son qoyub geri çəkilməli oldu.

İngiltərə təbliğat aparırdı ki, Rusiya Hindistanı və Əfqanıstanı işğal etmək planları hazırlamışdır. Rusiyanın İngiltərədəki səfiri bildirdi ki, o Əfqanıstanın müstəqilliyinin tərəfdarıdır. Rusiya Mərkəzi Asiyada İngiltərə ilə toqquşma tərəfdarı deyildi. İran İngiltərə ilə diplomatik münasibətləri bərpa etdi, Xərk adasını isə yalnız Rusiyanın xahişindən sonra İrana qaytardılar.

İngiltərə Herat hadisələri zamanı Dost Məhəmmədin mövqeyindən narazı idi. Heratı müdafiə etmək bəhanəsi ilə İngiltərə Əfqanıstana müharibə elan etdi. İngiltərə yenə Rusiyanın Hindistana hücum planlarından danışırdı. İngiltərənin məqsədi Əfqanıstanı özündən asılı vəziyyətə salıb orada hakimiyyətə öz adamını gətirmək idi. İngiltərə Əfqanıstanın İranla həmsərhəd olmasını nəzərə alırdı.

1839-cu ilin fevralında 12 minlik ingilis ordusu Kabulu tutub Şuci şahı əmir elan etdi. Şuci isə İngiltərənin bütün tələblərini qəbul edib ingilis qoşunlarının ölkədə qalmasına razılıq verdi. Herata göndərilmiş mayor D.Todd çalışırdı ki, Herat İngiltərəyə tabe olsun. Herat xanı İrandan kömək istədi və İngiltərənin niyyəti baş tutmadı.

Əfqanıstanın müxtəlif yerlərində işğalçılara qarşı üsyanlar başlandı. 1840-cı ilin noyabrında üsyançılar ingilis briqadasını darmadağın etdilər. Dost Məhəmməd ingilislər tərəfindən əsir edilib Hindistana aparılmışdı. Onun oğlu Əkbər xan istiqlaliyyət uğrunda mübarizəyə başçılıq edirdi. Əfqanıstana qarşı mübarizə nəticəsində İngiltərənin itkiləri və xərcləri artdı. İngiltərə hökuməti Əfqanıstandakı nümayəndələrinə tapşırdı ki, əfqan tayfalarının başçılarına verilən pulu azaltsınlar. İngiltərə qoşununu saxlamaq üçün yerli əhalidən vergi toplanırdı. 2 noyabr 1841-ci ildə Kabulda ümumi üsyan oldu və üsyançılar ingilis qarnizonunu təslim olmağa məcbur etdilər. İngiltərə nümayəndələri üsyan rəhbərləri ilə ingilis qoşunlarının ölkədən çıxarılması və şah Şucini müdafiə etməmək haqqında müqavilə bağladılar.

İngiltərə nümayəndəsi Mahnaten vaxt qazanıb əlavə kömək gəlməsinə ümid edirdi. Mahnaten əfqanları bir-biri ilə vuruşdurmaq üçün bir neçə əfqan dəstə rəhbərini öldürtmüşdü. Mahnaten Əkbər xana təklif etdi ki, Əfqanıstanın vəziri olsun və İngiltərə ilə yeni müqavilə bağlasın.

Danışıqlar zamanı Əkbər xan Mahnateni yalançı adlandırıb tapança ilə güllələdi və İngiltərədən dərhal qoşunlarını ölkədən çıxartmağı tələb etdi. Bütün toplarını və əmlakını atan 4500 nəfərlik ingilis dəstəsi geri çəkilərkən Xurd-Kabul dağ kəndində darmadağın edildi. Cəmi bir nəfər Hindistana çatıb

hadisə haqqında məlumat vermişdi. İngilislər qorxdular ki, bu hadisə Hindistan əhalisinə təsir edər. Onlar 1842-ci ildə Kabula hücum edib şəhəri dağıtmışdılar. Lakin ingilislərin yenə əfqanlara gücü çatmadı. Şah Şuci öz tayfasından olan bir adam tərəfindən öldürüldü. İngiltərə Dost Məhəmmədlə saziş bağlayıb onu Kabulun əmiri kimi tanıdı və Dost Məhəmməd Kabula qayıtdı.

İngiltərə Orta Asiya xanlıqlarına müstəmləkə kimi baxırdı. XIX əsrin 20-ci illərində İngiltərə agentləri həm kəşfiyyat, həm də yerli əhalini Rusiyaya qarşı sövq etmək məqsədi ilə Orta Asiyaya gəlirdilər. Buxara və Xivədə bəzi yerli tacirlər ingilis agentləri idi. 1824-cü ildə bir neçə İngiltərə vətəndaşı tacir adı ilə Buxaraya gəlib gizli şəkildə şəhərin planını çəkmişdilər. 1840-cı ildə Xivəyə gələn iki İngiltərə agenti xanı inandırmağa çalışırdılar ki, rusları Xivəyə buraxmasın və ruslar oraya hücum etməyə hazırlaşır. Xivə xanı ingilislərə inanmayıb birini quyuya saldırmışdı. Sonra İngiltərənin agentləri Rusiyadan keçib İngiltərəyə qayıtdılar.

1842-ci ildə rəsmi səlahiyyəti olmayan iki İngiltərə agenti Buxaraya gəlmişdi. İngiltərə qoşunlarının Əfqanıstanda məğlubiyyətini eşidən Buxara əmiri ingilislərin meydanda edam olunması haqqında göstəriş vermişdi.

Rusiya Orta Asiyaya maraq göstərirdi. Rusiyanın Orta Asiyaya təsiri daha güclü idi. XIX əsrin birinci yarısında qazaxların çoxu Rusiyanın vətəndaşlığını qəbul etmişdi. Qazax torpaqlarının digər hissəsini isə Xivə, Buxara və Kokand tutmuşdu. 1825-ci ildə polkovnik Berqin Xivə xanı ilə danışıqları nəticə verməmişdi. 1835-ci ildə Buxaraya gələn Vitkeviç çalışırdı ki, rusların Xivəyə yürüşü zamanı Buxara əmiri Rusiyanın tərəfində olsun. 1839-cu ildə Buxaranın nümayəndəsi Peterburqda olmuş, qayıdanda iki rus zabiti onunla filiz axtaran adı ilə Buxaraya gəlmişdi. 1841-ci ildə Buxaraya gələn mayor Butenev əmirin göstərişi ilə geri qaytarılmışdı.

1841-ci ildə Xivəyə gələn zabit Nikiforov tələb etmişdi ki, Rusiya vətəndaşlarını qul etməsinlər, gömrüyü azaltsınlar, qazax torpaqları və Xəzər sahili üzərində Rusiyanın himayəsini tanısınlar. Lakin Xivə xanı Rusiyanın tələbləri ilə razılaşmadı.

1842-ci ildə podpolkovnik Danilevski Xivə xanına hədiyyələr gətirdi və 1843-cü ilin yanvarın 8-də imzalanmış müqavilə əsasən Xivə xanı Rusiyaya qarşı düşmən hərəkətlərdən çəkinməli, rus əsirlərini azad etməli, Rusiya tacirlərinə Xivədə 5% gömrüklə ticarət hüququ verməli idi. Rusiya qarət edilmiş karvanlara görə zərərin ödənilməsini tələb etmirdi. Lakin bu müqavilə həyata keçirilmədi. Orta Asiya həm siyasi, həm də iqtisadi cəhətdən Rusiyanın mənafe zonasına daxil idi. XIX əsrin 50-60-cı illərində Rusiya Orta Asiyanı işğal etməyə başladı.

Kapitalizmin inkişafı ilə əlaqədar XIX əsrin birinci yarısında Avropa ölkələrinin Uzaq Şərqdə müstəmləkə siyasəti fəallaşdı. Çinə qarşı Avropa dövlətlərinin müdaxiləsi Hindistandan gec başladı, həm də çətin idi. Çində mərkəzi hakimiyyətin və xalqın müstəmləkə əsarətinə müqaviməti güclü idi.

Çinin özünütəcrid siyasətinə İngiltərə müharibə vasitəsilə son qoydu. Çinə müdaxilə üçün baza kimi İngiltərə Hindistandan istifadə edirdi. İngiltərə Çinə yun, müxtəlif metallar, pambıq parça gətirir, oradan çay və ipək üçün xammal aparırdı.

XIX əsrin 20-ci illərindən Çinə Hindistandan gizli şəkildə gətirilən tiryəkin həcmi artdı. Tiryək ticarətinə Ost-Hind şirkəti rəhbərlik edirdi. Çinə tiryək gətirilməsi ölkədən gümüşün kütləvi şəkildə aparılmasına səbəb olmuşdu. Sənayenin sürətli inkişafı ilə əlaqədar İngiltərənin xarici bazara ehtiyacı artmışdı. İngiltərə kapitalistləri hökumətdən tələb edirdilər ki, parçaların Çin bazarlarında satılmasını təmin etsin. Ost-Hind şirkəti isə Çində tiryək satışını qanuniləşdirməyə çalışırdı.

İngiltərəyə Çin sahillərində hərbi-dəniz bazası lazım idi. İngiltərə gömrüyün azaldılmasını, İngiltərə vətəndaşlarına Çində toxunulmazlıq hüququ verilməsini tələb edirdi, yəni, İngiltərə vətəndaşları yalnız öz ölkələrinin qanunları qarşısında məsuliyyət daşımalı idi. İngiltərənin məqsədi Çinlə qeyri-bərabər hüquqlu müqavilə bağlayıb onun ərazisinin bir hissəsini işğal etmək idi.

Çin hökuməti tiryək ticarətinin ölkəyə vurduğu zərəri bilirdi. İmperatorun Kantondakı nümayəndəsi Lin Tsze Syuy göstəriş vermişdi ki, ingilis tacirlərindən müsadirə edilmiş 20 min yeşik tiryək məhv edilsin. İngiltərənin Kantondakı nümayəndəsi Sin hökumətinin bu hərəkətinə etiraz etdi. Hadisə zamanı İngiltərə matrosları bir Çin vətəndaşını öldürmüşdü. Çin hökuməti günahkarların verilməsini tələb etdi. 1839-cu ilin noyabrın 3-də çoxlu sayda Çin qayığı ingilis hərbi gəmisini mühasirəyə aldı, ingilislər atəş açıb dörd qayığı batırmışdılar.



İngiltərə hökuməti Çinlə müharibəyə başlamağı qərara alıb oraya hərbi eskadra göndərdi. 1840-cı ilin fevralın 20-də İngiltərədən Çin hökumətinə məktub göndərildi. Məktubda tələb olunurdu ki, ingilis tacirlərinə dəyən zərər ödənilsin, Çində ingilis vətəndaşlarının təhlükəsizliyi təmin edilsin, sahildəki adalardan biri İngiltərəyə verilsin və ingilis hərbi gəmisində aparılan danışıqlardan sonra müqavilə imzalansın. Çin hökuməti ya Honkonqu (Syanqan) İngiltərəyə verməli, ya da bütün ölkə ərazisində xarici ticarətə icazə verməli idi.

1840-cı ilin yayında Çin sularında İngiltərənin 16 hərbi gəmisində 540 top və 4000 əsgər var idi. İngilislər Cusan adasındakı Dinxay şəhərini ələ keçirib Kantonu dənizdən mühasirəyə aldılar. Çin hökuməti hərbi əməliyyatların davam etməsindən qorxurdu. Ona görə Kantondakı nümayəndəsini dəyişdi, tiryək çəkilməsi üzərinə qoyulan qadağanı ləğv etdi.

1841-ci ilin yanvarında ingilislər Honkonqu tutdular. 1841-ci ilin mayın 21-də ingilis hərbi gəmiləri hücum edib 71 Çin hərbi qayığını məhv etdilər. Mayın 31-də Kantonda Çin hökumətinin nümayəndəsi ilə İngiltərə nümayəndəsi arasında barışıq sazişi imzalandı. Çin İngiltərəyə 6 milyon yuan təzminat ödəməli idi. İngiltərə Kantonda öz nümayəndəsini dəyişdi və Hindistandan əlavə qüvvələr gətirdi. Çin sularındakı İngiltərənin 39 gəmisində 724 top və 10 min əsgər var idi. 1842-ci ilin iyulun 20-də ingilislər Çjentszyan şəhərini tutdular. Ölkədə işğalçılara qarşı partizan hərakatı genişləndi. Çin hökuməti Nankində ingilislərlə danışıqlara başlamaq qərarına gəldi.

1842-ci ilin avqustun 29-da Çinlə İngiltərə arasında Nankin müqaviləsi imzalandı. Honkonq İngiltərəyə verildi. Çin 21 milyon yuan təzminat ödəməli idi. Beş sahil limanı İngiltərə ticarəti üçün açıldı. 1843-cü ildə Xumında əlavə saziş imzalandı ki, İngiltərə vətəndaşları üçün Çində əlverişli rejim və toxunul-

mazlıq hüququ təmin edilsin. İngiltərə məhsulları üçün gömrük 4-13% həcmində müəyyən edildi.

ABŞ Çinə böyük maraq göstərir və onunla ticarət əlaqələri saxlayırdı. ABŞ Sakit okeanda İngiltərənin rəqibi idi, lakin dəniz ticarətində ondan xeyli geri qalırdı. ABŞ tacirləri Türkiyədən Çinə tiryək daşıyırdılar. ABŞ gəmiləri Tailand və İndoneziya limanlarına gəlirdi. 1833-cü ildə ABŞ-la Tailand arasında gömrüksüz ticarət haqqında müqavilə imzalanmışdı. ABŞ missionerləri və tacirləri Havay adalarına da gəlirdilər.

ABŞ öz toxuculuq sənayesinin məhsullarını Çində satmaq istəyirdi və orada İngiltərənin hərəkətlərini müdafiə edirdi. 1839-cu ildə ABŞ Çin sahilinə hərbi eskadra göndərmişdi. ABŞ nümayəndəsi müsadirə edilmiş tiryəkə görə Kanton hakimlərindən çoxlu gümüş tələb etmişdi. Birinci tiryək müharibəsindən sonra ABŞ hökuməti Çin imperatoruna məktub göndərdi. Məktubda Çinə ABŞ-la ticarət etmək və diplomatik münasibətlər yaratmaq təklif olunurdu.

Çin hökuməti ABŞ-ın İngiltərə ilə ittifaq yaratmasından ehtiyat edir və ABŞ-a güzəşt etmək istəyirdi ki, ondan İngiltərəyə qarşı istifadə etsin, ABŞ və İngiltərə bir-birinə qarşı mübarizə aparsın. 3 iyun 1844-cü ildə ABŞ-la Çin arasında qeyri-bərabər hüquqlu müqavilə imzalandı. Əvvəllər İngiltərəyə verilən bütün hüquqlar ABŞ-a da verildi. ABŞ gəmiləri bir açıq limandan digərinə gömrüksüz məhsul daşıya bilərdi. Çin və Yaponiya ilə ticarətin genişlənməsi həmin ölkələrə aparan dəniz yollarında baza yaratmağa tələbatı artırdı. 1851-ci ildə ABŞ-da Havay adalarını işğal etmək planı hazırlanmışdı.

Fransadan Çinə və Vyetnama katolik missionerləri ilk dəfə XIV Lüdovikin dövründə göndərilmişdi. Missionerlərin məqsədi Uzaq Şərqdə yerləşən ölkələr haqqında məlumat toplamaq idi. XVII əsrin ikinci yarısında Fransa missionerləri Pekin sarayında mühüm rol oynayırdı. XVIII əsrdə müstəmləkə rəqabətində İngiltərəyə uduzması Uzaq Şərqdə Fransanın katolik missiyalarının təsirini azaltmışdı. Yaxın Şərqə və Əlcəzairə daha böyük maraq göstərməsi Fransanın Uzaq Şərqdə fəal müstəmləkə siyasəti ilə məşğul olmasına mane olurdu.

Fransa kapitalistləri Çinlə ticarəti genişləndirmək istəyirdilər. Fransa İngiltərə-Çin müharibəsindən faydalanmağa çalışırdı. 1841-ci ilin yazında Fransa Çin sahillərinə hərbi gəmi göndərmişdi. Çin hökuməti Fransa nümayəndələrini yaxşı qarşılamışdı ki, Fransa İngiltərənin tərəfinə keçməsin. Fransa Çinə kömək vəd etmişdi. 1843-cü ildə Fransa Çinə diplomat və tacirlərdən ibarət nümayəndə heyəti göndərdi. Nümayəndə heyəti Çinlə qeyri-bərabər hüquqlu müqavilə imzalamalı, hərbi-dəniz bazası üçün ada almalı idi ki, Fransa Çin sahillərində İngiltərə ilə rəqabət apara bilsin. Fransa Çinlə ticarətdə əlverişli rejim istəyirdi. 24 oktyabr 1844-cü ildə Çin-Fransa müqaviləsi imzalandı, Fransa üçün Çində əlverişli rejim təmin edildi. Fransa Çində xristian kilsələri tikə bilərdi. Xristianların müdafiəsi Fransanın Çində əsas şüarı idi.

Avropa ölkələri və ABŞ-la bağlanmış müqavilələrlə Çinin yarımmüstəmləkəyə çevrilməsi prosesi başlandı. İngiltərə Çində aparıcı rol oynayırdı. ABŞ və Fransa həm də İngiltərənin rəqibi idi. İspaniya, Portuqaliya və Hollandiyanin isə Uzaq Şərqdə fəallığı zəifləmişdi.

## V FƏSİL

# XIX ƏSRİN 50-60-CI İLLƏRİNDƏ BEYNƏLXALQ MÜNASİBƏTLƏR

### § 1. Krım müharibəsi, Paris sülh konqresi

Avropada 1848-1849-cu illər inqilablarından sonra beynəlxalq münasibətlərdə «Şərq məsələsi»nin yenə əhəmiyyəti artdı. Yetişməkdə olan münaqişənin əsasında böyük dövlətlərin Yaxın Şərqdə hegemonluq uğrunda mübarizəsi dayanırdı. Rusiya, İngiltərə və Fransa Yaxın Şərqdə mövqelərini möhkəmləndirməyə çalışırdılar. Rusiyanın məqsədi Türkiyəyə təsirini artırmaq və xarici siyasətin uğurları vasitəsilə ölkədə feodal-mütləqiyyət qaydalarına əsaslanan rcjimi möhkəmləndirmək idi. Rusiya beynəlxalq nüfuzunun artmasından, inqilablar nəticəsində Prussiyanın və Avstriyanın zəifləməsindən istifadə edib 1840-1841-ci illərdə imzalanmış London konvensiyalarına yenidən baxılmasına çalışır və müharibəyə hazırlaşırdı. İngiltərə və Fransa iqtisadi və siyasi cəhətdən Türkiyəni və bütün Yaxın Şərqi özünə tabe etmək fikrində idi. Mübarizənin hər bir iştirakçısı qorxurdu ki, rəqibi onu qabaqlayar, vaxt da itirmək istəmirdilər, bu isə müharibəni yaxınlaşdırdı.

İngiltərə və Fransa ehtiyat edirdi ki, Rusiya Türkiyənin paytaxtını ələ keçirər. Rusiya hesab edirdi ki, Türkiyə tezliklə dağılacaq və İngiltərə bütün Yaxın Şərqin sahibi olacaq. 1853-cü ilin yanvarın 9-da Rusiya imperatoru I Nikolay Peterburqda İngiltərənin səfiri ilə söhbətində bildirdi ki, «Türkiyə xəstə adam vəziyyətindədir. Mən sizə dost və centlmen kimi deyirəm ki, yaxın gələcəkdə İngiltərənin İstanbulu tutmasına imkan verməyəcəyəm. Rusiya İstanbulu işğal etmək niyyətində deyil. Fransa və Yunanıstan bu işi görə bilməz. İngiltərə Moldaviya, Valaxiya, Serbiya və Bolqarıstan Rusiyanın protektoratlığına keçməsinə mane olmasa Osmanlı imperiyasının parçalanmasından sonra Rusiya Misirin İngiltərəyə keçməsinə etiraz etməyəcək. İngiltərə Krit adasını da tuta bilər. Rusiya bu məsələlərdə



İngiltərə ilə sazişə hazırdır.» Yanvarın 14-də I Nikolay yenə İngiltərə səfirini qəbul etdi. Üçüncü görüş 1853-cü ilin fevralın 20-də, dördüncü görüş fevralın 21-də oldu. Rusiya Türkiyə ərazisinin bir hissəsini İngiltərə ilə bölməyi təklif edirdi.

Rusiya hesab edirdi ki, Fransa 1848-1851-ci illərdəki hadisələrdən sonra zəifləyib, ona görə Fransa imperatoru ona lazım olmayan müharibəyə qoşulmayacaq. İngiltərə səfirinin Avstriya haqqında sualına I Nikolay cavab vermişdi ki, Avstriya tərəfdən heç bir müqavimət olmayacaq. Rusiya hesab edirdi ki, İngiltərə onun təklifləri ilə razılaşacaq.

1853-cü ilin fevralın 9-da İngiltərə hökuməti Peterburqa məktub göndərdi. Məktubda deyilirdi ki, İngiltərə hesab etmir ki, Türkiyə süqut edəcək, İstanbulu ruslar heç müvəqqəti də tuta bilməz; Fransa və Avstriya isə İngiltərə-Rusiya sazişinə şübhə ilə yanaşacaqlar. Rusiya hökumətinin nümayəndəsi İngiltərənin Peterburqdakı səfirinə bildirdi ki, Rusiya Türkiyəni hədələmir, İngiltərə ilə birlikdə Türkiyəni Fransanın qəsdlərindən qorumaq istəyir.

İngiltərənin cavabından sonra Rusiya hökuməti müstəqil şəkildə planlarını həyata keçirməyə başladı, fikirləşdi ki, Avstriya və Fransa İngiltərəyə qoşulmayacaqlar, İngiltərə isə tək Rusiya ilə müharibəyə cəsarət etməz. Beləliklə, Rusiya «Şərq məsələsi»ndə Avstriyanın və Fransanın mövqeyini nəzərə almadı. Rusiyanın Avstriya və Fransadakı səfirləri çara düzgün məlumat vermirdilər.

«Müqəddəs yerlər»lə bağlı diplomatik ixtilaf Rusiyanın mövqeyinin düzgün olmadığını göstərdi. Bu ixtilaf 1853-cü ilin əvvəlində kəskinləşdi. Yerusəlimdə katoliklərlə pravoslavlar İsanın qəbri yerləşən kilsənin açarı üstündə mübahisə edirdilər. Müqəddəs kilsənin açarı ilə bağlı diplomatik qalmaqalın təşəbbüskarı Fransa idi. III Napoleon hələ prezident olarkən Türkiyə sultanına bildirmişdi ki, Yerusəlim və Vifleyemdəki «müqəddəs yerlərə» katoliklər nəzarət etməlidir. Lakin İstanbuldakı Rusiya səfirliyi Fransaya etiraz edib bildirdi ki, Kiçik Qaynarca sülhünə əsasən «müqəddəs yerlər»ə pravoslavlar nəzarət etməlidir. Əslində bu məsələ tərəflər üçün bəhanə idi. Fransa çalışırdı ki, İngiltərə və Avstriyanı Rusiyadan ayırsın. Rusiya isə «kilsəyə

nəzarət» məsələsindən Türkiyəyə təsirini artırmaq üçün is
də edirdi. Rusiya çalışırdı ki, Türkiyə ona sultanın bütün pr
voslav təbələrini müdafiə etməyə icazə versin. Türkiyə sulta
«müqəddəs yer»lərlə bağlı Fransanın təklifini müdafiə edirdi.

Rusiya imperatoru I Nikolay geri çəkilmək fikrində deyildi. I Nikolay dəniz naziri Menşikovu Türkiyəyə səfir təy edib böyük nümayəndə heyəti ilə və hərbi gəmidə Türkiyəy göndərdi. Rusiya tələb edirdi ki, Türkiyə «müqəddəs yer»lər haqqında onunla xüsusi müqavilə bağlasın və bu müqavilədə Türkiyə sultanı Rusiya çarının bütün pravoslavlara himayədarl etməsinə icazə versin. Rusiya səfirini İstanbulda yaxşı qarşıla dılar və Türkiyə sultanı «müqəddəs yer»lər məsələsində güzəş- tə hazır olduğunu bildirdi. 1853-cü ilin martın 10-da Menşikov Türkiyə sultanına yeni nota təqdim etdi. Türkiyə sultanının bu hadisə narahatlığını artırdı.

1853-cü ilin aprelində İngiltərə hökuməti Rusiyaya nifrət bəsləyən Kanninqi İstanbula səfir göndərdi. Kanninq Rusiyanın Şərqdə mövqelərinin möhkəmlənməsini istəmirdi və bütün fəaliyyətini Rusiya ilə Türkiyə arasında müharibənin başlanma- sma yönəltdi.

Kanninq Türkiyə sultanına tövsiyyə etdi ki, «müqəddəs yer»lər məsələsində Rusiyaya güzəşt etsin. O bilirdi ki, Rusiya həmin güzəştlə kifayətlənməyib yeni tələblər irəli sürəcək. İngiltərə və Fransa bu zaman Türkiyəni müdafiə etməli idi. İngiltərənin səfiri Menşikovu inandırmaq istəyirdi ki, Türkiyə- nin xarici işlər naziri Rusiyanın düşmənidir. O eyni zamanda Menşikovu inandırmağa çalışırdı ki, müharibə olarsa İngiltərə Türkiyəni müdafiə etməyəcək.

Hadisələr İngiltərənin istəyinə uyğun şəkildə inkişaf etdi. 1853-cü ilin mayın 5-də Türkiyə «müqəddəs yer»lərlə bağlı gü- zəştə getdiyini bildirdi. Menşikov gördü ki, Dunay knyazlıq- larını tutmaq üçün bəhanə əldən çıxır, Türkiyə ilə Rusiya arasında yeni müqavilə bağlamaq tələbi ilə çıxış etdi.

Türkiyə sultanı fikirləşmək üçün vaxt istədi və İngiltərə səfiri ilə məsləhətləşəndən sonra Rusiyanın tələbini rədd etdi. Menşikov bildirdi ki, Türkiyə ilə əlaqələri kəsir və mayın 21-də öz adamları ilə birlikdə Odessaya yola düşdü. İyunun 4-də

Türkiyə sultanı imperiya ərazisində xristian, xüsusilə, pravoslav kilsəsinin hüquq və imtiyazlarına təminat verən fərman imzaladı. 1853-cü ilin iyunun 4-də I Nikolayın imzaladığı manifestdə deyilirdi ki, Rusiya imperatoru Türkiyə ərazisindəki pravoslav kilsələrini müdafiə etməlidir, sultan Rusiya ilə əvvəl bağlanmış müqavilələri pozmuşdur, türklərin əvvəlki müqavilələrə əməl etməsi üçün Rusiya Dunay knyazlıqlarında qoşun yerləşdirməlidir. 21 iyun 1853-cü ildə Rusiya ordusu Prut çayını keçib Moldaviyaya daxil oldu. Lakin hələ Rusiya və Türkiyə bir-birinə müharibə elan etməmişdi.

Fransa Menşikovun Türkiyədəki fəaliyyətini izləyirdi və 1853-cü ilin martında Egey dənizinə donanma göndərmişdi. Fransa Rusiya ilə müharibə etmək qərarına gəldi, çünki Türkiyənin Rusiya tərəfindən işğalının əleyhinə idi. Fransa qorxurdu ki, İngiltərə onu aldadıb Rusiya ilə birlikdə Türkiyənin mülklərini öz aralarında bölərlər. 1853-cü ilin yazında İngiltərə Aralıq dənizinin şərq hissəsinə hərbi donanma göndərdi.

Avstriya bir tərəfdən Rusiya çarını inandırmaq istəyirdi ki, Türkiyə ilə saziş bağlayıb qoşunlarını Dunay knyazlıqlarından çıxartsın. Digər tərəfdən, Avstriya İngiltərə və Fransaya onlarla Rusiyaya qarşı birlikdə çıxış etməyə hazır olduğunu bildirdi. Lakin Avstriya Fransadan ehtiyat edirdi. Fransa imperatoru III Napoleon tez-tez deyirdi ki, Lombardiya və Venetsiyanı Avstriyadan almaq lazımdır. Fransa çalışırdı ki, Avstriya onlarla birlikdə Rusiya qoşunlarının Dunay knyazlıqlarından çıxarılmasını tələb etsin. Avstriya Rusiyanın tərəfində Türkiyəyə qarşı müharibə də edə bilərdi. Avstriya həm də Alman ittifaqının üzvü idi, orada isə Avstriyadan sonra əsas dövlət Prussiya idi.

Prussiyanın Türkiyədə mövqeləri güclü deyildi. Prussiya Avstriya ilə ziddiyyətlərin kəskinləşməsində maraqlı idi. Avstriyanın zəifləməsi Prussiya üçün əlverişli idi. Ona görə Prussiya «Şərq məsələsi»ndə Rusiyaya mane olmaq, İngiltərə və Fransaya qoşulmaq istəmirdi, Avstriya isə Prussiya ilə məsləhətləşmədən Rusiyaya qarşı çıxış etmək istəmirdi. Avstriyanın xarici işlər naziri nota layihəsi hazırlayıb Vyanadakı İngiltərə və Fransa səfirlərinə təqdim etdi. Notada təklif olunurdu ki, Türkiyə Ədirnə və Kiçik Qaynarca sülh müqavilələrinin şərtlərinə

əməl etməyi və pravoslav kilsəsinin imtiyazlarını qorumağı vəd etsin. Bu notanı Rusiya imperatoru I Nikolaya və Türkiyə sultanına göndərdilər. İngiltərə Türkiyə sultanını məcbur etdi ki, «Vyana nota»sını qəbul etməsin.

İngiltərə və Fransa səfirlərinin təkidi ilə 1853-cü ilin oktyabrında Türkiyə Rusiyaya müharibə elan etdi. 1853-cü ilin noyabrın 30-da Rusiya donanması Sinop buxtasında Türkiyə donanmasını məğlub etdi. Bu hadisə İngiltərə və Fransanı narahat etdi və onların Türkiyənin tərəfində müharibəyə qoşulmasını sürətləndirdi. 1854-cü ilin yanvarın 4-də birləşmiş İngiltərə-Fransa donanması Qara dənizə daxil oldu. Bu donanma Türkiyə gəmilərini və limanlarını Rusiya donanmasının hücumlarından qorumalı idi.

Rusiya hökuməti London və Parisdəki səfirlərə İngiltərə və Fransanın mövqeyini öyrənməyi tapşırdı: əgər Rusiya gəmilərinin Qara dənizdə üzməsi qadağan edilirdisə, onda səfirlər diplomatik münasibətləri kəsib Parisi və Londonu tərk etməli idi.

1854-cü ilin yanvarın 29-da Fransa imperatoru III Napoleon Rusiya hökumətinə göndərdiyi məktubda təklif etdi ki, Rusiya öz qoşunlarını Moldaviya və Valaxiyadan, İngiltərə və Fransa isə öz donanmasını Qara dənizdən çıxartsın, sonra isə Rusiya və Türkiyə sülh danışıqlarına başlamaq üçün nümayəndə heyəti təşkil etməli idi.

1854-cü ilin fevralın 9-da I Nikolay Fransa imperatoruna cavab məktubu göndərdi. Məktubda deyilirdi ki, Rusiyaya öz şərəfi qiymətlidir, Sinop döyüşü qanunauyğun hadisədir və Dunay knyazlıqlarının işğalını İngiltərə və Fransanın Qara dənizə donanma göndərməsi ilə eyniləşdirmək olmaz.

1854-cü ilin fevralın 12-də Parisdəki Rusiya səfirinə rəsmi nota təqdim olundu. Notada deyilirdi ki, Qara dənizdə qoyulmuş qadağan yalnız Rusiya gəmilərinə aiddir. Dərhal Rusiyanın səfiri Rusiya ilə Fransa arasında diplomatik münasibətlərin kəsilməsini elan etdi. Eyni vaxtda Rusiya həm də İngiltərə ilə diplomatik münasibətlər kəsdi. Rusiya eyni zamanda Fransaya bildirdi ki, o diplomatik münasibətlərin tezliklə bərpa edilməsinə tərəfdardır. Fransa 1854-cü ilin martın 27-də, İngiltərə isə

martın 28-də Rusiyaya müharibə elan etdilər.

İngiltərə və Fransa Avstriyanı Rusiya ilə müharibəyə sövq edirdilər. Avstriya çalışırdı ki, müharibəsiz Rusiyanı öz ordusunu Moldoviya və Valaxiyadan çıxartmağa məcbur etsin. Eyni zamanda Avstriya Rusiya ilə münasibətlərinin kəskinləşməsini istəmirdi.

İngiltərə Krım müharibəsində Rusiyanın məğlubiyyətinə əmin idi. Ona görə Fransa, Avstriya, Prussiya və İsveçin İngiltərə ilə müttəfiq olmasına sevinirdi. İngiltərə hətta Rusiyanın bölüşdürülməsi haqqında plan hazırlamışdı. Plana görə Finlandiya İsveçə, Pribaltika Prussiyaya verilməli, müstəqil Polşa dövləti yaradılmalı, Dunay knyazlıqları Avstriyaya verilməli, Lombardiya və Venetsiya Pyemonta, Krım və Qafqaz Türkiyəyə verilməli idi.

Fransa Rusiya ərazisinin bölünməsinə dair İngiltərənin planının reallığına inanmırdı, eyni zamanda İngiltərəni müdafiə edirdi. Digər tərəfdən, İngiltərənin həddən artıq qüvvətlənməsi və Rusiyanın tamamilə zəifləməsi Fransa üçün sərfəli deyildi. Ona görə 1855-ci ildən sonra Fransa İngltərənin planlarının həyata keçirilməsinə mane olmağa başladı. Müharibə dövründə isə onların arasında ixtilaf yox idi.

Müharibə dövründə Rusiya çalışırdı ki, Avstriya bitərəf qalsın. Əvəzində Rusiya bütün Avstriya mülklərinin toxunulmazlığına təminat verirdi. Lakin Avstriya Rusiyanın təklifi ilə razılaşmadı və Transilvaniyaya qoşun göndərdi.

Rusiya Prussiyaya yaxşı münasibət bəsləyirdi. 1854-cü ilin fevralında Peterburqdan Londona qayıdarkən İngiltərənin səfiri Prussiyanı Rusiyaya qarşı müharibəyə cəlb etmək istəmişdi. Lakin Prussiya kralı bu təklifi rədd etmişdi. Fransa da belə bir cəhd göstərmişdi. Prussiya eyni zamanda onlara bildirmişdi ki, Rusiyanın müttəfiqi olmayacaq.

1854-cü ilin aprelində Avstriya Prussiyaya təklif etdi ki, Rusiyadan öz qoşunlarını Moldaviya və Valaxiyadan çıxartmağı tələb etsin. 20 aprel 1854-cü ildə Prussiya Avstriyanın təklifini qəbul etdiyini bildirdi Rusiya öz qoşunlarını Dunay knyazlıqlarından çıxartmalı, həmin əraziyə Avstriya qoşunları daxil olmalı idi. Ona görə Prussiya daha Avstriyanı müdafiə etmədiyini

bildirdi. 1854-cü ilin iyulun 18-də müttəfiqlər Rusiyaya 4 bənddən ibarət nota təqdim etdilər: 1) Dunay knyazlıqları Fransa, Rusiya, İngiltərə, Avstriya və Prussiyanın ümumi protektoratı altına keçir və müvəqqəti Avstriya qoşunları tərəfindən işğal olunur; 2) Bu beş dövlət sultanın bütün xristian təəbələrinin kollektiv himayəçisi elan olunur; 3) Dunay hövzəsi Avropa dövlətlərinin nəzarətinə keçir; 4) Boğazların rejiminə dair 1841-ci il müqaviləsinə yenidən baxılır.

Rusiya müttəfiqlərin notasına cavab vermədi. 1854-cü ilin sentyabrında İngiltərə, Fransa və Türkiyə qoşunları Krıma çıxdılar. 1854-cü ilin payızında müttəfiqlər bir neçə döyüşdə rus qoşunlarını məğlub edib Sevastopolu mühasirəyə aldılar. 1855-ci ilin fevralında I Nikolayın ölümü ilə bağlı Fransa Rusiya rəhbərliyinə başsağlığı verdi. Rusiya dərhal yeni çar II Aleksandrın adından təşəkkür etdi və bildirdi ki, Rusiya Fransa ilə sülh müqaviləsi imzalamağa hazırdır. Fransanın mövqeyi Avstriya və Prussiyanın ciddi narahatlığına səbəb oldu.

1855-ci ilin avqustunda Sevastopol təslim oldu. Vyanada səfirlərin konfransı keçirildi, lakin Rusiya səfiri güzəştə getmək istəmirdi. Bu isə müharibənin davam etməsində maraqlı olan İngiltərə üçün sərfəli idi. Fransa İsveçlə danışıq aparırdı ki, o da Rusiyaya qarşı müharibədə iştirak etsin. Lakin İsveç razı olmadı. Fransa 1855-ci ilin oktyabrında sülh danışıqlarına hazır olduğunu bildirdi.

1855-ci ilin yanvarında Fransa Pyemontla müqavilə imzaladı və Pyemont Krıma 15 min əsgər göndərdi. Avstriya bu hadisədən ciddi narahat oldu. Fransa imperatoru III Napoleonun tələbi ilə Avstriya Rusiyadan müttəfiqlərlə danışıqlara başlamağı tələb etdi. Əks halda Avstriya ona qarşı müharibəyə qoşulacağını bildirdi. Hərbi əməliyyatlar başa çatdıqdan sonra tərəflər müharibənin yekunlarını diplomatik yolla rəsmilşdirmək üçün hazırlığa başladılar.

1855-ci ilin oktyabrında Fransa müharibəyə son qoymaq üçün Rusiya ilə danışıqlara başladı. Rusiya onun təşəbbüsünə tərəfdar çıxdı. 1855-ci ilin dekabrında müttəfiqlər öz şərtlərini Rusiyaya təqdim etdilər: 1) Moldaviya, Valaxiya və Serbiya üzərində bütün böyük dövlətlərin protektoratı; 2) Dunay hövzə-

sində gəmiçilik azadlığı; 3) Qara dəniz boğazlarının hərbi gəmilər üçün bağlanması, Rusiya və Türkiyənin Qara dənizdə donanma saxlamaması; 4) Rusiyanın Türkiyədə yaşayan xristianlara himayədarlıqdan imtina etməsi; 5) Rusiyanın Bessarabiyanın bir hissəsini Moldaviyaya verməsi. Prussiya kralı Rusiya imperatoruna məktub göndərib müttəfiqlərin təkliflərini qəbul etməyi ona tövsiyyə etmişdi. 1856-cı ilin yanvarın 11-də Rusiya bildirdi ki, Bessarabiya haqqında tələbdən başqa qalan tələbləri qəbul edir. Avstriyanın təkidi ilə Rusiya hökuməti yanvarın 15-də bütün tələblərə razı olduğunu bildirdi.

Parisdə sülh konqresi 1856-cı ilin fevralın 25-də başladı və martın 30-da başa çatdı. Parisdə Rusiyanın nümayəndəsi qraf Orlov III Napoleonla danışıqlar aparırdı ki, Rusiya ilə Fransa arasında barışmaz ziddiyyətlər olmadığına görə onların əməkdaşlığı mümkündür. Müharibə nəticəsində Türkiyədə Fransanın mövqeyi möhkəmləndi. Fransa 1814-cü ildəki məğlubiyyətin qisasını almışdı, ölkə daxilində III Napoleonun hakimiyyəti möhkəmlənmişdi və Fransa yenə Avropanın aparıcı dövləti olmuşdu.

Paris konqresindən əvvəl İngiltərə ilə Fransa arasında Prussiyanın konqresə dəvət edilməsi ilə bağlı mübahisə mövcud idi. Fransa buna tərəfdar, İngiltərə isə əleyhinə idi. İngiltərə iddia edirdi ki, Prussiya müharibədə iştirak etməyib və Prussiya Paris konqresinə dəvət olunmadı. İngiltərə hiss edirdi ki, Fransa müharibənin davam etməsini istəmir. Konqresdə Avstriyadan tələb olundu ki, öz qoşunlarını Dunay knyazlıqlarından çıxartsın.

1856-cı ilin martın 30-da müttəfiqlərlə Rusiya arasında sülh müqaviləsi bağlandı. Müqaviləyə əsasən Rusiya 1855-ci ildə işğal etdiyi Qarsı Türkiyəyə qaytardı, Bessarabiyanın bir hissəsini Moldaviyaya verdi, Qara dənizdə donanma saxlamamalı və sahildə istehkamlar yaratmamalı idi. Fransa müqavilə imzaladıqdan sonra Rusiya ilə yaxınlaşmağa başladı. Müharibə dövründə Türkiyə İngiltərə və Fransadan çoxlu kredit almışdı. Rusiya isə həm texniki-iqtisadi, həm də hərbi cəhətdən Qərb dövlətlərindən zəif idi. Konqresdən sonra Rusiya Paris sülhünün şərtlərini aradan qaldırmaq uğrunda mübarizəyə başladı.

## § 2. İtaliyanın birləşdirilməsi və beynəlxalq münasibətlər

Vyana sisteminin dağılmasının nəticələrindən biri İtaliyanın birləşdirilməsi oldu. Ölkəni birləşdirməyə çalışan Sardiniya hökumətinin güclü mərkəz dövlətlərinin köməyinə ehtiyacı böyük idi. Bu isə İtaliyanın birləşdirilməsini beynəlxalq ziddiyyətlər və kompromislər obyektinə çevirmişdi.

Sardiniyanın baş naziri K.Kavur Paris konqresində bildirmişdi ki, Krım müharibəsində onun ölkəsi iştirak edib, ona görə kompensasiya kimi Avstriya qoşunları Mərkəzi İtaliyadan çıxarılmalı, Parma və Modena hersoqluqları Sardiniyaya verilməlidir. Lakin İngiltərə və Fransa etiraz etdiyinə görə Paris konqresində Sardiniyanın təklifi müzakirə edilmədi. Sardiniya krallığı taktikasını dəyişib Fransanın köməyindən istifadə etmək qərarına gəldi.

Fransa İtaliyanın birləşdirilməsi məsələsindən öz mənafelərini həyata keçirtmək üçün istifadə etməyə çalışırdı. Sardiniya və Fransa Avropada Avstriyanın mövqeyinin zəifləməsində maraqlı idi. 1858-ci ilin iyulunda Fransa imperatoru III Napoleonla Pyemontun baş naziri K.Kavurun gizli görüşü oldu. Sardiniya krallığı Savoyya və Nitsanın Fransaya keçməsinə razılıq verdi, əvəzində Lombardiya, Venetsiya və Tirol Sardiniyaya verilməli idi. Fransa bu şərtlərlə Avstriyaya qarşı Sardiniya ilə birlikdə müharibəyə başlamağa razı oldu.

1859-cu ilin yanvarında Sardiniya krallığı ilə Fransa arasında Avstriyaya qarşı gizli ittifaq müqaviləsi bağlandı. Onlar bir neçə döyüşdə Avstriya qoşunlarını məğlub etdilər. Lakin Fransa İtaliyanın qısa müddətdə birləşməsində maraqlı deyildi. Ona görə Fransa hökuməti Sardiniya ilə məsləhətləşmədən 1859-cu ilin iyulunda Avstriya ilə barışıq imzaladı. İyulun 11-də III Napoleonun Avstriya imperatoru ilə görüşündə belə bir razılıq əldə olundu ki, Avstriya Lombardiyanı Fransaya, o isə Sardiniyaya verir, əvəzində Fransa Savoyya və Nitsanı alır. K.Kavur bu məsələni eşidən kimi istefaya çıxdı, lakin kral onun istefasını qəbul etmədi. III Napoleon təklif etdi ki, Avstriya-Fransa sazişi

beynəlxalq konqresdə təsdiq edilsin, lakin böyük dövlətlərin heç biri bu ideyanı müdafiə etmədi.

1860-cı ilin martında Fransa ilə Sardiniya arasında imzalanmış müqaviləyə əsasən Lombardiya Sardiniyaya verilməli, Mərkəzi İtaliyada plebisit keçirilməli, Savoyya və Nitsa Fransaya verilməli idi. Keçirilən plebisit nəticəsində Mərkəzi İtaliyanın çox hissəsi və Lombardiya Sardiniya krallığına birləşdirildi, Nitsa və Savoyya isə Fransanın tərkibinə daxil oldu.

1866-cı ilin aprelində Prussiya ilə İtaliya arasında hərbi ittifaq imzalanmışdı. İtaliya Avstriyaya qarşı müharibədə Prussiyaya kömək etməli idi. 1866-cı ilin oktyabrında Venetsiya vilayəti İtaliya krallığına qaytarıldı.

İtaliyanın birləşdirilməsi prosesində «Roma məsələsi»nin həlli daha çətin idi. Çünki Papa vilayətinin İtaliyaya birləşdirilməsi nəticəsində həm də Roma papasının çoxəsrlik dünyəvi hakimiyyəti ləğv olunmalı idi. Roma papası IX Piy İtaliya hökumətinin təkliflərini qəbul etmirdi. Fransa 1849-cu ildən Romada qoşun saxlayırdı, Fransa ilə yanaşı, Avstriya, İspaniya və Belçika Roma papasını müdafiə edirdilər. XIX əsrin 60-cı illərində İtaliya hökumətinin iştirak etdiyi bütün beynəlxalq danışıqlarda «Roma məsələsi» müzakirə olunmuşdu. 1870-1871-ci illərdəki Fransa-Prussiya müharibəsi və Fransanın məğlubiyyəti «Roma məsələsi»nin həlli üçün şərait yaratdı. 1870-ci ilin sentyabrın 20-də İtaliya ordusu Romaya daxil oldu.

## § 3. Almaniyanın birləşdirilməsinin beynəlxalq münasibətlərə təsiri

Alman dövlətləri içərisində Prussiya iqtisadi və hərbi cəhətdən daha güclü idi. Prussiya öz hegemonluğu altında Almaniyanın birləşdirilməsi uğrunda mübarizə aparırdı. XIX əsrin 60-cı illərində beynəlxalq şərait Prussiyanın öz planlarını həyata keçirməsi üçün əlverişli idi. Fransa Meksikada müharibə aparırdı. Rusiya Polşada üsyanı yatırmaqla məşğul idi. 1863-cü ildə başlanmış Polşa üsyanından Prussiya Rusiya ilə yaxınlaşmaq üçün istifadə etdi. Bu üsyan zamanı İngiltərə və Fransa

Polşanı müdafiə etmişdi. 1863-cü ilin yanvarında Prussiya ilə Rusiya arasında Polşa üsyançılarına qarşı birgə fəaliyyət haqqında saziş imzalandı. Bu yolla O.Bismark Almaniyanın birləşməsinə mane olan Avropa dövlətlərinə qarşı mübarizədə Rusiyanın birtərəfliyini təmin etmişdi.

Rusiya Şlezviq-Holştiniya məsələsində Prussiyaya mane olmaq fikrində deyildi. İngiltərə, Fransa və Avstriya isə bu məsələdə Prussiyaya mane ola bilərdi. O.Bismark onları inandırmalı idi ki, Şlezviq və Holştiniyanı Prussiyaya birləşdirməyə çalışmır. Fransa Prussiyanın ərazisinin və əhalisinin artmasını istəmirdi. İngiltərə Şimal və Baltik dənizlərinin sahilindəki yerlərin Prussiyaya keçməsinin əleyhinə idi. İngiltərə eyni zamanda Danimarkanı Şlezviq və Holştiniya vilayətlərini ondan almaq səylərinə müqavimət göstərməyə çağırırdı. İngiltərə hesab edirdi ki, Prussiya Danimarka ilə müharibəyə cəsarət etməz, əgər müharibəyə başlasa Fransa ona mane olacaq.

Prussiyanın kansleri O.Bismark III Napoleonu öz tərəfinə çəkməyə çalışırdı. O.Bismark hamıdan çox Avstriyadan ehtiyat edirdi. Avstriya Rusiya, İngiltərə və Fransadan zəif idi. Lakin Avstriya imperatoru başa düşürdü ki, əgər Prussiya Şlezviq-Holştiniya məsələsini tək həll etsə, gələcəkdə Almaniyanın birləşməsi məsələsində hegemonluq edəcək.

O.Bismark bütün məsələləri özü həll edirdi, Prussiya kralı I Vilhelmin Avstriya imperatoru ilə və digər alman dövlətlərinin başçıları ilə görüşməsinə imkan vermirdi. O.Bismark 1864-cü ildə Şlezviq-Holştiniya məsələsinin tənzimlənməsində Avstriyanın iştirakına razılıq verdi. Onlar Danimarkaya qarşı birgə mübarizə haqqında gizli saziş bağladılar. Bu saziş O.Bismarka əsl məqsədlərini gizlətmək üçün lazım idi. Avstriya ilə ittifaq Fransa və İngiltərəni Prussiya ilə Danimarka arasında münaqişəyə müdaxilədən çəkindirməli idi. İngiltərə və Fransa onlara qarşı çıxış etsəydi Avstriyamn köməyi öz əhəmiyyətini itirərdi. Lakin Fransa İngiltərənin birlikdə hərəkət etmək təklifini qəbul etmədi və onların Polşa məsələsində Rusiyaya qarşı zəif fəaliyyətini İngiltərəyə xatırlatdı.

İngiltərə isə təklikdə Prussiyaya qarşı çıxış etmək fikrində deyildi, eyni zamanda Danimarka kralını müqavimət göstərmə-

və çağırdı. İngiltərə belə hesab edirdi ki, Danimarkanın müqaviməti Rusiya və Fransanı bu müharibəyə qoşulmağa sövq edə bilər.

İngiltərənin yardımına arxalanan Danimarka kralı yeni konstitusiya qəbul etdi və orada Şlezviq Danimarka ərazisi kimi göstərildi. O. Bismark dərhal bildirdi ki, Danimarkanın bu işi görməyə səlahiyyəti çatmır. 1864-cü ilin yanvarında Avstriya və Prussiya Danimarka kralından tələb etdilər ki, 48 saat ərzində həmin konstitusiyanı ləğv etsin. Danimarka onların tələblərini qəbul etmədi və müttəfiqlər ona qarşı müharibəyə başladılar.

İngiltərə Danimarkaya kömək etmədi. Tək qalan Danimarka müttəfiqlərə heç bir müqavimət göstərə bilmədi və ilk günlərdə müharibənin taleyi həll olundu. İngiltərədən kömək gözləyən Danimarka sülh bağlamağa tələsmirdi. İngiltərə belə bir amili də nəzərə alırdı ki, güclü Prussiya Fransanın Reynin sol sahilinə olan iddialarının qarşısını alacaqdır. Fransa isə bu dövrdə Meksikada müharibə aparırdı və Avropadakı müharibəyə qarışmaq fikrində deyildi. III Napoleon çalışırdı ki, Prussiya onun Reyn çayının sol sahilini tutmasına kömək etsin.

1864-cü ilin aprelində bir neçə məğlubiyyətdən sonra Danimarka kralı Fransadan kömək istədi. Parisdən mənfi cavab gəldi. 1864-cü ilin mayında barışıq, 1864-cü ilin oktyabrında isə Danimarka ilə Prussiya və Avstriya arasında sülh müqaviləsi imzalandı. Şlezviq, Holştiniya və Lauenburq qaliblərə verildi. Bu hadisədən sonra O.Bismark bütün diqqətini Avstriyaya qarşı mübarizəyə yönəltdi.

O.Bismark hələ 1850-ci ildə dərk etmişdi ki, yalnız qalibiyyətli müharibə nəticəsində Avstriyanı Alman ittifaqından qovmaq olar, əks təqdirdə Avstriya Prussiyanın birləşmiş Almaniyaya başçılıq etməsinə imkan verməyəcək. Avstriya Prussiyanın hərəkətlərini diqqətlə izləyirdi. Müharibəyə başlamaq üçün O.Bismark yenə diplomatiyadan istifadə etdi. O.Bismark bilirdi ki, Danimarkadan alınmış qəniməti Avstriya ilə dinc yolla bölmək mümkün olmayacaq. 1864-cü ilin oktyabrında O.Bismark kurort şəhəri Biarritsdə III Napoleonla görüşdə Avstriya ilə müharibə olacağı təqdirdə Fransanın mövqeyini müəyyənləşdirməyə çalışdı. O.Bismark istedadlı diplomat idi və qarşısındakı

vəzifələri ardıcıl şəkildə həll etməyi bacarırdı. O.Bismark elə şərait yaratmağa çalışırdı ki, müharibəyə əvvəlcə Avstriya başlasın.

1865-ci ilin avqustun 14-də Prussiya ilə Avstriya arasında imzalanmış saziş Şlezviqin Prussiyaya, Holştiniyanın Avstriya-ya verilməsini və Prussiyanın kiçik Lauenburq hersoqluğunu 2,5 milyon talerə Danimarkadan almasını təsdiq etdi. Prussiya Holştiniya ilə Avstriyanın arasında yerləşirdi, eyni zamanda Holştiniyada yerləşən əmlakdan Prussiya istifadə edə bilərdi. Avstriya imperatoru F.İosif Holştiniyanın əvəzində Prussiyadan ərazi istədi, lakin rədd cavabı almışdı. Avstriya Prussiyaya qarşı müttəfiq axtarırdı.

Prussiyanın kansleri O.Bismark 1865-ci ilin yayında Avstriyaya qarşı müharibə üçün əlverişli siyasi vəziyyətin yaranmasına çalışırdı. O ilk növbədə Rusiya və Fransadan ehtiyat edirdi, çünki hər ikisi ona mane ola bilərdi və O.Bismark mütləq Rusiya ilə razılığa gəlməli idi. O.Bismark əmin idi ki, Rusiya onun Avstriyaya qarşı müharibəsinə mane olmayacaq.

Rusiya imperatoru II Aleksandr Krım müharibəsi zamanı Avstriyanın mövqeyini və siyasətini unutmamışdı. Rusiya eyni zamanda Prussiyanın başçılığı ilə vahid alman dövlətinin yaranmasını istəmirdi, yəni, Almaniyanın pərakəndəliyini müdafiə edirdi. Rusiya vahid Almaniyanın onun mənafeləri üçün təhlükə yaradacağını başa düşürdü. Paris konqresində və Polşa üsyanı ilə əlaqədar Fransanın siyasəti Rusiyanın Fransa ilə yaxınlaşmasını istisna edirdi. Rusiya Avstriya-Prussiya müharibəsi zamanı bitərəf qalmaq qərarına gəldi. Rusiyanın mövqeyi Prussiya üçün sərfəli idi.

Parisdə səfir işləyərkən O.Bismark başa düşmüşdü ki, III Napoleon öz hakimiyyətini möhkəmləndirmək üçün müharibələrdə maraqlıdır, eyni zamanda Avstriyaya qarşı Prussiyanın müharibəsi Fransa üçün böyük təhlükə mənbəyidir. Çünki Fransa Prussiyanın qüvvətlənməsini, Avstriyanın məğlubiyyətini və Prussiya ətrafında Almaniyanın birləşməsini istəmirdi. Ona görə Fransanın bitərəfliyini təmin etmək üçün O.Bismark III Napoleona güzəşt etməyə hazır idi.

1865-ci ilin sentyabrın 30-da O.Bismark ikinci dəfə Biarritsə gəldi. O bilirdi ki, şəxsi görüşlər və şifahi danışıqlar vasitəsilə mühüm sazişlər bağlamaq olar. O.Bismark bildirdi ki, Fransanın bitərəf qalacağı təqdirdə Prussiya Lüksemburqun ona verilməsinə etiraz etmir.

III Napoleon O.Bismarkın təklifli ilə razılaşmadı və bildirdi ki, xırda güzəştlər onu təmin etmir. III Napoleon Belçikanın Fransaya birləşdirilməsini tələb etmişdi. Belçikanın Fransaya verilməsi nəticəsində potensialı daha da artan Fransa Prussiyanın qərbi üçün daimi təhlükə mənbəyinə çevrilirdi. Bu təklifdən imtina etmək isə Fransanın Avstriya ilə müttəfiq olması ilə nəticələnə bilərdi.

III Napoleon öz tələbində israr etmədi. III Napoleonun hərəkəti təsadüfi deyildi. Fransa Prussiya ilə Avstriya arasında müharibənin başlanmasında, uzunmüddət davam etməsində və iştirakçıların zəifləməsində maraqlı idi. Fransa bu zaman müharibəyə qoşulub həm Lüksemburqu, həm Belçikanı, həm də Reyn çayının sol sahilində yerləşən torpaqları işğal edə bilərdi.

Berlinə qayıdan O.Bismark Fransanı təcrid etmək üçün plan hazırlamağa başladı. Prussiya qısa müddətli və ildırımsürətli müharibəyə hazırlaşırdı ki, sonra Reynin sahilində Fransa ordusuna müqavimət göstərə bilsin. Qısa müddətli müharibədən ötrü, əvvəlcə Avstriya ordusu bölünüb iki cəbhədə vuruşmalı idi, ikincisi də, ilk qalibiyyətli döyüşlərdən sonra Avstriyaya yüngül tələblərlə ultimatum vermək lazım idi. Avstriyadan tələb etmək lazım idi ki, alman dövlətlərinin daxili işlərinə qarışmaqdan imtina etsin və Almaniyamn Prussiyanın başçılığı ilə birləşməsinə mane olmasın. Prussiya Avstriyadan ərazi və təzminat istəməməli, onu təhqir etməməli və Avstriya Prrusiya ilə sülh müqaviləsi bağlamalı idi.

Avropada vəziyyət Prussiyamn qısa müddətdə qələbəsi üçün əlverişli idi. İtaliya krallığı Venetsiyanın Avstriyada qalmasından narazı idi. O.Bismark İtaliya ilə hərbi ittifaq yaratmaq qərarına gəldi ki, eyni vaxtda Avstriyaya hücum etsinlər. Bu zaman Avstriya ordusu şimalda Prussiya ordusuna, cənubda İtaliya qoşunlarına qarşı müharibə aparmalı idi. İtaliya kralı II Viktor Emmanuil öz ordusunun Avstriya qoşunlarına qalib gələcəyinə

inanmadığına görə O.Bismarkla ittifaq yaratmaq istəmirdi.

O.Bismark öz planından əl çəkmək fikrində deyildi. O İtaliya kralı II Viktor Emmanuilə bildirdi ki, qələbədən sonra Venetsiya İtaliyaya veriləcək. O.Bismark bildirdi ki, əks halda birbaşa İtaliya xalqına müraciət edib C.Madzini və C.Qaribaldidən kömək istəyəcək. İtaliya kralı Prussiyaya kömək edəcəyini bildirdi.

Fransa imperatoru III Napoleon O.Bismarkın fəaliyyətini diqqətlə izləyir və Prussiyanın İtaliya ilə danışıqları haqqında məlumat alırdı. Avstriya imperatoru F.İosifə müraciət edən III Napoleon onu iki cəbhədə müharibə təhlükəsi ilə hədələdi və könüllü şəkildə Venetsiyanı müharibə başlayana qədər qaytarmağı təklif etdi. Bu təklif O.Bismarkın planlarını pozmağa yönəlmişdi. Lakin Avstriya Fransanın təklifini qəbul etmədi.

İtaliya kralı II Viktor Emmanuil Prussiyanın kanslerinə məlumat verdi ki, Fransa İtaliyaya xəbərdarlıq edib və İtaliya ilə Prussiya arasında ittifaq bağlanmasını istəmir. İtaliya kralı bildirdi ki, III Napoleonla əməkdaşlıq etməyəcək.

Prussiyanın kansleri O.Bismark III Napoleona bildirdi ki, Avstriya Venetsiyanı İtaliyaya qaytarmaq təklifini rədd etməklə təsdiq edib ki, mövqeyini dəyişmək istəmir. O.Bismark Fransa imperatorunu inandırmağa çalışırdı ki, bütün hallarda Avstriya ilə müharibə Prussiya üçün ağır və uzunmüddətli olacaq, Avstriya bütün qüvvəsini Prussiyaya qarşı göndərəcək. O.Bismark III Napoleona bildirdi ki, Prussiya Fransa ilə möhkəm dostluq əlaqələrində maraqlıdır. Ona görə III Napoleon İtaliyanın Prussiya ilə ittifaq yaratmasına etiraz etmədi.

8 aprel 1866-cı ildə İtaliya ilə Prussiya arasında ittifaq müqaviləsi imzalandı. Onların heç biri düşmənlə gizli saziş bağlamamalı idi. İtaliyanın xahişi ilə Prussiya hökuməti ona kredit verdi. Avstriya ilə diplomatik münasibətləri kəsmək üçün O.Bismarka bəhanə lazım idi. Ona məlumat verildi ki, III Napoleon Avstriya imperatorunu inandırmaq istəyir ki, Venetsiyanı dinc yolla İtaliyaya qaytarsın.

1866-cı ilin iyunun 16-da Prussiya Avstriyaya qarşı hərbi əməliyyatlara başladı. Müharibənin əvvəli Avstriyanın rəqibləri üçün uğursuz oldu. 1866-cı ilin iyunun 24-də Kustotsa döyüşün-



də İtaliya ordusu məğlubiyyətə uğradı. Bu hadisə O.Bismarka təsir göstərdi və onun planlarını poza bilərdi. Vəziyyəti Prussiya ordusunun komandanı H.Moltke xilas etdi.

1866-cı ilin iyulun 3-də Sadovo döyüşündə Prusssiya ordusu Avstriya qoşunlarını məğlub etdi. Prussiya kralı I Vilhelm və onu əhatə edən generallar ordunun Vyanaya daxil olmasını tələb edirdilər. O. Bismark ordunun Vyanaya hücumunun əleyhinə idi və bildirdi ki, Avstriyadan tələb etmək lazımdır ki, Alman ittifaqından çıxsın, Holştiniyadan imtina etsin və Prussiyanın başçılığı ilə Şimali Alman ittifaqının yaradılması ilə razılaşsın. Prussiyanın kansleri bildirdi ki, Avstriyanın bu tələbləri qəbul edəcəyi halda müharibəni qurtarmaq lazımdır. I Vilhelm və generallar kanslerin təkliflərinə etiraz edəndə O.Bismark bildirdi ki, müharibənin davam etməsi Fransanın xeyrinədir və müharibə davam etsə o istefaya çıxacaq. Prussiya kralı I Vilhelm onunla razılaşmalı oldu. O.Bismark həm də məğlub olmuş Avstriyada inqilabın başlanmasını istəmirdi.

Avstriya imperatoru Sadovo döyüşündən sonra III Napoleona xəbər göndərdi ki, Venetsiyanı Fransaya verməyə hazırdır. İtaliya kralı Avstriyadan Venetsiya ilə yanaşı Trentinonu və Triyesti də tələb edirdi. İyulun 20-də avstriyalılar İtaliya donanmasını məğlub etdilər. 26 iyul 1866-cı ildə Prussiya Nikolsburqda Avstriya ilə barışıq imzaladı, onların arasında sülh müqaviləsi isə 24 avqust 1866-cı ildə Praqada imzalandı. Avstriya hökuməti O. Bismarkın tələblərini qəbul etdi və Avstriya — Prussiya müharibəsi qurtardı.

Praqa sülhü Nikolsburq barışığının şərtlərini təsdiq etdi. Avstriya Alman ittifaqından çıxdı və Alman ittifaqı ləğv olundu. Hannover Prussiyaya verildi. 22 dövləti birləşdirən Şimali Alman ittifaqı yaradıldı. Şimali Alman ittifaqına mülki və hərbi rəhbərliyi Prussiya kralı həyata keçirirdi. İttifaqa Mayn çayından şimalda yerləşən dövlətlər daxil idi. Lakin O.Bismark Mayn çayından cənubda yerləşən alman dövlətlərinin ittifaqa cəlb olunmasına çalışırdı. O.Bismark bilirdi ki, Fransa cənubdakı alman dövlətlərinin birləşdirilməsinə imkan verməyəcək. O.Bismarka məlum idi ki, Bavariya, Vürtemberq və Baden kimi dövlətlər Prussiyanın hegemonluğunu qəbul etmir. Birləşməni yalnız qalibiyyətli yeni

müharibələr vasitəsilə başa çatdırmaq mümkün idi.

İngiltərə zərurət olmadan Avropanın işlərinə qarışmaq fikrində deyildi. İngiltərə Prussiyaya qarşı mübarizəni əhəmiyyətli hesab etmirdi və ona Fransaya qarşı güclü rəqib kimi baxırdı. Fransanın Süveyş kanalı ilə bağlı fəallığı İngiltərəni narahat edirdi. İngiltərə buna Hindistan üçün təhlükə kimi baxırdı. Ona görə İngiltərə-Fransa münasibətləri zəiflədi, bu isə Prussiya üçün əlverişli idi.

Rusiyanın mövqeyi Prussiya üçün əhəmiyyətli idi. Təbii ki, Prussiyanın nailiyyətləri Rusiyanı narahat edirdi. 1866-cı ilin iyulunda Rusiya hökuməti İngiltərə və Fransaya təklif etdi ki, Alman ittifaqının ləğvinə, Hannoverin və digər alman dövlətlərinin Prussiya tərəfindən işğalına etirazlarını bildirsinlər. Rusiya bu məsələyə beynəlxalq konqresdə baxılmasını təklif etdi. İngiltərə və Fransa tərəfindən bu təkliflər qəbul edilmədi. Lakin O.Bismark narahat oldu və Peterburqa xüsusi nümayəndə göndərdi. Prussiyanın nümayəndəsi Rusiya rəhbərlərini inandırmalı idi ki, Paris sülhünün Rusiya üçün zərərli olan şərtlərinin ləğvində Prussiya ona kömək edəcək. Rusiya hökuməti O.Bismarkın vədlərini nəzərə alacağını bildirdi.

O.Bismark üçün Fransa imperatoru ilə əlaqə yaratmaq daha çətin idi. III Napoleon Avstriya-Prussiya müharibəsi dövründə bitərəfliyinin haqqını tələb edirdi. 1866-cı ilin iyulunda Fransanın Berlindəki səfiri qraf Benedetti Prussiya hökumətinə təklif etdi ki, Fransanın 1814-cü il sərhədlərinə qayıtmasına və Lüksemburqun Fransaya birləşdirilməsinə razılıq versin. O.Bismark Fransa səfirinin təklifini rədd etməmişdi.

27 iyul 1866-cı ildə Fransa imperatoru III Napoleon Prussiyanın Parisdəki səfiri Qoltsa bildirmişdi ki, Prussiya Lüksemburqun və Landau əyalətinin Fransaya birləşdirilməsinə razılıq verməlidir. O.Bismark bildirdi ki, Fransanın təklifini müzakirə edilə bilər.

1866-cı ilin avqustun 8-də Fransanın xarici işlər naziri Prussiyaya memorandum göndərdi ki, Reynin sol sahilində müstəqil dövlət yaradılmalı və həmin dövlət bitərəf olmalıdır. III Napoleonun təklifi ilə Fransanın xarici işlər naziri Prussiyanın səfiri qraf Qoltsa yeni layihə təqdim etdi. Bu layihədə Prussiyaya təklif olunurdu ki, Landau, Saarbryuken və Lüksemburq əyalətlərinin Fransaya birləşdirilməsinə razılıq versin. Qolts Fransanın xarici işlər nazirinə sübut etməyə çalışdı ki, sırf alman əyalətlərinin Fransaya birləşməsinə razılıq vermək Prussiya üçün siyasi və mənəvi cəhətdən çətindir, Belçikanın Fransaya verilməsinə isə Prussiya etiraz etməyəcək.



1866-cı ilin avqustun 16-da Fransanın Berlindəki səfiri Benedittiyə göstəriş verildi ki, O.Bismarkın yanına gedib layihədə adı çəkilən ərazilərin Fransaya verilməsi barədə onun qəti fikrini öyrənsin. Beneditti eyni zamanda O.Bismarkın nəzərinə çatdırmalı idi ki, Fransa Prussiya ilə gizli ittifaq müqaviləsi bağlamağa hazırdır. Bu sazişə əsasən Antverpendən başqa bütün Belçika Fransaya birləşməli, Antverpen isə azad şəhər olmalı idi.

Prussiyanın kansleri O.Bismark Benedittini yaxşı qəbul etdi. Prussiya Fransaya güzəşt etmək fikrində deyildi. O.Bismark bildirdi ki, Hollandiya Lüksemburqun Fransaya keçməsinə etiraz edəcək. O.Bismark Benedittiyə təklif etdi ki, bütün tələblərini ətraflı şəkildə yazsın və həmin memorandumu I Vilhelmlə müzakirə etsin.

Prussiya bilirdi ki, İngiltərə Belçikanın Fransa ilə birləşdirilməsinə etiraz edəcək. O.Bismark Fransanın Belçikaya olan iddiası haqqında Rusiya və İngiltərəyə məlumat göndərdi. İngiltərə hökuməti Parisdəki səfirinə tapşırdı ki, III Napoleondan bu məsələni öyrənsin. III Napoleon İngiltərə səfirinə bildirdi ki, Fransa güclə heç bir ərazini ələ keçirmək fikrində deyil. Fransanın xarici işlər naziri Londona məktub göndərdi ki, Belçikanın və Lüksemburqun Fransaya birləşdirilməsinə böyük dövlətlər könüllü razılıq versin. İngiltərənin Parisdəki səfiri həmin məktubun məzmunu ilə qraf Qoltsü tanış etdi. Qolts həmin gün məktub haqqında Berlinə məlumat göndərdi.

1867-ci ilin əvvəlində Hollandiya hökuməti Lüksemburqun Fransaya birləşdirilməsi ilə razılaşdı. 1867-ci ilin yanvarında Fransanın səfiri Beneditti O.Bismarkın Lüksemburq məsələsi ilə bağlı fikrini öyrənmək istədi. O.Bismark əleyhinə olsa da birbaşa etirazını bildirmədi, müxtəlif manevrlərlə vaxt qazanmağa çalışırdı. O.Bismark bu məsələ barədə Prussiya parlamentində məşhur natiq, müxalifətdə olan milli-liberal partiyanın sədri Benniqsenə

məlumat göndərdi ki, Prussiya hökuməti guya Lüksemburqun Fransaya keçməsinə razıdır. Benniqsen buna qarşı böyük etiraz nümayişi təşkil etdi. Şimali Alman reyxstaqının 70-dən çox üzvü etiraz məktubunu imzalamışdı. Bu yolla O.Bismark özünə bəraət qazandırır və üzr istəyirdi. Fransanın nümayəndələri ilə danışıqlar zamanı O.Bismark bildirdi ki, parlament müxalifəti onun Lüksemburq məsələsinin həllinə kömək etməsinə mane olur.

Rusiya hökuməti O.Bismarkın nailiyyətlərindən və III Napoleonun diplomatik məğlubiyyətindən narahat idi. 1867-ci ilin yazında Rusiyanın xarici işlər naziri Qorçakov böyük dövlətlərin konfransını keçirməyi təklif etdi. İngiltərə dərhal Rusiyanın təklifini müdafiə etdi. Bu konfrans 1867-ci ilin mayında Londonda keçirildi. Lüksemburqun vəziyyətində dəyişiklik edilmədi, amma Prussiya öz qoşunlarını oradan çıxartmalı idi və bütün Avropa dövlətləri Lüksemburqun bitərəfliyinə və təhlükəsizliyinə təminat verdi.

Fransanın Meksikada apardığı müharibə 1867-ci ilin yayında uğursuzluqla qurtardı. Bu hadisə Fransada hökumətə qarşı müxalifətin fəallaşmasına səbəb oldu. Ölkədə sosial narazılığın artması Fransa diplomatiyasını hakimiyyəti saxlamaq üçün yeni qalibiyyətli müharibə axtarışına çıxartmışdı. Lakin Fransa təcrid vəziyyətində idi. İngiltərə Fransa ilə müttəfiq olmaq istəmirdi və Şimali Alman İttifaqının Fransaya qarşı müharibəsinə qarışmaq fikrində deyildi. İtaliya Fransanın əleyhinə idi, həm 1859-cu ildə III Napoleonun hərəkətini yaddan çıxartmamışdı, həm də 1867-ci ilin noyabrın 3-də C.Qaribaldi öz dəstəsi ilə Romaya hücum edərkən Fransa qoşunu tərəfindən məğlub edilmişdi. Bu isə İtaliyanın qəzəbinə səbəb olmuşdu. Fransa imperatorunun C.Qarribaldinin dəstəsini məğlub edən Fransa generalına göndərdiyi təbrik məktubu qəzetlərdə çap olunmuşdu. Ona görə İtaliya maraqlı idi ki, Fransa yeni müharibəyə cəlb olunsun və qoşunlarını Romadan çıxartsın. Ümumi mənafe əsasında İtaliyanın Prussiya ilə münasibətləri yaxşılaşmışdı.

Avstriya 1866-cı ildə Prussiya ilə müharibədə məğlubiyyəti ilə barışmaq istəmir və ona qarşı müttəfiq axtarırdı. 1867-ci ildə Zaltsburqda III Napoleonla F.İosifin görüşündə həm şərq, həm də alman məsələsində qarşılıqlı anlaşma əldə olundu, lakin hərbi

ittifaq bağlanmadı. 1868-ci ildə Fransa və Avstriya ittifaq müqaviləsi bağlamaq haqqında danışıqlara başladılar. Avstriya hələ Prussiyaya qarşı müharibəyə hazır deyildi. Fransa Prussiyaya qarşı ittifaqa İtaliyanı da cəlb etməyə çalışırdı. İtaliya kralı II Viktor Emmanuil Avstriya və Fransa ilə ittifaq bağlamağa hazır olduğunu bildirdi, eyni zamanda Fransa qoşunlarının Romadan çıxarılmasını tələb etdi. III Napoleon razılaşmadı və İtaliya ilə danışıqlar kəsildi. Fransa Avstriya ilə danışıqları davam etdirdi.

1870-ci ilin əvvəlində Avstriya hökuməti Fransaya Prussiyaya qarşı birgə hərbi əməliyyatların planını təqdim etdi və bildirdi ki, Avstriya qoşunlarının səfərbər edilib sərhədə yığılması 42 gün müddətində həyata keçiriləcək. Bu müddətdə Avstriya bitərəf qalmalı idi. Beləliklə, Fransa altı həftə müddətində Prussiyaya qarşı müharibəni təklikdə aparmalı idi.

1870-ci ilin iyulun 1-də qəzetlərdə belə bir məlumat çap olundu ki, İspaniyada kral taxtına əsas namizəd L.Ziqmaringerdir. O, Prussiya kralının qohumu idi. Fransa imperatoru Prussiya kralının qohumunun İspaniya kralı seçilməsinin əleyhinə idi. Fransa hökümətı eyni sülalənin həm Prussiyada, həm də İspaniyada ağalıq etməsinə razı deyildi, çünki ölkə üçün həm şərqdən, həm də qərbdən təhlükə yaranmasını istəmirdi.

Fransanın Berlindəki səfiri Beneditti Ems şəhərində istirahət edən Prussiya kralı I Vilhelmin yanına gəldi. I Vilhelm Benedittiyə bildirdi ki, L.Ziqmaringerə ispan taxtına əyləşməyi qadağan edə bilməz, lakin o heç zaman İspaniya kralının taxtına öz qohumunun namizədliyini təklif etməmişdir. I Vilhelm L.Ziqmaringerə xəbər göndərdi ki, İspaniya kralının taxtına iddiadan imtina etsin. L.Ziqmaringer bu xahişə əməl etdi.

Prussiya kralı L.Ziqmaringerin qərarı haqqında Parisə məlumat göndərdi. III Napoleona düşündü ki, Prussiya müharibəyə hazır deyil və Prussiyanın qarşısına yeni tələblər qoymaq qərarına gəldi. Parisdən iyulun 12-də Benedittiyə teleqram göndərdilər ki, yenə I Vilhelmlə görüşsün və ona bildirsin ki, Fransa heç vaxt L.Ziqmaringerin İspaniya taxtına namizədliyinə razı olmayacaq. İyulun 13-də Beneditti I Vilhelmlə görüşdü, kral ona bildirdi ki, məsələnin asan həllindən razı qalıb, lakin o öz üzərinə hər hansı bir öhdəlik götürmək fikrində deyildir. İyulun

13-də Beneditti yenidən I Vilhelmlə görüş tələb etdi ki, I Vilhelm yazılı təminat versin ki, L.Ziqmaringer heç vaxt ispan kralı olmayacaq. İyulun 14-də kral Emsdən Koblentsə gedərkən onlar vağzalda görüşdülər. Kral Fransanın səfirinə danışıqların Berlində davam etdirilməsini təklif etdi.

Prussiya kralı yanında olan müşavirə tapşırdı ki, O.Bismarka Fransa səfiri ilə danışıqlar haqqında teleqram göndərsin. O.Bismark əvvəldən bu danışıqları izləyirdi və görürdü ki, Paris müharibə istəyir, I Vilhelm isə güzəşt tərəfdarıdır. O.Bismark bu məsələdən iki dövlət arasında ziddiyyətləri kəskinləşdirmək üçün istifadə etmək qərarına gəldi. İyulun 13-də O.Bismark axşam hərbi nazirlə və baş qərargahın rəisi ilə nahar edərkən Emsdən göndərilən teleqramı ona təqdim etdilər. O.Bismark I Vilhelmin Benedittiyə güzəşt etməsindən narazı idi. O.Bismark əvvəlcə baş qərargahın rəisinə müraciət edib ordunun müharibəyə hazırlıq vəziyyəti ilə maraqlandı. Fon Moltke bildirdi ki, Prussiya ordusu Fransa qoşununu məğlub etməyə qadirdir, müharibə mümkün qədər tez başlasa yaxşı olar. Baş qərargahın rəisi hərbi nazirin söylədiklərini təsdiq edti. O.Bismark başqa otağa keçib teleqramı oxudu və bəzi cümlələri karandaşla teleqramdan pozdu. Teleqramın mətnindən belə çıxdı ki, kral öz adyutantı vasitəsilə Benedittiyə qapını göstərib, sonra teleqramı qonaqlarına oxudu. İyulun 14-də teleqram qəzetdə nəşr edildi.

1870-ci ilin iyulun 15-də Fransa hökuməti Qanunverici korpusda ordu üçün yeni kredit tələb etdi. Deputatlar Prussiyaya müharibə elan edilməsini bəyəndilər. O.Bismark işi elə qurdu ki, Fransa özünü təhqir olunmuş hesab edərək Prussiyaya qarşı müharibəyə başladı. Rusiya və İngiltərə bu müharibənin əleyhinə idi. O.Bismark 1867-ci ildə Fransanın Belçikanı tələb etməsi haqqında məktubunu qəzetdə nəşr etdirdi. Bu isə İngiltərənin narazılığına səbəb oldu. 19 iyul 1870-ci ildə Fransa Prussiyaya müharibə elan etdi.

Müharibənin əvvəlində qüvvə nisbəti Prussiyanın xeyrinə idi. Fransada hələ səfərbərlik başa çatmamışdı. Hərbi əməliyyatlara başlayan Prussiya ordusu avqustun 4-də Veysenburq döyüşündə, avqustun 6-da Vyört döyüşündə Fransa qoşunlarının cənub qrupunu və Şmixern döyüşündə şimal qrupunu

məğlub etdi və Fransa ordularının birləşməsinə imkan vermədi. Cənub qrupuna marşal Mak-Maqon, şimal qrupuna isə marşal Bazen başçılıq edirdi. Avqustun 18-də Bazenin ordusu Sen-Priv və Qravelot döyüşlərində məğlubiyyətə uğradı və Mets qalasında mühasirəyə düşdü. Marşal Mak-Maqon III Napoleonun əmri ilə Mets qalasının mühasirəsini ləğv etməli idi. Lakin bu plan həyata keçirilmədi, çünki Mak-Maqon və III Napoleon başçılıq etdikləri qoşunla birlikdə Sedan qalasında mühasirəyə alındı. Prussiya ordusu əsgərlərin sayına və döyüş qabiliyyətinə görə Fransa ordusundan üstün idi. Prussiya ordusunun qələbələri həm də onun bir cəbhədə müharibə aparması ilə bağlı idi.

Müharibə dövründə Fransa hökuməti Avstriya-Macarıstandan və İtaliyadan kömək almağa çalışırdı. Prussiya isə onların bitərəf qalmasını istəyirdi. Avstriya-Macarıstanın bitərəf qalması və ya müharibəyə qoşulması Rusiyanın mövqeindən əhəmiyyətli şəkildə asılı idi. Fransa imperatoru III Napoleonun siyasəti Rusiyanın Prussiyanı müdafiə etməsinə səbəb oldu.

XIX əsrin 60-cı illərində Fransa Şərqdə Rusiyanın mövqelərinin möhkəmlənməsinə qarşı mübarizə aparırdı. Rusiya Prussiyanın qüvvətlənməsini istəmirdi, eyni zamanda Rusiya üçün ağır şərtləri olan Paris sülhünün hazırlanmasında Fransanın rolunu yaddan çıxarmamışdı. 1863-cü il Polşa üsyanı dövründə Fransanın Polşa-Rusiya münasibətlərinə qarışması Rusiyanın yadında idi. Rusiya nəzərə aldı ki, müharibədə Prussiyanın məğlubiyyəti Avstriya-Macarıstanın nüfuzunun artmasına səbəb olacaq və Avstriya-Macarıstan Fransanın tərəfində müharibəyə qoşulacaq. Rusiya ehtiyat edirdi ki, Avstriya və Fransa Berlini işğal edib Polşanın müstəqilliyini bərpa etməyə çalışacaqlar, bu işdə Türkiyə də iştirak edəcək. Ona görə Rusiya Prussiyanın qələbəsində maraqlı idi. 1868-ci ildə II Aleksandr Prussiya kralına vəd etmişdi ki, Fransa-Prussiya müharibəsi zamanı Qalitsiya sərhədinə qoşun yığacaq ki, Avstriya Fransaya kömək etməsin. Müharibə dövründə Rusiya vədinə əməl etmiş və bildirmişdi ki, Avstriya müharibəyə qoşulsa o Prussiyaya hərbi yardım göstərəcək. 23 iyul 1870-ci ildə Rusiya Fransa-Prussiya müharibəsində bitərəf olduğunu bildirmişdi.

Avstriya-Macarıstanın Fransa tərəfində müharibəyə qoşulması mümkün idi. Avstriya-Macarıstan 1866-cı ildəki məğlubiyyəti ilə barışmırdı və Prussiyaya qarşı müharibədə maraqlı idi. Fransa bunu bilirdi və Avstriyaya ittifaq müqaviləsi imzalamağı təklif etmişdi. Rusiya çalışırdı ki, Avstriya-Macarıstan müharibəyə qoşulmasın. O.Bismark isə bütün vasitələrlə Avstriya ilə Rusiya arasında ziddiyyətləri kəskinləşməsinə çalışır, deyirdi ki, Avstriya Polşanı işğal etmək istəyir. Fransa ordusu Sedan qalasında məğlub ediləndən sonra Avstriya-Macarıstan müharibəyə qoşulmaqdan imtina etdi.

İtaliya kralı II Viktor Emmanuil əvvəlcə Fransa ilə ittifaqa meylli idi. III Napoleon ölkə daxilində ruhanilərin hisslərinə toxunmamaq üçün Roma papasının dünyəvi hakimiyyətinin ləğvi ilə razılaşmırdı. Digər tərəfdən, yalnız Romanın qatılmasından sonra İtaliyanın birləşdirilməsi başa çata bilərdi. İtaliyanın Fransadan maliyyə asılılığı böyük idi. Müharibə başlanandan sonra Fransa, Avstriya və İtaliya arasında ittifaq yaratmaq haqqında danışıqlar kəsildi. Lakin Sedan məğlubiyyətindən sonra İtaliya Fransaya kömək etmək niyyətindən əl çəkdi. 1870-ci ilin sentyabrın 20-də İtaliya ordusu Romaya daxil oldu. Roma papasının dünyəvi hakimiyyətinə son qoyuldu və İtaliyanın birləşdirilməsi başa çatdı.

Fransanın həddindən artıq zəifləməsini istəməyən Rusiya müharibənin tez qurtarmasına çalışırdı. Rusiya Prussiyanın qısa müddətdə Fransanı məğlub edəcəyinə inanmırdı. Prussiyanın qüvvətlənməsi Rusiyaya sərf etmirdi. II Aleksandr Prussiya kralından xahiş etmişdi ki, Fransanın qarşısına ağır şərtlər qoymasın. Prussiya kralı isə cavab vermişdi ki, işğal planlarından imtina etməyəcək. Sedan məğlubiyyətindən sonra Fransanın Peterburqdakı səfiri çalışırdı ki, Rusiya Fransaya diplomatik yardımı artırsın.

4 sentyabr 1870-ci il inqilabından sonra Fransa respublika elan olundu və ölkəni idarə etmək üçün müvəqqəti hökumət yaradıldı. Rusiya yeni Fransa hökumətinə Prussiya ilə mümkün qədər tez sülh müqaviləsi imzalamağı tövsiyyə etdi. Rusiya bildirdi ki, Prussiyaya təzyiq göstərəcək və beynəlxalq konqres çağrılsa orada Fransanı müdafiə edəcək.

İngiltərə müharibəyə qarışmaq fikrində deyildi. İngiltərənin müraciətinə cavab olaraq həm Fransa, həm də Prussiya Belçikanın bitərəfliyinə təminat vermişdi. Fransa dünyada ikinci dəniz və müstəmləkə dövləti idi və İngiltərə onun zəifləməsinə çalışırdı. 1869-cu ildə istifadəyə verilmiş Süveyş kanalına Fransanın nəzarət etməsi İngiltərəni narahat edirdi. Çünki bu Avropadan Hindistana daha qısa dəniz yolu idi.

1870-ci ilin sentyabrın 2-də Sedan qalası təslim oldu, sonra Prussiya qoşunlarının bir hissəsi Parisə doğru hərəkət etdi. Prussiya ordusunun digər hissəsi Mets qalasında Fransa marşalı Bazenin qoşunlarını mühasirəyə almışdı. 1870-ci ilin sentyabrın 19-da Paris mühasirəyə alındı. Fransa hökumətinin nazirlərindən biri olan Qambetta oktyabr ayında Tur şəhərində yeni qoşun hissələrinin təşkili ilə məşğul idi və tədricən Prussiya ordusunun vəziyyəti çətinləşirdi.

Prussiyanın kansleri O.Bismark xarici dövlətlərin müdaxiləsindən, xüsusilə Rusiyadan ehtiyat edirdi. Ona görə O.Bismark ordunun rəhbərliyindən Parisi tezliklə ələ keçirməyi tələb etmişdi. Bu dövrdə Fransa hökuməti Tyeri Avropa ölkələrinə göndərmişdi ki, onlar Prussiya ilə Fransa arasında sülh bağlanmasında vasitəçilik etsinlər. İngiltərə, Avstriya və İtaliya Fransaya heç bir kömək vəd etmədi, yalnız Rusiya kömək etməyə razılıq verdi. Parisə qayıdandan sonra Tyer Versalda Prussiya nümayəndələri ilə danışıqlara başladı. Fransa hökuməti sülh müqaviləsi bağlamağa tələsirdi ki, bütün diqqətini və qüvvəsini ölkədə inqilabi hərakata qarşı yönəltsin.

Fransa əhalisi işğalçılara qarşı mübarizənin davam etdirilməsini tələb edirdi. Tyerin O.Bismarkla danışıqlar aparması haqqında xəbər 1870-ci ilin 31 oktyabrında Parisdə üsyana səbəb oldu. Xalqın tələbi ilə hökumət Prussiyanın sülh şərtlərini rədd etdi. 1870-ci ilin oktyabrın 27-də marşal Bazen Mets qalasında təslim oldu və yenə Fransanın vəziyyəti pisləşdi. 28 yanvar 1871-ci ildə Fransa ilə Prussiya arasında barışıq imzalandı.

Rusiya yaranmış şəraitdən Qara dənizdə öz hüquqlarını bərpa etmək üçün istifadə etdi. 1870-ci ilin sentyabrında növbəti dəfə O.Bismark Paris sülhünün şərtlərinin ləğv olunmasında Rusiyaya kömək edəcəyini bildirmişdi. Müharibədə Fransanın məğlu-

biyyəti Paris müqaviləsini ləğv etmək üçün əlverişli şərait yaratdı. 1870-ci ilin oktyabrın 31-də Rusiya hökumətinin Paris müqaviləsini imzalamış ölkələrin hökumətlərinə göndərdiyi məktubda deyilirdi ki, həmin müqaviləyə digər dövlətlər kimi Rusiya da daha əməl etməyəcək. Rusiya hökumətinin bəyanatı İngiltərə və Avstriya-Macarıstanın narazılığına səbəb oldu. Prussiya və İngiltərə Paris müqaviləsinin birtərəfli qaydada ləğv olunmasını müzakirə etmək üçün beynəlxalq konfrans çağırmağı təklif etdilər.

1871-ci ilin yanvarında Londonda keçirilən konfransda Paris müqaviləsinin Rusiyanın Qara dənizdə hüquqlarını məhdudlaşdıran maddələri ləğv edildi. London konfransında Qara dəniz boğazlarının rejimi məsələsi də müzakirə olundu və boğazların hərbi gəmilər üçün bağlı olması prinsipi təsdiq edildi, lakin Türkiyə sultanın razılığı ilə «dost və müttəfiq» ölkələrin hərbi gəmiləri boğazlardan keçə bilərdi. 13 mart 1871-ci ildə imzalanmış yeni konvensiya birinci dünya müharibəsinədək Qara dəniz boğazlarının rejimini tənzimləmişdi.

1871-ci ilin yanvarın 18-də Versalda Almaniya imperiyasının yaradılması elan olundu. 26 fevral 1871-ci ildə Versalda ilkin sülh müqaviləsi imzalandı. Müqaviləyə görə Almaniya Elzası, Şərqi Lotaringiyanı və 5 milyard frank təzminat almalı idi. O.Bismark əvvəlcə 7 milyard frank tələb etmişdi, sonra Rusiyanın xahişi ilə 5 milyardla razılaşdı. Təzminat ödənilənə qədər alman qoşunları Şərqi Fransada qalmalı idi.

Paris kommunası dövründə O.Bismark bir tərəfdən inqilabın qarşısını almaqda Fransa hökumətinə kömək edirdi, digər tərəfdən Fransa hökumətinə təzyiq göstərmək üçün Kommuna rəhbərliyi ilə danışıqlar aparırdı. O.Bismarkın məqsədi Fransanı əlavə güzəştlərə məcbur etmək idi. Danışıqlar əvvəl Brüsseldə, sonra isə Frankfurtda aparılmışdı. 10 may 1871-ci ildə Frankfutda Fransa ilə Almaniya arasında sülh müqaviləsi imzalandı. Fransa Elzas və Lotaringiyanı Almaniyaya verməli və 5 milyard frank təzminat ödəməli idi. Müharibədə qələbədən Almaniya Avropada öz mövqelərini möhkəmləndirmək üçün istifadə edirdi.

## § 4. ABŞ-da vətəndaş müharibəsi və Avropa dövlətləri. Meksikaya hərbi müdaxilə

1861-ci ildə ABŞ-da Şimalla Cənub arasında vətəndaş müharibəsi başlandı. Tərəflər müharibə dövründə həm də diplomatiyanın imkanlarından istifadə etməyə çalışırdılar. İngiltərə və Fransa ABŞ-dakı hadisələri diqqətlə izləyirdi. Cənub ştatları ümid edirdi ki, İngiltərə və Fransa bu müharibəyə qoşulacaq və Cənub onların köməyi ilə müharibədə qalib gələcək.

Müharibə ABŞ-la İngiltərə arasında ticarət-sənaye rəqabətinin kəskinləşməsinə səbəb oldu. Bu zaman ABŞ artıq ticarət donanmasının həcminə görə İngiltərəyə çatmış, dənizdə yükdaşımaların həcminə görə dünyada ikinci yerə çıxmışdı. 1861-ci ildə ABŞ-dakı vətəndaş müharibəsinə münasibətdə bitərəfliyini bildirən İngiltərə cənub ştatlarını müdafiə edir və Konfederasiyanın tərəfində müharibəyə qoşulmağa hazırlaşırdı.

Fransa yaranmış şəraitdən istifadə edib Amerikada mövqelərini möhkəmləndirməyə çalışırdı. III Napoleon Şimalla Cənub arasındakı münaqişənin həllində öz vasitəçiliyini təklif etdi. Lakin ABŞ hökuməti bu təklifi qəbul etmədi. 1863-cü ildə ABŞ konqresinin qəbul etdiyi qətnamədə deyilirdi ki, baş verən hadisələr daxili qiyamdır, beynəlxalq məsələ deyildir, ona görə xarici müdaxilə haqqında təkliflər əsassızdır və qəbul edilə bilməz.

İngiltərə və Fransa gözləyirdilər ki, Cənubun qoşunu Şimalın ordusuna güclü zərbə vursun, sonra birlikdə hadisələrə müdaxilə etsinlər. 1862-ci ildə Şimalın ordusu bir neçə məğlubiyyətə uğradı. 1862-ci ilin aprelində III Napoleonla söhbətində Cənubun nümayəndələrindən biri xahiş etmişdi ki, Fransa Konfederasiyanı tanısın. III Napoleon Konfederasiyanı tanımağa meylli idi, lakin bildirdi ki, okeanda aparılan müharibədə yalnız İngiltərə öz güclü donanması ilə Fransaya kömək edə bilər, yəni o İngiltərədən sonra Konfederasiyanı tanıya bilər. Cənubun nümayəndəsi Slaydel Fransa imperatoruna təklif etdi ki, İspaniya, Avstriya, Prussiya, Belçika, Hollandiya, İsveç və Danimarka ilə birlikdə ABŞ-a qarşı çıxış etsinlər. O, III Napoleonu inandırmağa çalışırdı ki, Fransa Konfederasiyanı tanısa

ABŞ ona qarşı müharibəyə başlamayacaq, çünki daxili vəziyyətlə əlaqədar belə imkanı yoxdur.

Lakin III Napoleon təklifi qəbul etmədi və yalnız Cənub üçün Fransada bir neçə gəmi inşa etdirməyə söz verdi. ABŞ-da vətəndaş müharibəsi Fransanın İngiltərə ilə ticarətinin genişlənməsinə səbəb olmuş, hökumət idxal gömrüyünü azaltmışdı. 1862-ci ilin iyulunda III Napoleon Fransanın Londondakı səfirinə teleqram göndərdi. Səfir İngiltərə hökumətinin Cənubu tanımaq məsələsinə münasibətini öyrənməli idi.

İngiltərə hökuməti Fransanın təklifini qəbul etmədi. Avropa ictimaiyyətinin Şimala rəğbətinin artması İngiltərə və Fransanın ABŞ-dakı hadisələrə geniş müdaxiləsinə mane oldu. 1862-ci ilin oktyabrın 31-də Parisdəki İngiltərə və Rusiya səfirlərinə Fransa hökumətinin Cənubu birlikdə müdafiə etmək haqqında layihəsi təqdim olundu. Layihədə müharibə edən tərəflərə altı aylıq barışıq imzalamaq, mühasirəni götürmək və Avropa ticarəti üçün Amerika limanlarını açmaq təklif edilmişdi.

Rusiya hökuməti Fransanın təklifini qəbul etmədi. Çünki, Qərb dövlətləri ilə birlikdə ABŞ-dakı hadisələrə müdaxilə etmək fikrində deyildi. Krım müharibəsi dövründə İngiltərə və Fransanın fəaliyyəti Rusiyanın yadında idi. Ona görə Rusiya ABŞ-la normal münasibətlər saxlamağa çalışırdı. Rusiya nəzərə aldı ki, Krım müharibəsi dövründə ABŞ öz bitərəfliyini elan etmiş və Rusiya hökumətinə İngiltərə və Fransanın onun Uzaq Şərqdəki limanlarına hücuma hazırlaşması haqqında məlumat vermişdi. Rusiya 1863-cü il Polşa üsyanı zamanı İngiltərə və Fransanın mövqeyini nəzərə aldı. 1863-cü ilin yayına qədər Şimal ordusunun Cənubun qoşunları üzərində bir neçə qələbəsindən sonra İngiltərə və Fransanın müdaxiləsi ümumiyyətlə gündəlikdən çıxarıldı. 1863-cü ildə Rusiyanın ABŞ-ın San-Fransisko və Nyuyork limanlarına iki eskadra göndərməsi də İngiltərə və Fransanın ABŞ hadisələrinə qarışmasına mane olmuşdu.

III Napoleon ABŞ-dakı vətəndaş müharibəsindən istifadə edib Meksikanı Fransanın müstəmləkəsinə çevirmək planını həyata keçirtməyə başladı. Meksikadan sonra Fransa Latın Amerikasının digər ölkələrini özündən asılı vəziyyətə salmaq

fikrində idi. Hərbi müdaxilənin əsas təşəbbüskarı Fransanın iri burjuaziyası idi.

Meksikanın ərazisi və zəngin təbii sərvətləri Fransanın diqqətini çoxdan cəlb edirdi. 60-cı illərin əvvəlində Meksikada milli-azadlıq hərakatı genişlənmişdi. Meksika inqilabı nəticəsində Fransa bankirləri həmin ölkənin iqtisadiyyatına qoyduqları kapitalı itirməkdən qorxurdular.

31 oktyabr 1861-ci ildə İngiltərə, Fransa və İspaniya Meksikaya qarşı hərbi müdaxilə haqqında saziş imzaladılar. Meksikanın daxili vəziyyəti müdaxiləni asanlaşdırmışdı. Meksikada vətəndaş müharibəsi davam edir, hakimiyyətini itirənlər xaricdən kömək istəyirdilər. Meksika hökuməti iqtisadi vəziyyətlə əlaqədar xarici borcların ödənilməsini dayandırmışdı. Ancaq danışıqlar zamanı Meksika hökuməti Avropa dövlətlərinin borclarını qaytarmağı vəd etdi. 1861-ci ilin dekabrında ispan qoşunu Verakrus limanına gəldi, 1862-ci ilin yanvarında İngiltərə və Fransa qoşunu da onlara qoşuldu.

ABŞ hökuməti Avropa dövlətlərinin Meksikaya qarşı müdaxiləsinə kəskin etiraz etdi. Eyni zamanda ABŞ-dakı vətəndaş müharibəsi Avropa dövlətlərinin müdaxiləsi üçün şərait yaratmışdı. Avropa dövlətlərinin Meksikaya müdaxiləsi «Monro doktrinası»nın pozulmasına yönəlsə də ABŞ hökuməti bu müdaxiləyə ciddi müqavimət göstərə bilmirdi. İngiltərə Meksikaya qarşı müdaxilədə maraqlı idi, çünki o da ABŞ-dakı vətəndaş müharibəsində Cənubun qələbəsinə tərəfdar idi.

1860-cı ildə Meksika üsyançılarının başçısı Miramon Paris bankiri Cekkerdən kredit almışdı, Cekker isə III Napoleonla yaxın olan Morni ilə şərik idi. Miramona ispan və ingilis bankirləri də kredit vermişdilər. Meksika prezidenti B.Xuares üsyanı yatırdıqdan sonra bu borcu qaytarmaqdan imtina etmiş, sonra isə az bir hissəsini qaytarmışdı. III Napoleonun təklifi ilə Fransa, İngiltərə və İspaniya gəmiləri Meksika sahillərini mühasirəyə almışdı. Üç dövlətin birgə fəaliyyəti çox davam etmədi. İngiltərənin baş naziri Palmerston eşitdi ki, III Napoleon Avstriya imperatoru Frans-İosifin qardaşı Maksimilianla danışıq aparır və qüdrətli Meksika klerikallarının köməyi ilə onu Meksika taxtına əyləşdirmək istəyir. Fransa Meksikadan dayaq məntəqə-

si kimi istifadə edib Cənubi Amerikada «Latın imperiyası» yaratmaq fikrində idi. İngiltərə və İspaniya isə Latın Amerikasında Fransanın mövqeyinin güclənməsinin əleyhinə idi. Ona görə də 1862-ci ilin fevralında İngiltərə və İspaniya Meksika hökuməti ilə onun borclarının ödənilməsinin təxirə salınması haqqında saziş imzaladılar və öz qoşunlarını Meksikadan çıxartdılar.

III Napoleonun daha İngiltərə və Fransanın köməyinə ehtiyacı yox idi. 1862-ci ilin mayın 5-də Fransa qoşunu Pueblu şəhərini tuta bilmədi. Fransadan Meksikaya yeni qüvvələr göndərildi, fransızlar marşal Forenin başçılığı ilə iyunun 10-da Mexikoya daxil oldular. Meksika prezidenti B.Xuares ölkənin ucqar əyalətlərindən birinə getdi. Meksika respublikası ləğv edildi və 1862-ci ilin iyulun 10-da Meksika parlamenti Maksimilianı imperator elan etdi.

Meksikada işğalçılara qarşı partizan müharibəsi başlandı. Müharibə uzandı və 1863-cü ildən III Napoleonun Meksikaya marağı azaldı. Çünki hərbi müdaxilənin xərcləri getdikcə artırdı. Fransa eyni zamanda ABŞ-la münasibətlərin tamamilə kəskinləşməsini istəmirdi. Fransa hətta Roma papasından kömək istəmişdi. 1867-ci ildə ABŞ-ın tələbi ilə Fransa öz qoşunlarını Meksikadan çıxardı və orada Maksimilianın hakimiyyətinə son qoyuldu. Fransada ikinci imperiyanın mövqeyi zəiflədi və Meksikaya müdaxilənin boşa çıxması burjuaziyanın hökumətin siyasətindən narazılığını artırdı. III Napoleonun Amerikada müstəmləkə imperiyası yaratmaq planları baş tutmadı.

## § 5. XIX əsrin 50-60-cı illərində Uzaq Şərqdə beynəlxalq münasibətlər

Qərb dövlətləri 1842-1844-cü illərdə Çinlə bağlanmış qeyri-bərabər hüquqlu müqavilələrlə kifayətlənmirdilər. Onlar gömrük tariflərinə əməl etmir, gizli tiryək ticarətini genişləndirir, bu işdə Çin məmurlarının köməyindən istifadə edirdilər. Tiryək ticarətində Honkonqdan geniş istifadə olunurdu. Xarici tacirlər gömrüyün azaldılmasını və onları Quançjouya buraxma-



ğı tələb edirdilər. Çin hökuməti xarici tacirləri Quançjouya buraxmırdı. Müstəmləkəçilər Çin hökumətinə qarşı hədə və qüvvədən istifadə edirdilər. Onlar tələb edirdilər ki, Yantszı çayı və Böyük kanal xarici ticarət üçün açılsın. İngiltərə Çinə qarşı yeni müharibəyə hazırlaşırdı.

1853-cü ildə İngiltərə rəsmi şəkildə 1842-ci il müqaviləsinə yenidən baxmağı tələb etdi. ABŞ və Fransa hökumətləri İngiltərənin tələbini müdafiə etdilər. Çin hökuməti rədd cavabı verdi. Krım müharibəsi ilə əlaqədar İngiltərə və Fransanın Çinə qarşı müharibəyə başlamaq imkanı məhdud idi.

Qərb dövlətləri Çinlə yanaşı Cənub-Şərqi Asiya ölkələrini də işğal etmək istəyirdilər. Hindistanın işğalından sonra İngiltərə öz diqqətini Birmaya yönəltmişdi. Birma öz müstəqilliyini müdafiə edirdi və İngiltərə ilə ticarətin əleyhinə idi. Birma hökuməti onun limanlarına gələn ingilis gəmilərinin kapitanlarını həbs və cərimə edirdi. Ona görə Ost-Hind şirkəti Cənubi Birmaya hücumlar təşkil edirdi. 1852-ci ildə şirkətin qoşunu Ranqunu və Pequnu tutmuşdu. Birmada müstəmləkəçilərə qarşı partizan hərakatı başlanmışdı.

Birma ilə kifayətlənməyən Britaniya müstəmləkəçiləri həm də Tailanda hücum edirdilər. 1855-ci ilin aprelində Tailandla İngiltərə arasında qeyri-bərabərhüquqlu müqavilə bağlandı. Bu dövrdə Fransa Cənubi Vyetnamı işğal etməyə hazırlaşır, Birma və Tailandda İngiltərənin hərəkətlərini diqqətlə izləyirdi. 1855-ci ilin avqustunda Fransa Tailandla qeyri-bərabərhüquqlu müqavilə imzaladı, lakin Vyetnam hökuməti ilə belə müqavilə bağlaya bilmədi.

Avropa dövlətlərinin müstəmləkə siyasətində Çin mühüm yer tuturdu. XIX əsrin 50-ci illərinin əvvəlində həm də Taypin üsyanı nəticəsində Çində vəziyyət ağır idi. Xarici kapitalın müdaxiləsi və Çinin əsarət altına düşməsi bir tərəfdən feodalizmin böhranını dərinləşdirir, digər tərəfdən kəndli üsyanlarına təkan verirdi. Tiryək gətirilməsi ölkədən gümüş aparılmasını sürətləndirdi. Ona görə Çin hökuməti kəndli və sənətkarlardan alınan vergini artırmışdı.

İngiltərə, Fransa və ABŞ-ın nümayəndələri əvvəlcə Taypin üsyanından öz məqsədləri üçün istifadə etmək istəyirdilər.

Nankinə gəlib taypinlərlə danışıq aparan Qərb nümayəndələri tələb edirdilər ki, bütün ölkə xarici ticarət və missionerlər üçün açılsın, lakin müstəqillik tərəfdarı olan taypinlər bu tələbləri qəbul etmədilər. 1854-cü ildə İngiltərə və Fransa dəniz piyadalarının Şanxay yaxınlığında üsyançılarla toqquşması olmuşdu. 1854-cü ildə İngiltərə, Fransa və ABŞ konsulları Şanxay hakimi ilə orada dəniz gömrüyü üzrə xarici müfəttişliyinin təşkili haqqında saziş imzaladılar.

Rusiyanın Krım müharibəsində məğlubiyyəti İngiltərə və Fransanın Çinə qarşı yeni müharibəsinə şərait yaratdı. İngiltərə hökuməti Çinə tiryək gətirilməsinin rəsmiləşdirilməsinə və yeni ticarət güzəştləri əldə etməyə çalışırdı. İngiltərə Çini həm də siyasi cəhətdən özünə tabe etməyə çalışırdı.

Fransa Çinlə ticarəti genişləndirmək, Vyetnam və Çin sahillərində dəniz bazaları ələ keçirtmək və Çinə qarşı İngiltərə ilə birlikdə hərəkət etmək fikrində idi. Bu halda İngiltərə Fransanın Vyetnamdakı işğallarına mane ola bilməzdi. Çünki Çinə qarşı müharibədə İngiltərənin Fransa qoşunlarına ehtiyacı böyük idi.

1856-cı ilin dekabrında İngiltərə ilə Fransa arasında Çinə qarşı birgə fəaliyyət haqqında saziş imzalandı. İngiltərə Çinlə bağlanmış əvvəlki müqavilələrə yenidən baxılmasına nail olmaq və Yaponiya ilə yeni müqavilə imzalamaq fikrində idi. Honkonqun qubernatoru Bourinq İngiltərə bayrağı altında üzən «Errou» gəmisində olan İngiltərə vətəndaşlarının və dəniz quldurlarının həbsi ilə əlaqədar Çin hakim dairələri ilə münaqişə törətdi. Gəmi Çjutszyan çayında saxlanmışdı. Bourinq bildirdi ki, Çin hakim dairələri ingilis bayrağını təhqir ediblər. İngiltərə eskadrası 1856-cı ilin oktyabrında Kantonu bombalamışdı, 1857-ci ildə isə İngiltərə və Fransa donanmasının köməyi ilə Kanton işğal edilmişdi.

Hindistanda baş verən üsyan İngiltərəni öz qoşunlarının bir hissəsini oraya göndərməyə məcbur etdi. Çində işğalçılara qarşı güclü partizan hərakatı başlanmışdı. İngiltərə Fransanın planları ilə razı deyildi, Çindəki ABŞ və Rusiya nümayəndələrinə də inanmırdı.

İkinci tiryək müharibəsi dövründə danışıqlar yolu ilə Amur çayının sol sahilinin Rusiyaya qaytarılması məsələsi həll olundu. İngiltərə bu işə mane olmağa çalışırdı. İngiltərə Fransa və ABŞ-a təklif etmişdi ki, Çini Rusiyadan qorumaq üçün bütün Amurda gəmiçiliyi təşkil etsinlər. Qərb dövlətlərinin məqsədi Çinin diqqətini şimala yönəltmək, onun Rusiya ilə münasibətlərini pozmaq idi. Rusiyanın nüfuzuna zərbə vurmaq üçün Fransa 1856-cı il Paris sülhünün bir surətini Çin hökumətinə göndərmişdi.

İkinci tiryək müharibəsi və Taypinlər üsyanı ilə əlaqədar Çin hökuməti Rusiya ilə münasibətləri diplomatik yolla tənzimləmək fikrində idi. Çin hökuməti Rusiyadan İngiltərə və Fransaya qarşı istifadə etmək fikrində idi. 1858-ci ilin mayında imzalanmış Ayqun müqaviləsi ilə Çin Amurun sol sahilinin Rusiyaya məxsus olduğunu təsdiq etdi. Ussuri çayından dənizə qədərki ərazilər isə Rusiya və Çin tərəfindən birgə idarə olunmalı idi. İngiltərə, Fransa və ABŞ gəmiləri Amur, Sunqari və Ussuri çaylarına gələ bilməzdi, bu çaylarda yalnız Rusiya və Çin gəmiləri üzə bilərdi.

Çin hökuməti həm də İngiltərə və Fransa ilə danışıqlar aparırdı. Çin ehtiyat edirdi ki, Qərb dövlətlərinə yeni güzəştlər bütün ölkəyə onun zəifliyini nümayiş etdirəcək. Bir tərəfdən Çin hökuməti müharibəni tez qurtarmaq istəyirdi ki, taypinlərə qarşı geniş fəaliyyət imkanı əldə etsin, digər tərəfdən isə yeni güzəştlərlə nüfuzunu itirməkdən qorxurdu. Çin hökuməti Qərb dövlətləri arasındakı ziddiyyətlərdən istifadə etməyə çalışırdı və güzəştə getməyə tələsmirdi.

1858-ci ilin yazında İngiltərə və Fransa gəmiləri Tyantszinə yaxınlaşdılar. Oraya həm İngiltərə və Fransa, həm də ABŞ və Rusiya səfirləri gəldilər. Çin hökuməti İngiltərə və Fransaya yeni ticarət güzəştlərinə razılıq verdi, amma onların Pekinə daimi nümayəndə göndərməsini istəmirdi. Çin hökuməti bilirdi ki, Rusiya və ABŞ da bunun əleyhinədir.

Çin hökuməti çalışırdı ki, xarici nümayəndələrlə təklikdə danışıq aparsın və xarici dövlətlər arasındakı ziddiyyətlərdən istifadə etsin. Rusiya Qərb dövlətlərinin Çində mövqelərinin güclənməsində maraqlı deyildi, çünki Qərb dövlətlərinin onun

Çinlə münasibətlərini pozmasından və Uzaq Şərqdə onun vəziyyətini çətinləşdirməsindən ehtiyat edirdi.

Rusiya Taypin üsyanını Çinin daxili işi hesab edirdi və Çin hökumətinə məsləhət gördü ki, İngiltərə səfirini Pekinə buraxmasın. Rusiya Çinə silah və hərbi təlimatçılar göndərməyə hazır idi. Rusiya Çinə tövsiyyə etdi ki, taypinlərə qarşı İngiltərə və Fransadan silahlı yardım xahiş etməsin. 1858-ci ilin iyununda Rusiya ilə Çin arasında imzalanmış Tyantszin müqaviləsinə görə Rusiyanın səfiri müvəqqəti Pekinə gələ və rus tacirləri açıq limanlarda ticarət edə bilərdi.

Müharibə zamanı ABŞ bitərəf mövqe tutmuşdu, əslində isə İngiltərə və Fransanı müdafiə edirdi. ABŞ onların hərəkətlərini ədalətli sayırdı.

1858-ci ilin iyununda Tyantszində İngiltərə və Fransa Çinlə müqavilə imzaladılar. Müqaviləyə əsasən İngiltərə və Fransa səfiri Pekində daimi yerləşməli idi. Yantszı çayında bir sıra limanlar xarici ticarət üçün açıldı. Gömrük gətirilən məhsulların dəyərinin 5%-i həcmində müəyyən və rəsmi sənədlərdə xariciləri vəhşilər adlandırmaq qadağan edildi.

İngiltərə və Fransa İkinci tiryək müharibəsinin yekunlarından razı deyildi. İngiltərə Çin hökumətini qorxutmaq üçün bəzən taypinlərlə danışıq aparmaq istədiyini deyirdi. Lakin taypinlər tiryək ticarətinin əleyhinə idi. 1858-ci ilin noyabrında ingilis hərbi gəmiləri Pukou və Antsində taypinlərin mövqelərini atəşə tutdu.

İngiltərə və Fransa səfirləri Pekinə qısa yolla və böyük hərbi donanmanın müşayəti ilə gəlmək istəyirdilər. Lakin Çin bununla razılaşmadı. Onda İngiltərə və Fransa qoşunları 180 topu olan 18 gəmidə Bayxe çayı ilə Pekinə tərəf irəlilədilər. 1859-cu ilin iyunun 15-də Daqu yaxınlığındakı Çin istehkamlarından onlara atəş açıldı. İngiltərə 3 gəmi və 464 nəfər adam itirdi.

İngiltərə və Fransa Çinə yeni hərbi qüvvə göndərmək qərarına gəldilər. 1859-cu ilin sentyabrından 1860-cı ilin martına qədər Parisdə Çinə qarşı yeni müharibə ilə bağlı İngiltərə-Fransa danışıqları aparıldı. İngiltərə Çindəki qoşunlarının sayını 19 minə çatdırmaq istəyirdi. Fransa isə Çinə 7,5 min əsgər göndə-



rə bilərdi. III Napoleon təklif etdi ki, qələbədən sonra Çindən 100 milyon funt sterlinq təzminat tələb etsinlər. İngiltərə bilirdi ki, Çin hökumətinin belə imkanı yoxdur və onda Fransa Çin limanlarından birini girov kimi ələ keçirər, təzminatın miqdarının azaldılmasını təklif etdi. Həmin dövrdə Fransa həm də əsas qüvvələri ilə Cənubi Vyetnamı işğal etmək fikrində idi.

Müttəfiqlər Çin hökumətinə ultimatum göndərdilər ki, Daqu hadisəsinə görə üzr istəsin, 60 milyon frank təzminat versin, Bayxe çayında sərbəst gəmiçiliyə icazə versin və Tyantszin müqavilələrinin Pekində təsdiq fərmanları mübadilə edilsin. Bu ultimatum Çin hökumətinə 1860-cı ilin martında təqdim olundu. İngiltərə ustəlik Tszyu Lun adasını da tələb edirdi. Çin hökuməti bu tələbləri rədd etdi və bildirdi ki, Fransa Daqu hadisəsi üçün məsuliyyət daşımır.

Çin hökumətinin cavabı müttəfiqlərə ABŞ səfiri vasitəsilə çatdırıldı. Notada təklif olunurdu ki, Tyantszin müqavilələrinin təsdiq fərmanları Şanxayda mübadilə edilsin və müqavilələrdən xarici səfirlərin Pekində daimi yerləşməsi tələbi çıxarılsın.

Apreldə müttəfiqlər hərbi əməliyyatları bərpa etdilər. Müttəfiqlər əvvəl Dinxayı, 1860-cı ilin avqustunda Tyantszini tutdular. Çin hökuməti danışıqları davam etdirməyə razı oldu.

1860-cı ilin sentyabrında ingilis və fransız qoşunları Quançjouya yaxınlaşdılar. Çin hökuməti hərbi əməliyyatları dayandırmağı və əvvəlki müqavilələrin təsdiq fərmanlarının Pekində mübadilə edilməsini təklif etdi. Müttəfiqlər bildirdilər ki, Çin imperatoru etimadnamələri almaq üçün onların elçilərini qəbul etməlidir.

Fransa qoşunu barışığı pozub hərbi əməliyyatlara başladı. Onda müttəfiqlərin bütün nümayəndələri Çin ordusu tərəfindən əsir götürüldü. Bu yolla Çin hökuməti müttəfiqləri güzəştə məcbur etmək istəyirdi. 1860-cı ilin sentyabrın 22-də Çin qoşunları Pekin yaxınlığında məğlub edildi. Çin hökuməti danışıqlara başlamağı təklif etdi. Müttəfiqlər tələb etdilər ki, əsirlər qaytarılsın. Çin tərəfi bildirdi ki, əgər müttəfiqlər Pekinə hücum etsə əsirlər öldürüləcək və hələ Çin hökumətinin müqavimət imkanları böyükdür.

Əslində Çin hökuməti taypinlərdən daha çox qorxurdu və avropalılarla yeni sövdələşmədə maraqlı idi ki, öz vəziyyətini yaxşılaşdırsın. Müttəfiqlər Çin hökuməti ilə əlverişli razılaşmanı onun devrilməsindən üstün tuturdular. Çünki Tsin sülaləsi devriləndən sonra ölkədə xarici işğalçılara qarşı azadlıq mübarizəsindən qorxurdular. 1860-cı ilin sentyabrın 28-də İngiltərənin nümayəndəsi səfirlərin öz etimadnamələrini şəxsən imperatora təqdim etməməsi şərti ilə razılaşdı. Lakin o əsirlərin qaytarılmasını və xarici səfirlərin Pekində daimi yerləşməsinə razılıq verilməsini tələb etdi. Saziş əldə olunmadı və müttəfiq qoşunları Pekinə tərəf hərəkət edərək Çin imperatorlarının paytaxt yaxınlığındakı yay iqamətgahını dağıtdılar. Bundan sonra İngiltərənin nümayəndəsi Çin hökümətini Pekindəki imperator sarayını dağıtmaqla və dəniz sahili ilə ölkənin cənubundan şimalına düyü aparılmasına mane olmaqla hədələdi. İngilis-fransız qoşunları Pekinə hücuma hazırlaşırdı. Çin imperatoru Jexeyə qaçdı. Fransa, Rusiya və ABŞ da Tsin sülaləsinin devrilməsində maraqlı deyildi.

1860-cı ilin oktyabrında Çin imperatorunun səlahiyyətli nümayəndəsinin göstərişi ilə əsirlər qaytarıldı, amma onlardan 3 nəfəri öldürülmüşdü. 17 oktyabrda müttəfiqlər edam edilənlər üçün pul kompensasiyası tələb etdilər, 3 gündən sonra Çin hökuməti müttəfiqlərin tələblərinə razı olduğunu bildirdi. Oktyabrın 22-də Çin hökuməti müttəfiqlərə 500 min lyan (1 milyon manat) gümüş təzminat verdi. Oktyabrın 24-də İngiltərə ilə Çin arasında, oktyabrın 25-də Çinlə Fransa arasında Pekində müqavilə imzalandı, oktyabrın 26-da isə Tyantszin müqavilələrinin təsdiq fərmanlarının mübadiləsi oldu.

Pekin müqaviləsinə əsasən Çin hökuməti İngiltərə və Fransanın hər birinə 8 milyon lyan təzminat ödəməli idi. Tyantszin şəhəri xarici ticarət üçün açılırdı. Tszyulun adasının bir hissəsi İngiltərəyə verildi. Bu müqavilələr Çinin yarımmüstəmləkəyə çevrilməsi yolunda yeni mərhələ idi. ABŞ Avropa dövlətlərinə qarşı Çini müdafiə etmədi.

Rusiya çalışırdı ki, Çində Qərbi Avropa ölkələrinin ağalığına imkan verməsin. Çin hökumətinin də Rusiyanın köməyinə ehtiyacı var idi. Çin hökuməti Rusiya ilə Qərbi Avropa ölkələri



arasındakı ziddiyyətlərdən öz xeyrinə istifadə etməyə çalışırdı. Rusiya Ussuri vilayətini ilhaq etmək istəyirdi. Çin isə Ayqun müqaviləsindən imtina etməyə çalışırdı.

Rusiya Çinlə bütün siyasi və iqtisadi məsələləri diplomatik yolla həll etməyə çalışırdı. Bu məqsədlə Rusiyanın səfiri N.İqnatyev Pekinə gəldi. Rusiya Fransa ilə yaxınlaşmağa çalışırdı. İqnatyev çinli tacirlərə başa salırdı ki, ingilislər onların ruslarla ticarətinə mane olurlar. Rusiya Tsin sülaləsinin devrilməsində maraqlı deyildi. Diplomatik yazışmalar avropalıların əlinə keçməsin deyə İqnatyev Çin məmurlarına hökumətin arxivini yaxşı gizlətməyi tövsiyyə etmişdi.

1860-cı ilin noyabrında Pekində yeni Rusiya-Çin müqaviləsi imzalandı. Bu müqavilə ilə əvvəlcə Ayqun müqaviləsinin şərtləri təsdiq olundu, sərhədlər isə Amur, Ussuri çayları və Xanko gölü boyu müəyyən edildi. Sərhəddə gömrüksüz ticarətə icazə verildi. Pekin müqaviləsi ilə Çin qazax və qırğız torpaqlarının Rusiyaya birləşdirilməsini tanıdı və Ussuri vilayəti Rusiyaya verildi.

İngiltərə və Fransa Rusiyanın Çinlə münasibətlərinin yaxşılaşmasını istəmirdilər. Ona görə deyirdilər ki, Rusiya Mancuriyanı, Montolustanı və Koreyanı tutmaq istəyir, lakin Rusiyanın belə fikri yox idi.

Pekin müqavilələrindən sonra İngiltərə, Fransa və ABŞ taypin üsyanını yatırmaqda Çinə kömək etməyə başladılar. Çin hökuməti taypinlərə qarşı Rusiyadan da kömək istəyirdi. Çin hökuməti yardımı ABŞ, Fransa və Rusiyadan almaq istəyirdi ki, bu dövlətlərlə İngiltərə arasındakı ziddiyyətlərdən istifadə etsin. 1862-ci ildə İngiltərə və Fransa taypinlərə qarşı hərbi əməliyyatlara başladılar, ABŞ da iştirak edirdi. Rusiya bu hadisələrdə iştirak etmirdi, 1862-ci ildə Yantszı çayında öz gəmilərindən istifadə etmək istəsə də, Polşa hadisələri və Qərb dövlətləri ilə ziddiyyətlərin kəskinləşməsi ilə əlaqədar gəmilərini Uzaq Şərqdən San-Fransiskoya göndərmişdi.

XIX əsrin 60-cı illərində Çinin bütün açıq limanlarında gömrüyə xarici nəzarət tətbiq edildi. Dəniz gömrüyünün bir hissəsi təzminatın ödənilməsinə sərf olunurdu. 1863-cü ildə ingilis R.Hart Çin dəniz gömrüyünün baş müfəttişi təyin olundu. 60-cı

illərdə Çinə xaricdən məhsul idxalının 80, Çindən məhsul ixracının 75%-i İngiltərənin payına düşürdü. Çində xarici ticarətin əsas mərkəzi Şanxay şəhəri idi.

Pekində kapitalist ölkələrinin daimi nümayəndələri əyləşirdi, açıq limanlarda xarici konsulların sayı artmışdı. Çin xalqının müqaviməti və Qərb dövlətləri arasındakı ziddiyyətlər Çinin tam əsarətə alınmasına mane olurdu. Yəni, Çin suverenliyini və ərazi bütövlüyünü saxlamışdı.

ABŞ Çində mövqelərini möhkəmləndirməyə çalışırdı və orada İngiltərə və Fransaya rəqib idi. ABŞ Çin ərazisinin İngiltərə və Fransa arasında bölünməsinin qəti əleyhinə idi. Lakin ABŞ tək öz qüvvəsi ilə Çini özünə tabe etmək iqtidarında deyildi, ona görə Qərbi Avropa dövlətləri və Rusiya ilə əməkdaşlıq edirdi. Taypin üsyanının yatırılmasında ABŞ da iştirak etmişdi. ABŞ kapitalistləri Çində yeni ticarət güzəştləri və teleqraf xətlərinin, dəmiryollarının çəkilməsinə əlverişli sifarişlər almaq fikrində idi.

Xarici vətəndaşların imtiyazları ilə bağlı məsələlərdə Qərb dövlətləri («əməkdaşlıq siyasəti») Çin hökumətinə razılaşdırılmış təzyiq siyasətindən istifadə edirdilər. Təbii ki, ABŞ Çində İngiltərəyə müqavimət də göstərirdi. Çin hökuməti də ABŞ-ı İngiltərəyə qarşı qoymağa çalışırdı. ABŞ-ın Çindəki nümayəndəsi Berlinqem deyirdi ki, Çin öz qapılarını xarici ticarət və kapital üçün geniş açmağa hazırdır. Çin hökuməti Berlinqemi diplomatik xidmətə götürüb danışıq aparmaq üçün ABŞ-a göndərmişdi. 1868-ci ildə ABŞ-la Çin arasında Tyantszin müqaviləsinə əlavə maddələrdən ibarət saziş imzalandı. Bu maddələrdə ABŞ Çinin suverenliyini, ərazi bütövlüyünü tanıdığını və onun daxili işlərinə qarışmadığını bildirirdi. Çində birbaşa ərazi işğal etməyə ABŞ-ın qüvvəsi yox idi, Çini digər böyük dövlətlərlə birlikdə bölmək isə ona sərf etmirdi. 1868-ci il sazişi Çin vətəndaşlarının ABŞ-a mühacirət sahəsində məhdudiyyətləri ləğv edirdi. ABŞ ucuz işçi qüvvəsi kimi Çin vətəndaşlarının ölkəyə gəlməsində maraqlı idi. ABŞ ehtiyat edirdi ki, Çinə silahlı təzyiq orada yeni xalq üsyanlarına səbəb olacaq.

XIX əsrin 60-cı illərində Rusiya-Çin münasibətlərində əsas yeri ticarət və sərhədlərin dəqiqləşdirilməsi məsələləri tuturdu. 1861-ci ildə Cənubi Ussuriya ilə Çinin sərhədi dəqiq müəyyən edildi. 1864-cü ildə imzalanmış Quqçak protokolu ilə Rusiya ilə Çinin qərb ucqarlarının sərhədi müəyyən edildi. Rusiya Çinlə bağlanmış müqavilələrə ciddi riayət edirdi, çünki ona Çinlə normal qonşuluq münasibətləri zəruri idi. Rusiya Qərb dövlətlərinin Çində mövqelərinin möhkəmlənməsini istəmirdi.

Çinin qərb torpaqlarında möhkəmlənmək istəyən İngiltərənin əsas rəqibi Rusiya idi. Rus burjuaziyası Qərbi Çinlə ticarətdə maraqlı idi. 60-cı illərdə Çinin qərbində və Şensi, Qansu əyalətlərində hökumətə qarşı üsyanlar baş vermişdi. Burada üsyana rəhbərlik edənlər İngiltərə ilə əlaqə yaratmışdılar. İngiltərə Qərbi Çində ərazi tutmaq istəyirdi. Üsyan rəhbərləri həm də İngiltərənin təzyiqi ilə Rusiyaya düşmən münasibət bəsləyirdilər.

XIX əsrin 50-60-cı illərində Fransa həm də Hind-Çinin işğalı ilə məşğul idi. 1858-1867-ci illərdə İkinci imperiya hökuməti Cənubi Vyetnamı işğal etdi. 1863-cü ildə isə Fransa hökuməti Kamboca üzərində öz protektoratını elan etdi. Avropa dövlətlərinin müstəmləkə siyasətinin fəallaşması XIX əsrin sonunda Qərb dövlətlərinin müstəmləkə sisteminin formalaşması ilə nəticələnmişdi.

XIX əsrin 50-60-cı illərində Qərb dövlətlərinin Asiyanın şərqində müstəmləkə siyasəti fəallaşdı. İngiltərə və Fransanın Çində və Hind-Çində müharibələri nəticəsində Şərqi və Cənub-Şərqi Asiyanın milyonlarla əhalisi Qərbin müstəmləkə sisteminə cəlb olundu. Qərb dövlətləri müstəmləkə siyasətində hərbi əməliyyatlardan, ticarətdən, maliyyə əsarətindən, missionerlərin fəaliyyətindən və diplomatiyadan istifadə edirdi. Rəsmi və qeyri-rəsmi diplomatik və kəşviyyat missiyalarının Şərq ölkələrinə göndərilməsi, danışıqlar və qeyri-bərabərhüquqlu müqavilələrin bağlanması, konsulluqların fəaliyyəti, birgə fəaliyyət və nüfuz dairələrinə bölmək haqqında sazişlər Qərb dövlətlərinin Uzaq Şərqdə diplomatik fəaliyyətinin məzmununu təşkil edirdi. Ən fəal müstəmləkə siyasəti həyata keçirən dövlətlər İngiltərə, Fransa, ABŞ və Rusiya idi.

XIX əsrin ortalarında Uzaq Şərq dövlətlərinin xarici siyasəti daha çox öz ölkələrinin qapalılığını saxlamağa yönəlmişdi.

Şərq ölkələri Qərb dövlətlərinin təzyiqlərinə müqavimət göstərməyə, müstəmləkəçilər arasındakı ziddiyyətlərdən istifadə etməyə və Qərb dövlətlərini bir-birinə qarşı qoymağa çalışırdılar. Bəzən də Şərq ölkələri Qərb dövlətləri ilə qeyri-bərabərhüquqlu müqavilələr bağlayıb onlardan öz ölkələrində inqilabi hərakatı yatırmaq üçün istifadə edirdilər. Öz növbəsində Şərq ölkələrindəki milli-azadlıq hərakatları da Qərbin müstəmləkə siyasətinə müəyyən təsir göstərirdi.

Yaponiya hökuməti təcridçilik siyasətini davam etdirirdi. O ölkədə feodalizm quruluşunun dağılmasından, qızılın xaricə axmasından ehtiyat edirdi. Syequn hökumət qorxurdu ki, müxalifətçi aristokratiya xaricilərə əlaqəyə girər və xaricilərə güzəşt Syequn hökumətinin zəifliyini göstərər. Yalnız Çin və Hollandiya məhdud miqdarda Yaponiya ilə ticarət əlaqələri saxlayırdı. Desima adasında Hollandiyanın ticarət faktoriyası var idi. Yaponiya hökuməti xarici ölkələrdəki vəziyyət haqqında məlumatı əsasən bu faktoriyadan alırdı.

ABŞ Yaponiyaya böyük maraq göstərirdi. ABŞ 1845-ci ildə «Sakit okean doktrinası»nı həyata keçirməyə başladı ki, bu doktrina Sakit okean sahillərində və adalarında ABŞ-ın hegemonluğunu təmin etməyə yönəlmişdi və ilk təzyiq obyekti kimi Yaponiya seçilmişdi. 1845-ci ildə konqres prezidentə Yaponiya ilə ticarət münasibətləri yaratmağa səlahiyyətlər vermişdi. ABŞ Yaponiyanın dəniz bazalarından Sakit okeanda və Çində siyasəti üçün istifadə etmək istəyirdi. 1851-ci ildə ABŞ hökuməti Yaponiya ilə iqtisadi və diplomatik münasibətlər yaratmaq və onunla qeyri-bərabərhüquqlu müqavilələr bağlamaq haqqında qərar qəbul etdi. Bundan ötrü ABŞ bütün vasitələrdən istifadə etməli idi.

Yaponiya ABŞ-a xammal mənbəyi, satış bazarı kimi, gəmilər üçün dayanacaq, təmir, ərzaq və su götürməsi üçün baza kimi lazım idi. ABŞ yapon limanlarına arxalanıb Uzaq Şərqdə İngiltərə və digər Avropa dövlətlərinə qarşı daha uğurla rəqabət aparmaq fikrində idi. 1852-ci ildə ABŞ-dan Yaponiya sahillərinə bir neçə hərbi gəmi göndərilsə də nəticəsi olmadı.

1853-cü ildə Yaponiya sahilinə admiral Perrinin başçılığı ilə daha güclü eskadra göndərildi. 1853-cü ilin yayında Yaponi-

yaya gələn Perri bildirdi ki, danışıqlar nəticə verməsə qüvvə tətbiq edəcək. Perri syequna fikirləşmək üçün vaxt və tələbləri-ni verib ABŞ-a qayıtdı. Əsas məqsəd Yaponiyanı ABŞ-la müqavilə bağlamağa məcbur etmək idi.

1854-cü ilin fevralında Perri yenidən Uraqa limanına gəldi. Yaponiya hökuməti ordu hazırlamışdı, lakin bu ordu 250-dən çox topu olan Perrinin gəmilərinə müqavimət göstərə bilməzdi. Perri əvvəlcə tələb etdi ki, ABŞ prezidentinin məktubunu aparmaq üçün nümayəndə göndərilsin. Sonra isə admiral dedi ki, məktuba müsbət cavab verilməsə ABŞ özünü təhqir olunmuş sayacaq və bunun nəticələri üçün məsuliyyət daşımayacaq. Perrinin təklifi ilə danışıqlar Edo buxtasında aparıldı. Perri yapon nümayəndələrinə bildirdi ki, «ABŞ bu yaxınlarda qonşu Meksika ilə müharibə edib onun paytaxtını ələ keçirmişdir. Sizin ölkəniz də həmin vəziyyətə düşə bilər. Bu barədə fikirləşsəniz yaxşıdır».

Yaponiya hökuməti öz hərbi-texniki zəifliyini nəzərə alaraq qorxurdu ki, müharibə olacağı təqdirdə daha ciddi güzəştə getməli olacaq. Yaponiya hesab edirdi ki, İngiltərə ABŞ-ı müdafiə edəcək. Perrinin tələbləri qəbul edildi və 31 mart 1854-cü ildə Kanaqava müqaviləsi imzalandı. Müqaviləyə görə ABŞ gəmiləri Yaponiyanın Simoda və Xakadote limanlarına gəlib kömür, su və ərzaq götürə bilərdi. Bu gəmilərin heyəti sahildəki hüquqa zidd əməllərinə görə yalnız ABŞ qanunları qarşısında cavab verməli idi. ABŞ Yaponiyanı özündən asılı vəziyyətə salıb İngiltərə, Rusiya və digər Avropa ölkələrinə qarşı mübarizə aparmaq, həm də Çində fəal siyasət həyata keçirmək fikrində idi.

İngiltərə Yaponiya ilə əlaqələrin yaradılmasında maraqlı idi. Yaponiya sahillərinə admiral Sterlinqin başçılığı ingilis eskadrası gəldi ki, Yaponiya hökuməti İngiltərə ilə qeyri-bərabər hüquqlu müqavilə bağlasın. İngiltərə Yaponiyadan həm də Rusiyaya qarşı hərbi baza kimi istifadə etmək, Sakit okeanda Rusiyanın donanma saxlamasına mane olmaq fikrində idi. 1854-cü ilin 14 oktyabrında İngiltərə ilə Yaponiya arasında saziş imzalandı. Sazişə görə yapon limanlarına ingilis gəmiləri gələ bilərdi.

Rusiya dəniz rəqabətini diqqətlə izləyirdi və gördü ki, Yaponiya Qərb dövlətlərinin təzyiqinə davam gətirmədi. Yaponiya tamamilə Qərb dövlətlərinin əsarəti altına düşə bilərdi. Ona görə Rusiya Yaponiya ilə münasibətlər yaratmağa başladı. 1853-cü ilin yayında Yaponiyaya admiral Putyatinin başçılığı ilə rus eskadrası gəldi. Məqsəd Yaponiya ilə iqtisadi və diplomatik münasibətlər yaratmaq, sərhədləri dəqiqləşdirmək və Uzaq Şərqdəki rus sularında balina ovlayan xarici gəmilərə təzyiq göstərmək idi. Admiral Putyatin əvvəlcə Naqasakiya gəlib qubernatora Rusiya baş nazirinin məktubunu təqdim etmişdi. Sonra Putyatin Şanxaya getmiş və 1854-cü ilin payızında Naqasakiyə qayıtmışdı.

Yaponiya Rusiyadan ABŞ-a və Avropa ölkələrinə qarşı istifadə etmək fikrində idi. Rusiya Yaponiyaya öz köməyini vəd etdi. Rusiya Yaponiya ilə ticarətdə ən əlverişli rejimə nail olmağa çalışırdı. 7 fevral 1855-ci ildə Rusiya ilə Yaponiya arasında Simoda şəhərində ilk müqavilə imzalandı. Rusiyanın ticarət gəmiləri Xakadote, Simoda və Naqasaki limanlarına gələ bilərdi. Rusiya üçün də əlverişli rejim təmin edildi. Müqavilədə Saxalin iki ölkə arasında mübahisəli ərazi kimi qeyd olunmuşdu.

Amerika sahillərinə donanma göndərilməsi Rusiyanın ABŞ-la ittifaqı deyildi, baxmayaraq ki, bir dəfə rus gəmiləri cənubun gəmilərini onlara atəş açmaqla hədələmişdi. San-Fransiskoya iki Cənub gəmisi yaxınlaşanda rus eskadrasının komandanı şəhərin əhalisini müdafiə edəcəyini bildirmişdi və Cənubun gəmiləri geri qayıtmışdı.

İkinci tiryək müharibəsi dövründə İngiltərə və Fransanın diqqəti Çinə yönəlmişdi. ABŞ bundan istifadə edib Yaponiyaya təzyiqini artırmışdı. 1856-cı ilin payızında ABŞ-ın baş konsulu Harris Simodaya gəlib ölkədə xaricilərin imtiyazlarının genişləndirilməsini tələb edərək bildirdi ki, əgər yaponlar güzəştə getməsə, İngiltərə zorla onlara daha ağır şərtlər qəbul etdirəcək. Syequn hökuməti Qərb dövlətləri arasındakı ziddiyyətlərdən istifadə edib daha az güzəştə getməyə çalışırdı. Ona görə Yaponiya 1857-ci ilin iyununda Harrislə ABŞ-ın bir sıra tələblərini ödəmək haqqında konvensiya imzaladı. 1857-ci ilin oktyabrında



yapon hökuməti Hollandiya və Rusiya ilə ticarət sazişləri imzaladı.

1857-ci ilin dekabrında Harris hərbi gəmidə Edoya gəlib ABŞ prezidentinin məktubunu syequna təqdim etmişdi. O yapon nümayəndələrini başa salmışdı ki, ABŞ-la müqavilə bağlamasalar İngiltərə və Fransa Yaponiya ilə müharibə edib yapon limanlarını ələ keçirəcək və tələb edəcəklər ki, Yaponiya hökuməti ölkəyə tiryək gətirməyə icazə versin. Harris onu da demişdi ki, Rusiya Edzo adasını tutmaq istəyir. ABŞ özünü Yaponiyanın dostu kimi göstərərək onu yeni müqavilə bağlamağa razı salmağa çalışırdı. Yaponiya Çinin məğlubiyyətini də nəzərə aldı.

Yaponiyada ABŞ-la yeni müqavilə imzalanmasına güclü müqavimət var idi. Yaponiya hökuməti ölkədə kəndli üsyanlarını yatırmaq üçün ABŞ-a güzəştə getməkdə maraqlı idi. 29 iyul 1858-ci ildə ABŞ-la Yaponiya arasında yeni müqavilə imzalandı. Müqaviləyə görə ABŞ-ın Edoda səfiri olmalı idi, aşağı gömrük müəyyən edilirdi. Yaponiyanın beş limanı xarici ticarət üçün açıq elan olundu. ABŞ vətəndaşları Yaponiyada toxunulmazlıq, oradan qızıl və gümüş aparmaq hüququ aldı. ABŞ-ın ardınca başqa dövlətlər də Yaponiya ilə belə müqavilələr bağladılar.

Yaponiya ilə xarici ölkələr arasında imzalanmış müqavilələr ona görə qeyri-bərabər hüquqlu adlanırdı ki, burada tərəflərdən birinə imtiyazlar verilirdi. 1858-ci ilin avqustunda Rusiya-Yaponiya müqaviləsi bağlandı. Rusiya Yaponiyaya məsləhət gördü ki, İngiltərənin tələblərini qəbul etməsin. İngiltərə də Yaponiya ilə müqavilə imzaladı. Lakin yapon hökuməti ölkəyə tiryək gətirilməsinə icazə vermədi və yaponların xristianlığı sərbəst qəbul etməsinə razı olmadı. İngiltərə dənizdə və ticarət-sənaye sahəsində üstünlüyünə arxalanıb tezliklə Yaponiyanın xarici ticarətində hakim mövqe tutdu. 60-cı illərdə İngiltərənin Yaponiyaya siyasi təsiri də artdı.

Yaponiyada feodal qaydalarına qarşı müxalifət və kəndli üsyanları artırdı. Syequn hökumətinə qarşı müxalifətə cənub-qərbin knyazları və burjuaziyası rəhbərlik edirdi. Onlar əhalinin diqqətini sinfi mübarizədən xaricilərə qarşı mübarizəyə yönəldir, əhaliyə başa salırdılar ki, syequn hökuməti ölkəni xaricilər-

dən asılı vəziyyətə salmışdır. Müxalifət imperator hakimiyyətini bərpa etmək, burjua islahatları keçirmək və xarici dövlətlərlə əlaqə saxlamaq istəyirdi. Əhali qiymətlərin artmasından, ölkədən qızıl aparılmasından, gümüş pulun dəyərdən düşməsindən, ölkədə xaricilərin davranışından narazı idi. Ona görə də syequn hökuməti 1862-ci ildə İngiltərə və Fransa ilə yeni limanların xarici gəmilər üçün açılmasının 5 il təxirə salınması barədə razılığa nail oldu.

XIX əsrin 60-cı illərinin əvvəlində İngiltərə açıq şəkildə Yaponiyanı qüvvə tətbiqi ilə hədələməyə başladı. İngiltərə taciri Riçardsonun öldürülməsi ilə bağlı İngiltərənin Yaponiyadakı nümayəndəsi 100 min funt sterlinq kompensasiya tələb etdi və Britaniya eskadrasına Kaqosima şəhərini bombalamağı əmr etdi. Yaponiyaya təzyiq göstərilməsində ABŞ, Fransa və Hollandiya da iştirak edirdi. 1863-cü ildə ABŞ hərbi gəmisinin atəşi 40 yaponun ölməsinə səbəb oldu. İngiltərə tələb etdi ki, onun gəmiləri Simonoseki boğazından sərbəst keçsin və Tesyu knyazlığına qarşı birgə hərbi əməliyyat hazırladı. 1864-cü ilin sentyabrında 17 gəmidən ibarət eskadra Simonoseki limanını bombaladı və oraya 2 min nəfərlik desant çıxardı. Yaponiya hökuməti 3 milyon dollar təzminat ödəməyə razılıq verdi.

Avropa dövlətləri və ABŞ Yaponiyanın daxili işlərinə qarışırdılar. İngiltərə Yaponiyadakı müxalifəti müdafiə etdirdi, 1865-ci ildə yapon imperatoru bağlanmış müqavilələri bəyəndiyini bildirdi. 1866-cı ildə Yaponiya ABŞ, İngiltərə və Fransa malları üçün gömrüyü azaltdı. İngiltərə Yaponiyanın cənub-qərb knyazlarına silah da verirdi. ABŞ və Fransa isə syequn hökumətini müdafiə edirdi, syequnun tərəfdarlarına silah verirdilər.

Avropa dövlətlərinin və ABŞ-ın nümayəndələri Yaponiyanın Rusiya ilə münasibətlərini pozmaq və Sakit okeanda Yaponiyadan Rusiyaya qarşı istifadə etmək istəyirdilər. Qərb dövlətləri Yaponiyanı başa salırdılar ki, Cənubi Saxalinə olan iddialarından əl çəkməsin və deyirdilər ki, ruslar Edzo adasını tutmaq istəyir.

Uzaq Şərqdə Qərb dövlətləri ilə rəqabət aparan Rusiya Yaponiyanın onlardan asılı olmasını istəmirdi. Rusiya Yaponiyanın daxili işlərinə qarışmırdı. Rusiyanın Yaponiya ilə

ticarəti geniş deyildi. 60-cı illərdə Rusiyanın orada daimi diplomatik nümayəndəsi də yox idi. Lakin Rusiya qorxurdu ki, Qərb dövlətləri Tsusima adasını tutub Koreya boğazı vasitəsilə Rusiyanın okeana çıxmasına mane olar.

Yaponiya hökuməti də İngiltərə və Fransanın Trusima adasını tutmasından ehtiyat edirdi. Rusiya onları qabaqlayıb həmin adaya hərbi gəmi göndərdi, İngiltərənin etirazını nəzərə alan Rusiya gəmisi Tsusima adasını tərk etdi. Rusiya İngiltərədən tələb etdi ki, həmin adanı tutmayacağı barədə vəd versin. Yaponiya İngiltərə — Rusiya ziddiyyətindən istifadə edərək adam qoruyub saxladı.

1862-ci ildə Yaponiya Peterburqa nümayəndə heyəti göndərdi. Yaponiya Saxalinin iki ölkə arasında bölünməsini tələb etdi. Rusiya Saxalində öz hərbi qüvvələrini artırdı. 1867-ci ildə Yaponiya yenidən Peterburqa nümayəndə göndərib Saxalinin cənubunu tələb etdi. Rusiya bu tələbi rədd etdi.

ABŞ Krım müharibəsindən öz məqsədləri üçün istifadə edirdi. Müharibə dövründə Sakit okeandakı rus mülklərinə gələn ABŞ tacirlərinin sayı artmışdı. 1863-cü ildə ABŞ-ın Peterburqdakı səfiri Kley ABŞ-ın Uzaq Şərqdəki rus ərazilərinə teleqraf xətti çəkməsinə icazə istəmiş, 1865-ci ildə belə bir saziş imzalanmışdı.

1854-cü ildə ABŞ dövlət departamenti Alyaskanı satmağı Rusiyaya təklif etmişdi. Krım müharibəsindən sonra Rusiya Şimali Amerikadakı mülkləri qorumağın çətinliyini və Sakit okeanda zəifliyini nəzərə alıb həmin mülkləri satmaq qərarına gəlmişdi. 1859-cu ildə ABŞ-la Rusiya arasında başlanmış danışıqlar ABŞ-da vətəndaş müharibəsi nəticəsində dayandırılmışdı.

ABŞ-a Alyaska həm zəngin təbii sərvətlərinə görə, həm də strateji cəhətdən lazım idi. Bu yolla ABŞ həm Kanadaya, həm də İngiltərəyə təsirini artırmaq fikrində idi. Vətəndaş müharibəsi dövründə ABŞ-İngiltərə münasibətləri gərgin idi. Rusiya qorxurdu ki, Alyaskanı İngiltərə işğal edər, amerikanlardan isə qoruya bilmirdi. Ona görə də 1867-ci ildə Rusiya 7,2 milyon dollara Alyaskanı ABŞ-a satdı və Rusiya-Amerika şirkəti ləğv edildi. Müqavilə ABŞ-ın dövlət katibi və Vaşinqtondakı Rusiya səfiri tərəfindən imzalandı.

1868-ci ildə ABŞ Rusiyaya təklif etmişdi ki, Amerika tacirlərinə Rusiyanın Sakit okean sahilindəki ərazilərində fəaliyyət sərbəstliyi versin, əvəzində ABŞ Mancuriyanın Rusiya tərəfindən tutulmasına mane olmayacaq. Rusiya bu təklifə cavab vermədi. Bütövlükdə XIX əsrin 60-cı illərində Rusiya ilə ABŞ arasında rəqabət zəif, eyni zamanda İngiltərə və Fransaya qarşı mübarizədə onların ümumi mənafeləri mövcud idi.

XIX əsrin 60-cı illərində Koreya Çinin vassalı idi. Koreyanın xarici aləmlə əlaqələri zəif idi. 1866-cı ildə Fransa hərbi gəmisinin Koreyaya desant çıxartmaq cəhdi uğursuz oldu. ABŞ Fransaya təklif etmişdi ki, Koreyaya birgə müdaxilə etsinlər. Koreyaya ABŞ-la yanaşı Yaponiya da böyük maraq göstərirdi.

## ƏDƏBİYYAT


Baxışov M.Ə. Yeni tarix. Metodik vəsait. Bakı, 1999.

Baxışov M.Ə. Beynəlxalq münasibətlər tarixi. Metodik vəsait. Bakı, 2002.

Борисов Б.В. Дипломатия Людовика XIV. M.,1991.

Британская империя XIX-XX вв. Люди, события, идеи. M., 1997.

Вяземская Е.К., Данченко С.И. Россия и Балканы – конец XVII в. – 1918, M., 1990.

Виноградов К.В. Великобритания и Балкаиы: от Венского конгреса до Крымской войны. M., 1988.

Виноградов К.Б. Мировая политика 60-80-х гг. XIX в. События и люди. Л., 1991.

Внешняя политика Великобритании в новое и новейшее время. M., 1986.

Восточный вопрос во внешней политике России (конец XVIII – начало XX вв.). M., 1978.

Германская история в новое и новейшее время. т.1., M., 1970.

Дипломатический словарь. В 3-х т. M., 1984-1986.

Жигалина О.И. Великобритания на Среднем Востоке. XIX – начало XX в. M., 1990.

Зак Л.А. Монархи против народов. M.,1966.

Иванов Р.Ф. Дипломатия Авраама Линкольна. M., 1987.

История внешней политики и дипломатии США. 1775-1877. M., 1994.

История внешней политики и дипломатии США. 1867-1918. M., 1997.

История США. т.1. M., 1983.

История дипломатии. т.1. M., 1959.

История Италии. т.1. M., 1970.

Новая история стран Латинской Америки. M., 1970.

История Латинской Америки. т.1. M., 1991.

История дипломатии. т. 1-2. M., 2005.

Кертман Л.Е. География, история и культура Англии. М., 1979.
Марисина И.М. Россия-Франция. XVIII-XX вв. М., 1995.
Монархи Европы. Судьбы династий. М., 1996.
Новая история стран Азии и Африки. М., 1975.
Поршнев Б.Ф. Франция, английская революция и европейская политика в середине XVII в. М., 1970.
Тарле Е.Ф. Очерки истории колониальной политики западноевропейских государств (конец XV–начало XIX в.). М., 1965.
Черкасов П.П. Судьба империи. Очерк колониальной экспансии Франции в XVI-XX вв. М., 1983.
Новая история стран Европы и Америки. Первый период. М., 1986.
Новая история стран Европы и Америки. Первый период. М., 1997.
Дулина Н.А. Османская империя в международных отношениях (30-40-е годы XIX в.). М., 1980.
История Франции. т.2. М., 1972.
Манфред А.З. Наполеон Бонопарт. М., 1980.
Галкин И.С. Создание Германской империи (1815-1871 гг.) М., 1986.
Сергеев В.В. Англия и объединение Германии в 1848-1871 гг. М., 1986.
Mustafazadə T. Ümumi tarix (Yeni tarix). 3-cü cild. Bakı, 1997.
Ковальская М.И. Италия в борьбе за национальную независимость и единство. М.,1981.
Акимов Ю.Г. От меж колониальных конфликтов к битве империй: Англо - французское соперничество в Северной Америке в 1613- 1713 гг. М., 2002.
Архенгольц И.В. История семилетней войны. М., 2001.
Век Екатерины II : Дела балканские. М., 2000.



Ивонина Л.И. Очерки международных отношений в Европе во время становления Вестфальской системы (1648-1715). М., 2005.
История Северной войны.1700-1721. М., 1987.
Стегний П.В. Разделы Польши и дипломатия Екатерины II. V., 2002.
Черкасов П.П. Становление русско-французских отношений в XVIII в. 1700-1775. М., 1995.
Черкасов П.П. Екатерина II и Людовик XVI: Русс ко-французские отношения, 1774-1792. М.,2001.
Яковлев Н.Н. Европа накануне Семилетний войны. М., 1997.
Баховитинов Н.И. Россия и война США за независимость. 1775-1783.М.,1976.
Краснов Н.А. США и Франция: дипломатические отношения, 1775-1801 гг. М., 2000.
Великая французская революция и Россия. М..1989.
Подмазо А.А. Большая европейская война 1812-1815: Хроника событий. М., 2003.
Ревуненков В.Г. Взлет и падение Наполеона Бонапарта. М., 2001.
Сироткин В.Г. Наполеон и Россия. М., 2000.
Орлик О.В. Россия в международных отношениях 1815-1829 гг. М.,1998.
Маргул Н.Н. Борьба за независимость в Латинской Америке в конце XVIII- начале XIX в. М., 1988.
Клименко Н.П. Колониальная политика Англии на Дальнем Востоке в середине XIX в. М., 1976.
Нароуничкая Л.И. Россия и отмена нейтрализации Черного моря. 1856- 1871 гг. М..,1983.
Дементьев Ю.П. Политика Франции в Индокитае и образование Индокитайского союза (1859-1907). М., 1975.
Ревякин А.Я. Новая история стран Европы и Америки: конец XV- XIX век. М., 2006.

Чикалов Р.А. Новая история стран Европы и США. 1815-1918гг. М., 2005.
Ревякин А.Я. История международных отношений в новое время. М., 2004.



# KİTABIN İÇİNDƏKİLƏR

Giriş..........................................................................3

I FƏSİL
XVII ƏSRİN İKİNCİ YARISINDA
BEYNƏLXALQ MÜNASİBƏTLƏR..............................6

II FƏSİL
XVIII ƏSRİN BİRİNCİ YARISINDA
BEYNƏLXALQ MÜNASİBƏTLƏR..............................12

III FƏSİL
XVIII ƏSRİN İKİNCİ YARISINDA
BEYNƏLXALQ MÜNASİBƏTLƏR
§ 1. XVIII əsrin ikinci yarısında
Avropada beynəlxalq vəziyyət..................................18
§ 2. ABŞ-ın yaranmasının beynəlxalq
münasibətlərə təsiri..................................................40
§ 3. XVII-XVIII əsrlərdə müstəmləkə siyasəti................45

IV FƏSİL
XIX ƏSRİN BİRİNCİ YARISINDA
BEYNƏLXALQ MÜNASİBƏTLƏRİN İNKİŞAFI
§ 1. Napoleonun müharibələri dövründə
beynəlxalq münasibətləri ..........................................49
§ 2. Vyana konqresi, onun Yekun aktı...........................58
§ 3. XIX əsrin 20-40-cı illərində
Avropada beynəlxalq münasibətlər...........................63
§ 4. XIX əsrin 20-40-cı illərində «Şərq məsələsi»
ətrafında beynəlxalq ziddiyyətlər..............................75
§ 5. XIX əsrin birinci yarısında
ABŞ-ın xarici siyasəti..............................................82
§ 6. İstiqlaliyyət uğrunda müharibə, Latın Amerikasında

müstəqil dövlətlərin yaranması ................................95
§ 7. XIX əsrin birinci yarısında müstəmləkə siyasəti.........101

**V FƏSİL**
**XIX ƏSRİN 50-60-CI İLLƏRİNDƏ BEYNƏLXALQ MÜNASİBƏTLƏR**

§ 1. Krım müharibəsi, Paris sülh konqresi......................116
§ 2. İtaliyanın birləşdirilməsi və beynəlxalq münasibətlər.........................................124
§ 3. Almaniyanın birləşdirilməsinin beynəlxalq münasibətlərə təsiri...............................125
§ 4. ABŞ-da vətəndaş müharibəsi və Avropa dövlətləri. Meksikaya hərbi müdaxilə.......................................141
§ 5. XIX əsrin 50-60-cı illərində Uzaq Şərqdə beynəlxalq münasibətlər.........................................144
Ədəbiyyat........................................................161
Kitabın içindəkilər...............................................165

Kompüter yığıcıları
**Abbasova Ruhiyyə Rafael qızı**

Kompüter icraçısı
**Cəmilə Akifqızı**
İstehsalat müdiri **Nərmin İsabəyli**
Çapçı **Aygün Qismətqızı**
Texniki işçilər
**Xədicə Akifqızı, Leyla Qismətqızı**
Çapa imzalanıb **22.12.2009**
Formatı **60x84 1/16**
Fiziki çap vərəqi **10,5**
Sayı **300**

**BAXIŞOV M.Ə.**
**Beynəlxalq münasibətlər tarixi**
(XVII əsrin ikinci yarısından 1871-ci ilədək).
**III nəşr. Dərs vəsaiti.**
**Bakı-Şirvannəşr-2009**